Milli Kitabxana

MƏŞƏDİ VAHİDXAN

NEYNƏVA

Bakı
Şirvannəşr
2008

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Milli Kitabxana

Beynəlxalq Qızıl Priz laureatı (Madrid, 2004)
Şirvannəşr, **87 (1107) 2008**
Naşir **Qəşəm İsabəyli**

Nəşriyyat redaktoru
Anar İsabəyli
BDU-nun dissertantı

Məşədi Vahidxan
Neynəva
Bakı -Şirvannəşr -2008
616 səh. (12 səh. foto-dəftər)

83.3 Az (2)
V ----------
054

© M.Vahidxan, 2008

Ünvan: Bakı- Az 1021. Badamdar qəs. 77
Tel: 492-92-27, 492-93-72, (050) 316-23-40

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

KİTABIN ADI HAQQINDA

Bu kitabın adını "Neynəva" adlandırmağım, ta qədim zamanlardan Azərbaycan torpaqlarının uzun əsrlər boyu get-gedə işğal olunması və Azərbaycan millətinin çox dəfələrlə faciəli şəkildə amansızcasına soyqırım edilməsinin dərdindən, qəmindən irəli gəlmişdir.

"Neynəva" şəhəri Nuh peyğəmbərin Tufanından sonra yaranmış böyük bir şəhər olmuşdur. Əhalisi düşmənlər tərəfindən dəfələrlə faciəli müsibətlərə məruz qalmışdır. Assuriyanın paytaxtı olmuşdur. O zamanlar "Neynəva" şəhəri düşmənlər tərəfindən tamamilə darmadağın edilmiş sakinlərini isə dəhşətli faciəli şəkildə amansızcasına öldürmüş, diri-diri başlarını kəsib qətlə yetirmişlər.

O vaxtlar nə telefon, nə radio, nə televizor, nə video-kamera, nə şəkil çəkən apparat olmamış, nə də qəzetlərdə şəkili verilib yazılıb yayımlanmamış, nə efirə verilməmiş, nə də indiki kimi quruda, suda, havada, hətta kosmosda belə nəqliyyat vasitələri olmadığı bir halda bütün dünyanın hər yerində "Neynəva" faciəsini bilirlər, təsdiq edirlər. O vaxtdan neçə min illər keçməsinə baxmayaraq, indiyə kimi "Neynəva" faciəsi deyilir və qiyamətə qədər də deyiləcək. Amma Azərbaycan millətinin başına gətirilən soyqırım müsibətləri "Neynəva"dan da dəhşətli, faciəli, amansız olmuşdur.

Millətimiz ermənilər tərəfindən faciəli şəkildə amansızcasına soyqırım edilib qətlə yetirildiyi halda,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

radio, televiziya, video-kameralarla, mətbuatla şəkli çəkilib, yazılıb efirə verilib bütün dünyaya hər gün yayımlanır. Hətta başqa millətlər, başqa ölkələrin rəhbərləri, işçiləri də gəlib gəzib görürlər. Bütün bunlara baxmayaraq, bizim səsimizə səs verən, bizə kömək edən, harayımıza gələn nə bir millət, nə də bir dövlət yoxdur. hətta bizim soyqırım edilməyimizi də quru sözlə qəbul etmirlər.

"Neynəva" adı, həm də indiki İrak dövlətinin ərazisindəki "Kərbibəla" şəhəri ərazisinin çoxlu onlarla adlarından biridir. Kərbibəlanın adı elə Kərbibəladır. Amma faciəli müsibətlərinə görə o diyara "Mariyə", "Mina", "Ğazibiyyə", Pür-bəla, dəşti-bəla, Neynəva və s. adlar deyirlər. Sərvəri kainat, əşrəfi məxluqat, ələyhittəhiyə, xatəməl ənbiya Məhəmməd peyğəmbər sələvatullahın nəvəsi, Həzrəti Əli və Fatiməyi Zəhranın oğlu, üçüncü imamımız Xamisi Ali-Əbanın sonuncusu İmam Hüseyn Əleyhissəlamın özü ilə birlikdə yetmiş iki (72) nəfər – oğlanları, qardaşları, qardaşı oğlanları, əmisi oğlanları, bacısı oğlanları, bir sözlə bütün qohum-əqrabası ilə birlikdə heç bir təqsiri olmadan amansızcasına faciəli şəkildə diri-diri ölməmişdən başları kəsilib qətlə yetirildiyi diyarı, həm də "Neynəva" adlandırmışlar. Hansı "Neynəva"? – İmam Hüseyn Neynəvası, həm də Mina adlanmışdır.

Hansı Mina? – İmam Hüseynin Minası. İbrahim Xəlil peyğəmbər oğlu İsmayili Məkkə şəhərinin

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yaxınlığındakı Mina dağının yanına apardı. Allah yolunda qurban kəsməyə. Lakin insanın Allah yolunda Qurban kəsilməsinə Allah da razı olmadı, o insan qurbanı qoç (qoyun) kəsilməsi ilə əvəz edildi. İsmayıl səlamət qaldı. İbrahim peyğəmbər gözü qabağında övlad ölümü görmədi. Əlləri insan kəsmək qanına batmadı. Onun insan ürəyi parçalanmadı.

Həmin yer neçə min illərdir bütün dünyanın qurbangahıdır. Qiyamətə qədər də qurbangah olacaq. Amma İmam Hüseyn əleyhissəlamın gözü qabağında bütün qohum-əqrəbası çoxlu sayda yaralanandan sonra diri-diri düşmən əlində faciəli şəkildə başları kəsildi və özünün də çoxlu qılınc, ox, nizə, xəncər yaraları alandan sonra hamının gözü qabağında diri-diri faciəli şəkildə başını xəncərlə kəsdilər. Həmin Kərbibələdə. Kərbibəla İmam Hüseynin Minasıdır. Neynəvasıdır, pür-bəlasıdır, Kərbibəlasıdır. Mən ta kiçik yaşlarımdan Azərbaycanın torpaqlarının əsrlər boyu tez-tez, hissə-hissə işğal olunmasını, əhalisinin başına gətirilən soyqırım müsibətlərini böyüklərdən, yaşlı nənə-babalardan, öz nənəmdən, babamdan həmişə eşitmişəm, bilmişəm.

– "Dərdli dərdlisin gəzər". Dərdli adamlar dərdlərinə uyğun dərdliləri görəndə, dərdi daha da şiddətlə tüğyan eləyər.

Mən o yerlərin faciəsini öz xalqımın, özümün dərdimə uyğun görüb – "Dərdli dərdlisin gəzər" – deyirəm. Dərdlər bir-birinə uyğun gələndə dərdlilər ağız-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ağıza verib, göz-gözə baxanda ürəklər parçalanar. Bax onda ney kimi Nəvayə gələrlər. Mənim Azərbaycan vətənimin torpaqları ərazisi Neynəva ərazisindən də dəhşətli, soyqırım olanlarım Neynəva əhalisindən də faciəli şəkildə olmuşdur.

Kərbibəlanı, Neynəvanı bircə dəfə darmadağın elədilər, əl çəkdilər. Əsir aldıqlarını əsirlikdən azad elədilər, buraxdılar.

Amma mənim vətənim Azərbaycanın nə darmadağın eləyib işğal elədikləri torpaqlarından əl çəkmirlər, nə də bizlərdən əsir aldıqlarını azad edib buraxmırlar. Hətta əsirlərə işgəncə də verirlər.

Vətən dərdlisin gəzər
Yaralardan qan süzər
Soyqırım olanlarımla
"Mina", "Neynəva" bəzər.

Mən də vətən dərdimə, işğal olunmuş torpaqlarım, soyqırım edilən xalqım dərdimə uyğun dərdləri, müsibətlərimə uyğun müsibətləri Mariyədə, Minada, Neynəvada, Kərbibəlada görürəm. Odur ki, kiçik yaşlarımdan Kərbibəla, Neynəva, Mədain adlandırılan diyarlara getmək, o yerləri gəzib, görüb, o müsibətlərin nişanələrini ürəyimə çəkmək, o müsibətlərə mübtəla olub yana-yana ürək yanğılarının, həsrət yanğılarının cilovunu buraxıb uzun müddət o diyarlarda ney kimi nəvayə gəlmək və o müsibətlərə qovuşmağından bir qədər təsəlli,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dözüm tapmaq, ürək dolusu vətən, millət istəyilə, arzularıyla meydana atılmaq Allah yolunda, Allah rizasinə, iman yolunda insanların və bütün bəşəriyyətin birliyə, ədalətə, mehribanlığa gəlməsi yolunda müsibətlər çəkib şəhid kimi uyumaq arzusunda olduğumdan irəli gəlmişdir.

Mənim vətənim Azərbaycanımın kəndləri, şəhərləri, dağları, dərələri, düzləri bütün ərazisi uzun əsrlər boyu hələ indi də Azərbaycan millətimin, xalqımın Minası, Mariyəsi, dəşti-bəlası, Pür-bəlası, Neynəvası, Kərbibəlasıdır.

Çəkirəm vətən dərdi
Soyqırım ötən dərdi
Gözlər görməsin Allah
Əsirlər çəkən dərdi.

Olaydım Kərbəladə
Minadə, Pür-bəladə
Millətimin başı kəsildi
Necə ki, Kərbəladə.

Gedirəm Neynəvayə
Qəm dolu Neynəvayə.
Gör soyqırım dəhşətin
Ney kimi gəl Nəvayə.

Müşküldədir bu millətim bari Xuda, haray!
Millətçin iltimas elə ya Müstəfa haray!

Müşkülgüşa ağamsan yetim dadə sən özün
Düldülsüvar, Xeybər qoparan Mürtəza haray!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

QUBALI BALOĞLAN KƏNDİNİN TARİXİ

Qədim daşbasma və qədim əlyazma kitablarında, qədim nəqşlərdə, xəritələrdə Azərbaycanın başqa yerlərində olduğu kimi bu ərazisində də müxtəlif hadisələr nəticəsində çoxdan dağıdılıb tamamilə yoxa çıxmış bir neçə böyük şəhərlərin olduğunu oxumuş və eşitmişik.

Hələ də o qədim şəhərlərdən ellər arasında danışılır, adları çəkilir, xatırlanır.

Özü də ən çox Qoçan şəhərinin adı çəkilir.

Məs:Filan yer batdı Qoçan şəhəri batdığı kimi.

Filan nəsil Qoçan şəhəri kimi batdılar və s.

Tamamilə dağıdılıb yoxa çıxan şəhərlərdən Aran, Keyran, Muğan, Bəndovan, Guştasfi, Yunan, Alban, Xunan, Hərum, Mahmudabad, Kurqan, Mariyə, Neynəva, Qoçan, Badu Kubə, Şəhri-Səba, Ərənnər və s. şəhərləri olmuşdur.

Ola bilər ki, qədim sənədlərdə oxuyub və eşidib yazdığım bu şəhərlərin adları el arasında əsrlər keçdikcə dəyişdirilə bilər. Məs.: Mədinə şəhərinin əvvəlki adları Yəsrib, Bətha, Hicaz olmuşdur.

Bab-əl-əbvab – Dərbənd,

Abdallar – Laçın, Şam – Düməşq,

Göyçə gölü – Sevan, Gümrü – Leninakan,

İrəvan – Yerevan, Qarakeçə – Kirovakan və s.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

1. Neynəva şəhəri qədim zamanda indiki İrak dövlətinin ərazisində Dəclə və Fərat çayları arasında yerləşirmiş.

2. Mariyə şəhəri də o ərazilərdə imiş.

3. Hərum şəhəri indiki Bərdə şəhərinin yerində, yaxud yaxınlığında olmuşdur.

4. Aran şəhəri Kür və Araz çaylarının arasında bəlkə də çaylar qovuşan yerdə.

5. Bəndovan şəhəri Xəzər dənizinin sahilində (indiki –Salyan rayonu ərazisi Bəndovan qoruğu, Bəndovan burnu,Bəndovan adası (kiçik bir qayadır suda)) Qədim Bəndovan şəhərinin adı ilə bağlıdır.

6. Guştasfi şəhəri Hacıqabul rayonu Atbulaq kəndinin qabağındakı Qalmas dağının Xəzər dənizi baxarında birbaşa dağın sinəsində yamacları qarışıq və xeyli düzənlik hissəsində imiş. Bəzən Kürsəngi dağının yanında bəzən də Babazanan tərədə Kür çayına yaxın ərazidə ehtimal edirlər. hƏr halda Qalmas dağında da Kürsəngi dağında da Xəzər sahilində də qədim zamanda şəhər (yəni böyük yaşayış məntəqəsi) olmuşdur.

Bu şəhərlərin hamısı Qalmas, Kürsəngi, Babazanan və Bəndovan arasında olduğu deyilirsə, belə kiçik ərazidə çox güman ki, beş şəhər olmamış ola bilər ki, cəmisi dörd, ya da üç şəhər olub, amma əsrlər keçdikcə adları, yaxud lap yerləri də dəyişildiyinə görə belə yaxın ərazidə dörd, yaxud üç şəhərin olması mümkündür.

Qalmas, Kürsəngi və Xəzər dənizinin sahilində olan şəhərlərdən başlarına gələn hadisələrdən, qocalardan zaman-zaman danışılıb yadda qalan belə xəbərlər, söhbətlər eşidirik ki, əsasən, bu yerlərə ova gəlib gecəni

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

də bu vadilərdə ocaq qalayıb gecələyən ovçular bir-birilərinə danışarmış ki, indi də bizlər eşidib bilirik. Onların tarixi 2000 ildən çox qabaqdır. Rüstəmi Zalın babası Samın və Neyrəmin zamanında və ondan da çox qabaq gedən böyük qanlı-qadalı müharibələrdə həmin şəhərlər dağıdılıb, yandırılıb, hətta yerinə şum çəkilib, darmadağın edilib yer üzündən silinib. Sakinlərini isə qəddarcasına qırıb dəstə-dəstə əsir edib aparıb qul kimi işlədib, qul kimi satıb, mal-qaraların qarət ediblər. Həmin yerlərin torpaqlarının qırmızı rəngdə olması yanmağının nəticəsidir. Bəzi adamlar bura qırmızılıqdır, yaxud bu elə qırmızı torpaqdır deyirlər. Qalmas dağının üstündəki vulkan bir neçə ildən bir, az-az püskürərək xeyli axıb, məhv olmuş şəhərin yanmış yerlərinin xeyli hissəsini örtmüşdür.

7. Qoçan şəhəri haqqında o biri şəhərlərdən daha çox danışılır. Əsasən, bu ellərin söz-söhbətləri Qoçan şəhərinin yeri, batması və böyük şəhər olmaqla böyük karvan yolunun üstündə olduğu bildirilir. O zamanlar bu yerlərdən keçən karvan yolu, ipək yolu Qoçan şəhərindən keçirmiş.

Qoçan şəhəri, Hacıqabul şəhərinin şimalındakı Hərami dağının şərq tərəfində Pirsaatçay çayının birbaşa sahilində əsasən, çay boyu uzun bir ərazidə

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

olubmuş. Qoçan şəhərinin zəlzələ, yaxud nədənsə batması nəticəsində şəhər tamamilə viran qalmış və sonradan az-az qalan nişanələr də dağılıb getmişdir. Şəhərin yerində bir uçuq at tövləsi və qıraqda bir kiçik kasıb küməsi qalmışdır. Qoçan şəhəri batıb tamamilə alt-üst olmuşdur. O vaxtdan neçə illərdir ki, vaxtilə batan Qoçan şəhərinin yerindən bu günə kimi ətraf kəndlərin əhalisi, uşaqları, böyükləri, və "Pir Hüseyn Xanəgahına" ziyarətə gələnlər çoxlu müxtəlif qab-qacaq, növbənöv rənglərdə çoxlu muncuq dənələri (əsasən, qırmızı, sarı, göy və qara şüvə muncuqlar) və müxtəlif əşyalar tapıb aparmışlar. 1966-cı ilə qədər lap çox tapırdılar. Həmin yerlərə muncuqluq deyirdilər.

1957-1959-cu illərdə Pir Hüseyn Xanəgahının on metrliyində 25 metr hündürlüyündə Pirsaatçay su anbarı tikildi. Həmin su anbarı, qədimdə batmış Qoçan şəhərinin xarabalıqlarının üstündə tikilmişdir. Həm də tez başa gəlsin deyə Qoçan şəhərinin qalan yerlərinin çox hissəsin və "Pir Hüseyn Xanəgahının qala divarlarına bitişik olan binaların da yerlərin və qədim qəbiristanlığın da çox-çox hissəsin torpaqları buldozerlərlə, ekskavatorlarla bəndi bağlamağa basdılar. Hansı ki, qədim qəbiristanlığın qəbir daşlarının üstündə ən çoxunda 241, 1160, 894, 898, 1020 tarixləri yazılmışdır. O bəndə basılan torpaqlar özüəriyən olduğuna görə və işin keyfiyyətsiz görüldüyünə görə birinci dəfə su doldurulan kimi 1959-cu il aprel ayının 6-sında bəndi su yıxıb

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

apardı. Orucluq ayı idi mən özüm də oruc idim. O gün orucluğun axırına da az qalırdı. Qədr gecələri keçmişdi. Pirin həyətinə su çıxmadı. Aşağı kəndə isə çox ziyan dəydi. Pirsaatçay su bəndi ikinci dəfə tikilmək üçün əvvəlki torpaqları bənddən maşınlara yükləyib tamam təmizləyərkən daşıyıb Qoçan şəhərinin üstünə boşaldıb yığdılar. Tamamilə bu tariximizin qalan hissəsini də itirdilər ki, hal-hazırda həmin dağ boyda yığılan torpaq Qoçan şəhərinin yerinin bir hektar sahəsini tutur, azı 20 metr hündürlükdə bir dağdır. Və başladılar qədim qəbirləri qazıb qəbirlərdən əşyalar və mənfəət axtarmağa. Hal-hazırda da qədim qəbiristanlıqdakı salamat qalmış azca hissəsinin qəbir daşları qazılıb axtarıldığına görə yanı üstə, arxası üstə qalmaqdadır. Qoçan şəhəri batarkən yalnız şəhərdən kənarda mal-qara otaranlar, səfərlərdə olanlar bir də bir qadın körpə uşağını evdə kənara çölə apardığına görə salamat qalmışdır ki, həmin qadının evi şəhərin ucqarında imiş.

Qoçan şəhəri batandan sonra şəhərdən kənarda olub salamat qalanlar gəlib yığılışıb daha orada yaşamaqdan qorxaraq, şəhərin xarabalıqlarından bir qədər aşağıda çayın hər iki sahilində məskən salmışlar. Təxminən 600-1000 il orada yaşadıqları müddətdə payızdan ta yazın sonuna qədər yağan yağışlar nəticəsində gələn sellərdən ziyanlıq çəkdiklərinə görə oradan da köçmüşlər. Oradan köçərkən

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dörd dəstəyə ayrılmışlar. Xarakterlərinə görə dörd dəstəyə ayrılan 1) birinci dəstə mal-qara və ovçuluğu özünə peşə edənlər indiki Qubalı Baloğlan kəndindən 9 km şərq tərəfdə özlərinə ev tikib məskunlaşmış kəndlərinin də adın Qubalı Baloğlan adlandırmışlar.

2) İkinci dəstə bir qədər işgüzarlar əsasən, əkinçiliklə məşğul olanlar çayın alt tərəfində Rəncbər kəndindən həmin adla 6 km şərq tərəfdə məskunlaşmış kəndlərinin də adın Rəncbər (yəni, işlək, işgüzar) adlandırmış).

3) Üçüncü dəstə guya estetik zövqlu bir qədər məğrur ney, nəva, nə... indiki Nəhavi kəndindən 2, 3 km şərq tərəfdə məskunlaşmışlar.

Həmin kəndlər ki, Qubalı Baloğlan, Nəvahi və Rəncbər adları ilə orada məskən salmışlar. Orada da təxminən 600-800 il yaşayandan sonra susuzluqdan çətinlik çəkdiklərinə görə köçüb indiki yerlərinə gəlmişlər ki, indiki yerlərində də məskunlaşdıqları 600-800 ildən çoxdur. Həmin yerlərdə hər üç kəndin xarabalıqları indi də qalmaqdadır və hər üç kəndin sakinləri hamısı o xarabalıqları tanıyır və yerini də bilir. Bu üç kəndin əhalisi əslində, hamısı bir şəhərin, batan Qoçan şəhərinin əhalisidirlər ki, üç dəstəyə ayrılıb hal-hazırda bir-birilə qonşu üç kənddirlər. Söz yox ki, sonrakı illərdə, əsrlərdə başqa rayonlardan da gəlib o kəndlərdə yaşayanlar var. Bu, o demək deyil ki, bu kəndlərin əsasını sonradan gələnlər qoymuşlar. Hal-hazırda keçmiş

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qoçan şəhərinin sakinləri hamısı bir şəhərin sakinləri olmaqlarına baxmayaraq, Qubalı Baloğlan, Rəncbər və Navahı adlı biri-birinə qonşu kəndlərdirlər. Navahı kəndi də özlərinin xarakterinə görə üç dəstəyə sonradan ayrılmışlar. Hal-hazırda Aşağı Navahı–stansa (vağzal) Navahısı, orta Navahı – kənd-kənd Navahısı", yuxarı Navahı – Pirsaat dəmiryol stansiyasıdır.Bu adlar sonralardan deyilən adlardır.

4. Qoçan şəhərindən köçüb gedən dördüncü dəstə isə baş götürüb uzaqlara getmiş, onlardan Ərdəbildə, İranın Xoy rayonu ərazisində, Van gölü ətrafında (əvvəllər ayrı adı olub) Təbrizdə, Qum vilayətində, Xorasan ərazisində və Məşhəd şəhərində az-az qalmış, xeylisi indiki Məşhəd şəhəri ilə Kurqan şəhərinin arasında bir yerdə məskən salıb öz batan Qoçan şəhərinin adı ilə oranı adlandıraraq Qoçan kəndi demişlər ki, hal-hazırda Qoçan qəsəbəsidir. Söz yox ki, sonrakı illərdə o şəhərə də İranın başqa yerlərindən gəlib məskunlaşanlar olub, bu, o demək deyil ki, o şəhərin əsasını sonradan gələnlərə bağlayaq. Və sonradan bilmədən hamısı özlərini İranlı sayırlar.

Buradan köçüb gedən həmin adamların bir qədəri İrakın Kərkük tərəflərinə, Darüssəlamə və Türkiyəyə, İstanbul tərəflərə də gedib çıxmışlar.

Sonradan rəncbər kəndindən bir toplu ayrılıb iki böyük karvanla Qubalı Baloğlan kəndindən də bir böyük karvan onlara qoşulub Qars vilayəti ilə

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İrəvan (Rəvan) arasında indiki Dilicana qədər tərəflərdə məskunlaşmışlar. Sonradan orada qərar tuta bilməyib oradan Dağlıq Qarabağın ərazisinə və İrana danışmışlar ki, həmin yerlərdə Rəncbər adı altında 3-4 kənd olublar.

Əssəlamu ələyküm və rəhmətullahu və bərəkatühü.

PİR HÜSEYN XANƏGAHI

"Pir Hüseyn Xanəgahı" Hacıqabul şəhərinin şimalında yerləşən Hərami dağının şərq tərəfində Pirsaat çayının sol sahilində, birbaşa çayın qırağında əzəmətlə ucalır. Azərbaycanda olan ziyarətgahların ən hikmətlisi və dünyada rəsmi olaraq məşhur olan ziyarətgahlardandır. Bu müqəddəs inanc yerinin əsirlər boyu bütün fəsillərdə gecə-gündüz qapısı hər tərəfdən gələn zəvvarlarla, səyahətçilərlə dolu olur.

Azərbaycanda olan bütün abidə və inanc yerlərinin ümumi hamısına gələnlərdən çox, təkcə bu ziyarətə gələnlər çox olur. Hansı ki, o biri ziyarətgah və abidələr hamısı birbaşa rayonlararası yolların yanında çoxları isə yaşayış məntəqələrindədir. Amma "Pir Hüseyn Xanəgahı Bakı-Hacıqabul yolundan 18 km kənarda dağların görünməyən bir bükükündə yerləşir ki, ora yol da çəkilməyib, yolu da bərbad haldadır. Özü də yağış-qar olan vaxtlarda

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

maşınlar gələ bilmir düşüb piyada gəlirlər. Bakı-Hacıqabul şossesinin yanında istiqamət üçün adı yazılmayıb, göstərici də qoyulmayıb. Bütün bunlara baxmayaraq Azərbaycanın hər tərəfindən il boyu, gecə-gündüz bura gələnlərin ardı-arası kəsilmir. Çünki hikmət görürlər, şəfa tapırlar. Hətta İrandan, Türkiyədən bu yaxınlarda Fransadan da gələnlər var idi. Maraqlanırlar, yazıb və şəklini çəkib aparırlar.

"Pir Hüseyn Xanəgahının" içərisindən yeraltı otaqlara, köməkçi otaqlara, xeyli kənardan ətrafa çıxmağa yeraltı yollar var ki, yerləri, qapıları, pilləkənləri indi də bilinir. Bu xanəgahın tarixi yazılan sənədlər, kitablar, xanəgahın kitabxanəsi, xəzinəsi hamısı oğurlanıb, dağıdılıb, yandırılıb çayda suya atılıb itirilib. Buranı qarət edənlər və onlara kömək edənlər tərəfindən. Ellər arasında ta keçmiş əsrlərdən bəri danışılır ki, və yaddaşlarda yaşayır ki, xanəgahın içərisindən yeddi yerdən, köməkçi otaqlarda səkkiz yerdən, minarələrin içində hərəsində bir yerdən yeraltı yollarla üstüörtülü pilləkənlər olub. Onları keçən əsrlərdə baxımsızlıqdan, həm də iz itirməkdən ötrü viranə qoymuşlar ki, neçəsinin yeri indi də aşkardır. "Pir Hüseyn Xanəgahı" elə bir yerdə yerləşir ki, elə bil dağlar onu hər iki tərəfdən qolları arasına alıb bir ana kimi, sinəsinə sıxıb ürəyinin başında saxlamışdır. Aşağı kəndlər tərəfdən baxanda elə əzəmətli görünür ki, elə bil o kəndlərin,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

taxıl və otlaq sahələrinin başına ilahidən bir qızıl tac qoyulmuşdur. Şamaxıdan yuxarı, Babadağın ətəklərindən mənbəyini götürüb, Xəzər dənizinə az qala çatana qədər 199 km uzunluğu olan Pirsaat çayı Xanəgahın qərb tərəfindən keçib bir qədər pirin qapısı tərəfə qıvrılıb elə bir ki, piri ziyarət edir kimi sularını bir qədər də bərəkətləndirib sonra uzu aşağı o kəndlərin, bağların, taxıl və otlaq sahələrinin arasıyla bərəkətli sularıyla o yerləri suvara-suvara o yerlərə həyat və bərəkət verib axıb gedir. "Pir Hüseyn Xanəgahı"nda Mövlana Səyyid Hüseyn ağa adlı müqəddəs bir şəxs dəfn olunmuşdur. Mövlana Səyyid Hüseyn ağa İmam Zeynül Abidinin on bir oğlundan biridir. Onlar on bir qardaş dörd bacı olmuşlar. Qardaşlardan biri Gəncədə dəfn olunmuşdur ki, adı Mövlana Səyyid İbrahim ağadır deyillər. Biri Şam şəhərinin kənarında bir dağın üstündə dəfn olunub orada bir su quyusu da var. Biri Mədinənin Bəqiə qəbiristanında dəfn olunub adı İmam Mühəmməd Baqirdir. O birilər də Mədinədə və müxtəlif yerlərdə dəfn olunmuşlar. Ərəblər belə bir şəkildə yazır: Mövlana Səyyid Hüseyn ibni Zeynül Abidin, ibni İmam Hüseyn ibni Əliyyül Mürtəza ibni Əbu Talib. Deməli belə alınır ki, Seyyid Hüseyn ağa Zeynül Abidin oğlu, İmam Hüseynin nəvəsi, Əlinin və Fatimeyi Zəhranın nəticəsi Məhəmməd peyğəmbər sələvatullahın kötükcəsidir. Onun tarixi VIII əsrdədir. Alimlərin və tarixçilərin yazdıqları tarixlər (və çoxları ehtimal edib
yazıblar) (yaşından istifadə edib danışanlardan yazıblar) Pir Hüseyn xanəgahının hikməti, şəfası şöhrəti, ətraf ölkələrə yayılandan sonrakı tarixlərdir. Xanəgahın

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

içərisində, divarlarında olan yazılar, hətta daş kitabələrdə də belə varsa bəzisi XI, bəzisi XII, XIII, XIV əsrləri göstərirsə də, bunlar tikililərin tarixidir. O tarixlər sonradan buranı özünə məskən edən, yaxud oranı tikdirən şəxsin, ya işləyən sənətkarın, ya da xidmtçisinin adı ola bilər.

"Pir Hüseyn xanəgahı"nın hikmətinin, şəfasının, imam övladı olmasının, ilahi heyrətamiz möcüzələrinin şahidi olan başqa ölkələrin dahiləri, tarixçiləri keçmiş əsrlərdən buranın ziyarətgah olmasını yazmışlar.

Hind tarixçisi Vəssaf özünün əsərlərində Pir Hüseyn xanəgahının o dəbdəbəsini, gecə-gündüz ziyarətə gələn zəvvarların ardı-arası kəsilmədiyinin şahidi olub, buranın kitabxanəsini, xəzinəsini görəndən sonra bu xanəgahı təkcə Azərbaycanın yox, dünyanın piri adlandırmışdır.

Bizim Azərbaycanın yazarları isə bəlkə də bu xanəgah haqqında heç nə yazmamışlar. Tək-tək yazanlar da kiməsə xoş gəlmək üçün əsil tarixi axtarıb tapıb yazmamış,əsil tarixlərimiz aşkarlanmamışdır.

Nə yaxşı ki, hind tarixçisi Vəssaf və qeyri millətlərin, ölkələrin tarixçiləri, dahiləri, piri pir kimi, ziyarəngahı ziyarətgah kimi yazmış və heç kimdən qorxmamışlar. Yeri gəlmişkən, bir cümlə yadigar

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

məsəl olaraq deyim ki, müşahidə edin: - Öz dədəsinin tarixin bilməyənlər çoxu ölkəmizin tarixindən yazıb özü də elə bir səmtə yönəldir ki, nəticədə əsil tarix, hadisə itir. Bu yerdə dostum Mərkəz Quliyevin bir təmsili yadıma düşdü.

Dedi qoy deməsinlər dünya görüşüm azdı,
Balıq quru haqqında dissertasiya yazdı.

Bizim Azərbaycanımız üçün böyük fəxrdi ki, bir ilahi bəxşişdir ki, Fransanın, Rusiyanın, Almaniyanın, Hindistanın, ərəb ölkələrinin və s. Tarixçiləri bizim ölkəmizin, dahilərimizin, ziyarətgahlarımızın haqqında yazmışlar, arxivlərində var və əsərlərində bu gün də yaşadırlar.

Amma çox acınacaqlı bir haldır ki, öz ölkəmizin yazarlarının əsərlərində belə yerlərdən yazılmayıb. Bəzi yazarlar da yazdıqlarını başqa səmtə ünvanlandırmışlar. Hər tərəfdə keçmiş əsrlərdən bəri danışılır ki, Şeyx Nizami Gəncəvi (1141-1209) bu xanəgahı təmir elətdirərkən, öz müasiri Xaqani Şirvani ilə (1120-1199) təsadüfən burada görüşmüşlər, həmsöhbət olmuşlar. Deməli Nizami Gəncəvinin dövründə bu xanəgahın əsaslı təmirə ehtiyacı olubsa, deməli, onun tarixi yazılandan çox qədimdir.

Pir Hüseyn xanəgahının tarixi belədir. Onu da deyim ki, hər hansı şəxs tərəfindən yazılan tarixlər, hətta daş kitabələrin də belə üstündə tapılarsa, o tarixlər, tikililərin tarixləri, hər kimin adı yazılarsa ya

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

oranı tikdirənin, ya tikən sənətkarın, ya icraçının, ya da sonralan gəlib oranı özünə məskən edən şəxslərin ya orada xidmətçilik edən şəxsin yazdırdığı tarix ola bilər. Amma əsas tarix Mövlana Səyyad Hüseyn ağanın tarixidir. Allahdan həmişə iltimas edirdim ki, bizim hökumətimiz bu xanəgahı Məşhəd, Kərbəla, Kazimeyn, Samirə, Nəcəf və Mədinə şəhərlərindəki kimi təmir qılsın və xarici ölkələrdən turizmi xanəgaha yönəltsin, hər tərəfdən bizim ölkəmizə də pul köçürüb gəlsinlər. Azərbaycanımız dünya ölkələri arasında bu yolla da daha da danınsın, əzizlənsin, istəklə şöhrətlənsin və daha da qədimləşsin.

Əssəlamu əleyküm və rəhmətullahi və bərəkatühü.

ZİYARƏTNAMƏ

Əssəlamu əleykə ya Əba-Əbdillah!
Əssəlamu əleykə yebnə Rəsulullah!
Əssəlamu əleykə yebnə Əmirəlmövminin vəbnə Səyyidil və Səyyid!
Əssəlamu əleykə vebnə Fatimə təz Zəhrai Səyyidətil nisailil aləmin!
Əssəlamu əleykə və əla cəddikə və əbeyk!
Əssəlamu əleykə və əla ümmükə və əxeyn!
Əssəlamu əleyküm ya cəmiən şühədai və rəhmətullahi və bərəkatühü!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əssəlamu ələykə ya qəribəl-qürəba!
Əssəlamu ələykə ya müinəl-züəfa!
Əssəlamu ələykə ya əsirəl-əəda!
Əssəlamu ələykə ya şəmişən-şümus!
Əssəlamu ələykə ya ənisən-nüfus!
Əssəlamu ələykə ya əyyuhəl-mədfuni-bi-ərzi-Tus!
Əssəlamu ələykə ya Soltani-Xorasan! Ya Əbəlhəsən!
Və ya Əli yebnə Musə-riza!
Ruhinə fədak!
Cəmiən şühədai və rəhmətullahi və bərəkatühü!

Əssəlamu ələykə ya Xəlifətər-Rəhman!
Əssəlamu ələykə ya şərikəl-Quran!
Əssəlamu ələykə ya müzhirəl-iman!
Əssəlamu ələykə ya qətiəl-bürhan!
Əssəlamu ələykə ya imaminəl-insi-vəlcann!
Əssəlamu ələykə ya Sahib əz-Zaman!
Əl-əmanü, əl-əmanü, əl-əman!

Bi rəhmətən hacat!
Külli bəniyyat!
Və rəhmətullahi və bərəkat!
Və bil Fatihəti mə-əs-Sələvat!:
ərəb hərfi ilə yazılmış mətn

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

DİBAÇƏ

Təbibi kamilim, rəbbim, tanrım, subhani bismillah.
Səlamim,xaliqim,səbrim, rəhim, rəhmani bismillah.

Sənə əbdi-zəliləm, iltimasi, ilticayəm mən
Hər an müşküldəyəm Allah səndən amani
bismillah.

Əta eylə mənə hər an olum qalibi meydankeş
Ki eşqinlə açım hər yanda pür meydani bismillah.

Kəlamınla açır virdü-zəbanım söhbətim hər gün
Həmi qəlbimdədir əhli-beyt ilə Qurani bismillah.

Və lənətlə qovum şeytan əməl, şeytani əshabın
Heç vaxt yol tapmasın qəlbimə şeytani bismillah.

Özün bəxş etmisən ya rəbb baxıb hər şəxsə ilahmı
Şüərada mənimçün vermisən səhmani bismillah.

Ki göndərdin neçə peyğəmbərə süfuflar, kitablar
Məhəmməd Müstəfayə nazilin Qurani bismillah.

Bizə bəxşişdi səndən höccətullah, Heydəri-Kərrar
Yədullah, Saqiyi-Kövsər, Şəhi-Mərdani bismillah.

Zəmini-asimanın ləngəri, ərşin sütunu, həqq
Qəşəmşəm, müqtəda, müşkülguşa, imam bismillah.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bətul Fatimeyi-Zəhra, əbiha, bəliha-xəmsin
Bəniha müçtəba, Kərbibəla Soltan bismillah.

Əbəlfəzl keçdi canından, kəsildi qolları təndən,
Qalıb bəlalı meydanda axardı qanı, bismillah.

O isti qumlar üstündə qan axdı "Ya Hüseyn" yazdı,
Bu ayə qoydu heyrətdə bütün düşmanı, bismillah.

Zeynəb Kərbibəla zülmün görüb əvvəldən-axirə
Əlinin qəhrəman qızı Fatimeyi-sani, bismillah.

Necə ki, əhli-beytə müqtədai pasiban oldu
Səkinəylə, özünə mədfən oldu Şam, bismillah.

Əkbəri, Qasimü,əskər,səccad və Baqiri, Sadiq,
Kazim və Şahi Xorasan İnam Rzanı, bismillah.

Təqi, Nəsi, Həsən Əskəri, zühurun istəyə həqqdən,
Ədalətli ağam Mehdi-Sahib-Zəmanı, bismillah.

Əsir, əlil, şəhid, -getdi-yazıq millət, yazıq millət,
Qalanlar kef çəkir, yox qeyrəti, vicdanı, bismillah.

Gedən torpaqları bir qaytara, çoxlu ölən ölmüş
Görəm bütöv əraziylə Azərbaycanı, bismillah.

Xudaya sən özün bildin nə dərdim var, nə dərdim var,
Bütün dərdlərimə yalnız sənsən dərman, bismillah.

Xudaya külli aləmdə nə qədri aşiqin vardır,
Biri də aşiqi-sadiq Məşəd Vahidxan, bismillah.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

SÖZ

Sözdən sizə söhbət açım söz ucadır, çox uca
Sözün yeri ərşidədir Allah deyib yaxşıca.

Allah özü sözlə qurub bu sonsuz kainatı
Sözlə nazil olub bütün süfufu, kitabatı.

Müqəddəsdir sözün, Allah yaradıb hər hikməti.
Sözə hörmət bil, borcudur bütün bəşəriyyətin.

Bəziləri şeytani söz danışırlar həvəslə
Şeytan ustadlıq eyləyir o quruma, o nəslə.

Şeytan əl çəkir onlardan baş götürür qaçmağa
Onlar at qovur dalınca vəsvəsələr açmağa.

Yazıq şeytan bəndə düşdü qaçammadı çatdılar
Tür-fətendə şeytanın da guruhun aldatdılar.

Bəziləri yığdı sözü şeri etdi tapdağı
Özün ustad hesab edib sandı özün Qaf dağı.

Kamil ustad həya etdi, çəkdi həm də sıxıntı
Böyük hikmət əsərinin adın yazdı "Sızıntı".

Ustad öyünmədi dedi ki, şagirdəm damlayam
Gərəksiz dedi: - mən gərək zirvələrdə qaynayam.

Sizə əxlaq tövsiyyəmdir: - ağır otur, gəl batman
Hər yanda hörmətin olsun, necə Məşəd Vahidxan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

KÖMƏK OL

Gəldim ziyarətə zəvvarlarınla
Qərib İmam Rza özün kömək ol.
Durmuşam müntəzir oğlanlarımla
Qərib İmam Rza özün kömək ol.

Xaki qədəminə özümü sürtdüm
Gümüş falaqqana üzümü sürtdüm
Qəbri şərifinə gözümü sürtdüm
Qərib İmam Rza özün kömək ol.

Dayanmır gözümün yaşı, rəvandır
Cihad buyuran yox, kim pasibandır
Erməni islamı qırır amandır
Qərib İmam Rza özün kömək ol.

Zülfüqarın çala sağı-soluna
Bu müşkülü özü qoya yoluna
Tapşırram Əlinin qəzəb oğluna
Qərib İmam Rza özün kömək ol.

İmdadimə yetiş həm ol mehmanım
Pir Hüseyn xanəgahdı ünvanım
Harayına yetiş Azərbaycanın
Qərib İmam Rza özün kömək ol.

Qəriblər ağası yetiq dadimə
Vahidxanı yetir sən muradinə
Öz elində qərib olan xalqıma
Qərib İmam Rza özün kömək ol.

04-11 dekabr 1992, Məşhəd şəhəri.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

MƏRSİYƏ

1

Alıb cəngə icazə, Əlinin Qəzəb oğlu.
Səvar oldu Uqabə, Əlinin Qəzəb oğlu.

Geyib Əsləhi cəngi, ələm aldı Əlinə,
Çıxıb dişrə xeymədən, nəzər saldı Hüseynə,
Görüb məhəbbətini füzun, o nuri eynə,
Dedi – fəda bu halə, Əlinin Qəzəb oğlu.

Gördü – durub baxırlar Qasimi, Əli Əkbər.
Dedi – Əli Əkbərə, o zadeyi hünərvər:
Al Ələmi Hüseynə bu gün sən ol Ələmdar,
Gedir cəngi-cidalə Əlinin Qəzəb oğlu.

Yalvarıb Əli Əkbər deyirdi ki, - əmi can,
Gedim alıb ələmi, olum mən sənə qurban,
Sənin dalınca mən də ollam azimi meydan.
Düşüb özgə bir halə Əlinin Qəzəb oğlu.

Dönüb dedi Qasimə: - bin Həsəni Müctəba,
Hüseyni qoyma bu gün Ələmə həsrət qala.
Al Ələmi bu gün ol Ələmdari Kərbəla
Baxa o gül cəmalə, Əlinin Qəzəb oğlu.

Döyüb başə ağladı o dəm – Qasimi nakam,
Dedi: - yaxallar ələ bu gün hamı həna qan,
At çapar nəşim üstdən bu gün bu qövmi üdvan,
Özün eylə nəzarə Əlinin Qəzəb oğlu.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Səvar olub Üqabə Əbəlfəzli Ələmdar,
Bir əlində Ələmi, bir əlində Zülfiqar.
Özün vurub ləşkərə, qılınca verib fişar,
Ağam həzrəti Əbbas, Əlinin Qəzəb oğlu.

Dəstə-dəstə qaçırdı olub ləşkər hərasan,
Bir-birə deyirdilər daha əl çəkin candan.
Əbəlfəzli olubdur meydan içrə nümayan,
Kəsib başın Maridin, Əlinin Qəzəb oğlu.

Yazır şücaətindən Kərbəladə Vahidxan,
Yanır müsibətinə Kərbəladə Vahidxan,
Yetər şəfaətinə Kərbəladə Vahidxan,
Verər hər an muradın, Əlinin Qəzəb oğlu.

2

Yetdi icazə cəng üçün, növbət Əliyyü-Əkbərə
Fəğan əhli-beytidən ucaldı, ərşi-davərə.

Gördü ki, izni vermədi oğluna şahi Kərbəla,
Oldu məlul bu qüssədən orda şəbihi-Mustəfa.
Düşdü oğul qabağına Leyla gəlib o dərgaha,
İltimas etdi izn ala, fürsət Əliyyü-Əkbərə.

Durdu kənarda ol cavan, yetdi o bəzmə madəri,
Üzbəüz görüb onları tapdı təsəlli qəmləri.
Bir də qalır qiyamətə onlar ilə görüşməyi
Bu qəm də üstəlik olub, xiffət Əliyyü-Əkbərə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yetdi o bəzmə madəri, öpdü Hüseyn qədəmlərin,
Gəldi Nəvayə ney kimi, bülbüli şuri dillərin.
Dedi – ağa bu haluva qurban Əliyyü-Əkbərim
Lütf elə izn verginən, rüsxət Əliyyü-Əkbərə.

Şahi cəhan o Leylanın iltimasın etdi qəbul,
Madəri Əkbərəm dedi razıyam ey nuri-Bətul.
Ümmət yolunda təşnə ləb şəhid ola şübhi-Rəsul,
Mən də qalam sənin kimi həsrət, Əliyyü-Əkbərə.

Alcaq icazə cəng üçün, iltimas etdi – ey baba,
Peyğəmbərin əmmaməsin, Zülfüqari şiri-xuda,
Əbəlfəzlin Üqabini bu günlük qıl mənə əta
Axır ömrümdə olsun bu hörmət, Əliyyü-Əkbərə.

Qoydu başa əmmameyi peyğəmbər yadigarini,
Oldu Üqabə çün səvar, bağlayıb Zülfüqarini,
Yetişdi qəlbi ləşkərə çəkdi o can nişarini
Mübariz bir kəs etmədi cürət, Əliyyü-Əkbərə.

Gətdi Misriyi ləini, otuz nəfər dilavəran,
Görcək şücai Əkbəri, hiylə gəzib o zaliman.
Təlldən eyləyib nəzər gördü iman insi-can
Gəldi sədayə ta yetə hikmət, Əliyyü-Əkbərə.

Gəldilə ru ba ru, baxıb, axtarıb hiylə yolların,
Atdı kəməndi Əkbərə saldı kəməndə qolların.
Çəkdi Üqabın cilovun qəddini rast saxlasın
Yetdi İmam sədasinə vüsət Əliyyü-Əkbərə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Etdi xitab Şahi-din, düşcək kəməndə qolları:
- Burax Üqabın cilovun açılsın dava yolları!
Sürdü Üqabı dörd nala kəsdi kəməndi tulladı,
Etdilə Şami, Küfəyan heyrət, Əliyyü-Əkbərə.

Qayıtdı rəzmə, şir kimi tutdu onun bərabərin,
Etdi qılınca aşina, kəsdi apardı peysərin,
Atdı Hüseyn ayaqinə, öpdü Hüseyn qədəmlərin
Oldu Hüseyn susuzluğu illət, Əliyyü-Əkbərə.

Müsibətündən, odlanır canı Məşəd Vahidxanın,
İmam Hüseyn yanındadır, şanı Məşəd Vahidxanın
Budur ürəkdə arzusu-kamı, Məşəd Vahidxanın
Əza tuta sübhi-məsa millət Əliyyü-Əkbərə.

3
Aldı qundaqin qucaqə Əskərin Şahi-vəla
Üz tutub dərgahi həqqə çün Soltani-Kərbəla.

Söylədi ey bacı Zeynəb baxgilan əhvalimə
İsti qum üstə şəhid yetmiş nəfər ənsarimə
Qollarım üstə susuzdan əl-ətəş ətfalimə
Əl-ətəş sən, həm də Əskər, həm Soltani-Kərbəla.

Ol Hüseynəm ki qəribəm, həm imam oğlu, imam
Varisi peyğəmbər, höccətullah, imami zaman
Bu qisasi yerdə qoymaz Mehdi Sahib-əz-Zəman
Orda da lütf etməsə bir dəm Soltani-Kərbəla.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Baxgilan meydanə gər yetmiş nəfər qurbanimə
Adları müsəlmanlardan yarə dəymiş canimə
Almadım heç bir əvəz yetmiş iki qurbanimə
Neynəvadır, həm Minadır, pür-bəladır Kərbəla.

Ğazibiyyə, şətt Fəratdır, bir adı dəşti-bəla
Mariyə, vadiyi-bəla, babi şəfa, şətt-bəla
Hazırsan sən də əsir olmaqlığa hövlə-vəla
Dözdün bu zillətlərə ey Qəhrəmani-Kərbəla.

Heç kimə böylə müsibət yox Adəmdən, xatəmə
Dörd mindən artıq dəyibdir yarə qəmli-sinəmə
- Mən fəda yetmiş iki şəhidi, qırx əsirinə
Xamisi Ali-Əbasən, həm şəhid eşqi Xuda.

Kərbəla müsibəti sitəm Məşəd Vahidxana
Üz verib həddən şümarə qəm Məşəd Vahidxana
Hər iki dünyadə ol həmdəm Məşəd Vahidxana
Həm Zəbihən-min-qəfasən, həm Soltani-Kərbəla.

4

Yetdi icazə cəng üçün növbə cənabi Qasimə
Görüşdü əhli beyt ilən, etdi vida Əmusinə.

Hazırlaşıb şitab ilən edibdi cümləsin duva,
Tutub su yolların – dedi – bu gün təmami Əşqiya.
Bilib bu hali ol zaman, o yadigari Müctəba
Geyindi cəngi-əsləhi, oldu səvar Tövsənə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yetişdi rəzmigaha çün, dayandı iztirab ilən,
Mübariz istədi, durub gözlədi intizar ilən,
Əzrəq öz oğlanlarını göndərib çox vüqar ilən,
Dördü də birbəbir gəlib, getdi cəhənnirusinə.

Otuz nəfər geyindirib gətdilə Şami-Əzrəqi,
Nə qədri-təbli-nay çalıb verdilə çoxlu rövnəqi.
Çıxıbdı təllin üstünə Hüseyn görüb bu haləti,
Xitab qıldı Zeynəbə başladı öz duvasinə.

Qasim birinci növbəni, Əzrəqə təklif eylədi
Vura bilmədi Qasimi, nizamsız hücum eylədi
Öz canının qorxusundan Qasimin atın peylədi
Qaldı piyadə üz tutub təllə tərəf əmusinə.

Gördü piyadə Qasimi, o padişahi Kərbəla,
Bir xoşrəftar at göndərdi, hökm eyləyib Abdullaha.
Dedi – gələndə yalvarıb ərus-sənə edib duva,
Sən də təhəmmül etginən ərusin iltimasına.

Yetəndə növbə Qasimə o yadigari Müçtəba
Əzrəqi Şaminin başın qılınca etdi aşina.
Kəsib başın apardı çün atdı Hüseyn ayağına
Bircə cürə su istəyib gəldi ətəş nəvasına.

Şəstüvə qurbanam ağa, eylə duva Vahidxanı
Mərizlərinə qıl əta indi şəfa, Vahidxanı
İltimasən bağışlatdır ruzi-cəza, Vahidxanı
Hifz elə ki, çox ağlayır Kərbibəla əzasına.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

5
Şahi-Şühəda can ilə Yəzdan arasında
At üstə qalıb təll ilə meydan arasında.

İstər ki gedə rəzmə, görür ahi fəğani
Səkinə edir nalə yaxır kuni məkani
Zeynəb nə qədər cəhd eləsə tutmur aramı
Ləb teşnədilər atəşi suzan arasında.

Gəldi qayıdıb təllə tərəf o Şəhi-dinə
Aldı qucaqa sakit ola bilkə Səkinə
Boynunu qucub misli kəmənd orda Səkinə
Yandırdı Hüseyn qəlbini hicran arasında.

Söylədi Hüseyn: - aç qolunu Mahi-Mədinə
Vaxt keçməyə ta cəngə gedəm ey qəmi didə
Səbr eylə deyirdi babanı Leşkəri-kinə
Yalqız qoyacaq nizeyi peykan arasında.

Qolları qələm qardaşım Əbbasi-Ələmdar
Mişkinə dəyib, həm gözünə üç pər oxlar.
Bu gündə yetiş dadə babam Hey-dəri-Kərrar
Qaldım bu dönük Kufi, Şamiyan arasında.

Meydanda şəhid oldu Əli-Əkbəri nakam
Yaxdı əlinə bəs ki, həna Qasimim al qan
Oxlandı əlim üstə Əli-Əskəri ətşan
Qaldım mən Əli-Əskər ilən qan arasında.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yandı bu müsibətə Məşəd Vahidxan da
Qəmlərə nişan oldu Məşəd Vahidxan da
Teşnədi vüsalinə Məşəd Vahidxan da
Dur mənçün ağa həqq ilə mizan arasında.

6
Bu qəmi bihədd mənə eşqin həvasindən gəlir
xamisi Ali əbanın Kərbəlasından gəlir.

Qəm gəlir leşkər kimi biyari yavər ya Hüseyn
Yüz min leşkər tər kimi biyyari yavər ya Hüseyn
Cəng edir Heydər kimi biyyari yavər ya Hüseyn
Xamisi Ali əbanın Kərbəlasindən gəlir.

Leşkər eylür həl-hələ yalquz Hüseynün ya Əli
Bir ox atdı Hərmələ yalquz Hüseynün ya Əli
Zülmi olmaz bir belə yalquz Hüseynün ya Əli
Xamisi ali əbanin Kərbəlasindən gəlir.

Ney nəvasi gördülər Molla Məşəd Vahidxandan
Sordular hardan gəlir Molla Məşəd Vahidxandan
Aldılar belə cavab Molla Məşəd Vahidxandan
Xamisi ali əbanın Kərbəlasindən gəlir.

İMAM HÜSEYNİM

Fəxr eyləyirəm gör necə mövladı Hüseynim.
Şahlar şahının oğludu şahadı Hüseynim.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hər dərdin ola get onu şövt eyləyib istə
Bil zəvvarına təbibi şəfadı Hüseynim.

Nəinki qiyamət hamıya hali həyatda
Hər səsləyənə müşküli güşadı Hüseynim.

Kim özün atsa müsibəti ümmani Hüseynə
Əff etməyə bil sadiqi vəfadı Hüseynim.

Nə izzət ilə keçdi o Hürrün günahından
Çün tövbəkara mədəni səxadı Hüseynim.

Bax hikmətinin mərtəbəsi gör hara yetmiş
İzzətlə Xamisi Ali-Əba-dı Hüseynim.

Allah özün Hüseynə xum baha qərar vermiş
Bax hikmətə həm dərgahi Xudadı Hüseynim.

Nə yatmısan ey qafil oyan bir nəzər eylə
Düşmən tökülüb üstünə tənhadı Hüseynim.

Bir gündə şəhid oldu təmam yari-yavəri
Şükr eylər Şahən-Şəhi-Şühədadı Hüseynim.

Qalu-bəladə qəbul edib bu müsibəti
Nə şövq ilə Soltani Kərbəladı Hüseynim.

Gecə gündüz qəminə yan Məşədi Vahidxan
Fəxr eyləməli gör necə Mövladı Hüseynim.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

QƏSİDƏ

Könül eşqinlə giryandır can ilə baş arasında
Dəmadəmdir şəhid olsun göz ilə qaş arasında.

Mənə bəxşişilər verdin özün hər yanda la məkan
Vüsalınla hər gün keştəm fərş ilə ərş arasında.

Siratın körpüsü, ərşin sütunu, kövsəri, cənnət
Özün həll eylə tərtiblən ki, qallam çaş arasında.

Müsibətlər çəkən canım girib meydanə Rast ilə
Xuda düşmənləri çoxdur qalıb bərdaş arasında.

Çahar dey,on bir övladla pənahım Hey,Dal,Rey-dir
Yaradan xaliqimlən olmuşam sirdaş arasında.

Yapışmaz damənindən hər kəs ol vəliyyi Sübhanın
Duzəxlə Bərzəxin daim qalar külbaş arasında.

Verib əvvəldən-axir, canlı-cansız, rətbi-yabisdən
Xəbər Qurani münzəldə quruyla yaş arasında.

Hüseynim keçdi canından əzizi tutdu cananın
Qalıb əfsun belə rəyi qohum qardaş arasında.

Peyğəmbər, Fatimə, Əli qol açmış xakə yol yoxdur
Nə yolnan Zülcəhan üstdən düşə birbaş arasında.

Əyəndə Zülcənah yalin diz üstə düşdü ru qiblə
Var idi əhdi peyman xaliq ilən baş arasında.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şəhid olcaq boyanmış qanə xeymə Zülcəhan gəldi
Əmanətlərlə qeyb oldu, ədu tələş arasında.

Vuruldu xeyməgahə od çahar səmtdən Allah
Necə zillətlə əhli beyt qalıb ataş arasında.

Əsir Zeynəbün yandı, od içrə xəstə Abidin
Səkinə nalələr çəkdi bacı qardaş arasında.

Deyirdi – Ya əziz Allah! Qəribəm qardaşım yandı
Onunla od tutub əmməm qalıb atəş arasında.

Nə gördü od tutub Zeynəb,alovnan xeymədən çıxdı
Qucaqda Zeynül-Abidin, nari ətəş arasında.

Ətəklər od tutub yanır, təmamən xakə yeksandır
Hər iksi abə ətşandır can ilə qəşş arasında.

Səkinə göz yaşın tökdü üzarə abi leysan tək
Ki bəlkə Zeynəbin olsun od ilə yaş arasında.

Səkinə ümmət üçün, zillət ilə, Şamda can verdi
Qalıb o xar olan qəbri, ədu-əyyaş arasında.

Alan iman yolun təlim molla Məşəd Vahidxandan
Qalmaz uqbadə inşəllah daş ilə baş arasında.

2
Könlüm düşübdü şur ilə bir gül həvasına
Güllər açırmış sən demə bülbül sədasına.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ey kaş olaydı bir məni o vəslə çatdıran
Min şövq ilə İmam Hüseyn Kərbəlasına.

Yox göz yaşımı saxlamağa məndə ixtiyar
Öylə ki, vurğunam mən o qəm mübtəlasına.

Qismət olaydı şamü-səhər pasiban olam
Şamda şəhid olan o Səkinə balasına.

Əbbas verib iki qolunu, əsgər oxlanıb
Damadi Qasimin baxın siz qan hənasına.

Həsrət gözü gəzir Həsəni Müçtəbasini
Gahi ərusinə baxır, gahi anasına.

Dörd mindən artıq yarası vardır Hüseynimin
Məlhəm olam onun Əli Əkbər yarasına.

Bir qurban kəsmək istəmişdi İbrahim Xəlil
Sən diqqət et İmam Hüseynin minasına.

Yetmiş iki fədasını bir gündə kəsdilər
Qurban olum Hüseynimin şükr sinasına.

Hər yan edirdi zümzümə göz yaşları töküb
Yanan çadırda Abidinin vay sədasına.

Zeynəb deyirdi hardasan ey qardaşım Hüseyn
Nəbzim dayandı vurmadı, bu ney nəvasına.

Hər vaxt Hüseynə Məşədi Vahidxanam ağlaram.
Ruzi cəzada hifz edər Allah rizasına.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

QURAN TƏK

1

Rəbbim qadiri Sübhandır
Hər an adili Rəhmandır
Sözüm mərizə dərmandır
Necə ayei Quran tək.

Nicat Şiri-Xudadandır
Məhəmməd-Mustəfadandır
Soltani Kərbəladandır
Necə ayei Quran tək.

Ləhəd bir rəzmi meydandır
Yolun ol rəzmigahdandır
Əlində tiği bürrandır
Necə ayei Quran tək.

Əli natiqi Qurandır
Səhihi Ali İmrandır
Xudaya düşmən Mərvandır
Qələt yazdığı reklam tək.

İbrahim odda büryandır
İsmayıl zibhi qurbandır
Musa da ibni İmrandır
Əsadan qorxdu lərzan tək.

İnsaf dinin yarısıdır
Təqva dinin hamısıdır

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qapım Hüseyn qapısıdır
Ol Məşədi Vahidxan tək.

2
Ələst qalu-bəladandır
Qəmim qəlbimdə ümmandır
Hüseyn vəslinə ətşandır
Kərbəladə əsiran tək.

Səqqayi Kərbəladandır
Şəbihi Müstəfadandır
Damadi Kərbəladandır
Əli Əskəri qurban tək.

Pənci Ali-Əbadır bu
Zəbihən-min qəfadır bu
On dörd məsum, şəfadır bu
Necə ayei Quran tək.

Şəqi olma xudaya bax
Təthiri mafihaya bax
Taha-ya, Həl-Əta-ya bax
Oxu ayei Quran tək.

Allaha bəslədim rəğbət
Xuda mənə verib qüdrət
Çoxların eylədim höccət

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dillər bilən Süleyman tək
Bə fərmayişi Quran tək.

Şair Məşəd Vahidxandır
Ünvan Qubalı-Baloğlandır
Pir Hüseyn xanəgahdandır
Məqamim Qəmbər, Salman tək.

DƏR BABİ ƏLİ

Axund, qarışdırma düzlə əyrini
Allahın hökmünə deginən bəli.
"Ənə mədinətül elmi", söyləmiş
Məhəmməd peyğəmbər: "dər babi Əli".

Qüdrətullah, Yədullah, Şahi-Mərdan,
Həm saqiyi-Kövsər, həm həqqül-mizan,
Yerə-göyə ləngər, natiqi Quran
Ərşin sütunudur, dər babi Əli.

Əbu-Turab, Şiri-Yəzdan, La-fəta,
Hər an layiq olan Liqaullaha
Mürtəzanı, özü deyib Müstəfa:
Mən elmin şəhriyəm, dər babi Əli.

Əqlinə güc gəlmə cəfəngiyyatlan
Allah kəlamı Qurana əsaslan

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ayə iki yüz yeddi baş əlif-lam
Mən elmin şəhriyəm, dər babi Əli.

Məşədi Vahidxan, hünər eyləmiş
Həqq yolunda böyük cihad eyləmiş
- Ənə mədinətül elmi-söyləmiş
Məhəmməd peyğəmbər, dər babi Əli.

YETİŞİB

Gözüm aydın yenə də söhbəti canan yetişib.
Dadimə nəzmdə ol Qadiri-Subhan yetişib.

Bir yaşımdan, on iki sinniməcən izzət ilə
Məni saxladı, özü ol Şəhi-Mərdan yetişib.

Canımı vermişəm ol canə ki, can vermiş özü
Şövqilən Məşuqinə Şahi-Şəhidan yetişib.

Od tutub odlanıram bəs hanı biyari Hüseyn
Ki, onun xiyməsinə atəşi suzan yetişib.

Çəkdi fəryad Səkinə ürəyi qəşş elədi
Gördülər qarət üçün ləşkəri üdvan yetişib.

Od vurub odladılar xiymələri qovmi-dəqa
Vurdu od içrə özün Zeynəbi-nalan yetişib.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dedi Zeynül-İbada-yandun oğul hardasan ey!..
Yəqinim oldu qətlə Şahi-Şəhidan yetişib.

"Əhli Quran" o şəhi etdi şəhid ağlamadı
Ağladı qəmlərinə bərri-biyaban yetişib.

Şəmşiri-üryan ilən, gürzi-giran, tiri-sinan
Ağladı, həncərinə xəncəri bürran yetişib.

Əşhədu-ənnə sözün etmədi heç biri qəbul
Nə üçün bəs yaranıb bu qədər düşmən yetişib.

Həqq üçün, həqqə gəlib, həqqi qəbul etmədilər,
Əmir-As, Übeyd-Ziyad, Yezid nə Mərvan yetişib.

Nəslü şeytan bu qədər etmədi heç fitnə-fəsad
Ləşkərə Şimr dedi: - Əlimizə imkan yetişib.

Bihesab yarəsinə ağla Hüseynin ki hər an
Məlhəmi göz yaşıdır şəfayi Rizvan yetişib.

Biz nəsil ruzsi-ələst məhşərədək başmız ilə
Dəqq-bab eyləmişik xaliqə, Quran yetişib.

Gərçi şairlər ara Dəxili sultan dedilər
Həqqən nəzmdə sultan Qumriyi-nalan yetişib.

Qumriyi, Raci, Dəxil, çoxları hikmətdi bu gün
Əbdi İmam Hüseyn Məşədi Vahidxan yetişib.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

QƏSİDƏ

Allah mənə bəxşiş verib bu elmi, bu həvəsi
Fəxr edirəm mən özüməm İmam Hüseyn nəvəsi.

İrsən nəvə, irsən səyyid, irsən vələd, irsən ad
Şahi-Mərdan,Həzrət Əbbas,hamsı mənə qol qanad.

Gecə gündüz səs verirəm oğul vay naləsinə
Lay-lay deyən Əbbas, Qasim, Əkbər, Əskər səsinə.

Susuz gəzdi biyabanı Zeynəb, Gülsum, Səkinə
Hər yan dolu su qabları, içirdi əhli kinə.

Yandırdılar Səkinəni gün altında susundan
Yetim uşaq, ayaq yalın, zəncir bağlı qolundan.

Vururdular taziyanə başına zəncirvari
Gətirdilər şəmadətə Əhli-beyti, bimari.

Bar ilahi and verirəm səni Hüseyn dağına
Şam şəhrində Səkinənin xırdaca məzarına.

Bu gün məni sən görüşdür onlar ilə olum çağ
İmam Hüseyn qapımızdan bu gün girəydi Allah.

Yanında da əhli-beyti, təmamilə Şəhidan
Həm ömrümə qonaq ola, həm ruzimə Hüseyn can.

Mən öləndə başım üstə gələydi əldə Quran

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məni özü aparaydı özüylə bu dünyadan.

Məşəd Vahidxan, ona qurban malım, mülküm,
həm canım.
İmam Hüseyn dəftərinə **z**əbt olaydı imanım.

BƏYANNAMƏ

Nə hikmət yazmışam cavab vermişəm
Sizin üçün istiqamət vermişəm.
Elə yazıram ki, mən ərəb sözü
Sözə məəttəl qalır ərəbin özü.

Mənim düz sözümü gəzmə yalanda
Nə olsun millətcə ərəb olanda.
Agahlıq tapsaydı əgər ərəblər
Müsibət çəkməzdi Əhmədi-Mürsəl.

Dişin sındırdılar, əzdilər özün
Qovdular, gəzdilər yerin hər üzün
Məkkədən çıxıban o Rəsulullah
Kəhfidə Allaha gətirdi pənah.

Məkkədə, Xəndəkdə, Xeybərdə – bəli
Hər yerdə müşkülün həll etdi Əli
Elmi öyrən nə istəsən vurgilan
Mənim kimi ixtiralar qurgilan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ğayn bir min olsa, Əlif də mindi
Min bir adı olan, Xuda Kərimdi
Əlif, Lam, Mim, açа bilməz heç alim
"Təbarək Əllah Əhsənül Xaliqin".

Qüdrətinin yoxdur həddi-hüdudu
Nə əvvəli görünmür, nə də sonu
Məşədi Vahidxan hikmət sözüylə
Mənə nəzər eylər Allah gözüylə.

USTADIM HACI MİR ƏFSƏRƏ

Həccdən gələn ustadımın mən etdim ziyarətin
Dedim ağa danış mənə bu səfərin söhbətin.

O başladı danışmağa ahı ahlar dağladı
Söz yetəndə Kərbəlayə həzin-həzin ağladı.

Dedim – bu xoş səfər vaxtı nədir ağladan səni
Dedi – dinlə bu qüssədən agah eyləyim səni.

Məşədiyəm Kərbəlanı ziyarəti zamanım
Həzrət Əbbas özü oldu hər yerdə pasibanım.

Kazimeyndən, Samirədən, Mədaindən, Nəcəfə
Şahlar Şahı, Şahi Mərdan Həzrət Əli tərəfə.

Yolum düşdü Mədineyi-Münəvvərə yol üstü
Hər səmti ziyarət edib qayıtdım axşam üstü.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yol başladım mən Məkkəyə gedib Kəbə evində
Təvaf edib qabaq durdum məqami İbrahimdə.

Ordan getdim Səffa, Mərva, Ərəfata, Minaya
Gecə oldu boylanırdım ulduzlara həm aya.

Sübh tezdən bıçaq əldə qurban kəsirlim Allah
Biri sağda, biri solda Xəlilullah, Zibhumah.

İqdam etdim Zibh eyləyəm fikirlərim dayandı
Elə sandım yer-göy yandı bıçaq od tutdu yandı.

Qulaqlarım doldu tamam əl-ətəş naləsinə
Od vurulan, qarət olan əhli-beytin səsinə.

Xatirimə Kərbibəla müsibəti düşmüşdü
Bitab oldum dəydim yerə, dedilər sürüşmüşdü.

Dedim məni heç nə yıxmaz san ki canım çıxıbdı
Məni ağam İmam Hüseyn müsibəti yıxıbdı.

O almadı heç bir əvəz çoxlu qurbanlarına
Yetmiş iki şühədası boyandı qanlarına.

Əsir oldu əhli-beyti, şəhid verdi həmdəmi
Sinəsində dörd min yara Əli-Əkbər məlhəmi.

Səkinəsi Fərat boyu susuz gəzdi hər yanı
Xəlilullah burda kəsdi əvəz bir qoç qurbanı.

Əli Əskər körpə qundaq su istəyib yanırdı
İmam Hüseyn qolu üstə, meydanı dolanırdı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

AZAN

Məni yaxan o qəmlərdi hay-hayınan ağlaram,
Mişkilərə su doldurub əhli-beytçün bağlaram.

Səkinəyə su göndərrəm, berər Əli-Əskərə
Bar İlahi məni özün bağışla bu qəmlərə.

Səkinənin ziyarətin qismət eylə görüm mən,
Qapısından qəbrə kimi üzü üstə sürünnəm.

Dolanaram dizin-dizin məzarının başına,
Başım dəyməz inşallah mənim ləhəd daşına.

Şəfa istər, səfa istər hamınızdan hər zaman,
Kərbəlayi, mömin, şair, molla, Məşəd Vahidxan.

Ana yurdum, doğma ölkəm, bu cənnət Azərbaycan
Rayonumdur Hacıqabul, kənd Qubalı Baloğlan.

Sual etdin mənim heyrətlərə bais kəlamimdən
Üsuliddin, Firuddin-i çox istərəm canimdən.

Varımdır nəzmidə mahirliyim, təbim, ağam vermiş
Xudayi-Əkbəri-Sadiq mənə ço-çox məqam vermiş.

Xəbər aldın söz açsam yaxşıdır hikməti Azandan,
Nə qədər azan səsi getsə, ora girənməyir şeytan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Azan hikmətlərin açmağa meydana mübariz gəl,
Xudayi Əkbər, əhli beyt bir də Qurani münzəl.

Səvabın yığsalar üst-üstə Azanın görərsən ki,
Birinin səvabın ömrü boyu saya bilməz insan.

Əbül Qasim Bilalə izn verdi çəksin Azanı
O vaxtdan avazı Azan tutbdur külli dünyanı.

O vaxtdan Azanın avazı hər yanda fəraz olmuş
Kimin qailliyi varsa mələklən həmtəraz olmuş.

Azanı başla avaznan ki kimlər kimsəsin gəlsin
Ucadan söylə təkbir guşimə hər an səsin gəlsin.

O qüdrət sahibin səslə fəraz olsun səsin hər yan
Zəmini Kərbəladə yekkeyi hüseyn məzluman.

Ki sübhün azanın çəkdi Şəbihi Müstəfa ol gün
Və zöhrün azanın çəkməkliyə tapmadı müəzzin.

Düşüb ru qiblə səsləndi qəribəm ya əziz Allah
Qanından dəstəmaz aldı deyib İlahə İlləllah.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

TİLAVƏT

1
Aldım imamlardan hikməti salim
Allahın hökmiylə icazəsiylə
Bütün şəhidləri Kərbibəlanın
Qollarım üstdəydi həqq həvəsiylə.

Məhəmməd peyğəmbər çəkdim səlavat
Ərşin sütunudur Əlidən nicat
Fatiməyi Zəhra bi hovli sirat
Gəlləm oğlu İmam Həsən ilə.

Qollarım üstdəydi Şahi-Şəhidan
Almışdım qucaqə Əskəri ətşan
Həsrətlə baxırdı Səkinə nalan
Dedim susuz bala ağlama belə.

Kərbəla səqqası o ələmdarı
Basmışdım bağrıma öpüb qolları
Əli Əkbər meydana gedən yolları
Gedirdim dalınca Səkinəsiylə.

Cənabi Qasimin ətəş səsinə
Üzümü qoymuşdum gül çöhrəsinə
Ərusi Fatimə, Səriyyə-si də
Məni hifz edəllər öz duvasiylə.

Təll Zeynəb qırx gün məskənim oldu
Yetmiş iki Şühəda həmdəmim oldu

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qırxdan bir kəm üsəra qəmim oldu
Zeynəbin qardaş vay təranəsiylə.

On dörd məsum, yetmiş iki şühədası
Qırxdan bir kəm Kərbəla üsərası
Qiyamətə qədər saxlaram yası
Həm ağuş bimari Kərbəlasilə.

Məhəmməd Baqirin öpüb alnından
Cəfəri Sadiqdən elmi alıban
Museyi Kazimə olmuşam mehman
Qərib ağam İmam Rza-siylə.

Məhəmməd Təqi-ylə, Əliyyən Nəqi
Nişan verdi mənə Həsən Əskəri
Səslərəm həqq yola mən millətləri
Sahib-əz-Zəmanın qaim səsiylə.

Bar İlahi məsumlar hörmətinə
Rəhmət eylə bu mərhum nökərinə
Bağışla günahın bax əməlinə
Hüseynin Kərbəla müsibətiylə.

Məşədi Vahidxan bəzmi-əzadə
İmam Hüseynə qulam hər iki dünyadə
Atası Əli ilə olub amadə
Onlara ağlaram ney nəvasilə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

2

İltimas edirəm bu mərhumu sən
Bağışla Ələsti də Səfaya, ya rəbb
Öz nurundan yaratdığın həbibin
Peyğəmbərmiz ol Müstəfaya, ya Rəbb.

Yerin göyün ləngəri Şiri-Xuda
Ələstidən bəri ta müşkülgüşa
Şəninə oxunan Taha, Həl-əta
İmam Əliyyən Mürtəzayə, ya Rəbb.

Xatuni Qiyamət, Şəfayi məhşər
Binti Rəsulillah, ziynəti Kövsər
İmamlar anası cənnəti ənbər
Bətul, Fatimeyi-Zəhrayə, ya Rəbb.

Raziyyə, Mərziyyə, Ünsiyyə, Kubra,
Tahirə, Siddiqə, Huriyyə, Zəhra,
Zöhrə, Ümmül Hüseyn, Ümmül Əbiha,
Ümmül Əimməyə bağışla, ya Rəbb.

On il xəlqə olan imami məqam
Hətta tabutuna ox atdı üdvan
O qırx yeddi yaşında şəhid olan
İmam Həsəni Müçtəbayə, ya Rəbb.

Qurban verən öz qövmi, qardaşında
Əsir verən həm yari yoldaşında
Şəhid olan əlli səkkiz yaşında
Məzlum Hüseyni Kərbəlayə, ya Rəbb.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Babil həvaic səqqai Kərbəla
Otuz dörd il ömr eylədi dünyada
Əlinin qeyrətli qəzəb oğluna
Həzrət Əbbas Müşkülguşayə, ya Rəbb.

Cənabi Qasimi, Əli Əkbəri
Qırxdan bir kəm üsəra, Əli Əskəri
Səkinə atasın tapa bilmədi
Həsrət qaldı bir qurtum suya, ya Rəbb.

Əli qızı Zeynəb Saniyi Bətul
Bütün şəmadəti eylədi qəbul
Ümmət şəfasiyçın oldu xar, məlul
Bağışla həqqi üsəraya, ya Rəbb.

Həm Müslimi Sərdar, Zeynül Abidin
Müslüm oğlu Məhəmmədlə, İbrahim
Mühəmməd Baqir, Cəfəri Sadiqin
Museyi Kazimlə, Rzaya, ya Rəbb.

Mühəmməd Təqiylə, İmam Nəqidir
On birinci Həsəni Əskəridir
Sən Mehdi Sahib əz Zəmanla yetir
Məşəd Vahidxanı səfaya, ya Rəbb.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

TİLAVƏT
(Surələrin vəsfi)

Əllahümmə-səlli əla Məhəmməd,
Və Ali Məhəmməd – dedim vəsfinə.
Əüzü-billahi minəş-şəytanir –
Rəcimi – oxudum, rəcimdir yenə.

Bismillahir-Rəhman, bir də Rəhimi
Öyrəndim – Fatihə, Əl-Bəqərə-ni
Ali İmran, Nisa, Maidət, Ən-Am
Əraf, Ənfal, Tobə – bəraətinə.

Yunis, Hud, Yusif, Rəd, İbrahim,
Nicr, Nəhl, Əsra, Kəhf, Məryəm-im,
Taha, Əl-Ənbiya, Əl-Həcc, Möminun,
Yetişdim Ənbiya şəfaətinə.

Nur, Furqan, Şüəra, Nəml, Əl-Qəsəs,
Ənkəbut, Rum, Loğman, Səcdə-yi, Ənzab,
Səba, Fatir, Yasin, Səffat, bir də Sad,
Baş qoydum səcdənin ibadətinə.

Zümər, Ğafir, Füssilət, Şura-yi, Züxrüf,
Düxan, Casiyət, Əhqaf, Mühəmməd,
Fəth, Hücürat, Qaf, - bir də Zariəat,
Tur, Nəcm, Qəmər, - fəlsəfəsinə.

Ər-Rəhman, Vaqiət, Hədid, Mücadilə,
Həşr, Mümtəhinə, Səffi-yi, Cümə,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Münafiqun, Təğabün, Tələq, Təhrim-ə
Mülk-i, Nun-i, Haqqət, Məaric – ilə.

Huh, Cinni, Müzzəmmil, Müddəssir,
Qiyamət, Əl-İnsan, Mürsəlat – yeksər.
Ən-Nəbə, Naziat, Əbəsə – sərasər
Təkvir, infitar, Mütəffifin – ilə.

İnşiqaq, Büruc, Tairq-i, əla,
Ğaşiyət, Fəcr, Bələd, Əş-şəms, Leyl-a
Züha, Nəşrəh, Vəttin, Ələq – al şəfa,
Qədr, Bəyyinət, Zəlzələ – surəsiylə.

Adiat, Qariət, Təkasür, Əsr,
Hüməzət, Fil, Qurəyş, Maun, Kövsər,
Kafirun, Nəsr, Məsəd – al dərsi tər-tər,
İxlas, Fələq, Ənnas – hekayətiylə.

Altı min altı yüz altımış altı, ayat,
Həştad iki min dörd yüz həştad iki, kəlmat,
Üç yüz iyirmi min yüz otuz hürufat,
Natiqi Quranın himayətilə.

Öyrəndim, verdilər mənə büsatı,
Nöqtə-nöqtə keçdim Nəhvi-Sərfatı.
Məşədi Vahidxan aldım muradı,
Hüseynin Kərbəla müsibətiylə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

2

Əlifba sırası –səhihi tənzil,
Ənam, Əraf, Ənfal, Əsra, Ənbiya
Ənkəbut, Əhzab, Əhqaf, Əbəsə
Əla, Ələq, Əsr, bey-Bəqərə
Büruc, Bələd, Bəyyinat-tapdım şəfa.

Tey – Tobə, Taha, Tur, Təğabün
Təlaq, Təhrim, Təkvir, Tariq, Təkasür
Səcdə, Səba, Saffat, Sad, Səffi – dür
Casiyət, Cümə, Cinni, Hud, Hicr
Həcc, Hücurat, Hədid, bulmuşam səfa.

Həşr, Haqət, Hüməzət, Duxan-Meymənə
Zümər, Züxruf, Zariat, Züha, Zəlzələ
Rəd, Rum, Rəhman, şura, Şüəra
Şəms, Nəşrəh, Ali İmran – meysərə
Adiat, Qafir, Ğaşiyət – nəva.

Fey Fatihə, Furqan, Fatir, Füsslət,
Fəth, Fəcr, Fil, Fələq, Qiyamət,
Qəsəs, Qaf, Qəmər, Qədr, Qariət
Qürəyş, Kəhf, Kövsər, Kafirun – nəhy et
Loğman, Leyl, Maidat, Məryəm-təqva.

Möminun, Mühəmməd, Mülk, Mücadilə,
Münafiqun, Mütəffifin, Mümtəhinə,
Müzəmmil, Müddəsir, Məaric, - ilə
Mürsəlat, Maun, Məsəd, Naziat, Nəbə
Nəhl, Nur, Nəml, Nəcm, Nuh, Nisa.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nun, Nəsr, Nas, Vaqiət, Vəttin
Yunis, Adəm, Yusif, - müqtəda – Yasin.
Tənvin kəsrədən – İxlas, İbrahim,
İnfitar, İnşiqaq, İnsan – adəmin
Övladına düz yol göstərmiş Xuda.

Rəqəmlərlə yazım, sövq min tənzil.
Nöqtələrlə yazım, sərihi-tənzil
Hürufatla yazım, səhihi tənzil.
Məşəd Vahidxanın ustadıdır bil
Əbu Turab, Şahi Mərdan, La-fəta.

ÖZÜN BİL

Allah sənə qızıl verib
Anlamırsan özün bil.
Əqlin ilə dərk eyləyib
Anlamırsan özün bil.

Tək səni yox hamılıqla
Aləmləri yaradan
Sonsuz qüdrət sahibini
Anlamırsan özün bil.

Zərrələrdən min-min kiçik
Sən yaranmış zərrəsən
Düşündükcə sən bir heçsən
Anlamırsan özün bil.
Allah səni əziz tutur

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qızıldan da qiymətli
Kainatı sənə verib
Anlamırsan özün bil.

Aləmləri yaradana
Səcdə etmək hökmdür
Sağlam, uzun ömr üçün
Anlamırsan özün bil.

İblis özü qəza verməz
İbadətin Allaha
O Adəmdə rəcim oldu
Anlamırsan özün bil.

Şimri Sinan, Kərbəladə
İmami qətl eylədi
Sonra yenə namaz qıldı
Anlamırsan özün bil.

Ata, ana, el, cəmaət
Səndən razı qalmasa
Hey qılırsan nə namazdı
Anlamırsan özün bil.

Etməz qəbul o namazı
O səcdəni İlahi
Kin saxlayan, küsülülərdən
Anlamırsan özün bil.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məleykələr, cinni, insi
Yaranmışlar hamısı
Gecə-gündüz səcdədədir
Anlamırsan özün bil.

Namaz özü bir məktəbdir
Çox ali, çox qüvvəli
Bir insan tək ömr etməyə
Anlamırsan özün bil.

Bu gün səni başa saldım
Gələr Sahib-əz-Zaman
Qurar Mehdi divanını
Anlamırsan özün bil.

Allah özü bəxşiş verib
Məşədi Vahidxana
Şairliyi, möminliyi
Anlamırsan özün bil.

İNSAN KİMİ

Qalxıb-qalxıb kəllə vurma türbətə
Allahın qapısın döy insan kimi.
Heyvani hərəkət minməz qiymətə
Allahın qapısın döy insan kimi.

Reklam, maska möminlərə yaraşmaz
Təsbeh, əsa, araqçından kar aşmaz

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əba, Əmmamə heç yerə yapışmaz
Allahın qapısın döy insan kimi.

Qeybət, böhtan, təkəbbürdü sərişdən
Yalan, haram, dəllallıqdır əriştən
Əmanətə xəyanətsən hər işdə
Allahın qapısın döy insan kimi.

Həya eylə heç olmasa xudadan
Rəbbi ucuz tutma puldan, paradan
Kömək olmaz sənə, heç vaxt yaradan
Allahın qapısın döy insan kimi.

Sən unutma qəbr əzabın, bərzəxi
Can verməyin çətinliyin bir də ki
Səqəleyni, həqqi mizan, Duzəxi
Allahın qapısın döy insan kimi.

Rəyi olma yaltaqlıqdan yığış bir
Künc bucaqda bu nə mənəm-mənəmdir
Maskaya çox girmə, Xuda biləndir
Allahın qapısın döy insan kimi.

Hər tərəfdə təkəbbürlə gəzirsən
Elə bil ki, Allahın mavinisən
Çox adamla bu eldə küsülüsən
Allahın qapısın döy insan kimi.

Alnını dağlama, guya ki sənin
Gecə-gündüz ibadətdi adətin

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dəstəmazı, niyyəti öyrənmədin
Allahın qapısın döy insan kimi.

İbadətlə alın olsa döyənək
Peyğəmbərin alnı dağ ola gərək
Özünü yalanlan etmə küy-kələk
Allahın qapısın döy insan kimi.

Bir ayda qılıram min rikət nəmaz
Mömin alnı kimi alnım tam-taraz
Niyə bəs ucalmır alnımda qotaz
Allahın qapısın döy insan kimi.

Gah vurursan nala-mıxa çər kimi
Gəl meydana mən hazıram nər kimi
Ustadına şıllaq atma xər kimi
Allahın qapısın döy insan kimi.

Məşədi Vahidxan həqqi söylədi
Hər tərəfdə ustadlığın eylədi
Şəriəti sənə höccət eylədi
Allahın qapısın döy insan kimi.

ŞƏRİ DƏRS

Əlif-i öyrəndim bir şagird kimi,
Oxuyub yetişdim Bey – hikmətinə.
Tey – təsəlli tapdım həqqə yetişdim
Sey – səbr ilə razi-niyazətimə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Cim – cəhanı xəlq eyləmiş İlahi
Hey – hər yanda hökm eyləmiş İlahi
Xey – xeyr əməl et söyləmiş İlahi
Dal – dünyada üqba məhəbbətinə.

Zal – zalimlə yoldaş olma nə bada
Rey – rəhmətün itirərsən arada
Zey – zəhmətün zayə gedər dünyada
Sin – sin içrə düşərsən zülmətinə.

Şin – şəhadət verdim sidqi qəlbinən
Sad – sadiqəm hər yan xeyir əməlinən
Zad – zahirə çıxan Zülfüqarinən
Taha – gələn şəninə hikmətinə.

Za – zahirə hökm eyləyib görərsən
Əyn – eynullah göstərişin edərsən
Ğəyn – ğüfran dediklərin bilərsən
Fey – feyzində yetərsən hikmətinə.

Qaf – qiyamət gər oldu sənə əyan
Kaf – Kərbibəladan alarıq ənam
Lam – la-məkan ol Xudaya arxalan
Mim – Mühəmməd nurunun hörmətinə.

Nun – nüsrətdi səvab yolda qalasan
Vov – vurğudur gər agahlıq tapasan
Hə – həyatda fani dünya atasan
Yə – yetərsən üqba səfahətinə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məşədi Vahidxan şair, molladı
Hər yetəni höccət edir yoldadı
Hamını görürəm qilü-qaldadı
Ümid ol Allahın mərhəmətinə.

2
Əlif – öyrən anla naşı "sənətkar"
Ələstidən sözü biləsiyəm mən.
Zəbani zikrimdi Qurani Şərif
Bey-in bismillahda nöqtəsiyəm mən.

Hansı bismillahdı gəz, ara, axtar
114-dən biri kəmdi xidmətkar.
Yüz on üzdən tək biridi o izhar,
Şərəfli hikmətlər zirvəsiyəm mən.

Tey – təhrində elm öyrətdim bilmədin,
Sey – sidqilə doğru yola gəlmədin.
Cim – cəhanda yaxşı bir iş görmədin
Hey – həmişə hikmət düzəsiyəm mən.

Xey – xaliqə bütün sirlər əyandı
Dal - düşərsən pül siratdan amandı
Həzrət Əli iyirmi beş il dayandı
Onun vələdiyəm dözəsiyəm mən.

Zal – zahirdə peyğəmbərmiz həyandı
Rey – rənglər on ikisi əyandı
Zey – ziynətli möilidlər yarandı
Mübarək mövlüdlər nəvəsiyəm mən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Agahlıq tap həqqi sən nə sanarsan
Tərsa-tərsa cəhl eyləmə yanarsan.
İblisi ötmüsən həqqi danırsan,
Əyri yoldan səni üzəsiyəm mən.

Məşədi Vahidxanam pənahım Allah
Sidqi qəlbnən İsmayili Zibhullah
Mühəmməd Peyğəmbər, Əli Vəliyyullah
Müxtəsər Adəmin nəvəsiyəm mən.

DƏR-BƏND KİMİYƏM
(Dərbənd mollaları ilə söhbət)

Aya – "Dəmir qapı Dərbənd" – deyillər
Mən də həqq yolunda dərbənd kimiyəm.
Həm Dərbənd yolunda dəmir qapıyam
Həm dəmir qapıda dər bənd kimiyəm.

Allah rizasinə başından keçən
İlahi eşqinə hər dərdi çəkən
Taət itaətdə dəmirdən möhkəm
Kərbəla deştində pir bənd kimiyəm.

Kürd oğlu, bir qılınc axtarıb-ara
Yarı polad ola yarı Nalpara
Allah hökm eylədi ildırımlara
Əldə "Misri qılınc" pür bənd kimiyəm.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu fani dünyada nə hay-haraydı
Düzün Allah sayır nə sayhasaydı
Drayzer necə ki, tapdı Klayd-ı
Mən də bədhesaba kəmənd kimiyəm.

Soltanheydər, Gəlinqaya, Dəlidağ
Gərdənədən taxtalara bax ha bax
Qiblə bulağından Koroğlu sayaq
Yüz min leşkər ola dər bənd kimiyəm.

Baldan şirin, acı ağudan dünya
İskəndər səddini dağıdan dünya
Bir xəbər ver babam Tağı-dan dünya
Atırsan hər şeyi sapand kimi sən.

Məşədi Vahidxan, sözlərin tibrun
Nə qədər ömrün var yay Allah hökmün
Naşılar anlamaz sənin sözlərin
Ustad məclisində pir bənd kimiyəm.

USTADNAMƏ

Ustaddan dərs alan virdin eyləyər,
Bismillahla, əssəlamla, haqq yolla .
Eldən elə düşsə xəlq arasında
Ehtiram qazanar gələr sağ ol-la.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xəbər aldın savadmı, elmimi
Dədə-baba soyadımı elimi
Azərbaycan vətənimi dilimi
Hifz eyləsin həmişə qüdrətullah.

Pula qul olmadım fani dünyada
Simu-zər dalınca qaçmadım əsla
Nə qədər mərifət qazanılsa da
Bu zamanda hörmət ölçülür pulla.

Atam Hüseynağa Bağı oğludur
Dədəm Bağı MəşədƏzim oğludur
Babam MəşədƏzim Tağı oğludur
Həm Aşiqdi, həm Şairdi, həm Molla.

Kərbəlayi Molla Məşədi Vahidxan
Pir Hüseyn xanəgahı bizlərə ünvan
Rayon Hacıqabul kəndim Qubalı-Baloğlan
Nə ərzin var bir naməylə yaz yolla.

ALLAHÜ ƏKBƏR

Əsil olan cüda düşməz elindən
Eyləyər elinən Allahu Əkbər.
Xeyir əməlinən, təmiz qəlbinən
İqrari dilinən Allahu Əkbər.

Yüz iyirmi dörd min peyğəmbər, on iki imam
Könlümdə şairlik, qəlbimdə Quran

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bütün rütbələri daimən əl-an
Bəxş edibdi mənə Allahu Əkbər.

Naşılar t oplaşdı ustadam deyə
Yiyələri yoxdu başlarına döyə
Qəbul etdim onları şagirdliyə
Allah rizasinə Allahu Əkbər.

Millət baxdı bu ibadət əhlinə
Şeytan əməlinə, şər sifətinə
Gördüm tələ qurur hamısı mənə
Mən "fəthi" oxudum Allahu Əkbər.

"Əhəsibənnası" onlara biçdim
"Və qül caəl həqqü" su kimi içdim
"Ya veyləna" dedim "Vəttin"-ə keçdim
"Və in yekad" ilə Allahu Əkbər.

Məşədi Vahidxan haray eylə sən
Həzrəti Əliyə heyrandı aləm
Bir əldə Zülfüqar, bir əldə Ələm
Gələr Düldül ilə Allahu Əkbər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

KƏFƏNƏ

Zahida, bükmə məni ayə yazılmış Kəfənə
Neyləsin ayə günah ilə bələnmiş bədənə.

Ustad Hacı Yəhyəvi Ərbədili

Yazdırıban kəfənə ayə bürünsən də belə
Qoyuban türbəti əla qəbrə atma elə
Təsbehi, Canamazı kəllənə qoysan da elə
Yoxdu bir sayə günah ilə bələnmiş bədənə.
Zahida, bükmə məni ayə yazılmış kəfənə.

Nə gərək türbəti əla bulaşa qan qoxuya
Dağılıb cər-cəsədin orda üfunət qoxuya
Neçə molla yığılıb ruhuna Quran oxuya
Yoxdu bir sayə günah ilə bələnmiş bədənə.
Zahida, bükmə məni ayə yazılmış kəfənə.

Yetmiş il ömründə sən baxmamısansa namaza
Nə gərək molla sənin kəfəninə ayə yaza
Ləhədin divarında türbət üçün deşmə qaza
Cənnəti qismət edir rəyi əməl bəlkə sənə
Zahida, bükmə məni ayə yazılmış kəfənə.

Məşədi Molla Vahidxan sizə agah eləyir
Yalandan yatıb qəflətdə hamı bilmirəm deyir
Allahı aldatmaq olmaz orda hiylə keçməyir
Məhşərə maskada gəlmə haqq qənim olar sənə
Zahida, bükmə məni ayə yazılmış kəfənə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

FATİHƏ

Bismillahir-Rəhmanir, həm də Rəhim.
Adınla başladım ya Allah sənin.
Əlhəmdü-Lillahi Rəbbil Aləmin,
Həmd olsun rəbbinə bütün aləmin.

Ərrahmanir-Rəhimsən – hər tərəfdə,
Maliki Yəvmiddin, - sahibsən həm də.
İyya kə nəəbudu – səcdə eylərik,
İyya kə nəstəin – hacət dilərik.

İhdinəs – Sirətəl – Müstəqim – dedim.
Doğru yola yönəlt bizi ey rəbbim.
Sira Təlləziynə ən Əmtə Ələyh
Nemət bəxş etdiyin göndərdiyin vəhy.

Ğeyril məğzubi ələyhim, - Allah
Qəzəbə gəlmişdən əstəğfürullah
Vələzzalinləri Əzir durmadan
Şair, molla, mömin, Məşədi Vahidxan.

QƏDR

Bismillahir-Rəhmanir-Rəhim – oxu
İnna ənzəlnahü fi ləylətil qədr.
Agahlıq tap, öyrən, anla səhihin,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Və ma ədraikə ma ləylətül qədr.
Bax fəzilətinə böyük qüdrətin,
Ləylətül qədr xəyrün min əlfi şəhrin
Sübhədək şükr eylə qadir Allaha
Tənəzzəlül məlaikətü vərruhu fiha.

Hər iş üçün enər yerə mələklər,
Bi izni Rəbbihim, min külli əmrin.
Sübhə kimi səlamətlik taparsız,
Səlamün hiyə hətta mətləil fəcri.

Şair, molla, mömin, Məşədi Vahidxan,
Hər ayədən qurar yeddi cür büsat.
Şiri-Xuda verir hər elmi mənə,
Şagirdə şagirdəm, ustada ustad.

KÖVSƏR

Başladım adının köməkliyiylə,
Qəbul et hacətim, duamı dinlə.
İlahi, ver mənə istedad, hünər,
Necə – "İnnə Ətəynakəl Kövsər".
İbadətim səhih edirəm ehsan,
Fəsəlli – "Li Rəbbikə Vənhər"
Məşəd Vahidxana kəc baxanları
"İnnə şaniəkə, Hüvəl Əbtər".

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İXLAS

Bismillahir-Rəhmanir-Rəhim – oxu
Qül-hüvəllah Əhəd – təkdir Tanrımız.
Bi ehtiyacdır – Əllahüs-Səməd
Ləm yəlid – öyrənib anlayasınız.

O hər şey yaratmış, yaranmamışdır
Bənzəri də yoxdur – və ləm yuləd
Taət itaətlə Məşəd Vahidxan
Və ləm yəkun ləhu küfuvən əhəd".

NAS

Sənə sığınıram edib iltimas,
Dedim – qül Əuzu və Birəbbinas.
Bütün mövcudları yaradan sənsən,
Rəbbim – MəlikİnnasvəilahinnasŞeytan əməllərdən çox uzağam mən,
El gözü – min şərril vəsvasil xənnas
Şeytan kimilərdən qaçıram hər dəm,
Əlləzi yuvəsvisu fi südurinnas.

Ələstidən Qiyamətdən də sonra,
Məşəd Vahidxanı hifz eylə mövla.
Uzaqlaşdım – Minəl cinnəti vənnas,
Sənə sığınıram edib iltimas.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ƏLİF - LAM

ƏLİF – Ədl, Rəhim, Rəhman,
BEY – birliyə işarətli.
TEY – təsəlli, SEY – Səbrdi,
CİM – Cəhan, HEY – hələkətdi.
XEY – Xeyr əməl, DAL – Dəlillik,
ZAL – Zalimlər, REY – Rəcimdi.
ZEY – Zəbani, SİN – Sənlədir,
ŞİN – Şəqi, SAD – Səadətdi.
ZAD – Zahid, TA – İtaətlə,
ZA – Zahirdə, ƏYN – Əhməddi.
ĞƏYN – ğafil olma cəhanda,
FEY – fail, QAF – qənaətdi.
KAF – Kun əynə, LAM – layiq ol,
MİM – Möhnət, NUN – nəsihətdi.
VOV – Vaqifdir, HƏ – hər elmə
ƏLİF – LAM bir cür qüdrətdi.
YƏ – yəqinlik hər hökmünə
Ol Xudanın çox rəhmətdi.

Molla Məşədi Vahidxan,
Şairliyi vermiş ağam.
Virdim Allah, həm də Quran,
İşim Taət, İtaətdi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

TƏRS ƏLİFBA

YEY – Ya Allah, LAM – Əliflə,
Allah birdi, HƏ – heyrətdi.
Heyran qaldım qüdrətinə
VOV – vəhyilər, NUN – Nüsrətdi.
MİM – mənlədir, LAM-la şərik
KAF – kun fəkan, QAF – qüdrətdi,
FEY – feyzində, ğəyn – ğufranın
AYN – ayə, ZA – zəhmətdi.
TA –taət, ZAD – ziynətli,
SAD – sadiq, ŞİN – şəriətdi.
SİN – ya insan, ZEY – zülmətdə,
REY – rahət, ZAL – zəlalətdi.
DAL – dəhrində, XEY – xaliqə,
HEY – hidayət, CİM – cənnətdi.
SEY – seyrində kun fəkanın
TEY – təamda tül salanın
BEY – bir min kəlmə pünhanın
Bir kəlməsi icazətdi.
ƏLİF – ol qadiri Sübhan,
ƏLİF – əldən vermə iman.
ƏLİF – Məşədi Vahidxan
ƏLİF – qəddə işarətdi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ELM

Elm inkişaf etməyib hələ əvvəlki qədər
Çox əsrlər keçəcək o səviyyəyə qədər.

Süleymanlar, xaqanlar gəlib gedəcək hələ
Çox Məşəd Vahidxanlar aşırdacaqlar selə.

Bu bəzəkli dünyanın hüsnünə çox aldanma
Ləziz nemətlərini özünçün həyat sanma.

Həyat odur iz qoyub gedəsən bu dünyadan
Beləsin əziz tutur həm də böyük yaradan.

Bu sonsuz kainatı xəlq eylədi bir anda
On səkkiz min aləmi yaratdı bu cahanda.

Yüz on dördündə onun qərar verdi yaşayış
Bəzinə od püskürür, bəzinə yağır yağış.

Ola bilsin o odlar deyil narun-hamiyə
Ya yağdırırsa yağış ziyan verməyir öylə.

***

Xaruqələrinə heyranam heyrətdəyəm gündüz-gecə,
Öyrənmək üçün bürcləri Ruhul-Qüdsi tapın necə.

Seyr edirəm səmaları gecə gündüzdən bəzəkli
Heç nə əbəs yaranmayıb hamsı bir-birdən gərəkli.

Milçək mz atsa mikrobdur özü dörd məhlula
dərman

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əbəs bir şey yaratmayıb bu kainatda yaradan.
Türkə-çarə ilə qarı şəfa verdi heyrətamiz
Böyük həkim Calenus özü məriz olan zaman.

Musa Tur-a gedən zaman çöldə gördü qara qurdu
Dedi Allah sənə bəyan bu nə tapdı, nə yoğurdu.

O qara qurd baş aşağı aparırdı mal peyinin
Heyrət etdi, dedi Allah yaranıbdı Musa neyçin.

Şimri niyə yaratmışdı, Hüseyn niyə oldu şəhid
Adəm niyə yaranmışdı, şeytan nəyə gərək imiş.

MƏNİM NƏSL ŞƏCƏRƏM

Həqqin yoluyla gedir bizim nəsil əzəldən
Sadiqlərin yoluna biz səpmişik əzəl dən.

Yədullah verir mənə təlim-tərbiyə pünhan
Şahi-Mərdan quluyam, bir də qadiri-Sübhan.

Bu ixlaslıq yolunda mənəm xak, bad, atəş, ab
Mənimçin döşəyibdir bu yeri Əbu-Turab.

Soruşdun həqq yolumu, soyadımı o ki, var
Azca məlumat verim qalmayasan intizar.

Anamın atasıdır Maşad Səyyid Hüseyin
Yüz möcüzə göstərdi öz dayım MirHüseyin.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir deyin şəcərəmi hansı tərəfə çəkim
Babam Kərba MirMehdi, anamdır SəyyidBəyim.

Ata babam MirTağı SəyyidHəsən oğludur
Bizim ömür yolumuz müqəddəslər yoludur.

Mir, Səyyid yazmadıq biz əzəldən soyadmızı
Nə ehtiyac, Mir – deyib çağıralar admızı.

Səyyidlər əməliylə, hikmətilə tanınır
Davranışı, əxlaqı, söhbətilə tanınır.

Səyyidsənsə cəddinin hikmətinə arxalan
Gülüstan sal, çiçək ək, salma xari muğilan.

Ovuşdur gözlərini diqqət eylə o ki var
Dünyada Adəm varsa, İblis də, qatil də var.

El ki rəyi, yalançı, böhtan, qeybət eyləyə
El gözü tərəzidir demək olmaz o elə.

Yaxşı işlər görəni sən tez sanma səvabkar
Allah bəxş edib ona, rəbb özüdür səbəbkar.

Mənəm, mənəm deyən kəs bağlı görər qapısın
Heç Allah da açmayır o kəslərə qapısın.

Adəm, İbrahim, Yusif, Məhəmməd, Əli, Hüseyn,
Eynullah adlandılar oldular allah eyn.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Çoxlar Eynullah qoydu övladının adını
Əməlində gördülər yalnız şeytan dadını.

Rəhbərlikdə olan tək hamsı oldu zülmkar
Yaranışından belə bütün nəsli zinakar.

Mömini and da versən dönməz, həqqə olub yar.
Belələrin dost tutur özünə pərvərdigar.

Mömin oldun, olmadın, Allah üçün nədi fərq
Allah nuru yanında, neylər qığılcım ya bərq.

Allah buyuran yolla sən aparsan özünü
Əzəmətli olarsan ucaldarsan özünü.

Söyləmiş – "Əl Quranu müəddəbətullah" – ol
Ədəb öyrən və öyrət, özün də ədəbli ol.

Agahlığın yox isə öyrədim sənə min yol
İnsan kimi ömr eylə ədəb məktəbinə dol.

Nə qədər ki mən sağam gəl mənim meydanıma
Demə tapa bilmərəm uzaqdı ünvanıma.

Məkkiyə gedər kişi soraqlaşsa soraqnan
Rayonum Hacıqabul, kənd Qubalı-Baloğlan.

Şeirlərim hər tərəfdə olubdu virdü-zəban
Söhbətlərim danışılır zərb-məsəl tək hər zaman.

Məşəd Vahidxan şeirindən, oxu hər avaz gələr
Toru olan torun qursun bu tərlandan az gələr.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BƏS NİYƏ ANAMIN ANASI YOXDUR

Məni, bir bal kimi bəsləyib anam.
Bala istəyinə onun, heyranam.
Gündə yüz yol deyir – boyuna qurban
Heç kəsin anam tək anası yoxdu,
Bəs niyə anamın, anası yoxdu?

Atadan, üç aylıq qalıbdı yetim,
On iki yaşında, anadan yetim.
Anası olsaydı onun, nə dərdim.
Balanın ana tək düvası yoxdu,
Bəs niyə anamın, anası yoxdu?

Hərdən xəstələnib yatdığı zaman,
Anasızlıq üzür onu anbaan.
Bir yol can deməyə səhər, ya axşam,
Ana sözlərinin şəfası çoxdu,
Bəs niyə anamın, anası yoxdu?

Atam xəstələndi, anam dedi – can
Mən özümü min yol deyirdim qurban.
O da son nəfəsdə dedi – ana can.
Bildim ki, dünyanın vəfası yoxdu,
Bəs niyə anamın, anası yoxdu?

Belə qərar qoyub bizi yaradan,
Heç kəs ömür boyu doymaz anadan.
Atam da anasız köçdü dünyadan,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Anasız ölənin nəvası çoxdu
Bəs niyə anamın, anası yoxdu?

Məhəmməd Peyğəmbər, Həzrəti Əli,
Həm İmam Həsəni, həm də Hüseyni,
Fatimeyi Zəhra, Zeynəb, Gülsumi.
Hamsı yetim öldü, anası yoxdu,
Mənim də anamın anası yoxdu.

Pənah apardığım, həmişə yalquz,
Yoxdu ata, bacı, qardaş, oğul, qız.
Biehtiyacdır – anlayasınız
Ana, təsəlli tap, hikmətlər çoxdu,
Allahın özünün anası yodur.

Bir gün mən də bu dünyadan köçəndə,
Ana deyib huy çəkib səsləyəndə,
Anam tək can deyən tapılmaz mənə.
Bax, bu müşkülümün dəvası yoxdu
İndi də anamın anası yoxdu.

Məşədi Vahidxan, nə qədər varam
Mən özüm anama ana olaram.
Amma gündə min yol mən desəm də can,
Anası sus desə səfası çoxdu,
Bəs niyə anamın, anası yoxdu?

2000

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

HƏYAT YOLDAŞIMA

Daimi deyilik anla əzizim,
Haçansa dünyadan köçəcəyəm mən.
İlahidən rüsxət iltimas edib,
Hərdən bir yuxuna girəcəyəm mən.

Səni tək buraxmaz ruhum da inan
Gecələr yuxuna girməsəm də bil
Gecəli, gündüzlü sənlə olacam
Hansı yanda olsan görəcəyəm mən.

Məşəd Vahidxanam ürəyim səndə
Qədrimi bil gülüm sadiq ol sən də
Məni istəsən də, istəməsən də
Həmişə üzünə güləcəyəm mən.

05.2003

MƏN SƏNİN QARDAŞINAM

Atam, anam, ustadım – nə çəkir başım mənim
Şirin sözlü beş bacım, bircə qardaşım mənim
Üç qızım, dörd oğulum, həyat yoldaşım mənim
Mehriban nəvələrim, sənin məhəg daşınam
Mən sənin qardaşınam.

Sizə ata əvəzi, ana tək yurddaşam mən
Sizə bacı tək bacı, qardaş tək qardaşam mən

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nə qəmin olsa, gəl de, hamınıza sirdaşam mən
Müşkül güşa yolluyam, gözdə sevinc yaşınam
Mən sənin qardaşınam.

Atama – bacı, qardaş, oğul, qız, ana-oldum
Anama – bacı, qardaş, oğul, qız, ana – oldum
Hamnıza – bacı, qardaş, oğul, qız, ana – oldum
Nəslim – əzəlim, sonum, qızıl taclı başınam
Mən sənin qardaşınam.

Ürəkdə sağalmayan yaram var – torpaq dərdim
Görən nə vaxt sağalar ürəkdə millət dərdim
Əsir düşən qız, gəlin, ay qırılan millətim
Əllərini mənə ver, cəbhədə savaşınam
Mən sənin qardaşınam.

Torpağım işğal olub iyirmi faiz gedib,
Bircə əsr öncə də otuz faizi gedib.
Ondan əlli il qabaq iyirmi faiz gedib,
Ürəyim parçalanıb gör neçə faiz gedib.
İşğal olan ürəyim gərək səndən yaşınam
Mən sənin qardaşınam.

Meşələrin rişəsi, özü – qurun yaşınam,
Vətənin ərazisi, torpağın həm daşınam.
Bu yoldan ömrüm boyu çətin dönəm, daşınam,
Soyqırım olanlarım, sənin məzar daşınam,
Mən sənin qardaşınam.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yoxdu məndə ixtiyar – olmamışam iqtidar,
Son damla qanımadək vuruşaram biqərar.
Ya torpağım alaram, ya ölləm mərdanəvar,
Qoç Koroğlu nəsliyəm, şir oynadan başınam
Mən sənin qardaşınam.

Məşədi Vahidxanı vətən dərdi yandırır
Vətənimin hər yeri Kərbəlanı andırır
Heç kim birliyə gəlmir, hamı dönüb yan durur
Birliyə gəl, cəsur ol, sənin təməl daşınam
Mən sənin qardaşınam.

1993

MİLLƏT QAYĞISI, EL QAYĞISI

Dərdin çəkdim gecə-gündüz
millətimin, xalqımın,
Əllərinə fürsət düşcək
qabardılar üstümə.
Var dövlətimi yedizdirib,
qayğılarına qaldım.
Məni oda qaladılar,
qızındılar istimə.
El yolunda çox çalışıb
yandım ömrüm uzunu,
Ağ buludlar heyran qaldı
ərşə büləndtüstümə.

2002

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

EYNƏK ALMAMIŞAM HƏLƏ TAXMAĞA

Eynək almamışam hələ taxmağa,
Ehtiyac da yoxdur, Allaha şükür.
Bəs niyə həyatda bir çox adamlar,
Öz donundan çıxıb iki görünür?

Kasıbın yanında, bir tacir kimi,
Dövlətli yanında bir yoxsul kimi.
Gücsüzlə rastlaşsa, ac pələng kimi,
Şir görəndə, dərhal tülküyə dönür.

Dünən bir cür idi, bu gün ayrı cür,
Gəlin, eynək taxıb diqqətlə baxaq.
Yəni dəyişilib bir gündə bu cür?
İmkanlı dalınca yaltaq sürünür.

Azca imkanlılar söysə, döysə də,
Böhtan da danışsa, yenə əyir baş.
Önlərində torpağacan əyilir
Üzünə gülür ki, "istəkli qardaş".

İki üzlüləri çox görmüşük biz,
Məşədi Vahidxan heç mat qalmasın.
O şəxslər ki, gündə yüz dona girir,
Bax, o iyrənclərdən Allah saxlasın.

2000

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BİRƏR-BİRƏR

Ustadlar deyərlər ustadnamələr,
Naşılar anlaya, ha birər-birər.
Allahdan bərəkət, ruzi dilərəm
Başlayıb yağmağa, ha birər-birər.

Allah bir ölkəni nəzərdən salsa,
Həmin xalq yalvarıb şəfaət alsa,
Vətən qorumağa yüz ləşkər olsa,
Sərkərdə lazımdı ha bir-ər,bir-ər.

Hay hayınan gələn gedər vayınan,
Su qoşulan, axıb gedər suyunan.
Allahdan bərəkət olsa muyinan,
Damla olar ümman, ha birər-birər.

Haqqı atıb, nahaqqı söyləyənin,
Dəllallıqla əyri yollar gedənin,
Xəlqi soyub, xəlqin malın yeyənin,
Gələr gözlərindən ha birər-birər.

Yetim-yesir malın soyub yeyəllər,
Milləti satıb lovğa-lovğa gəzəllər.
Bəlkə də utanıb həya edəllər,
Məşədi Vahidxan, yaz birər-birər.

1993

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

DANIŞIR

Əyyühənnas diqqət verin bu dərdə,
Vətən satan ədalətdən danışır.
Vətən, torpaq qeyrətin çəkməyənlər,
İgidlikdən, dəyanətdən danışır.

Rayonları qızıl pula satanlar,
Öz millətin arxasından atanlar,
Millətin, namus qeyrətin satanlar,
Kişilikdən, pür qeyrətdən danışır.

Vətən torpağın satıb kef çəkənlər,
Xalqın soyub, villalar tikdirənlər,
Cihad vaxtı xaricdə gizlənənlər,
Səhərədək barlarda kef çəkənlər,
Nakəslərdi səxavətdən danışır.

Vətən oğlu, sən niyə mat qalmısan?
Sən ki, ilahidən murad almısan,
Çox nadürüstləri yola salmısan
Nakəslərdi şücaətdən danışır.

Bəd ayaqda mənim xalqım uludu,
Hər tərəfdə cəsurlarmız doludu.
Qoç Koroğlu bu ellərin oğludu
Məqamında cəsarətdən danışır.

Məşədi Vahidxan hayanda varam,
Şərəfimdir azərbaycanlıyam.
İgidlərmiz indi olub nümayan
Telli sazım hidayətdən danışır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

TƏKƏBBÜRLƏRƏ

Dil bilmirsən, öyrənmirsən, özün bil,
Heç olmasa lüğətə bax, ay hənək.
Təqva Allah qorxusudur – öyrən bil
İkinci də – pəhrizkardı – ay kələk.

O gün tələsirdin göyə baxmağa
Təkəbbürlə getmə bir bax torpağa
Cəzm olmusan bənzərin var dovdağa
Cəzm oluban lap-lap uçma kəpənək.

Dörd-beş ildi ayılmısan, çox sağ ol
Fantaziya qoşuma heç vaxt – budu yol
İslam dinin bir yolu var ayıq ol
Gah söyləmə xiyar, gah da yelpənək.

Ağıl dəli, əməl dəli, söz dəli
Cinunları hökmlərdən üzməli
Mömin, igid heç vaxt olmaz cəzməli
Vücudunda sən yaratma küy-kələk.

Qəlblər sındırırsan tanımırsan da
Sən günah qazanma marü-mur sanda
Məkana getməmiş, hələlik kanda
Agahlıq tap, mərifət biç, ədəb ək.

"İbadətdə" tanıdıb nəfəsini
"Quran oxub" hey ucaldıb səsini

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sən kimilər soydurdular Nəsimi
Nöhəsəra oldu kiyuni-mələk.

Sənə nişan verim Həzrət Əlini
Çəkdi Zülfüqarın Allah Əlini
Hər müşkülə düşdüm tutdu əlimi
Verdi mənə on dörd məsumdan kömək.

Mənim hifzim üçün çaldı Zülfüqar
Səsi aşkar cingildədi o ki var.
On iki il Hifz elədi biqərar
Üzülmür süfrəmdən heç vaxt nan-nəmək.

Mən bir zəlil, bixaniman bir insan
Şair, molla, mömin Məşəd Vahidxan
İndiki bəndələr təqvama heyran
Varam təqva, Quran, Allah - deyərək.

ALLAHA TAPIN

Agahlıq tap ki, xudaya sən şərik vermə qərar
Nə böhtanlar atırsan Rəbbimizə, eylə bir ar
Saysız hikmətlər tutubdur ki, vücudmuzda qərar
Bəxş edib izzət ilə qismətmizə pərvərdigar.

Hər zaman, bil ki, xudanın kərəmi tüğyan edir
Aç ona əllərini, aç dilini gör nə verir
Olmayan yoxdu o dərgəhdə ki, məyus olasan
Kimi şəhadəti, kim mülkü-malı qəbul edir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xəlqi axtar həmişə, xaliqi axtarma, a kor
Tüllab ol, dərsini al, ustada kəm baxma, a kor
Nə olsun var qulağın, həm də gözün, ay kar, kor
Əqlini verginən qəlbin gözünə gör nə edir.

Özünü gözləginən, son dərəcə diqqət elə
Varkən imkanı firavan özünü vermə yelə
Həqqi batil eləyib, günah yığıb gəzmə belə
Hər nə eylərsən əməllər axırı sənlə gedir.

Məşədi Molla Vahidxan sənə bir söz demədi
Bəndəni aldadırsan, Allahı aldatma dedi
Gözünə qan damar ustadına kəm baxma dedi
Özünü səhmana sal, son səfərin təklif edir.

BİLİRƏM DEYƏN
(Təkəbbürlərə)

Təkəbbürlük edib bilirəm deyən
Rəsulu Xudanın neçə adı var.
Allahın adının sayın bilmədin
Bəs Şiri-Xudanın neçə adı var.

Əlif Allah min bir adla bircədi
La-məkandı, la şərikdi bircədi
Rəsuli-Əkrəmin adı mincədi
Zəhrası tutubdu ali bir qərar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mövla-müttəqiyan Əlif, Ğayndı
Adlarını dedim öyrən say indi
Allahla bir olan hikmətə mindi
Nəhy-əz-münkərlər olur tar-mar.

Mənim ağam Əbu-Turab, La-fəta
Fəth, Taha, Yasin, İxlas, Həl-Əta
Şiri-Xuda, Şahi-Mərdan, Mürtəza
Dəstindədi ikibaşlı Zülfüqar.

Səlasildə əttar, xəndəkdə əmir
Xeybərdə Harislə, Mərhəbi böldü
Çıxart meydaninə görüm kimin var
Nənnidə adlandı Hey-dəri-Kərrar.

Bir əba altında pənc Ali-Əba
Əvvələn Fatimə Həzrəti Zəhra
Saniyən Əbiyha Rəsuli-Xuda
Salisən bəliha saqiyi-Kövsər.

Pənc ali-əbanın çaharı, pənci
Bəniha, Bətulun Həsən, Hüseyni
Həqq yolunda, bir də Quran yolunda
Tifağı dağılan məzlum Hüseyni
Şəfada oldular sahib ixtiyar.

Şətti Fərat ğazibiyyə pür-bəla
Dəşti bəla, mina həm də Neynəva
Şəhid oldu Xamisi Ali-Əba
De Kərbibəlanın neçə adı var.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Pənc Ali-Əbadı bir də ki Quran
Tanınırlar hər biri min adınan
Quranın özündə araşdırginan
Quranın özünün neçə adı var.

Deyirsiz bu dünya bizə norağdı
Agahlıq tapın deyilənlər haqqdı
Cəhənnəm, qiyamət, bərzəx uzaqdı
Can vermək halı var, qəbr əzabı var.

Deməyin olmayıb bizlərə deyən
Məndən qabaq bu dünyadan köç edən
Dördüncü babam sizləri höccət edən
Aşiq, şair, mömin babam Tağı var.

Məşədi Vahidxan çəkmə dərinə
Bunlarda inam yox xuda-Kərimə
O dünyanı bu dünyanın yerinə
Bir qəpiyə, bir manqura satıllar.

MOLLA

Məhəmməd peyğəmbər röyada gördü
Hər yandan minbərə dırmaşır "molla".
Xasyət yaltaq, rəyi, zinakar, kafir,
Utanmır Qurana sarmaşır "molla".

Harda ağzın açsa böhtan söyləyir
Hər tərəfdə yalan, qeybət-eyləyir

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yüz sifətlə hər dəllallıq eyləyir
Yetim, yesir malın talayır "molla".

Söz-söhbəti kafirliyi qoxuyur
Zornan özün hər bir işə toxuyur
On beş ildir pulnan Quran oxuyur
Həriflərin çoxusun tanımır "molla".

Müftə yemək, pul günün cənnət sayır
Xums, Fitrə, Zəkat vermir saxlayır
Din yolunda cihad olcaq axsayır
Guya ki şikəstdi, çolaqdı "molla".

Vəsf eləyim siz də baxın dadına
Bələd olun elminə, savadına
Bir dənə də düz söz gəlmir yadına
Yalanı, yalana culayır "molla".

Sən dəyişmə düz sözümü bəndə bax
Elm oxuyub dərs almışam sən də bax
Doğru sözə, yalanı vurma yamağ
İç üzü açılıb çattayır "molla".

Kor tək sayıb vermə cavab tərs yabı
Elmə can at, dərsini al tüllabı
Düz öyrətsəm tərsə atır şillağı
Özü tək ulaqları yalayır "molla".

Çox əymə ağzını, əyilər ağzın
Qiraəti öyrən, Allaha tapın

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qiyamətdə çəkəcəksən əzabın
Qəbr əzabı, bərzəxi qanmır "molla".

Məşədi Vahidxan Xuda kərimdi
Höccətində davam eylə nər indi
Nəhyəzmünkər, Zinakarlar, şər-indi
Özləri bir birilərin sanır "molla".

MOLLA MÜÇTƏBAYA

1

De nədi toplanıb ay "dolu molla",
Mim-di, Cim-di, Tey-di, Bey-di-yan yana.
Onlara həmdəmdi Vov, Hey, Dal, Xey, Nun
Mümkün olsa tap bunları xırdala.

Mən bir sadiq qulam Əlif, Lam, Hey-ə
Sidqilən Mim, Hey-i, Mimmi, Dal-deyə
Gör necə çalmışam Hey-i, Dal, Rey-ə
Fey, Tay, Mim-i gəl üstünə xırdala.

Uduzma fürsəti, sürüşmə yoldan
Rəqəmlər hər dildə yazılır soldan
İki dənə bir yaz, de hansı qoldan
Hey, Dal, Rey-nən aç qapısın xırdala.

Çox yaxşı mollasan imanun kamil
Heç kim ustadına durmaz müqabil
Ustaddan dərs alanlar olar kamil
Qədr bilər Ay, Gün onda xırd olar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məşəd Vahidxan, Müçtəbaya yazmışam
Hikmətdən varımdır qayə yazmışam
Bu şerdə altı ayə yazmışam
Tapa bilsən bir naməylə sal yola.

2
Könlüm tələb edir məruz qalmışam
Sənlə görüşə gəlirəm ustad.
Baxəbər olmaqçun neçə hikmətdən
Həmsöhbət olmağa gəlirəm ustad.

Hamıya yanıram, heç mənə yanma
Hamını anıram, sən məni anma
Hamıya şagirdəm, hikmətdə amma
Mən də bir ustadam, sən də bir ustad.

Şagirdlərmin sayı yetmişi aşıb
Təsirimdən yüz-yüz ürək saflaşıb
Əməlimdən çoxlar agahlıq tapıb
İbtida qol-qanad verənəm, ustad.

Ələstidən belə yaranmıqşam mən
Təqva, iman vücudumda olub cəm
Allah özü izn verib şairəm
Hikmətli çələnglər düzürəm, ustad.

Kazimeyn, Mədain, Nəcəf, Samirəm
Məşhədlə, Qum, mehmani PirHüseynəm
Məkkə, Mədinəni gəzib gəlmişəm
Hər gün Kərbəlada şəhidəm, ustad.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hay-küy, cəfəngiyyat şəriətə girməz
Haqqı batil edən iman kəsb etməz
Naşı leşkər ola, dillənə bilməz
Nə qədər meydanda mən varam, ustad.

Ləqəblərim, künyələrim sayba-say
Axund, Hacı, şair, mömin Kərbəlay
Molla Məşəd Vahidxan müşkülgüşay
Babil həvaiclər səslərəm, ustad.

"KAFİHA" – ayəsin düz bilməyənlər
Rəyilər, yaltaqlar, haram yeyənlər
Əlidən Hüsyendən yana dönənlər
Mənim qılıncımda bənd alar, ustad.

Məşədi Vahidxan Müçtəbayə yaz
İlahidən gəlib ona hər avaz
On dörd məsum nökəriyəm sazbasaz
Həm də beş yol buta almışam, ustad.

QIFILBƏNDİN AÇMASI

Məğrurluq edibən ustadam demə,
MİM-di, CİM-di, TEY-di, BEY-di, Müctəba.
Necə ki, həmdəmük bəradərimsən
VOV,HEY,DAL, XEY, NUN-du Vahidxan molla.

ƏLİF, LAM, HEY-MİM, HEY, MİMMİ, DAL ki var,
Allah, Mühəmməd-di, Heydəri Kərrar,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

FEY, TAY, MİM – Fatimə – Kövsər ixtiyar
Saqiyi Kövsərdən pay alam nola.

İki dənə bir yazsan on bir eylər
Hey-də-ri kərrarla on iki eylər
On iki imamı olan qeyrisin neylər
Tarı qonağıyam məni sal yola.

Hər surədən bir ayədir dəsbədəs
Mühəmməd, Qədr, Qəmər bir də ki Vəşşəms
Elmi öyrən Qurana göstər həvəs
Siratəlmüstəqim düzəl düz yola.

Nəzim ilə əqlin bir şey anlamaz
Tapa bilsən nəsrlə cavabını yaz.
Hər oxuyan Məşədi Vahidxan olmaz
Tərk silah edib səni salaram yola.

İSTƏK

Həəsan Sabit hara mən ki, çox keçmişəm alovlardan
Ya Tovhiddən, peyğəmbərlər, həm Qurandan, İmamlardan.

Həssan Sabit, peyğəmbərə sağlığında arxalandı
Min dörd yüz il peyğəmbərdən sonra, mənsə tənha qaldım.
Dedim – ya Rəbb bu məktəbdə ruhul-qudsi göndər

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

mənə
Hikmətinlə müjdə verim ya aparımmı Məryəmə.

Peyğəmbərin sağlığında Sabit aşiq oldu ona
Mənsə min dörd yüz il sonra aşiq oldum yana-
yana.

ŞEİR DOSTUM KAMALA

Kamal bəradərim ibni Seyidağa
İsmini yazmışam Kafü, Mimü, Lam
Mənə həsrət çəkib qeydimə qaldı
Bir səndən qeyrisi Kafü, Mimü, Lam.

Taətim sevdayla dolub başıma
Hicabdır üzümə, tacdır başıma
Hatifdən bir səda gəldi guşimə
İmanımı dedi Kafü, Mimü, Lam.

İlahi iltimas edirəm səndən
Bəlkə cəzm olmuşam çıxıb özümdən
Günahkar bəndənəm bağışla məni
Əql bəxş et mənə Kafü, Mimü, Lam.

Məşədi Vahidxan Kafü, Mimü, Lam
Ustaddan dərs aldım Kafü, Mimü, Lam
Ey təbibi kamil xəlq edən sənsən
Bir sənə yaraşır Kafü, Mimü, Lam.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

HACIQABUL

Hamı deyir yubileyin mübarək
Rayonumuz Hacıqabul həcc qəbul.
Xuda sənə nur versin həm bərəkət
Rayonumuz Hacıqabul həcc qəbul.

Vüqarlı dağlar tək ucadır başın
Hacılar olubdur hər il sirdaşın
Mübarək həm əlli həm də on yaşın
Rayonumuz Hacıqabul həcc qəbul.

Həcc qəbulu yaşın min ili aşıb
Bir saf məkansan ki, adın saflaşıb
Zəvvarlar bir-birə burda calaşıb
Rayonumuz Hacıqabul həcc qəbul.

Qədir-Xum tək haçalanır yolların
Qədir-Xumi sani deyilir adın
Zəvvarları hər vaxt qucub qolların
Rayonumuz Hacıqabul həcc qəbul.

Sənə qismət edib pərvərdigara
Sən də bir hacısan rayonlar ara
Necə Şəms nur verir sitarələra
Rayonumuz Hacıqabul həcc qəbul.

İl boyu zəvvarlara keşməkeşdi
Kərbəla, Xorasan həm Kəbə deşdi
Məşədi Vahidxan sözün zərkeşdi
Rayonumuz Hacıqabul həcc qəbul.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

YA PİR HÜSEYN

Bismillahir Rəhmanir Rəhim ağa,
Ey inanc yerimiz ya Pir Hüseyin.
Qapına gəlirik şəfa bulmağa
Ey inanc yerimiz ya Pir Hüseyin.

Xorasan, Kərbəla, Kəbənin yolu
Dər babın həmişə zəvvarla dolu
Əsrlər keçdikcə pirani, ulu
Ey inanc yerimiz ya Pir Hüseyin.

"Dünya piri", yazıb səni aliman
Bir adın Şirvanan, biri Rəvanan
"Pir Hüseyin Xanəgahsan" alişan
Ey inanc yerimiz ya Pir Hüseyin.

Məşədi Vahidxan nökərin sənin
Ana yurdum, məskənim, həm mədfənim
Dünya boyda şöhrətisən ölkəmin
Ey inanc yerimiz ya Pir Hüseyin.

14 dekabr 1992

AĞLAYIRAM

A dostum, soruşma bu necə haldı
Dolubdur qəlbimə qəm ağlayıram.
Bükübdür belimi eşq afəti-can,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İtirmişəm bir sənəm, ağlayıram.
Vətən çöllərini nola gəzəsiz,
Hər nə cəfa gəlsə gərək dözəsiz.
Yeməksiz, əskərsiz və sərkərdəsiz
Silahdan olmuşam kəm, ağlayıram.

Səslədim köməyə mən ilhamımı,
Bir-birindən gözəl arzularımı.
Yaxşı dostlarımı, qohumlarımı
Toplayıb bir yerə cəm, ağlayıram.

Gedən torpaqları mən kimə yazım?
Gedibdir onunla baharım, yazım.
Hey mizrab vururam dillənmir sazım,
Zil gedibdir, qalmıb bəm, ağlayıram.

Çıxıram seyrinə çəmənin, çölün,
Yam-yaşıl dağların, dumduru gölün.
Görəndə nazını bülbülə gülün
Kövrəlib-kövrəlib mən, ağlayıram.

Gedəndə əlimdən Göyçə mahalı,
İrəvanı verən olmadı halı.
Zəngəzur, beş rayon Qarabağ hanı,
Uzun boylu Dilican ağlayıram.

Cəbrayıl, Kəlbəcər, Laçın, Qubadlı,
Füzuli, Zəngilan, Şuşa, Daşaltı,
Ağdam da verildi, oldu on altı
Torpaq həsrətiylə qəm ağlayıram.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məhəmməd peyğəmbər eyləsin duva
Yetsin harayıma Əli Mürtəza
İltimasım yetir Həzrət Əbbasa
Bəni Haşim gözlərəm ağlayıram.

Məşədi Vahidxan Xuda kərimdi,
Sərhədlər, özümün əskərlərimdi.
İndi hamsı sadiq rəzbərlərimdi,
Qalib gəllik sevincdən ağlayıram.

ŞƏHİDLƏRİN ZİYARƏTİNDƏ

Dünən məni dərdli qəlbim çəkə-çəkə gedirdi,
Aparırdı şəhidlərin məzarına doğru yol.
Vətən üçün, millət üçün, torpaq üçün, xalq üçün,
Budur sadiq, əzəmətli, şəhid boyda doğru yol.

Şəhidlərin ünvanları haralara bağlıdır
İmam Hüseyn dörd min yara aldı həqqin yolunda
Həqq uğrunda,həqqə doğru,məhəbbətdən dönmədi
İmam Hüseyn şəhid oldu Quran və həqq yolunda.

Bilsən necə hiss edirəm, qəlbəlrinizin
Şair qəlbi kimi təmiz olduğunu – mən.
Təmiz ürək hamı üçün çalışır – yanır,
Hamı üçün yana-yana qardaş, ölürəm.

Hər gələndə ziyarətə qəlbim odlanır,
Dayanmışam, ayrıla da bilmirəm sizdən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gör necə də yaxın imiş ürəklərimiz
Ki, ayrıla bilməyirəm xatirənizdən.

...Axşam üstü ziyarətdən yollandıq bir baş,
Xurşudbanu Natəvanın büstü önünə.
Boyun-boyun çatılmışdıq biz, şəhid qardaş,
Xəyal bizi aparmışdı Şuşa elinə.

... Bir də, bir də, seyr etməyə matəm Bakını,
Bu görüşdən biz ayrıldıq istər-istəməz.
Elə sandım bütün şəhər bizimlə birgə,
Şərik olub şairəyə hamısı bir səs.

Hey əsdikcə sərin külək aşıb danışrdı
"Dur gəl məndən çək imtahan ölürəm".
Yarpaqlar da qəmli-qəmli pıçıldaşırdı,
"Var sinədə dərdi-qəmi-nihan ölürəm".

...Nə biləydin belə bir qəm tapacaq səni,
Bu dünyaya göz açmısan yetmiş altıda.
Baxışların canım alır, elə gülürsən
Qurban olum, İlqar bala, gəl qucağıma.

Anan ölsün Nərimanım, İlqarım mənim,
Vətən üçün qurban getdiz körpə balalar.
Əbədilik oxşayacaq xatirənizi,
Anaların çaldıqları şirin laylalar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nankorların o qeyrətsiz tamahlarına,
Əldən getdi Kəlbəcərim, Laçın, Zəngilan,
Heç bir dava olunmadan şuşa verildi
Ağlayırdı Azərbaycan qəmli Natəvan.

Vətən millət qeyrətini çəkən olmadı,
Rəhbərlərdə, nə cəbhədə sərkərdələrdə.
On üç yaşlı şəhidlərim əbədiləşdüz,
Zaman-zaman yaşayarsız xatirələrdə.

...Bilsən necə hiss edirəm qəlblərinizin
Şair qəlbi kimi təmiz olduğunu mən.
Təmiz ürək hamı üçün çalışır, yanır,
Hamı üçün yana-yana şəhid oldun sən.
Millət üçün yana-yana şəhid oldun sən,
Vətən üçün yana-yana şəhid oldun sən.

ATA HAQQINDA

Ata, başa tac imiş
Hər dərdə əlac imiş.
Övlad yüz pir olsa da,
Ataya möhtac imiş.

ANA HAQQINDA

Ana başa tacıdır
Hər dərdə əlacıdır
Övlad qiyamətdə də
Anaya möhtacıdır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

NƏ YANDIRIRSAN MƏNİ

Mən yanıram əzəlimdən
Nə yandırırsan məni.
Doymayacam gözəlimdən
Nə yandırırsan məni.

Mən bir heçəm sənsə sənsən
Hər bir şeyə vaqif sənsən
Xəlq edənsən, xaliq sənsən
Nə yandırırsan məni.

Ehtiyac hər an yandırır
Məzlumluq giryan yandırır
Onsuz da hər yan yandırır
Nə yandırırsan məni.

Mən hamını höccət etdim
Hər an həqqə doğru getdim
Bu dünyadan yanıq getdim
Nə yandırırsan məni.

Gözlərimin giləsi sən
Hər arzumun diləyi sən
Hər nə yazsam biləsisən
Nə yandırırsan məni.

Bu zillətlə ölsəm də mən
Daim sənə şükr edəcəm

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mən bu dünyadan şəhidəm
Nə yandırırsan məni.

Ehtiyac içrə yanıram
Məzlumluqdan həzz alıram
Sevindiyimdən yazıram
Nə yandırırsan məni.

Məzlumam çəkirəm zillət
Ehtiyacdan olmadım rahət
Mən, sənə edirəm xidmət
Nə yandırırsan məni.

Haqq yoludur mənim yolum
Şəhidlikdir sağım, solum
Borcdan çıxım rahət olum
Nə yandırırsan məni.

Sənə bağlıyam İlahi
Sənsən qəlbimin pənahı
Reklam etmirəm vallahi
Nə yandırırsan məni.

Məzlumluqdan ləzzət alan
Ehtiyac içində yanan
Mən Məşədi Vahidxanam
Nə yandırırsan məni.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

VƏTƏN HARAYI

Müşküldədir bu millətim bari Xuda, haray!
Ümmətçün iltimas elə ya Müstəfa, haray!

Müşkülgüşa ağamsan yetiş dadə sən özün
Düldülsüvar, Xeybər qoparan Mürtəza haray!

Cövri cəfayi ümməti, həm zəhri nuş edən
Zəhr ilə doğranan ciyəri Müçtəba haray!

Öz əhli-beyti müşküldə, Qeysi xilas edən
Şahən-Şəhi-Şühəda, Soltani Kəpbəla haray!

Allah yolunda hər varını eyləyən fəda
Məzlum ağam Zəbihən-minəl-qəfa haray!

Sıvar olub "Üqabə" alıb həm ələ ələm
Səqqai Kərbəla, qolu təndən cüda haray!

Çək zülfiqarı gəl haraya millətim batır
Müşküldəyəm ya Ələmdari Kəpbəla haray!

Tez-gəl hərayinə əsir, nakam cavanların
Düşmən əlindədir – nakamı Kərbəla haray!

Yetiş imdadinə sən o damad cavanların
O həsrəti bilən – damadi Kərbəla haray!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Düşmən əlində zillət ilə öldü tiflilər
Gəl ya Səkinə, qundaq Əli-Əskəra haray!

Qiyamətə də gələn Hüseyin qərasində
Ya Zeynül-Abidin, bimari Kərbəla haray!

O qəmlərin hamın görən əvvəldən-axirə
Ya Əhli-beyti, Gülsüm və ya Zeynəba haray!

Düşmən əlində zillət ilə getdi qız, gəlin
Atovu səslə Zeynəbim: - Qeyrətli baba haray!

Kərbibəla yolunda olan əvvəli şəhid
Sərdari kufə Müslüm, iki oğlu da haray!

Ya Əmiri Xəzayi Museyyib ibni Qəqa,
İbrahim əştər, ubeydi səqəfi Muxtara haray!

Baqirlə. Sadiq, Museyi Kazimlə yet dadə
Müşkülgüşa ağam, ya İmam Rza haray!

Məhəmməd Təqiylə, Nəqiylə, Həsən Əskəri,
Allahdan eyliyə bizimçün min duva haray!

Bari xuda zühur eliyə Sahib-əz-Zəman
Bu işdə olluq bir daha səndən riza, haray!

Ömrüm boyu məni vətənin dərdi yandırır
Bir məzlumam bu millətə eylə dəva haray!

Qəlbi yaralı, Teşnə ciyər, dərdə mübtəla
Məşədi Vahidxan gözləyir səndən rəva haray!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

AĞILAR

Dərdli dərdlisin gəzər
Yaralardan qan süzər
Soyqırım olanlarımla
Mina, Neynəva bəzər.

Çəkirəm vətən dərdi
Soyqırım ötən dərdi
Gözlər görməsin Allah
Əsirlər çəkən dərdi.

Olaydım Kərbəladə
Minadə Pürbəladə
Millətimin başı kəsildi
Necə ki, Kərbəladə.

Gedirəm Neynəvayə
Qəm dolu Neynəvayə
Gör soyqırım dəhşətin
Ney kimi gəl Nəvayə.

NƏSİHƏTNAMƏ

Nəsihətim etsən qəbul,
Xeyrin çoxdur ziyanından.
Nadanla dostluq eyləyib,
Aqili qovma yanından.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Verib əngə, bizar etmə
Bu cəmaəti özündən,
Çatmasa sənə nəsihət,
Sakit ol çatmayanından.

Nə danışırsan o başdan,
Özünü tanı bu başdan.
Dədənin yolun bərk getmə
Dur çıx onun tiyanından.

Yarı yoldan da qayıtsan,
Yenə bir səvab taparsan,
Günah eyləməzsən axir,
Ol səvab tapmayanından.

Oturaq diz-dizə, sənə
Eyləyim höccəti təlim
Demə olmuşam xəbərsiz,
İymana çatmayanından.

Nə olsun ki sən eşşəksən
Şıllaq atma, ustadına,
Hamısı şıllaq atmır ki,
Sən də ol atmayanından.

Ustadına kəm baxanın
Gözünə qan damar axir
Özünə yazığın gəlsin
Sən də ol baxmayanından.
Böhtanı, qeybəti tərk et

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qəlbinin kinin təmizlə
Mömini satammaz mömin
Sən də öl satmayanından.

Zinadan uzaqlaş, Allah
Səni görməsin zinada
Zinada batanları gör
Sən də ol batmayanından.

Məşədi Molla Vahidxan
Qulağuvu burdu yüz yol
Əyri yollarda olursan
Gecə-gündüz yatmayanından.

ANAM SƏYİDBƏYİMİN VƏFATINA

Ana, ömrün boyu yandın həyatda,
Çox-çox qəmlərini məndən gizlətdin.
Müsibətlər çəkdi başın həyatda,
Övladları böyütməyi gözlədin.

İmanlı bəslədin balalarını,
Candan əziz bildin övladlarını.
Övladların çəkən bəlalarını,
Ürəyinə vurdun məndən gizlədin.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Son anda da hey danışıb gülürdün,
Ömrün qurtarıbmış özün bilirdin.
Balaların qəmlənməsin deyirdin,
Dünyadan getməyi məndən gizlədin.

Namazımızı qıldıq mənə dedin sən,
“Gözümün ilk ovusan böyük oğlumsan.
Gecə keçir get yat bala yorğunsan.”,
Sübhədək yatmadın məndən gizlədin.

Məşəd Vahidxanı hər vaxt şad edib,
Təsəllilər verib, düz yol göstərib.
Bütün sevincini mənə bəxş edib,
Bütün dərdlərini məndən gizlədin.

06.12.2006

QIZIM QƏMƏRXANIMA

Çıxıb dərd, qəmdən, möhnətdən,
Qızım xoş gəldin, xoş gəldin.
Qaçıb təqsirsiz töhmətdən,
Qızım xoş gəldin, xoş gəldin.

Ömürlərmiz təzələndi,
Dərd yox oldu, tez ələndi.
Yollarına nur çiləndi,
Qızım xoş gəldin, xoş gəldin.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Fərasətli mərd qızımsan,
Övladlarda qızılımsan.
Qəlbi təmiz, qızıl insan,
Qızım xoş gəldin, xoş gəldin.

Həzrət Abbas Xədicəsi,
İmam Hüseyn Səkinəsi.
Əli qızı Zeynəb səsli,
Qızım xoş gəldin, xoş gəldin.

Atan Məşhəd Vahidxandır,
Hər bir tərəfdə aslandır.
Pənahın şahı–Mərdandır,
Qızım xoş gəldin, xoş gəldin.

16.01.2008

O BAĞDA

Süsənbər söylədim, dedim Süsən de,
Hər adi sözlərdən tez-tez küsən de.
Nöqsanımı mən demirəm sən de,
Bir də qoşa gəzənəydik o bağda.

Üstümüzə gecə düşə narın şeh,
Tellərinə toxunanda sərin meh.
Bircə busə əvvəlcədən mənə beh,
Qismət ola sevinəydik o bağda.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Çox vaxt səni gözləyəndə mən yazıq,
Hərdən mən də gecikəndə azacıq.
Bəzən asta, bəzən gizli, lap açıq,
Bir-birimizdən deyinəydik o bağda.

Naz eyləyib sən ülfəti kəsəndə,
Danışdırıb həzz alaram küsəndə.
Bir-birimizi qucub mən də, Süsən də,
Öpüşlərə qərq edirdik o bağda.

Məşhədi Vahidxan həqqə bağlıdır,
İlk məhəbbətimizdən könül dağlıdır.
Mən bülbüləm sinən gül budağıdır,
Hər vaxt qoşa görünərdik o bağda.

MƏN SƏNİ ÖZÜMƏ BAĞLAYACAĞAM

Keçib dərələri, aşıb dağları,
Çayların selində çağlayacağam.
Gülşənə döndərib boz səhraları,
Mən səni özümə bağlayacağam.

Tellərin xınalı, rəngin xınalı,
Duruşun, qamətin yardan can alır.
Necə vəsf etməyim bu gözəl halı,
Səni heç bir kimə qıymayacağam,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məşəd Vahidxanam sadiq əhdimə,
Beləsi düşmədi mənim bəxtimə.
Mənim bəxtim nədir, onun bəxti nə?
Qəlbimdə yerini saxlayacağam,
Mən səni özümə bağlayacağam.

KİŞİ ADAM ALDATMAZ

Kim desə bir kişi aldatdı məni,
İnanmayın, kişi adam aldatmaz.
Əvvəl sevib, aldadıb atdı məni,
İnanmayın, kişi adam aldatmaz.

Cinsi kişi, bığı gözü, qaşında,
Şalvarı əynində, papaq başında.
Olsa da gənc, əhli, qoca yaşında,
İnanmayın, kişi adam aldatmaz.

Çoxu it gəzdirir hər bir yaşında,
Şalvarı belində papaq başında.
İtlər aldatmayır heç yoldaşın da,
İnanmayın, kişi adam aldatmaz.

Var həyatda sevgilisin aldadan,
Onlara it demək də olar yaman.
İt qədər özünə qiymət qoymayan,
İtdən pisdi, kişi adam aldatmaz.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İtlər heç vaxtı yalandan hürməyib,
Namusu atıblar itə yeməyib.
“Kişi” namus yeyir, yalan söyləyir,
Kişidirsə, kişi adam aldatmaz.

Əxlaqlı olmaqdır insan ziynəti,
Əxlaqıyla bəllənəcək qiyməti.
Məşəd Vahidxan yazdı bu müsibəti,
Bilin, heç vaxt kişi adam aldatmaz.

DOSTDUM QƏŞƏM İSABƏYLİYƏ

Özün deyən gün sizə,
Qonaq gələcəyəm mən.
Tutub istəkli nəvəm,
Dürdanənin əlindən.

Arxamca övladlarım,
Nəvələrim, yoldaşım.
Görüm necə qarşılar
Bizi Qəşəm qardaşım.

Onsuz da gecə-gündüz,
Onun vaxtı olmayır.
İstirahət günü də
İşindən ayrılmayır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bayram günü Bakıda,
Bir gün gəzdiyim zaman.
Zəng vurub, xəbər aldım,
Dedi iş başındayam.

Yollandım iş yerinə,
Onun idarəsinə.
Diqqətlə göz qoyurdum,
İşləmək həvəsinə.

Dedim, qardaş, bu qədər
Ayrılmayırsan işdən.
Səhhətini də qoru,
Onsuz budur sərištən.

İstirahət günün yox,
Gecən yox, gündüzün yox.
Barı ildə bir bayram
Dincəlginən xuraban.

Dedi, işdə olmağım
Mənim eşqim, qanımdır.
Hər işdə olduğum gün
Mənim yüz bayramımdır.

Ömür keçir hər bir an,
Necə köçüm dünyadan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bütün ömrümü bəxşiş
Xalqıma bəxş etməmiş.

Əməksevər bir insan
Əməyiylə ucalar.
Nəzərimdə böyüdü
Məndən böyük o insan.

Qucaqladı boynumu,
Qardaş tək öpdü məni.
Dedi, Allah nə qədər,
Sadiq yaradıb səni.

Bu şeiri yazdı sənə,
Hər an hamıyçün yanan.
Çox yaxşı tanıdığın,
Dostun Məşədi Bahidxan.

ATA-ANA HƏSRƏTİ

Mənə qəmdir atam, anam,
Yatıbdır torpaq altında.
Ruhları qəm çəkir, balam,
Qalıbdır gün qabağında.

Atam, anam kiçik tarım,
Allah, bağışla günahların.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hər namazda sənə yalvardım,
Hər an ollam sorağında.

Həsrətnizdən dərdə batan,
Vahidxanam anam, atam.
Qəbirdə də elə yatam,
Başım ola ayağınızda.

Qaysaq tutmaz ata dərdim,
Heç sağalmaz ana dərdim.
Qiyamətdə də qismətim
Ola, ana qucağında.

Məşəd Vahidxan zar ağlar,
Həsrətinizdən dərd bağlar.
Dərdim götürəmməz dağlar,
Dura bilməz qabağımda.

İBRƏTNAMƏ

1

Məğrurluq eyləyib ustadam deyən,
Atma atan, anan qoyan soyadın.
Rüşvət ilə özünə ad verdirən,
Rəsmi sənədində bax gör nədi adın.

Ustadları həmişə yamsıladın,
Bununla öz özünü qamçıladın.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yəh deyib qalxginən, hoş deyib dayan,
Öz qapını, unvanını buladın.

İnsan ola, mömin ola hər bəşər,
Əxlaqlı danışıb dinə müxtəsər.
Onu bil ki, şir meydanın şir eşər,
Mən şirəm söylə bəs sənin nədi adın.

Dahilərə etməliyik hörməti,
Özümüzə qazanmaqçün rəhməti.
Oxuculardan almamaqçün töhməti,
Dilinə vurma başqasının heç zadın.

Sənət xəzinəsinə girib oğrular,
Əzib tərk eyləyib həm də oğurlar.
Söz oğrusu həmişə rusvay olar,
Hər zaman lənətlə çəkilər adın.

Məşəd Vahidxandan öyrən hikməti,
İstedadın qədər eylə söhbəti.
Müğilanlığa çevirmə sənəti,
Qiyamətdə ucalmasın fəryadın.

2

Kimə Allah ilham verir, bəllənir,
Əzəlindən Allahına bağlanır.
Hər sözündə Allahını vəsf edib,
Hər sözündə Allahını axtarır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Allah deyib: kim axtarsa məni tapar,
Axtaran kəs yəqin ki aşiq olar.
Mən də elə bəndələrə ollam yar,
Elə şəxslər hər tərəfdə ucalır.

İnsan gərək kimliyini anlaya,
Hər bir şeydən əvvəl özün tanıya.
Bu dünyada qulaq asan Tanrıya,
Allahın ipinə sıx-sıx sarılır.

Allah deyir insan kimi ömr eylə,
İslam deyir insan kimi ömr eylə.
İyman deyir insan kimi ömr eylə,
Əxlaq normaların sənə tapşırır.

Məşəd Vahidxanın sözün bilginən,
Xalqla yasda ağla, toyda gülginən.
Öləndə də kişi kimi ölginən,
Deməsinlər əzrailə yalvarır.

VƏFASIZLIQDAN BƏLA

İlk bəxtini atıb iki övladla,
Haçansa vuruldun bir ayrı yara.
İlk bəxtin, övladlar, ikinci bəxtin,
Hər üçü sonradan oldu bir yara.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Təqsir özündədir gileylənmə çox,
Həyatı dərindən düşünməmisən.
Qırx yaşına kimi əhli-kef gəzib,
Üçüncü sevdaya indi gəlmisən.

Bütün həyatını mənə nəql edib,
Səbr tapmaq üçün şeir istəyirsən.
Dastan yazılmaqla iş düzəlməyib,
Sən yalnız özünü haqlı bilirsən.

Gözləri önündə o övladların,
Necə ayrıldınız həya etmədiz.
Ata, ana vicdanınız olmadı,
Atalı, analı yetim bəslədiz.

Hər ana görəndə anasızlığı,
Dərd oldu onlara ata yanında.
Hər ata görəndə atasızlığı,
Dərd oldu onlara ana yanında.

Mənimlə razılaş sizi gətirib,
Verək uşaqların məhkəməsinə.
Bilin diksinərsiz hər gecə, hər gün,
Onların qəlbinin fəryad səsinə.

Yazmadı qələmim indən beləni,
Ürəyim dözmədi göz yaşlarıma.
Ata, ana nə gətdi öz əliylə,
Körpə övladlarının başlarına.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məşədi Vahidxan, hamıyçün yandın,
Kimsəsizlər üçün, haq üçün yandın.
Ömrün çox gödəldi, çox dərd bağladın,
Məzlumların sən yetişdin dadına.

KÜR ÇAYI

1.

Min doqquz yüz əlli üçdən irəli
Bir yol qurumuşdun səni görmüşəm.
Bəklə adlamağa mənə yol verib,
Quruca durmuşdun, səni görmüşəm.

Azca su axırdı lap ortalıqdan,
Tək-tək görünürdü xırda balıqlar.
Gecə-gündüz hamı su daşıyırdı,
Əziyyətlər çəkərək quraqlıqdan.

Atamla, anamla Kürdən keçirdik,
Atam ortalıqda bir az dayandı.
Anam tələsdirdi: – Gəl, tələs, tez ol!
Bu Kürdü, bir bax gör hayan, hayandı.

Bircə anda alar başının üstün,
Qıjha-qıjla axan dəli Kürdü bu.
Kürün müvəqqəti suyu quruyub,
Baxma ki, dizdən də aşağıdır su.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bəlkə Musa kimi bizə yol verib,
Bir azdan kimisə qərq edəcəkdir.
Qaya bərabəri gələr qəflətən,
Qaçıb qurtarmaq da olmaz əlindən.

Əvvəllər çox olub bəzi əsrlər,
Kürün qurumağı qərinələrdə.
Atalar deməyib bu sözü yoxdan,
Kür aşıqdan idi, Araz topuqdan.

On, onbeş ildən bir quruyurdu Kür,
Çox quraqlıq keçən yay aylarında.
Elə illər tükənirdi suları,
Bütün çaylarında, bulaqlarında.

Su az olan qış fəslinin birində,
Donmuşdu Kür buz üstündən keçirdik.
Arabayla keçirdilər buz üstən,
Keçincən də hammız qorxu çəkirdik.

Hər il yay ayında payıza kimi,
Yanırdı əl-ətəş Aran, Mil, Muğan.
Qış aylarında da təkcə yağışla,
Yağardısa, islanardı az zaman.

İndi Mincəçevir su bəndi ki, var,
Qurtarıb bizləri bu quruluqdan,
İnsan cilovladı Kürü, bənd saldı,
Gün gündən canlandı Aran, Mil, Muğan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

“Muğan muğan olsa biri üç eylər,
Muğan Tufan olsüa üçü heç eylər”.
İndən belə Muğan heç eyləməyir,
Zəhmət çəksən hər il biri üç eylər.

Qanıx – Alazani, İori, Araz,
Birləşərək birlik yaradıb Kürdə.
Əlavə qırx səkkiz çayı götürüb,
Xəzərə, birliyə aparar Kür də.

İslam aləmində beş barmaq kimi,
Beş barmaq birləşib Kür özü qoldur.
Kür birlik yaradıb doğma yurdumda,
İslamda da birlik əsas simvoldur.

Hər biri min kolometrdən artıq,
Qanıx – Alazani, İori, Araz.
Cənnətə döndərib Azərbarcanı,
Dünyada ölkəmə yoxdur həmtaraz.

Kür lal axır Kür dolusu baxıram,
Sahilində durub nəzər salıram.
Çevrilərdim sellərində mərmiyə,
Kür dolusu düşmənə od püskürə.

Durur sahilində nəzər salıram,
İki yol keçdiyim o böyük çaya.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Musa misal bir yol da yol verərdi,
Ayaqla keçəydim Kürdən o taya.

Məşədi Vahidxan mümkün deyil bu,
Kür çayının suyu bir də quruya.
Bəndlər salınıbdır, hövzələr böyük,
Pənah aparmışıq Qadir Allaha.

2.

Kür çayı bir birlik rəmzinə bənzər,
Azərbaycanımın hər yanın bəzər.
Suyundan doydurur Mili, Muğanı,
Şəhərləri, kəndləri və aranı.

Türkiyə, Dağıstan, Gürcüstan, İran,
Birliyə gəlibdir birləşib Kürdə.
Özündən savayı yüz səkkiz çayı,
Xəzərə, birliyə aparır Kür–də.

Birlik dəryasını görüb əzəldən,
Volqa da üz tutub Xəzərə sarı.
Millətindən asılı olmayaraq
Birləşdirmək yoluyla insanları.

Belə olan çaylar çoxdur dünyada,
Amma heç birisi Kür–ə bənzəməz.
Məşhədi Vahidxan, Azərbaycan–da
Birlik rəmzidir ki, sülhdən əl çəkməz**.**

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BİRLİK RƏMZİ KÜR ÇAYI

Kazbekdən keçirəm bir yay günündə,
Dağların başı qar, düzlər yam-yaşıl.
Azərbaycanın ətiri gəlir,
Söz, sözə – şair də sözə yaraşır.
İori çayıyla mən sahil boyu ,
Enib gəldim, Kür–ə çatdı qurtardı.
Qalxdım sol cinaha Alazaniyə,
Dağıstana çatcaq o Qanıx oldu.
Sahil boyu endim üzü aşağı,
Alazani – Qanıx Kürdə qurtardı.
Əsli, Kərəm gedən yolları keçdim,
Qalxdım saz cinaha mən Ərzuruma.
Zirvədən haylanıb mən Araz boyu
Min kilometri Kürqovuşana.
Enib gəldim o da Kür–də qurtardı.
Qalxdım mən təzədən zirvəyə doğru,
Kürün mənbəyində dincəldim bir az.
Dəli Kür, dəli Kür döyüş atımsan,
Sən coşanda, sənə meydan tapılmaz.
İorilə, Qanıxla görüşəndən,
Sonra, tək doqquz yüz kilometrsən.
Arazla qovuşandan Xəzərədək,

---

[1]***İori, Alazani, Qazax Araz və Kür çayının yanlardan qoşulan çay və qolların ümumi uzunluğu (təxminən)***

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İki yüz otuz altı kilometrsən.
Dənizdən dənizə bu birlik rəmzi
Xəzər, Qara dəniz, İran körfəzi.
Təxminən səkkiz min kilometrsən[1]
Dörd böyük ölkəni birləşdirmisən.
Hər yandan ölkəmə qol qanad verən,
Məşhəd Vahidxan tək birlik rəmzisən.
Ümummili lider Heydər Əliyev,
Dünyaya tanıtdı Azərbaycanı.
O da Kür çayı tək birlik rəmzidir,
Bütün yer üzünün dahi insanı.

QOŞMA

1

Aşiq odur sidqi qəlbdən,
Aşiq ola Allahına.
Çalışıb iman kəsb edə,
Həm qovuşa Allahına.

Uymaya dünya nazına,
Nemətinə, səfasına.
Səcdə edə xudasına,
Sadiq ola Allahına.

Təmiz ürək, düzgün əməl,
Dilnən iqrar, cismən əməl.
Üzməginən Allahdan əl,
Səcdə elə Allahına.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Tovhid, ədl və nübüvvət,
İmamət bir də ki Miad.
Qəqlid eylə müctəhid tap,
Səcdə eylə Allahına.

Nəhyəs – Münkər, Sovmi, Səlat,
Əmrə – Məruf, Xumsi, Zəkat.
Təvəlla, təbərra, həcc, cihad
Kamil ola Allah ona.

İnsaf, rəhim, səbr, ədalət,
Mehribanlıq və səxavət.
Yaranmışlara məhəbbət,
Qismət ola Allah ona.

Dünyaqılıqçın can üzmə,
Dövlət, nəsəb gəlməz bəzmə.
Məğrur-məğrur diraz gəlmə,
Səcdə elə Allahına.

Adil Allah kərəm-kanı,
Qurmuş ədalət mizanı.
Fərq qoymaz şahü gədanı,
Hər kəsi öz cəzasına.

Məşəd Vahidxan həqq üstə,
Duva eylər namaz üstə.
İmanını kamil istər,
Qismət ola Allah ona.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

2

Oğrun, oğrun həsrət ilə baxan yar,
Könlümü çiçək tək al şirin-şirin.
Köklə saz misalı sinən üstündə,
Kah zildə, gah bəmdə çal şirin-şirin.

Nə müddətdir aşiq olmusan mənə,
Qəlbən sındırmaram baxginən yenə.
Məndən vəfalısı tapılmaz sənə,
Qolların boynuma sal şirin-şirin.

Heyran ollam qamətinə, boyuna,
Görünməyib yar yarından doyuna.
Bələd oldum soyadına, soyuna,
Axır ləblərindən bal şirin-şirin.

Məşəd Vahidxanı yaxşı tapmısan,
Allah bəxşiş verib kama çatmısan.
Mənimlə sən özünü ucaltmısan,
Ömrün boyu var vüsal şirin-şirin.

ÜRƏYİMİN SAĞALMAYAN YARASI

Mən qırx yaşımda olanda 15 may 1988-ci ildə atam Əzimov Hüseynağa Bağı oğlu öz evimizin içində qollarım üstündə vəfat etdi. Mən atadan yetim qaldım. Atamın vəfatından səkkiz gün sonra yeddinci övladım dünyaya gəldi. Ondan sonra atamın qəmindən mənim ürəyim

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

açılmadı. Ailə mehribançılığı da etmədim. Neçə illər ağladım. Həyat yoldaşım da mənim qəmimə şərir oldu.

Amma həyat davam etməlidir. Anamla əl-ələ verib qardaşımı evləndirdik, iki bacımı gəlin köçürdük. Sonra mənim dörd oğlumu evləndirdik, üç qızımı gəlin köçürüb ailə, uşaq sahibi elədik. Atamın vəfatından 19 il sonra mənim 59 yaşımda 2006-cı ilin 6 dekabrında anam Əzimova Səyyidbəyim Maşad Səyyid Hüseyn qızı öz evimizin içində, o da düz atam vəfat edən yerdə mənim qollarımın üstündə vəfat etdi. Mən tamam yetim qaldım.

Yeddi övlad, 16 nəvəm, 400-dən artıq qohum, əqrəbəm var.

Çoxlu-çoxlu məzlum, kimsəsiz, qərib, yetim, nəhayət mömin, ziyalı dostlarım var.

Bütün bunlara baxmayaraq mən kimsəsizəm, məzlumam, qəribəm. Mənim heç kimim yoxdur. Çünki atam, anam vəfat edib mən yetiməm.

YETİMİN QƏLBİ HEÇ VAXT AÇILMAZ

Atam xəstə olarkən

Atam, anam var idi,
Dolanırdım başına.
Atam, anam vəfat etdi,
Qalmışam tək başına.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Düşdüm dərdə bilmədiz,
Bir danışıb dinmədiz.
Atam, anam vəfat edib,
Mən qalmışam kimsəsiz.

Dünyanı bilməz olmur,
Geri döndərmək olmur.
Atamla, anamla ölərdim,
Ölənlə ölmək olmur.

Atam, anam bilərdi,
Qəmlərimi bölərdi.
Əgər mən tez ölsəydim,
Onlar mənlə ölərdi.

Ata, ana həsrətində,
Neçə dərd daşıyıram.
Onlar vəfat ediblər,
Mən hələ yaşayıram.

Qurbanam ata, ana,
Torpağına daşına.
Atam, anam vəfat edib,
Düşübdür daş başıma.

Müşkündür ata dərdi,
Ondan da ana dərdi.
Dağlar götürə bilməz,
Yetimlər çəkən dərdi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yetiməm öz başına,
Güc gəlləm göz yaşıma.
Ata, ana öləndən sonra,
Yetimin kül başına.

Ürəkdə yaram çoxdur,
Çəkirəm hər möhnəti.
Sağalmayan yaram var,
Ata, ana həsrəti.

Nə deyim bu düyünə,
Atam, anam olan günə.
Atam, anam ölübdür,
Qalmışam qara günə.

Yeddi mömin övladım var,
Məni fərəhləndirir onlar.
Min övladım olsa da,
Ata, ana dərdim var.

Nə olursansa ol, gözlə özünü,
Yadından çıxartma mənim sözümü.
Kimsəsizin, qəriblərin, məzlumun,
Yetimiz ahından gözlə özünü.

Yetim kəlməsindən kitab yazaram,
Xırdalanar ondan yüzlərlə kitab.
Hər alim ha yana çəkirsə çəksin,
Yetim ah çəkəndə heç nə etməz tab.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məşədi Vahidxan dərdə mübtəla,
Yetimin başına gəlir çox bəla.
Amma kimə desin dərdini yetim,
İçin-için çəkir içində, bəla.

Ata başa tac imiş,
Hər dərdə əlac imiş.
Övlad yüz pir olsa da
Ataya möhtac imiş.

1964

ANA

Bacım Vəfaxanım dünyaya gələndə anam xəstə olarkən.

Ana baş tacıdır,
Hər dərdə əlacdır.
Övlad qiyamətdə də,
Anaya möhtacdır.

1966

DİL BƏ DİL

Aşiq könlüm nə sevdalı gəzirsən,
Allah ilə qovuşmağa dil bə dil.
Eşidirəm səsin körpə vaxtından,
Adımı çağırır mənim dil bə dil.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gah getdiyim yerdə deyim ki, – dayan,
Bəzən adımla çağırdı: – Vahidxan.
Heç kimdə yoxdu belə səs mehriban,
Özüm aşkar eşidirəm dil bə dil.

Beş, on qədəmlikdən çalırıq bəzən,
Tez donub baxıram – ay məni gəzən.
Sürətin görmürəm – canımı üzən,
Həsrətinlə yaşayıram il bə il.

Məcnun kimi səhralarda qalmışam,
Fərhad kimi qayaları yarmışam.
Mənsur kimi ölümə də hazıram,
Gərəm kimi dolaşıram el bə el.

Yusif–Züleyxa məhəbbəti bir yana,
Abbas–Gülgəz müsibəti bir yana.
Tahir–Zöhrə hekayəti bir yana,
Mən aşiqəm allahıma gül bə gül.

Leyli, Şirin, Sitarədən nə yazım,
Ömrün keçdi zimistanda, nə yazım.
Bağlı qalıb qurban, nəzir, niyazım,
Əcli misal alışıram tel bə tel.

Sevdalı könlümü sevdaya salan,
İlhamlı könlümə ilham paylayan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yerin, göyün bəlasından saxlayan,
Allahımdır hər an, hər gün, il bə il.

Sanmayın ki, həqq yolunda yorullam,
Candan keçib allahıma yar ollam.
Eşqi–çeşmim hər an rəbanə qıllam,
Nə ki, düzdə, dağda, daşda sel bə sel.

Allaha qovuşmaq deyildir çətin,
Üqba üçün qazan dünya rəhmətin.
Əxlaqın olmağa olsa qeyrətin,
Hamı rəhmət oxuyacaq il bə il.

Məşədi Vahidxan həqq aşiqidir,
Nəzm hər sahənin yaraşığıdır.
Böyük Allah özü yar aşiqidir,
Şairlik bəxş edib mənə dil bə dil.

HİKMƏTNAMƏ
(Şəri-dərs)

Xəlq eylədi kainatı Rəbbimiz
Hökm eylədi hər büsatı Rəbbimiz
Qərar verdi çox həyatı Rəbbimiz
Məleyk, nübüvv, imamatı Rəbbimiz

Gər niqabın atsa üzündən haman
Tür-fətendə məhv olar külli cəhan

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Öz kəlamında buyurub kun-fəkan
Rəhm eləyir kainata Rəbbimiz

Tür-fətendə xəlq edər saysız cahan
Rəhm edəndi yaranmışa an ba an
Ədl, sadiq, səbr, Zülcəlal, Rəhman
Rəbbimizdi, Rəbbimizdi, Rəbbimiz

Yetmiş elmin dərsin verdi hansına
Yetmiş ikisin bəxş eylədi hansına
Yüz iyirmi dörd min nəbini sana
Hamısını bənd etdi on dörd məsuma

Hökmlərin xudanın etmün qərib
Hikmətlərin məxluqata göstərib
Öz kəlamında Rəsula göndərib
Nəsrün minəllahi və fəthün qərib

Allah özün hər yan büruz eylədi
Yaranmışlar deməsin ki, bilmədim
“İnnəhu min Süleymanə” – söylədi
“Və innə bismillahi rəhman rəhim”

Xuda düşmənləri bəyan eylədi
Təbbət yəda Əbu Ləhəb – söylədi
Ədalətli olun öyrənin ədəb
Olmayın nə Sufyan, nə əbu ləhəb

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Baş əlif-lam, orta əlhəmd, bəraət
Azaddama əhəsibənnas şəfaət
Yüz ön dörddən, yüz on dörd bab əlamət
İmana gəl eyləginən hidayət.

Və əlqəytü ələykə ila fütun
Təhsəbühüm eyqaz və hüm rüqudun
Nazil olcaq nədən Vaqiə, Hud-un
Saf qəlbinin qəmi artdı Rəsulun

Ağahlıq tap gəl anla mafihanı
Həm Kövsəri, hikmətlərlə Ta-ha-nı
Ərrəhmanı, ixlası, həl-əta-nı
Ələst birəbbiküm qalu bəla-nı

Təthiri mafiha nə bəyan eylər
Yetmiş hikmətindən yeddisi Kövsər
Xuda özü dedi anlamadılar
Dostlar Vənhər oldu, düşmənlər Əbtər

Taleim həmişə yar olub mənə
“Təbarək əllah əhsənül xaliqin”
Fani dünya isə dar olub mənə
“Fətəbarək əllah əhsən xaliqin”

Fey, rey, qaf, nun-məni eylədi heyran
Min yol bey-dən keçib, yetmişəm Sin-ə
Zəbihən-min-qəfa, şiri İlahi
Üstadlarım olub açmışam sinə

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

El yolunda ömrümü etdim fəda
Din yolunda canım olubdur fəda
Vətənim, torpağım, millətim üçün
Hər cövrü çəkirəm yetsəm də Sin-ə

Qaf, Rey, Nun-dur mənim əziz kəlamım
Suad, vov-la Qaf dilimin əzbəri
Min tənzil söyləsəm kim nə anlayar
Qiyamətə qədər, Adəmdən bəri

Əməlinlə möhkəm bağlan Allaha
Şəriətə, hökmə, Rəsulullaha
Hamısı həqqdi asi olma Allaha
Gəlim yoxsa mən qəsəmə Vəzzuha

Yalan, böhtan, qiybət, paxıllıq və kin
Dilində qəlbində varsa hər kimin
Heç vaxt görməz çeşmələrin cənnətin
Yetiş dadə ya Mərciəl-Müslimin

Mən bir sadiq pak quluyam Rəbbimin
Hər tərəfdə həmdəmidir qəlbimin
İnsan olmaz sifəti yüz, qəlbi min
Yetiş dadə ya Mərciəl-Müslimin.

On səkkiz min aləm sənin hikmətin
Yüz on dördündə dübarə hikmətin
Yüz on üçdə tazədəndi hikmətin
Yeddi-də, səkkiz-də olan hikmətin

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ələst birəbbiküm qalu bəla-da
Do tələb durdular şükr-sina-da
Hərə öz eşqini qəbul eylədi
Sonra gəldi ömr etməyə fəna-da

Ələst birəbbiküm qalu bəla-dır
Şəhidna ayərə yeddi mənadır
Xəta etmə bu dünyamız fənadır
Yapış damənindən böyük mövladır.

Ələst birəbbiküm qalu bəla-yəm
Rəşadətəm, şəfaətəm, səfayəm
Qəmlərində gecə gündüz nəvayəm
Gündə yüz yol şəhidi Kərbəlayəm.

Ruzi-ələst sizə mədh sərayəm
Bu dünyada həm də əza sərayəm
Qiyamətə qədər matəmsərayəm
Gündə yüz yol Şəhədi Kərbəlayəm.
Üsəranın mən çəkirəm qəmlərin

Şühədadı hər tərəfdə həmdəmim
Allah mənə nicat verib cəmlərin
Əhli-beytin qəmlərində nəvayəm
Gündə yüz yol Şəhidi Kərbəlayəm.

Ürəyimə vurmuşam Hüseyn yarasın
Qiyamətə qədər saclaram yasın
Soyunmaram İmam Hüseyn qarasın
Məhşərdə əzadari Kərbəlayəm

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gündə yüz yol Şəhidi Kərbəlayəm.
Əhli beytin qəmlərində təkmişəm
Şühədalər əziyyətin çəkmişəm
Üsəralar müsibətin çəkmişəm
Əhli beytin qəmlərinə dəvayəm
Gündə yüz yol Şəhidi Kərbəlayəm.

Xuda Sahib əzadı gör nolubdu
Əzizləri məzlum xar olubdu
Ağam İmam Hüseyn şəhid olubdu
Gəlin, gəlin, gəlin sahib əzayəm
Gündə yüz yol Şəhidi Kərbəlayəm.

Əli, Həsən, Hüseyn, Səccad, Baqir-i
Sadiq, Kazim, Rza, Təqiyyən, Nəqi
Məhəmməd, Fatimə, Həsən Əsgəri
Sahib əz zəmanə xidmətgüşayəm
Gündə yüz yol şəhidi Kərbəlayəm.

Saleh evlad, tanrıların yarıdır
Saleh evlad tanrıların, yarıdır
Tanrılar yarıdan, elin yarıdır
Müstəfa, Mürtəza, Zəhra, Müçtəba
Yetiş dadə Zəbihən-minəl-qəfa.

Allah hökmün xəlqə yayan sərvərəm
On dörd məsum həqqlərin bəslərəm
Soltani Qeys misalində səslərəm
Yetiş dadə Zəbihən-minəl-qəfa.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Həqq yolunda dünyada çəkdim cəfa
İnşə əllah üçbadə görrəm səfa
Soltani Qeys misalində səslərəm
Yet dadimə Zəbihən-minəl-qəfa.

Zəncəbiliyyə vermiş mənə şəfa
Səlsəbiliyyə verib əlbət səfa
Kafuriyyə dərdimə oldu dəva
Kövsərdən içdim ya Əli, Müstəfa.

Üç yüz on üç, otuz üç, beş, bir Rəsul
Yüz iyirmi dörd min zərrələnmiş nur
Həm əvvəli, həm də xətmidir Rəsul
On dörd, yetmiş iki, on iki, qırx-dur.

Yeddi yüz əlli altı aydır, altımış üç il
İyirmi üç min qırx üç sutka eyləyir.
Beş yüz əlli iki min altı yüz doxsan iki saat
Peyğəmbər, Əli bu qədər ömr eyləyib.

Hikmətüzə vurulmuşam dünyada
Qüdrətüzlə yoğrulmuşam dünyada
İzzətüzlə sovrulmuşam dünyada
Səvablarla yuyulmuşam dünyada.

Xaliqin yanında olan qüdrətin
Həm izni rəbb ilə olan qüdrətin
Hamıya müşküldə olan qüdrətin
Qüdrətin hökmiylə olan qüdrətin.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ərşin sütunu, vəsiyyi Müstəfa
Heydəri-Kərrar, Əliyyü Mürtəza
Yerin-göyün ləngəri, şiri-Xuda
Şahi-Mərdan, Əbu-Türab, La-fəta.

Əlləməl quran-da gəlib şəninə
Xələqəl insan da gəlib şəninə
Vəchə – də Taha –da gəlib şəninə
Qül-hüvərrəhman-da gəlib şəninə.

Əmirəl Möminin di hər tərəfdə
Əmin olub, əmindi hər tərəfdə
Kafirlərə qənimdi hər tərəfdə
Mənim ağam mənimdi hər tərəfdə.

Hər an çatır dadimə Düldülsəvar
Əldə ələm, bir əldə də Zülfiqar
Rəbbim verib hər bir işə ixtiyar
Rütbəsilə eyləyirəm iftixar

Gecə yuxuda da görürəm onu
Bircə an gözümdən olmayır kənar
Deyir bala yubanma səylə çalış
Sözün kəsərlidir san ki, Zülfiqar.

Söhbət həsrətiylə baxıram ona
Cavablarım verir mən danışmadan.
Qəlbimdən keçənin hamısın bilir
Elə bil sinəmdə yazılıb ekran.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ürəyimdən keçir-şairəm yoxsa?
Deyir mən vermişəi bu zövqü sənə.
İltimas edirəm – imdadə yetiş
Deyir – xidmət eylə xəlqə, ölkənə.

Düşündüm ki – ağa xəlq gedir əldən
Dedi – cürətli ol vətən basılmaz
- Bəs torpağım, bəs millətim, ar, namus
Dedi ki – yatmısız olub tar-mar.

- Allah buyurub ki istə verim mən
Amma bunlar heç vaxt heç nə istəmir
Çoxlarına özüm nişan verirəm
Hamısı deyir ki, bu əfsanədir.

Həzrəti Cəbrayil, Həzrəti Adəm
Bütün aləm ab, atəş, xak, bad
Hamısı öyrəndi bəndədən başqa
Hansın deyim, hansın sayım, qalma mat.

Nəsli peyğəmbər, vərəsətül ənbiya
Çalış səndə zina, günah olmaya
Allah qulluğunda üzun ağ olsun
Qiyamətdə düşməyəsən qorxuya.

Rəbbimiz söyləyib, kəlamında var
Allah əmanətləridir uşaqlar
Valideyinlərə edib etibar
Rütbələrin verib, kiçik tarılar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kiçik tarı tarı sayaq ömr edə
Uşaqları düzgün edə tərbiyə
Fani, baqi, elmi, ərkan öyrədə
Sonra yetər Allah verən rütbəyə.

Etmə zina, etmə xəta, olma xar
Valideynin etsin sənlə iftixar
Vərəsələrin xəcələtini çəkməsin
Ömr eləsin alnı açıq, bəxtiyar.

Evində qılasan gərək həcci sən
Məkkəyə getməklə iş hasil olmaz
Həcci sən qapında qılıb getməsən
Məkkəni gəzməklə həcc qəbul olmaz.

Həcci qıl qapında, evində, eldə
Həll et imkan qədər hər ehtiyacı
Minada yüz kərə qurban da kəssən
Bəndə gözünədir, səndən nə hacı.

Bəlkə xatirinə dəydi sözlərim
Qəlbin təmizdirsə razı qalarsan
Əyər bu sözlərdən razı qalmasan
Get özünü tanı, gör, nə adamsan.

Səfeh, nadan təbabətdən danışır
Özü şeytan himayətdən danışır
Ayın, Yerin gərdişin bilməyənlər
Ərşdən, bürcdən hər hikmətdən danışır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Paxıl, qürur, yalançı, şərmiyənlər
Haqqı atıb şeytana baş əyənlər
Dədəsinin tarixin bilməyənlər
Ol tarixi ənbiyadən danışır.

Ömrü boyu haramda, zinada bişib
Sinni çatıb yetmişə haldan düşüb
İndi durub mollalığa hərməşib
Haqqdan bilmir şər əməldən danışır.

Elm öyrənən kamil alar savadı
Yarımçığın fətvaları xətadı
Hər tərəfdə naşıları topladı
Şəriətə çox qulp qoydu Vidadi

Sən mənə bir söylə görüm hardasan
Fanidə düz ömr etməyə dardasan
Kəsb eləsən uduzmazsan fürsəti
Allah möhlət verib səvablardasan

Bertels Nizamini bir günəş yazdı
Höte atmış ilə Faustu yazdı
Viktor Hüqo, Sokrat, Şiller, Drayzer
Şeyx Nizaminin nurundan azdı.

İki təkəbbür dedi Şahi Mərdana
Əntə fi beynina kənuni ləna
Əmirəlmöminin dedi qürurlar
Bil-qalə in küntü fəküntümü la.
Molla, Axund, mərsiyəxan, rozəxan

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Soydurdular həqqi sevən Nəsimi
Ağsaqqallar fitna verdi güruhən
Öldürdülər Hacı Səyyid Əzimi.

Düzənə rəhmətdi, pozana lənət
Od su ilə sönər fanidir həyat
Bir ovuc kül imiş axırda insan
Yazdım bilsin Taqor Rabindranat.

Aristotel dedi: "ət yeyir əti",
Ömrü boyu Tolstoy ət yemədi.
Ət yeyənlər tez qocalır az zaman,
Süd məhsulu yeyən görünür cavan.

Başa salım səni eyləmə xiffət
Ərikdən bağ olmaz, camışdan dövlət
Estetik zövqümə heyrandı Bayron
Hesab yazsam heyrət edər Con-Dalton.

***

Min dördyüz beş Adəm gəlib gedibdi
Mininçi Süleyman Davud oğludur
Hər Məhəmməd adlı peyğəmdər gəlcək
Dedilər Əhməddir bu sonuncudur.

Əhməd, Mahmud, o sərvəri-kainat
Xatəmən-Nəbi, əşrəfi-məxluqat
Məhəmməd, Müstəfa, Rəsulu-Əkrəm
Gəlcək ərəblər saldılar ixtilat.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hüseyni şəhid etdi Kufə və Şamın Əhli
Məhəmməd, Əli vaxtı guya oldu gərəkli?
El ki, rəyi, yalançı, böhtan, qeybət eyləyə
"El gözü tərəzidir" – demək olmaz o elə.

Məkkə el deyildimi? Bəyənmirdi Rəsulu
Öz evindən didərgin birdəfəlik qovuldu
Kim qovurdu Allahın Rəsulun, peyğəmdərin
Həmin o Məkkə əhli, "müqəddəs el" – dediyin.

Qiymətlərin verim sənə əbcədin
Öyrənmək istəsən deyildir çətin
Qədim əbcəd: əlif-birdi, bey-iki,
Cim-üç, Dal-dörd, hə-beş, vöv isə altı.

Zey-yeddi, hey-səkkiz, tuay-ı-doqquz,
Yunun-on-du, kaf-iyirmi, lam-otuz.
Mim-i-qırxdı, nün-əlli, sin-altımış
Ayn-yetmiş, fey-həştad, suad-doxsan.

Qaf-yüzdür, Rey-iki yüz, şin-üç yüz
Tey-dörd yüz, Sey-beş yüz, xey-altı yüz.
Zal-yeddi yüz, zad-səkkiz yüz, yəqindi
Zuay-doqquz yüzdü və ğayn-min-di.

Vahidi yektayə sadiq qulam mən
Nə hökm olsa fərmanpərvərdəyəm
Əlif bir min olsa, ğayn da mindi
Min bir adı olan xuda kərimdi
Məşəd Vaşidxanam Xuda da vahid

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Həm də əhli-beytəm eşqimə sadiq.
La ilahə desən tez de illəllah
İlləllah deyəndə İslamda varsan.
La ilahə desən ömrün qurtarsa
İlləllah deməsən kafir olarsan.

Söylədi Əliyə Səlmani farsi:
- Mən qorxuram deyəndə bu kəlamı
La ilahə deyəm ömrüm qurtara
İlləllahsız tərk eliyəi dünyanı.

Yüz on üç surəni topla bir üzə
Fatihə surəsin yüklə bir üzə
Baxginan çəkisindəki tərazə
Yeddi dəfə ağır gələr, yeddidi.

Yeddiləri dəstə-dəstə söyləyim
Əvvələn təkbirdən xəbər eyləyim
Azanda dörd, iqamədə iki, niyyətdə bir
Onlar səvab, niyyətdəki rüknüdür.

Ehramda da deson, təkbir yeddidir
Altısı səvab, sonuncu rüknüdür.
Ehramdan da sonra bir növ yeddi var
Namazdadır onu alim anlayar.

Cismündə də bir ykddi var namazda
Səcdə vaxtı yerə dəyən əzalarda.
Alnunda da bir yeddi var iftixar
Ürəyündə bir yeddi var ixtiyar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dünyaya gələndə də bir yeddi var,
Kişilərdə sonradan yeddi də artar
Yeddilərin çəkəmməzsən hesabın
Toplasanda alimlərin kitabın.

***

Fatihədə yeddi dənə yeddi var
Yetmişə vur bəxş edə pərvərdigar
Hikmətin açmağa verə ixtiyar
Hasilini həll elədi Zülfiqar.

Fatihədə yeddi dənə yeddi var
Hər yeddidə, yeddi yetmiş yeddi var
Bir-dən yetmişədək elmi hikməti
Zərb olunur hər nə qədər yeddi var.

Gəl öyrədim indi sənə bəradər
Səf oxuma ömrün boyu bixəbər
On vəqf həsən, dörd tamm ilə bərabər
Fatihədə yeddi dənə yeddi var.

Dülil, hirəb, kənə, nəəb, biəl, - an
Özünü hifz eylə şeytani addan
Kiyo, kənəs deyib şeytana uyma
Ləfzi xəta etmə Allaha bağlan

Bir yeddi də – sa, cim, fə, xa, zey, şin, za
Sübur, cəhənnəm, xovh, şəqavət, lə-za
Fəzə, zəqqum-adların baş hərfi
Namaz qılanın üzünə bağlıdır ha.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Fatihənin yeddi adın sayginan
Yeddi hərf hansı yoxdu baxginan
Yeddi tələffüz şeytan adı oxuma
Ümmül kitab nə mənadı baxginan

Ümmül kitab yeddi ayə gərəkdi
Yeddi günəş, yeddi ayə gərəkdi
Yeddi cizgi hər iki cinedə vardı
Sonku yeddi mərdanəyə gərəkdi.

Beşdi, ondu, altı, on bir – ver cavab
İkisinə bir-bir artır-din ver cavab
İki dənə də bir, bir-ə eylə əməl
Əzizliyin tamamlansın, həm səvab

Beşdəki yeddi beş-i öyrənginən
On-dakı yeddi on-u eyləginən
Altıdakı yeddi altı olmasa
On bir-dəki yeddi on bir lənginən.

Yeddiləri zərb elə yığ bir yerə
Bəndə onu dərk eləməz heç kərə
Diqqət eylə fərş-ə, ərş-ə göylərə
Bax xaliqdə hüdudsuz qüdrətlərə.

İqdam etsə o işə ki dardadı
Yüz iyirmi altı əməl hardadı
Yetmiş biri müstəhəbb, iki həram
İyirmi yeddisi vaciblardadı
İyirmi altı məkruhu mən yazmadım

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Elm öyrəndim düz yolumu azmadıi
Həqq aşiqəm pərvərdigar muradım
Hər tərəfdə Əbəlfəzl Ələmdarım.

Niyyət deyən o şəxssən su tökürsən
Üçə hansın, dördə hansın bölürsən
Dillən görüm özün hənut bilirsən
Zərzərətün himar tək qoşulma

Yeddi əmrə görə qüsul, dəstəmaz
Alınar mömində təyəmmüm Təraz
Yetmiş doqquz məsəl axtarılmasa
Bil su ilə olar qüsul, dəstəmaz.

Ha xanədə iyirmi bir əməl var
Səkkiz məkrüh, beş müstəhəbb, beş həram
Gər istəsən rahatlığa çıxmağa
Üç vacibə eylə əməl, vəssəlam.

Ha xanədə əlli deyillər əməl
Doqquz məkrüh, iyirmisi müstəhəbb
İyirmi bir vacibə eylə əməl
Dur xaliqlə rubaru ta əl bə əl.

Məşhur olan qüsullər qırx altıdır
Qırx müstəhəbb, vacibləri altıdı
Cənabət, heyz, kəsirə mütəvəssitə
Nifas, meyyit, bir də məssi məyyitə

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qüsldən kəfənə bükənə qədər
Otuz beş əməli necə eylərsən
On beş müstəhəb, altı məkruh, iki həram
On iki vacibi etməsən neylərsən

Çox axtarma düz işi daşda-dağda
Allah yol qoyubdur hər bir ayaqda
Dörd yüz litr, ya kiloqram Kürrüdür
Vasvasılıq edib durma qıraqda

Vacibi nəmazlar on iki növdür
Şeytan kimi çox axtarma əyri yol
Hər gündə on yeddi rikətini qıl
Nə iş görürsən gör, çalış insan ol

Ayat nəmazını qıl qorxu çıxa
Təhlükə sovuşa, yalvar Allaha
Səkkiz müstəhəbbi əməli vardır
Həm də yaxşı olar ucadan qıla.

Quran ayələri saydadır sənə
İl ərzində vacib olan namazlar
Quran ayələri qədərdir hər gün
Mömin bəndələrə uyğun səvablar.

Hansı əməl iyirmi altı şöbədi
On altısı müstəhəbbdi gör nədi
Altı vacib dördü məkruh yazıldı
Cəmləyəndə iyirmi altı eylədi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hansı yerdə otuz yeddidir məsəl
Onu vacib, iyirmi beşi müstəhəbb
Diqqət eylə öyrənməyin səvabdı
İki məkrüh tamamlanır əlbə əl.

Hansı əməl on səkkizdir hesabı
Doqquz vacib, səkkiz müstəhəbbatı
Səlam vermək hər bir şəxsə səvabdı
Səlamın almaq onda da səvabdı.

On yeddiylə hansı gəlir hesaba
On iki müstəhəbb, beşi vacibata
Qəlbin düzsə tamamlanır büsatı
Qəbuldasan aç dilini hacata.

Hansı nəmaz otuz əməl eyləyir
Doqquz vacib, iyirmi biri müstəhəb
Səkkiz cür adamlardan saqitdir o
Qalanları qılsa səvab eyləyər.

Hansılarda iyirmi bir eyləyim
On altısı müstəhəbb, beşi məkrüh
Qurban, Fitr, Novruz hansın söyləyim
Onsuz da qılmağa gəlmir bu güruh

Zəvali eyn, istihalə, intiqal,
Su, od, günəş, nəqs, islam, inqilab,
Torpaq, məssi bətahir və təbiət
Hər bir işdə Bismillahla de niyyət.
Doqquzdan çox, üçdən isə az deyil

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Tələq vermək o şəxsə caiz deyil
Dörd hal keçsə tutub qılmaq iznidir
Neçə halda sövm-səlat vacib deyil.

Nə surələr iltimasa əfzəldi
İkisində otuz iki əməldi
On bir vacib, on isə müstəhəbdi
Altı həram, beşi məkruha gəldi.

Fatihədə vəqfi-həsən hardadı
Öyrənmədin vəqfi-tamm hardadı
Təkəbbürlük edib desən bilirəm
Yerlərin de hansı neçə saydadı.

Təkbirətül-ehram soruşsan əyər
Yeddi vacib, yeddisi də müstəhəbb
Niyyətində vasvasılıq eyləmə
O şeytan işidir, şeytandan əl çək

Sağlamlıqçın hansı şəxsə vacibdir
Əməl edə yeddi məkrüh, beş həram
İyirmi müstəhəbb, üç şeyçin vacib
Əməli də etsə pak olar tamam.

Azan deyən otuz üç əməlin var
On doqquzu müstəhəbbdi tərk etmə
Doqquz məkrüha da diqqət yetir sən
İki həramı bil səhv yolla getmə.
Diqqətli ol bərhəm etmə qiyamı
Beş vacib var, on müstəhəb, üç məkrüh

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yaxşı öyrən düzəlişlər yolunu
Bərhəm etsən qiyamını yamaq vur

Hansı nəmaz min rikətdi bir ayda
On yeddi rikətə qarışmır əsla
Yarısı şam ilə xüftən arası
Yarısı sübhədək qılınır amma

Müxtəsəri beş namazda hər günə
Üç yüz yetmiş iki vacib əməl var
Şəkkiyyat, səffiyyat bilməyən şəxsin
Bilər-bilməz qıldığından nə çıxar.

Şəkkiyyat nəmazda iyirmi üç olar
Doqquz növü düzgün olan şəkklərdir
Altı növünə etməzlər e‘tina
Səkkiz növü batil edən şəkklərdir.

İyirmi üç şəkkiyatın
Altısına vermə fikir
Doqquzu düzgün olandır
Səkkizi batil edəndir.

***

Bütün dəllalığı öyrənir, amma
Deyir ki şəkkiyyat ypdımda qalmır
Şeytandan çox bilir hiylə yolların
And içir səffiyyat yadımda qalmır.
Təyəmmümdə iyirmi bir əməl var
İki məkruh, yeddi müstəhəbb olar

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

On iki vacibə əməl eyləsən
Su tapana qədər ğəbula çıxar.

Kəfəndən qəbrədək, vəfat edənə
Qırx yeddi əməli yerinə yetir
Beş vacib, otuz üç müstəhəbbini
Doqquz məkruh ilə ləhədə yetir.

Qüsüldən nəmaza qədər, ölənçin
İyirmi doqquz əməl eylə karıxma
Doqquz vacib, on iki müstəhəbbi
Səkkiz məkruh olmasa da darıxma

Vilayəti ver dünyaya gələndə
Azan, iqamə deməsən nə bəndə
Kəlmeyi şəhadət, kəlmə təyyibə
Əhməd, Bətul, Türab, Zəbər, Zübeyr-ə

Mehman olsan ya çağrılson bir yerə
Diqqət elə son dərəcə həddinə
Aşkar, zımnı, fəhvi olan rüsxəti
Bir də ki var, Şahidi-hal, rüsxəti

Əməl et məsciddə qırx bir əmələ
On səkkiz məkrüh, on iki müstəhəbbə
On bir həramı gəl ataq kənarə
Gəl bir soruş bir də deyim dübarə

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir de görüm kimə verim bu dərsi
Düz söz qalır bunlar axtarır tərsi
Məhəmməd peyğəmbər Quran oxurdu
Özündən razılar ona gülərdi

On yeddi vacibi öyrən dur indi
On beşi müstəhəb, otuz iki şeydi
Vaciblər müstəhəbbdən də sadədir
Başlıcası iqdam etməkdir indi

Gündə otuz dörd dəfə yeddidi
Yığnağı hər bir günə on yeddidi
Üç, beş dəfə açılsa da qəbulu
Babı birdi, müntəziri yeddidi

On yeddini xırdalasın dillərim
Hər dəstədə otuz dörd sünbüllərim
İki yüz otuz səkkiz açır güllərim
Həştad səkkiz yol ucalır əllərim

Hərflər məxaricindən olar əda
Cəminin adıdır Hürufi-heca
Mənbəyi-şuş, öpkə, riyə, ağ ciyər
Hərf odur ki, qəbul edə hərəkə

Hürufi-məcmə, hürufi-mühmələ
Məxrəci bil diqqət elə tərtilə
Şəmsin üstə tap sayın gəl Qəməri
İyirmi səkkiz alasan hasilə

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ləhəvi iki, şüfəvi dörd, həlqi altı
Dilçək, dodaq, hülqum – fəmi an altı
Əməl etsən adablara alarsan
Altı min altı yüz altımış altı

Hürufatı həm kəlmatı sayarsan
Səcdələrə yetişcək cəld olarsan
Vur hikmətə gör ki, hasilə aldı
Altı min altı yüz altımış altı

Sünaya, Rübaiyyat bir də ənyab
Dördü birdi, dördü birdi, dördü bir
Zəvahik, təvahin, nəvaçid=əzras
Dördü birdi, dördü birdi, on iki bir

Hürufi məxaric də on yeddidir
Həvvəz, ha-ye-hotti deyir
Ha-ye zəmir, tey-lər, hey-lər, Ya-hey-ya
Elmi öyrən eylə duva Allaha

Zəruri qıraət ehkamı yeddi
İzhar, İdqam, Qəlb, İxva, Məddi-qəsr
İşbavü-ixtilas və Vəqfü-vüsul
Əyləş diqqət eylə, sənə verim dərs

Məəlğünnə, Bilağünnə, Misləyn,
Mütəcanisəyn, Mütəqaribəyn
Gəl öyrədim diqqət elə tap yolun
Anlaginan nədir Yəmun, Yərməlun

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İxfa gizlət deyir, İşba doyurmaq
Həm öyrən on iki vəqf ilə vəsli
Yeddi istiqamət yollarına bax
Səf oxusan kəsər büsbütün nəsli

Sadə adablara diqqət yetir ki
Hansıdır üç, və dörd, və iki səsli
Hərfi hillə sənə mədd görünməsin
Anlamırsan sənə mən verim dərsi

Əlməshəf Əşşərif öyrədim sənə
Səhihi Tənzildən verim dərsini
Məcid, Qədim, Nur, Zikr, Hakim, Sövq
Min tənzil, Furqandan verim dərsini

Möhkəmat ayələr zahirin anla
Örtülü mənaya girə bilməzsən
Mütəşabihləri düşünmə əsla
Azarsan yolunu bilə bilməzsən

Məmdudə Məbsutə Məqsurə-ni tap
Əlif anlamırsan atma əl ayaq
Az əqlinlə Qurana böhtan demə
İslama girənməz heç cəfəngiyat

Bu gün hali edim səni
Bil fonetik dəyişməni
Öyrənməsən səf oxusan
İnan zəlil edər səni

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bil fonetik dəyişməni
Sintaksisdə görüm səni
İnan Allah zəlil edər
Üstadın inkar edəni

Hərfi hillə anla nədi
Qarışdırma ona mədd i
Öyrənməyin yoxdu həddi
Elm dalınca keç Çin səddi

Bə oxuma Be-ni tanı
Bi oxuma Ba-nı tanı
Əlifi anlamayana
Həvalə etmə Quranı

İdğami məəlğünnə izhar olunan dörddür
Bəs harda Bilağünnə ğünnəsiz olar İdğam
Misləyn oldu yoldaş, Müdğəmlə, Fihi qardaş
Həm orda Məəlğünnə, Məddi, hərifi Müdğəm

Məxrəclər eyni olsa, bil ki Mütəcanisdir
Gər məxrəc uzaq olsa yaz Mütəqaribəyn
Mədd ilə qarışdırma altı növə ayrılmış
Müttəsil, İşba, Ariz, Münfəsil, Ədl, Lazim

İki dəfə nazil olan İxlasın
Hikməti həm Əli, həm də Allahın
Barı bir dərk eylə Allaha tapın
Güşələrdə cismin, ruhun yanmasın

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Agahlıq tap oyan Xuda Kərimdi
Kəlamullah həkim, hakim, əzimdi
İnnama yuridullahi bil anla
Əhləlbeyt təthira böyük həkimdi

Ayei Təthiri mafiha, araşdır gör nədir
Mənbəyin Quranda axtar, əqlinə güc gəlmə bir
Löh-qələm, ərşin sütunu, həm Siratin körpüsü,
Ərş ilə Fərşin nizamı, ləngəri Heydərdədir.

Möhkəm inam olmazsa iyman ala bilməzsən
Üqbayə bundan qeyri pasban ala bilməzsən
Nə Qəmbər, Əbuzər, Səlman ola bilməzsən
Rəsula inanmaqla heç olmasa Miqdad ol

Möhkəm inamun yoxdur, iyman ala bilmədin
Fanidə baqi üçün pasban ala bilmədin
Nə Qəmbər, Əbuzər, Səlman ola bilmədin
Malını əziz tutma heç olmasa Əmmar ol

Xumş vacib olan yeddi,
Zəkat isə doqquz şeydi.
Rahatlığa çalış hər vaxt,
Fitrəninki səkkiz şeydi.

Min yol duva etsən də bir hasil olmaz əldə,
Bir şəxsə yetişərsə hərgah qəzəbi Allah.
Dünya ləşkərə dönsə yıxa bilməz o şəxsi,
Gər şamın yandırıbsa rəhm ilə Qüdrətullah.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yüz yol qarqış eyləsən yıxammazsan o şəxsi
Əyər o qazanıbsa dünyada rəhmətullah
Sən sayını bilməzsən günahların, səvabın
Onun dəqiq sayını yazdırır yalnız Allah.

Ov iti ovlasa ovu, altı şərtə et əməl
Paka çıxar, həm yeyərsən onda olmaz bir xətər
Allah hökmün nəhy eyləyən, yaxud əməl etməyən
Kəslər ilə yoldaş olsan, sən də olarsan Kafər

Mattım-mattım gözün döymə al nəfəs
Əbcəd, havvaz, hutti, kələmən, səfas,
Qaraşət, səxiz, üç hərfi zazığ
Qədim əbcəd ilə əlifbanı yığ

Var yolu ki Dazığ yazım ya Zazığ
Çalış olma heç kimə quyruq, qabıq
Öyrənmirsən etmə mənə paxıllıq
Nə yazmışam nə biləsən ay yazıq.

Heç olmasa yazıqsan, yazıq tək ol
Ədaləti, insafı atma, düz ol
Üstadına şıllaq atma hayıfsan
Elmin yoxdur, heç olmasa insan ol.

***

Ğazmat yazıb təvəllüd tariximi
Miladi ilə olubdur biri Yanvar

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

On iki yaşımdan şair olmuşam
On yaşımdan sadiq, mömin, ixtiyar

Ğazmah yazın təvəllüd tariximi
Miladi ilə iyirmi iki Dekabr
Biri Yanvar min doqquz yüz qırx doqquz
Səf yazıblar, nə həya var, nə abır.

Dilimin əzbəri hər səbah, şam
Qaf, Rey, nun-du, səhihi tənzil ilə
Altı min, xey, si, vov-yetmiş min hikmət
Ta Bey-dən başlamış, xətmi sin ilə

Əlifbətəsə, cimhaxə, dəlzal-gərək
Razeyn, sinşin, saddad – on üç xal gərək
Taza, həvovyə, ləmmimnun, fəqafkəf
Ayn ğayn-minbərdə üçtad gərək.

Əlifbətəsə, cimhaxə, dəlzal, razeyn,
Sinşin, saddad, Taza, həvovyə-yazdım
Ləmmimnun, fəqafkəf, ayn ğayn
Elmə, helmə ustadım on dörd mə‘sum.

Sülüsi, Nəsxi, Riqi, farisi, Divani
Çahar dey qədər xətt, dörd növ reyhani
Qədim daş basmalar, həbəşi, Kufi
Dərk etmir cumur ki, alsın Quranı.

Lam bey qədər yazdım xəttatlıq xətti
Mollalar öz arların oxuya bilmədi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Beş, on, altı, on bir-ə etmir əməl
Qurana girişib, bilmir məsdəri

Öyrənmişəm ustadımdan büstü həşt
On dörd məsum yolundayam həftü həşt
Allah mənə məkan verib həştü həşt
Qüdrətlərin dərk edib eylərəm kəşt.

Üstad olan özün etməz təkəbbür
Xam, xam boylanırlar hamısı bəzgəkdur
İşləri hay-küy cəfəngiyat, kələkdür
Xoş görünür şeytan özü mələkdür.

Ustadlıq böyük bəxşişdi insana
Allah heç vaxt verməz onu nadana
Özün ustad sayıb girib meydana
Himar da hay deyir, həm mələr dana

Ustad olan özünü tutmaz yekə
Özünüzü tez qoymusuz padrökə
Hər gün əlinizə verib bir kökə
Dərs almağa məktəbə yollaram naşı

Özü kafər şəriətə soxub burnun
Peyğəmbər, imam sözlərin edib məğmum
Dədəsiymiş sən demə Sufyan bunun
Tərifləyir Bu-ləhəbi tin başı

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şeydibaz özün tez verər büruzə
Surətin əməlin bənzədibdi urusə
Xeyir əməli yoxdur gedə güdazə
Harda zina orda qaynayır başı

İşin gücün atıb girib ortaya
Heç kim bilmir keçib hansı noxtaya
Şimr, Əmir-Ae, Əzrəq, mərvan, maviya
Übeydullah-Ziyad imiş qardaşı

Səbrinə qurban bari-İlahi sənin
Xahiş edib bizçün Məhəmməd əmin
Yədullahdı həm də bir adın sənin
Məhşər günü əfv edəsən sirdaşı

De görüm görmüsənmi zəbəri-zeydi harada
Bəsləyirsən özünü sən nəcisi pul-parada
Gər səni tarı gərək ayrı sülübdən yarada
Ayrı süd əmsən ola bəlkə də insan sayağı.

İnsan olmaqlığına çoxdur hələ mərhələlər
Elə zənn etmə ki, səndən bu yolun ətri gələr
Sən kimi çaş qalan məxluq yemi qanqaldı mələr
Özünü maskaya salma belə gəzmə bayağı.

Hər sözündə əməlində insanlıq həddinə dol
Qəlbini, məqsədini, batinin gizləmə bol
Zahiri görkəmini maskaya salma adam ol
Düz sözə, əyri kəsib, tərsinə vurma yamağı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nəhy etdin Allahı, Quranı, dini
Bəyəndin ingilis Çarlz Darvini
Cəhl edib mədh edirdin soyadından
Əcdadını yaratmışdın meymundan

Vəsvəsə etdüz bir dəstə quruldu
Alimin Darvin dədən meymun oldu
Ömür boyu höccət etdim siz nası
Dinə gəlmədüz a meymun balası

Bir Allaha bağlamayıb qəlbini
Tutmuş idin iki əlli Darvini
Çox sifətə girmisən gəl indi də
Maska tutma mərsiyyəni, Yasini

Üsuliddini təmam nəhy eylədin
Firuiddinə heç əməl etmədin
Qüsul, dəstəmaz bilmirsən bir yana
Həya eylə sən hərməşmə Qurana

Nə öyrəndin, nə yoğurdun nə yapdın
Bir yasinlə əyri mollalıq tapdın
Həştad üç ayədə üç yüz səhvin var
Nə niyyəti nə qiraəti tapdın.

Daxilən əyri olan qozbelə də bənzəməyir
Qozbeli qəbir düzəldər şəbi əvvəldə qəbr
Namaz qılan sən Allahla danışdın
Quran oxu Allah sənlə danışsın.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məşədi Vahidxan deyir bir daha
Deyilənlər düzdür və Turi Sinin
Niyə bağlanmırsız əziz Allaha
Ələysəllah bi əhkəmil hakimin.

Bir həqq aşiqiyəm buta soraqlı
Qubalı-Baloğlan hərami dağlı
Pir Hüseyn kimi Pir xanəgahlı
Məşədi Vahidxan həqq səsiyəm mən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

QURAN

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

QURAN KƏLMƏLƏRİNİN SAYI

Ərəb ölkələrində, İranda, dini ali akademiyalarda Quranın ayələrinin, kəlmələrinin, hərflərinin saylarının və mənalarının üzərində daimi tədqiqatlar aparan xüsusi şöbələr, fakültələr vardır. Bu sahələrdə baxmayaraq ki, uzun illərdir dini alimlər tədqiqatlar aparırlar Quran ayələrinin, kəlmələrinin, hərflərinin sayı xeyli müxtəlif alınır.

İran İslam Respublikasının bu tədqiqatlar əsasında məndə bir qalın kitabçası vardır ki, bu sayların hərəsi yüzdən də çox cüryazılmışdır. Ona görə də Quranın kəlmələrinin, ayələrinin, hərflərinin sayına gəldikdə hər kim hansı ali mənbəyə əsaslansa elə bir xəta deyildir.

Həmin kitabçadan mən ayə və kəlmələrin bir neçə cür sayını nümunə üçün yazıram.

Həmin kitabçada bu rəqəmlər çoxdur. Mən müxtəsərin cəmi 2%-ni nümunə üçün yazdım.

Ona görə də mən birbaşa Quranın birinin özündə yazılan sayla bu şeiri yazdım və həmin səhifələrinin surətini bu kitabda bir sübut kimi rəsmi olaraq verirəm ki, hər özündən razı adam özü oxuduğu ya təsadüfən rast gəldiyi mənbəəni bura qoşmasın. Bu əsaslar və bu mənbəə mənim kəşfim deyildir.

Mənim özümdə rəsmi olaraq dörd yüzdən çox mənbəə var. mən bu mənbəə əsaslanmışam. Mən heç kimə heç vaxtı icazə vermirəm ki, mənim yazdıqlarıma nəsə qoşsun ya desin. Hər kimin elə bir alimliyi varsa, istedadı varsa, o da özü xoşuna gələn mənbəə
dən özü yazsın. Elə olsa daha gözəl və insani olar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

فهارس القرآن

فهرست‌نامهٔ قرآن

فهرس الالفاظ

فهرست کلمات

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

_____Milli Kitabxana_____

قرآن کریم

باترجمه محمدکاظم معزّی

بخط نویسنده و مشهور طاهر خوشنویس (تبریزی) از روی قرآن سلطانی نوشته و عکس برداری شده

دعا قبل از تلاوت قرآن مأثور از حضرت امام جعفر صادق علیه السلام

اَللّٰهُمَّ اِنِّی اَسْئَلُکَ بِاَنَّ هٰذَا کِتٰبُکَ الْمُنَزَّلُ مِنْ عِنْدِکَ عَلٰی رَسُولِکَ مُحَمَّدِ بْنِ عَبْدِکَ صَلَّی اللّٰهُ عَلَیْهِ وَاٰلِهِ وَکَلَامُکَ النَّاطِقُ عَلٰی لِسَانِ نَبِیِّکَ جَعَلْتَهُ هَادِیًا اِلَیْکَ اِلٰی حَلِیفَتِکَ وَدَلِیلًا مُتَصِلًا فِیمَا بَیْنَکَ وَبَیْنَ عِبَادِکَ اَللّٰهُمَّ اِنِّی نَذَرْتُ عَهْدَکَ وَکِتٰبَکَ اَللّٰهُمَّ فَاجْعَلْ نَظَرِی فِیهِ عِبَادَةً وَقِرَائَتِی فِیهِ فِکْرًا وَفِکْرِی فِیهِ اِعْتِبَارًا وَاجْعَلْنِی مِمَّنْ اِتَّعَظَ بِبَیَانِ مَوَاعِظِکَ فِیهِ فَاجْتَنَبَ مَعَاصِیَکَ وَلَا تَطْبَعْ عِنْدَ قِرَائَتِی عَلٰی جَهَنَّمَ وَلَا تَجْعَلْ عَلٰی بَصَرِی غِشَاوَةً وَلَا تَجْعَلْ قِرَائَتِی قِرَائَةً لَا تَدَبُّرَ فِیهَا بَلِ اجْعَلْنِی اَتَدَبَّرُ اٰیَاتِهِ وَاَحْکَامَهُ اِخْذًا بِاَدَابِهِ وَسُنَنِهِ وَلَا تَجْعَلْ نَظَرِی فِیهِ غَفْلَةً وَلَا قِرَائَتِی هَذًّا اِنَّکَ اَنْتَ الرَّءُوفُ الرَّحِیمُ

اهداء

انجمن اسلامی غرب تهران

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Milli Kitabxana

عدد	سورة	محل نزول	ترتيب نزول	آيات	كلمات	حروف
١	الفاتحه	مكه	٥	٧	٢٩	١٣٢
٢	البقرة	مدينة	٨٧	٢٨٦	٦٢٢١	٢٥٥٠٠
٣	آل عمران	مدينة	٨٩	٢٠٠	٣٣٨٠	١٣٥٢٥
٤	النسا	مدينة	٩٢	١٧٦	٣٧٣٥	١٥٠٣٠
٥	المائده	مدينة	١١٢	١٢٠	٢٨٠٣	١١٩٣٣
٦	الانعام	مكه	٥٥	١٦٥	٣٨٥٠	١٢٢٥٣
٧	الاعراف	مكه	٣٩	٢٠٦	٣٨٢٥	١٣٨٧٧
٨	الانفال	مدينة	٨٨	٧٥	١٠٩٥	٥٠٨٠
٩	التوبة	مدينة	١١٣	١٢٩	٤٠٩٨	١٠٣٨٨
١٠	يونس	مكه	٥١	١٠٩	١٨٣٢	٧٥٣٧
١١	هود	مكه	٥٢	١٢٣	١٧١٥	٧٥١٣
١٢	يوسف	مكه	٥٣	١١١	١٧٦٦	٧١٦٦
١٣	الرّعد	مدينة	٩٦	٤٣	٨٥٥	٣٥٠٦
١٤	ابراهيم	مكه	٧٢	٥٢	٨٣١	٣٤٣٣
١٥	الحجر	مكه	٥٤	٩٩	٦٥٤	٢٧٦٠
١٦	النحل	مكه	٧٠	١٢٨	٢٨٤٠	٧٧٠٧
١٧	الاسرى	مكه	٥٠	١١١	١٥٣٣	٦٣٦٠
١٨	الكهف	مكه	٦٩	١١٠	١٥٧٩	٦٣٦٠
١٩	مريم	مكه	٣٤	٩٨	٩٨٢	٣٨٠٢
٢٠	طه	مكه	٤٥	١٣٥	١٣٣١	٥٢٣٢
٢١	الانبيا	مكه	٧٣	١١٢	١١٦٨	٣٨٩٠
٢٢	الحج	مدينة	١٠٣	٧٨	١٢٩١	٥٠٧٠
٢٣	المؤمنون	مكه	٧٣	١١٨	١٨٣٠	٣٨٠٢
٢٤	النّور	مدينة	١٠٢	٦٣	١٣١٦	٥٦٨٠
٢٥	الفرقان	مكه	٣٢	٧٧	٨٩٢	٣٧٣٣
٢٦	الشعرا	مكه	٣٧	٢٢٧	١٢٩٧	٥٥٢٢
٢٧	النمل	مكه	٤٨	٩٣	١١٣٩	٣٧٩٩
٢٨	القصص	مكه	٤٩	٨٨	١٣٣١	٥٨٠٠
٢٩	العنكبوت	مكه	٨٥	٦٩	١٩٨١	٣١٩٥
٣٠	الرّوم	مكه	٨٣	٦٠	٨١٩	٣٥٣٣
٣١	لقمان	مكه	٥٧	٣٤	٥٣٢	٢١١٠
٣٢	السجده	مكه	٧٥	٣٠	٣٨٠	١٥٠٠

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Milli Kitabxana

عدد	سورة	محل نزول	ترتيب نزول	آيات	كلمات	حروف
٣٣	الأحزاب	مدينة	٩٠	٧٣	١٢٨٠	٥٧٩٦
٣٤	سبا	مكة	٥٨	٥٤	٨٨٣	١٥١٢
٣٥	الفاطر	مكة	٤٣	٤٥	٧٩٧	٣١٣٠
٣٦	يس	مكة	٤١	٨٣	٧٢٩	٣٠٠٠
٣٧	الصافات	مكة	٥٦	١٨٢	٨٢٠	٣٨٢٣
٣٨	ص	مكة	٣٨	٨٨	٧٣٢	٣٠٢٩
٣٩	الزمر	مكة	٥٩	٧٥	١١٩٢	٤٧٠٨
٤٠	المؤمن	مكة	٦٠	٨٥	١١٩٩	٤٩٦٠
٤١	فصلت	مكة	٦١	٥٤	٧٩٦	٣٣٥٠
٤٢	الشورى	مكة	٦٢	٥٣	٨٦٦	٣٥٨٨
٤٣	الزخرف	مكة	٦٣	٨٩	٨٣٣	٣٤٠٠
٤٤	الدخان	مكة	٦٤	٥٩	٣٣٦	١٤٣١
٤٥	الجاثية	مكة	٦٥	٣٧	٤٨٨	٢١٩١
٤٦	الأحقاف	مكة	٦٦	٣٥	٦٣٣	٢٥٩٨
٤٧	محمد (ص)	مدينة	٩٥	٣٨	٥٣٩	٢٣٣٩
٤٨	الفتح	مدينة	١١١	٢٩	٥٦٠	٢٣٣٨
٤٩	الحجرات	مدينة	١٠٦	١٨	٣٣٣	١٣٩٦
٥٠	ق	مكة	٣٣	٤٥	٣٥٧	١٣٩٣
٥١	الذاريات	مكة	٦٧	٦٠	٣٦٠	١٢٨٧
٥٢	الطور	مكة	٧٦	٤٩	٣١٢	١٥٠٠
٥٣	النجم	مكة	٢٣	٦٢	٣٠٨	١٣٠٥
٥٤	القمر	مكة	٣٧	٥٥	٣٤٢	١٣٢٠
٥٥	الرحمن	مدينة	٩٧	٧٨	٣٥١	١٦٣٦
٥٦	الواقعة	مكة	٣٦	٩٦	٣٧٨	١٧٠٣
٥٧	الحديد	مدينة	٩٣	٢٩	٥٣٣	٢٣٧٦
٥٨	المجادلة	مدينة	١٠٥	٢٢	٣٧٣	١٧٩٢
٥٩	الحشر	مدينة	١٠١	٢٤	٣٤٥	١٩١٣
٦٠	الممتحنه	مدينة	٩١	١٣	٣٣٨	١٥١٠
٦١	الصف	مدينة	١٠٩	١٤	٢٢١	٩٠٠
٦٢	الجمعة	مدينة	١١٠	١١	١٨٠	٧٢٠
٦٣	المنافقون	مدينة	١٠٣	١١	١٨٠	٧٧٦
٦٤	التغابن	مدينة	١٠٨	١٨	٢٣١	١٠٧٠

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Milli Kitabxana

عدد	سورة	محل نزول	ترتيب نزول	آيات	كلمات	حروف
٦٥	الطلاق	مدينة	٩٩	١٢	٢٤٨	١٠٦٠
٦٦	التحريم	مدينة	١٠٧	١٢	٢٤٦	١١٦٠
٦٧	الملك	مكة	٧٧	٣٠	٣٣٠	١٣٠٠
٦٨	القلم	مكة	٢ (٥)	٥٢	٣٠٠	١٢٥٦
٦٩	الحاقة	مكة	٧٨	٥٢	٢٥٦	١٠٨٤
٧٠	المعارج	مكة	٧٩	٤٤	٢١٦	١٠٩١
٧١	نوح	مكة	٧١	٢٨	٢٢٤	٩٢٩
٧٢	الجن	مكة	٤٠	٢٨	٢٣٥	٨٧٠
٧٣	المزمّل	مكة	٣	٢٠	٢٨٥	٨٣٨
٧٤	المدثر	مكة	٤	٥٦	٢٥٥	١٠١٠
٧٥	القيامة	مكة	٣١	٤٠	١٩٩	٦٥٢
٧٦	الدهر	مدينة	٩٨	٣١	٢٤٠	١٠٥٤
٧٧	المرسلات	مكة	٣٣	٥٠	١٨١	٨١٦
٧٨	النبأ	مكة	٨٠	٤٠	١٧٣	٧٧٠
٧٩	النازعات	مكة	٨١	٤٦	١٣٩	٧٥٣
٨٠	عبس	مكة	٢٤	٤٢	١٣٣	٥٣٣
٨١	التكوير	مكة	٧	٢٩	١٠١٣	٥٣٣
٨٢	الانفطار	مكة	٨٢	١٩	٨٠	٣٢٧
٨٣	المطففين	مكة	٨٦	٣٦	١٧٧	٨٣٠
٨٤	الانشقاق	مكة	٨٣	٢٥	١٠٩	٤٣٠
٨٥	البروج	مكة	٢٧	٢٢	١٠٩	٤٥٨
٨٦	الطارق	مكة	٣٦	١٧	٦١	٢٤٥
٨٧	الأعلى	مكة	٨	١٩	٧٢	٢٧٠
٨٨	الغاشية	مكة	٦٨	٢٦	٧٢	٣٣٠
٨٩	الفجر	مكة	١٠	٣٠	١٣٧	٥٧٧
٩٠	البلد	مكة	٣٥	٢٠	٨٢	٣٣٠
٩١	الشمس	مكة	٢٦	١٥	٥٤	٢٤٧
٩٢	الليل	مكة	٩	٢١	٧١	٣٠٢
٩٣	الضحى	مكة	١١ (٤)	١١	٤٠	١٩٢
٩٤	الانشراح	مكة	١٢	٨	٢٧	١٠٣
٩٥	التين	مكة	٢٨	٨	٣٤	١٥٠
٩٦	العلق	مكة	١	١٩	٩٢	٣٨٠

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Milli Kitabxana

عدد سورة	محل نزول	ترتيب نزول	آيات	كلمات	حروف
٩٧ القدر	مكه	٢٥	٥	٣٠	١١٢
٩٨ البيّنة	مدينة	١٠٠	٨	٩٣	٣٩٢
٩٩ الزلزال	مدينة	٩٣	٨	٣٥	١٣٩
١٠٠ العاديات	مكه	١٤	١١	٤٠	١٦٣
١٠١ القارعة	مكه	٣٠	١١	٣٦	١٥٠
١٠٢ التكاثر	مكه	١٦	٨	٢٨	١٢٠
١٠٣ العصر	مكه	١٣	٣	١٣	٦٨
١٠٤ الهمزة	مكه	٣٢	٩	٣٣	١٣٠
١٠٥ الفيل	مكه	١٩	٥	٢٣	٩٦
١٠٦ قريش	مكه	٢٩	٤	١٧	٩٣
١٠٧ الماعون	مكه	١٧	٧	٢٥	١٢٥
١٠٨ الكوثر	مكه	١٥	٣	١٠	٣٢
١٠٩ الكافرون	مكه	١٨	٦	٢٦	٩٣
١١٠ النصر	مدينة	١١٤	٣	١٩	٧٧
١١١ لهب	مكه	٦	٥	٢٠	٧٧
١١٢ الاخلاص	مكه	٢٢	٤	١٥	٤٧
١١٣ الفلق	مكه	٢٠	٥	٢٣	٧٣
١١٤ الناس	مكه	٢١	٦	٢٠	٧٩

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

QURANIN MƏDHİ

Əllahümmə səlli əla Məhəmməd
Əuzu billahi şeytanir rəcim
Bismillahir rəhmanir rəhim yazıb
Ya Allah, Məhəmməd ya Əli dedim.

İltimas eylədim istəklərimi
Allah bəxş eylədi diləklərimi
Altı min altı yüz altımış altı
Ayədə örtülü hikmətlərini.

On dörd məsum yetmiş iki şühəda
Qırxdan bir kəm əsiri Kərbibəla
Əziz Fatiməsi Bətul həqqinə
Və həqqi Xamisi pənc Ali-Əba.

Şükr olsun sənə İlahi ki mən
Sənin bəxş etdiyin elmə vaqifəm
Gecə-günüz təlim edirsən məni
Xaliq sən-sən, alim sən-sən, mən kiməm.

Şükr dərgahına bari-İlahi
Nə yolnan şükürümü yetirim sənə
Dünyanın ən gözəl nemətlərini
Öz istəyin ilə bəxş etdin mənə.

Yoxdur qüdrətinin həddi-hüdudu
Adəmə göndərdin ilk on süfufu

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şis-ə Əlli, İdrisə gəldi otuz
İbrahimə nazil oldu on süfuf.

Musaya bir Tövrat, Davuda Zabur,
İsaya İncili eylədin nüzul
Əzəldən sonadək peyğəmbərlərə
Hamsını göndərdin bircə dəfəyə.

Hamısından ali sən Məhəmmədə
Quranı göndərdin iyirmi üç ilə
Nur, Zikr, Sövq, min Tənzil, Furqan
Adı Quran həm də dünyanı Quran.

Nazil olma vaxtı Qurani Kərim
İyirmi iki il, iki ay, iyirmi iki gün
Qırx yaşından sonra gəlib ayələr
Rəhlətə doqquz gün qalana qədər.

Quranda hamıya eyləyib təlim
Səadət, tərəqqi yolun göstərdin
Quranda yazılan xəlifələri
Adəm, Davud, Harun, dördüncü Əli.

Həm on iki imam bərhəqqdür deyə
Quran onları da yazıb Xəlifə.
Sənin canişinin həqq imamlar
Mənim hifzim üçün çaldı Zülfiqar.

Çaldı Zülfiqarın Mürtəza Əli
Səsi aşkar o ki var cingildədi

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dedi – bu balamı on iki il mən
Bütün bəlalardan hifz edəcəyəm.

Sonra da özü öz başın saxlayar
Hələlik körpədir bircə sinni var
Mənim də bir nəvəm körpə yaşından
Susuz şəhid oldu gül boğazından.

İlahi iltimas edirəm sənə
Körpə şəhid Əli Əsgər eşqinə
İlhamımı artır yetim səfayə
And verrəm Xamisi Ali Əbayə.

Yazım mərsiyyələr öd tutum yanım
Hüseyni məzluma qurban bu canım.
Ələst bi rəbbiküm qalu bəlada
Şəhid yazılaydım mən, Kərbəlada.

Məsumlar eşqində inan Allaha
Qaldım meydanlarda yekkeyi tənha.
Yoxdu bundan savay halıma yanan
Dörd oğlum, üç qızım, əyalım, anam.

Qövs bürcü altında mən doğulmuşam,
Səkkiz behişt kimi səkkiz ulduzam.
Varidə, sadirə iki dəstədə,
Kövsərdən saqiylə sirab olmuşam.

Görəndə hamısı gülür üzümə,
Sələblər düşüblər mənim izimə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Son məkan tutublar qətlimə tələb,
Pusquda yatıblar, Bəldətüs-Sələb.

Höccət etmək olmur bu yühənnası
Boğazdan yuxarı dillənir hamsı
O qədər müsibət çəkirəm eldən
Mən də el içində bir əhli-beytəm.

İslama höccətdə sabitqədəməm
Ağam, Alam, Göyəm, bir sifətliyəm.
On dörd məsum zahirdə oldu məzlum
Mənim də həyatım onlara uyğun.

Hüseyn tək yalquz qalmışam, dəstimə
Yüz min leşkər tökülübdür üstümə.
Hüseynin vardı yetmiş bir şəhidi
Səs verən yox mənə qaldım vəhidi.

Sənin Quranına bəli demillər
Sənin kəlamını bunlar sevmillər.
Müxtəsər istərəm səndən ilhamı
Səlamət eylə sən, bizi İlahi.

Quranı göndərdin sən Məhəmmədə
Xoşbəxtlik bəxş etsin bəşəriyyətə.
Sizə bir mənbəədən mən verim xəbər
Quranın içində vardır gör nələr.

Quranda ta birdən, min birə qədər
Elmlər kvadratlarla verilib xəbər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir neçə elm üzrə yeddi mənada
Dərs almışam sərfi-nəhvi, zeyd-zəbər.

Otuz yeddi ildir dərs alıram mən
Ustada ustadam, hələ şagirdəm.
Allah kəlamının gül baxçasından
Sizə nişan verim göz qabağından.

İyirmi doqquz kəlmə, yüz qırx iki hərf
Fatihədə, yeddi ayə içində
Beşinci nazildi Rəsulullaha
Altı min, Xey, Sin, Vov ayə içində.

Altı min, iki yüz, iyirmi bir kəlmə
İyirmi beş min beş yüz hüruf eylədi.
Bəqərə nazildə həştad yeddidir
İki yüz həştad altı ayə eylədi.

On dörd min beş yüz iyirmi beş hurufi
Üç min dörd yüz həştad kəlməyə yığdı
İki yüz ayədə İmran surəsi
Həştad doqquzuncu nazili oldu.

Min altı yüz otuz hərf bir surədi
Bax üç min yeddi yüz qırx beş kəlmədi
Doxsan ikinci nazil olan Nisə
Cəmisi yüz yetmiş altı ayədi.

On bir min doqquz yüz otuz üç hərif
Yüz iyirmi ayə oldu Maidə

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nazildə yüz on iki, Quranda beşdi
İki min səkkiz yüz dörd ədəd kəlmə.

Nazildə əlli beş, Quranda altı
Ənam üç min səkkiz yüz əlli kəlmə,
On iki min iki yüz əlli dörd hərfi
Oxu hər gün özün qismətini aç
Yüz altmış beş ayə oxu söhbət aç.

Üç min səkkiz yüz iyirmi beş kəlməni,
Əraf-da iki yüz altı ayə çək.
Otuz doqquzuncu nazil olubdu,
On üç min səkkiz yüz yetmiş yeddi hərf.

Gəl öyrədim beş min həştad hərifi,
Min doxsan beş kəlmə olub cəmisi.
Həştad səkkizinci nazil olubdu,
Yetmiş beş ayədir Ənfal surəsi.

Yüz on üçüncü nazil olan surə,
On min dörd yüz həştad səkkiz hərfidür.
Adı Tobə dörd min doxsan səkkiz kəlmə
Bismillahsız, yüz iyirmi doqquz ayədir.

Yunis min səkkiz yüz otuz iki kəlmədir
Yeddi min beş yüz altımış yeddi hərfidir
Əlli birinci nazil olub Rəsula
Şərdən qorun, bir yüz doqquz ayədir.

Yüz iyirmi üç ayədə cəmləşibdi,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yeddi min beş yüz on üç hərfi surə Hud.
Min yeddi yüz on beş kəlmə içində,
Quranda on bir, əlli ikinci nazil olub.

Yusif surəsidir yüz on bir ayə,
Min yeddi yüz altmımış altı kəlmədir.
Əlli üçüncü nazildi bənzər ayə
Yeddi min yüz altımış altı hərif.

Doxsan altıncı nazil Rəd adlanır
Üç min beş yüz altı hərf, qırx üç ayə.
Səkkiz yüz əlli beş kəlmə olsa da
Səmavi bəlalardan salar sayə.

Yetmiş ikinci nazil oldu bu surə,
İbrahim adıyla əlli iki ayə.
Üç min dörd yüz otuz dörd hərfdür ara
Səkkiz yüz otuz bir kəlmə, Əlif-Lam-Ra.

On dördüncü İbrahim surəsidir,
Səkkiz yüz otuz bir kəlmə, əlli iki ayə
Üç min dörd yüz otuz dörd hərfdür ara
Səkkiz yüz otuz bir kəlmə, Əlif-Lam-Ra.

Hicr altı yüz əlli dörd kəlmədir
İki min yeddi yüz altımış hərif
Doxsan doqquz ayə, Səmud sui-qəsd
Əlli dördüncü nazildi dəstbədəst.
Yetmişinci nazildi surə Nəhl
İki min səkkiz yüz qırx kəlməsi var.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yeddi min yeddi yüz yeddi hərfidür
Yüz iyirmi səkkiz ayədür, bal tək olar.

İsra-dı min beş yüz otuz üç kəlmə
Həm altı min dörd yüz altımış hərif
Əllinci nazildi, yüz on bir ayə
Subhan Əlləziylə başlayır ayə.

Altı min üç yüz altımış hərfi Kəhf
Macəradı səf fikirdən saqitdir
Altımış doqquzuncu nazil, yüz on ayə
Bir min beş yüz yetmiş doqquz kəlmədir.

Məryəm, üç min səkkiz yüz iki, hərfilən
Qırx dördüncü nazil, oldu Rəsula
Doqquz yüz həştad iki kəlmə anladır
Doxsan səkkiz ayə, səbri Kərbəla.

Beş min iki yüz qırx iki hərf, hardadı
Min üç yüz qırx bir kəlmə Ta-ha-dadı
Rəsula qırx beşinci nazil oldu
Əzəm, şəfa yüz otuz beş ayadı.

Min yüz altmış səkkiz kəlmə Ənbiya
Yetmiş üçüncü nazildi Müstəfaya.
Dörd min səkkiz yüz doxsan hərfdi toplusu
Qorxu, övlad, duva, yüz on iki ayə.

Beş min yetmiş hərfidü Həcc surəsi
Min iki yüz doxsan birdi kəlməsi

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yüz üç nazil, yetmiş səkkiz ayədi
İbrahimlə, Məhəmməddi hikməti.

Min səkkiz yüz qırx kəlmədir Möminun
Dörd min səkkiz yüz iki hərifdən ibarət
Yetmiş dördüncü nazil, Qəd-Əfləhə
Yüz on səkkiz ayə, oxu yat rahət.

Nur beş min altı yüz həştad hərfilən
Min üç yüz on altı kəlmə günəş tək.
Yüz ikinci nazil, altmış dörd ayə
Xudadan həya et, zinadan əl çək.

Üç min yeddi yüz otuz üç hərfilən
Səkkiz yüz doxsan iki kəlmə toplanıb.
Yetmiş yeddi ayə Furqan surəsi
Qırx ikinci nazildi çox yoxlanıb.

Beş min beş yüz iyirmi iki hərfidür.
Şüəra bil şair yazmıb düz anla.
Min iki yüz doxsan yeddi kəlmədir
Qırx yeddi nazil, iki yüz iyirmi yeddi aya.

Dörd min yeddi yüz doxsan doqquz hərf Nəml
Doxsan üç ayədir o qəbiləyə.
Bir min yüz qırx doqquz kəlmədir
Qırx səkkizinci nazildi Peyğəmbərə.

Min dörd yüz qırx bir kəlmədir Ta-Sin-Mim
Beş min səkkiz yüz hərfdür Əl-Qəsəs

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qırx doqquzuncu nazil, həştad səkkiz ayə
Mal dövlətə güvənmə etmə həvəs.

Dörd min yüz doxsan beş hərf Ənkəbut-da
Min doqquz yüz həştad bir kəlmədi
Altmış doqquz ayə, həştad beş nazil
Əlif-Lam-Mim Əhəsibənnas, başladı.

Səkkiz yüz on doqquz kəlmə içində
Üç min beş yüz otuz dörd hərf cəmləşib.
Altmış ayədir Rum surəsi
Nazildə həştad dördüncü yerləşib.

İki min yüz on hərf, otuz dörd ayə
Beş yüz qırx iki kəlmə kəsb eylə sayə
Doğman əlli yeddinci nazil olubdu
Quranda otuz bir də nəqş olubdu.

Min beş yüz hərf, üç yüz həştad kəlmədə
Nə cür səcdə etməlisən Allaha.
Səcdə surəsidir, otuz ayədə
Yetmiş beşinci nazildi Rəsulullaha.

Əhzab doxsanıncı nazil olandır
Beş min yeddi yüz doxsan altı hərf ilən
Min iki yüz həştad kəlmə yığıldı
Yetmiş üç ayədə tam tərtib ilə.

Əlli səkkizinci nazil olubdur
Səba səkkiz yüz həştad üç kəlmədə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Otuz dördüncü yer tutub Quranda
Min beş yüz on iki hərf, əlli dörd ayə.

Fatir surəsindən gəl verim nişan
Üç min yüz otuz hərf, qırx üç nazilan.
Yeddi yüz doxsan yeddi kəlmə, qırx beş ayəni
Mələikat adıyla edillər bəyan.

Qırx birinci nazil olan Yasin-in
Üç min hərfi, həştad üç ayəsi var.
Yeddi yüz iyirmi doqquz kəlmədir,
Quranın qəlbidir oxu şam-nəhar.

Gəl öyrədim Səffat-dakı hikməti
Yüz həştad iki ayə, səkkiz yüz iyirmi kəlməni,
Üç min səkkiz yüz iyirmi üç hərfidür,
Əlli altıncı nazil olan surəni.

Üç min iyrim doqquz hərf, həştad səkkiz ayə
İki yüz otuz iki kəlmə oxu ol azad
Otuz səkkizinci nazil olubdu.
Quranda da otuz səkkizdədir Sad.

Yetmiş beş ayədir Zümər surəsi,
Dörd min yeddi yüz səkkiz hərf içində.
Əlli doqquzuncu nazil olubdur,
Min yüz doxsan iki kəlmə içində.

Altımışıncı nazil oldu Möminun
Ğafir də deyillər həştad beş ayə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dörd min doqquz yüz altımış hərfidür
İlk Ha-Mim di yüz doxsan doqquz kəlmə.

Füssilət-i zikr etməyin hifzidir
Əlli dörd ayə, yeddi yüz doxsan altı kəlmədir.
Üç min üç yüz əlli sayda hərf ilə,
Atmış birinci nazil olan surədir.

Şura üç min beş yüz həştad səkkiz hərf
Cəmdi səkkiz yüz altımış altı kəlmədə.
Altımış ikinci nazil olubdur,
Sakit bir yoldur əlli üç ayədə.

Üç min dörd yüz hərfidir qaş-daş kimi
Surə Züxrüf həştad doqquz ayədə.
Altımış üçüncü nazil olubdu,
Səkkiz yüz otuz üç qızıl kəlmədə.

Min dörd yüz otuz bir hərfidir Düxan
Quraqlıqdı üç yüz qırx altı kəlmə.
Altımış üçüncü nazil olubdur,
Ha Mim-lə başlanır əlli doqquz ayə.

Altımış beşinci nazil olubdur
Casiyə iki min yüz doxsan bir hərf
Dörd yüz həştad səkkiz kəlmə, otuz yeddi ayə
Agahlıq tap diz çök Allaha tərəf.

İki min beş yüz doxsan səkkiz hərif
Əhqaf surəsi otuz beş ayədür.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Altı yüz qırx dörd kəlmə Ha Mim-in sonu
Altımış altıncı nazil olubdur.

Otuz səkkiz ayə sureyi Qital
İki min üç yüz qırx doqquz hərfidür.
Beş yüz otuz doqquz kəlmə, doxsan beş nazil
Bir adı da sureyi Məhəmməddür.

İki min dörd yüz otuz səkkiz hərf ilə
Zikr et qazan surə Fəth-in hikmətin
İyirmi doqquz ayə, beş yüz atmış kəlmə
Yüz on birinci nazil olub yəqin.

Hücürat surəsi on səkkiz ayə
Min dörd yüz doxsan altı hərfidir
Yüz dördüncü nazil olan surədir
Bütünlükdə üç yüz qırx üç kəlmədir.

Qırx beş ayə, üç yüz əlli yeddi kəlmə
Otuz dördüncü nazil Sureyi Qaf
Min dörd yüz doxsan dörd hərfidür cəmi
Oxu rəhmətə get, ya da şəfa tap.

Zariət surəsi altımış ayə
Min iki yüz həştad yeddi hərfi var
Atmış yeddinci nazil, üç yüz atmış kəlmə
Aqibəti faciəli yalançılar.

Yetmiş altıncı nazil olan surə, Tur
Zikr eylə sayıdır qırx doqquz ayə

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Min beş yüz hərf, üç yüz on iki kəlmədir
Rəsul da çox gedib Turi-Sinayə.

Min dörd yüz beş hərfin əhatəsində
Üç yüz səkkiz kəlmə, qırx iki ayə
İyirmi üçüncü nazildi sureyi Nəcm
Rəsulu ucaltdı ulduza, ayə.

Əlli beş ayədir sureyi Qəmər
Otuz yeddinci nazildi yoxlanıb
Min dörd yüz iyirmi hərf şəqqəl-qəmər
Üç yüz qırx iki kəlmədə toplanıb.

Min altı yüz otuz altı hərfi Rəhman
Üç yüz əlli bir kəlmə rəhm söyləyək
Doxsan yeddinci nazil, yetmiş səkkiz ayə
Məkki-Mədəni, Hüsyen zikrin dinləyək.

Qiyamətdir min yeddi yüz üç hərif
Qırx altıncı nazil, doxsan altı ayə
Üç yüz yetmiş səkkiz kəlmə Vaqiə
Peyğəmbərə deyildi döz qəm yemə.

Təsdiq edir beş yüz qırx dörd kəlmədə
Doxsan dördüncü nazil surə Hədid
İyirmi doqquz ayədə dəmir kimi
İki min dörd yüz yetmiş altı hərfidir.

İyirmi iki ayədir, Mücadilə
Min yeddi yüz doxsan iki hərfi var

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dörd yüz yetmiş üç kəlmədir, şikayət
Yüz beşinci nazildə tutub qərar.

Min doqquz yüz on üç hərfin içində
Sureyi Həşr dörd yüz qırx beş kəlmədir.
Yüz birinci nazil, iyirmi dörd ayə
Səbbəhə lillahi-sirri gör nədir.

Min beş yüz on hərfidir Mümtəhinə
Üç yüz qırx səkkiz kəlmə, on üç ayə
Dili bir qəlbləri əyri kafirlər
Doxsan birinci nazildə söylənər.

Doqquz yüz hərf, iki yüz iyirmi bir kəlmə
Səf-səf durun Səff surəsi əmr edir.
Bir yüz doqquzuncu nazil olubdu
Birliyə səsləyir, on dörd ayədir.

Birliyə çağırır sureyi Cümə
Yüz onuncu nazil, yüz həştad kəlmə
Yeddi yüz iyirmi hərfidi, on bir ayə
Yusəbbihü lillah – birinci kəlmə.

Yeddi yüz yetmiş dörd hərf Münafiqun
Yüz həştad kəlmədir, on bir ayədə
Rəsula yüz dördüncü nazil olub
İki üzlülər qurdular mərəkə.

İki yüz qırx bir kəlmə, on səkkiz ayə
Min yetmiş hərif Təğabün-dədir

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir yüz səkkizinci nazil olubdur
Günahların qiyamətdə bəllənir.

Ya-əyyühən-Nəbiyyü surə Təlaq
Min altımış hərfidür. Dur gəl sayaq.
İki yüz qırx səkkiz kəlmə, on iki ayə
Doxsan doqquzuncu nazil şərdən qaçaq.

Yüz yeddinci nazil Təhrim surəsi
Ya-əyyühən-nəbiyyü, gəlir o da
Halal, haram iki yüz qırx altı kəlmədir
Bir min yüz altmış hərf, on iki ayada.

Yetmiş yeddinci nazil Mülk surəsi
Otuz ayə, üç yüz otuz kəlmədir
Təbarək-Əlləzi, min üç yüz hərif
Mülklər Allahındır, sahibkar nədir?

İkinci nazildi, beş də deyillər
Əlli iki ayədir Nun vəl Qələm
Min iki yüz əlli altı hərfidir
Üç yüz kəlmə oxu hifz ol nəzərdən.

Əl-Haqqətü, əlli iki ayədir
Bir min həştad dörd hərf göstərir bizə
İki yüz əlli altı kəlməsi ilə
Yetmiş səkkizinci gəldi nazilə.

Yetmiş doqquzuncu nazil, yüksəliş yolu
Min altımış bir hərfidir Məaric

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qırx dörd ayə, iki yüz on altı kəlmə
Yüksəliş sahibi Allaha aid.

Doqquz yüz iyirmi doqquz hərfə bax
İyirmi səkkiz ayədə tutub qərar
İki yüz iyirmi dörd kəlmə sureyi Nuh
Yetmiş birinci nazil olubdur.

İyirmi səkkiz ayə, qırxıncı nazil
İki yüz otuz beş kəlmə Cinni surəsidir.
Özüm saydım səkkiz yüz yetmiş hərif,
Quranda, Qül-uhiyə-iləyyə,-dür.

İyirmi ayə, səkkiz yüz otuz səkkiz hərf
İki yüz həştad beş kəlməyə sığıb
Müzzəmmil surəsi, üçüncü nazil
Əbaya bürünüb səcdəyə durub.

İki yüz əlli beş kəlmə, dördüncü nazil
Min on hərif sayılıbdı Müddəssir
Əlli altı ayədə oxu həmən
Örtüyə bürünüb ibadət edən.

Qiyamət surəsi Əlif, Lam-ladır
Altı yüz əlli iki hərf, qırx ayədir
Otuz birinci nazil olan surə
Cəmisi yüz doxsan doqquz kəlmədir.

Min əlli dörd hərf, otuz bir ayədir
Əl-İnsan surəsi, həm Dəhr adlanır

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Doxsan səkkizinci nazil, iki yüz qırx kəlmə
Əlinin şəninədir Həl, Əta-dır.

Mürsəlat yeddi yüz on altı hərif
Yüz həştad bir kəlmə, əlli ayədir
Otuz üçüncü nazil olub Rəsula
Quranda tərtib ilən ürfən gəlir.

Gəldi çatdı dəstimizə Əmmə cüz
Yeddi yüz yetmiş hərifdir düpbədüz
Həştadıncı nazil, yüz yetmiş üç kəlmə
Qırx ayədir cəmi, sureyi Nəbə.

Naziat yeddi yüz əlli üç hərif
Həştad birinci nazil, qırx altı ayə.
Yay çəkib ox atan bil qərq olarsan
Surə cəmi yüz otuz doqquz kəlmə.

Əbəsə surəsi və təvəlla-dur
Beş yüz otuz üç hərf, qırx iki ayədir
İyirmi dördüncü nazildi, qaş çatma
Oxu qorun, yüz otuz üç kəlmədir.

Surə Təkvir beş yüz otuz üç hərif
Yeddinci nazildi, yüz on dörd kəlmə
Günəş tutulması, qiyamət günü
Hamısı düzdü iyirmi doqquz ayə.

İslamın qələbəsindən bəhs edən
On doqquz ayə, üç yüz iyirmi yeddi hərfidir

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Həştad ikinci nazildi, həştad kəlmə
İnfitar, göyün şəqqülün göstərir.

Səkkiz yüz otuz hərfidir Mütəffifin
Yüz yetmiş yeddi kəlmə, otuz altı ayə
Həştad altıncı nazil ifşa eyləyir
Ölçüdə, çəkidə eyləmə hiylə.

Dünyaya gəlməyi asanlaşdırır
Həştad üçüncü nazil olan İnşiqaq
Dörd yüz otuz hərf, yüz doqquz kəlmədir
İyrim beş ayədə tutubdur qərar.

Büryc iyirmi beşinci nazil oldu
İyirmi iki ayə, yüz doqquz kəlmət
Şərdən qorunmaq və zehnin şəfası
Dörd yüz əlli səkkiz hərfdən ibarət.

İki yüz qırx beş hərfdi sureyi Tariq
Altımış bir kəlmə, on yeddi ayə
Otuz altıncı nazil olubdur
Oxu heç bir şərri də salma sayə.

İki yüz yetmiş hərfdi, on doqquz ayə
Səkkizinci nazil sureyi əla
Yetmiş iki kəlməynən tamamlanır
Oxu, Səbbihismə rəbbikəl əla.

Altımış səkkizinci nazil oldu
Həl ətaikə hədisu Ğaşiyət

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yetmiş iki kəlmə, üç yüz otuz hərf
İyirmi altı ayə adı Fəlakət.

Fəcr surəsindən sənə söyləyim
Beş yüz yetmiş yeddi hərf, otuz ayədir
Yüz otuz yeddi kəlmə, onuncu nazil
Həcc ayında sübhə bir işarədir.

La üqsimü oxu surə Bələd-i
Üç yüz otuz hərf, iyirmi ayəni
Otuz beşinci nazil, həştad iki kəlmə
Şəhərə and olsun, nəzərdə Məkkə.

İyirmi altıncı nazil, əlli dörd kəlmə,
İki yüz qırx yeddi hərfdi. Şəms surəsi.
Hər nəyə oxunarsa – Fədəmdəmə
Dil ağzın bağlayar on beş ayəsi.

Üç yüz iki hərifdi Leyl surəsi
Yetmiş bir kəlmədir Vəlləyli-iza
Doqquzuncu nazil, iyrim bir ayə
Gecəyə and olsun, qorxuya şəfa.

Züha surəsidir itikçün həm də
On birinci nazil, dörd də deyillər
Yüz doxsan iki hərifdi, on bir ayə
Qırx kəlmədir Vəzzüha da deyillər.

Surə Nəşrəh könül fərəhi verir
İyirmi yeddi kəlmə, yüz üç hərfidür

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

On ikinci nazil, səkkiz ayədə
Oxusan rahatlıqdır hər dəfədə.

Yüz əlli hərfidür keçdim Vəttin-ə
İyirmi səkkizinci nazil, otuz dörd kəlmə
Səkkiz ayədir hər çör-çöpə çarə
Qəsəm eylə həm Zeytuna, əncirə.

İqrəə bismi rəbbikə, surə Ələq
On doqquz ayədir, iki yüz həştad hərf
İlk dörd ayəsidir birinci nazil
Doxsan iki kəlmədir, birinci nazil.

Qədr surəsinin hikməti dərin
Tilsimini qırdı həm peyğəmbərin.
Otuz kəlmə, iyirmi beşinci nazil
Beş ayədə sayı, yüz on iki hərfin.

Bəyyinət surəsi yüzüncü nazil
Üç yüz doxsan iki hərfidü, səkkiz ayə.
Doxsan dörd kəlmədə xətmə yetibdi
Açıq bir etirafdı peyğəmbərə.

Zilzal surəsinə biz intizarıq
Yüz qırx doqquz hərfdi, otuz beş kəlmə
Peyğəmbərə doxsan üçüncü nazil
Səkkiz ayədir yetirər zəlzələ.

Adiyat zəfərin savaş meydanı
On dördüncü nazildi, on bir ayə

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qırx kəlmə içində, yüz qırx üç hərif
Cihad buyur yetişərsən səfayə.

Qariyət surəsi on bir ayədir
Sülh yolun tutur yüz əlli hərfilən.
Otuzuncu nazil, otuz altı kəlmə
Fəlakətə düşmə sülh bağla tez sən.

On altıncı nazil olub Təkasür
Əlhaykümü – kəlməsilə başlayır
İyirmi səkkiz kəlmə, yüz iyirmi hərf
Dövlətə güvənmə, səkkiz ayədir.

On altıncı nazil olub Təkasür
Əlhaykümü – mal dövlətə güvənmə
İyirmi səkkiz kəlmə, yüz iyirmi hərf
Çoxluqla öyünmə der, səkkiz ayə.

Əsr on üçüncü nazil olubdu
On dörd kəlmə, atmış səkkiz hərf, üç ayə
İnananlar heç vaxt ziyan görməzlər
Allahın səbri çoxdur, salır sayə.

Hüməzat-ı vaxt be vaxt oxu, çoxdu
Ara qızışdırandan heç yer yoxdu
Otuz üç kəlmədir, yüz otuz hərif
Doqquz ayə, otuz ikinci nazil oldu.

Fil, beş ayə, iyirmi üç kəlmədir
Faciəli aqibətdən bəhs edir

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

On doqquzuncu nazil, doxsan altı hərf
Düşmən ordusunun məhvindən gedir.

Qürəyş, ibadət edirdi bütlərə
İyirmi doqquzuncu nazil, on yeddi kəlmə
Doxsan üç hərf, dörd ayəni başa düş
Azğın-azğın Kəbə üstünə gəlmə.

Ariyət surəsi Maun deyillər
Ərə əytəlləzi – iyirmi beş kəlmə
On yeddinci nazil, yüz iyrim beş hərf
Yeddi ayə, der ver Zəkat, Sədəqə.

Kövsər çox hikmətdi yar olsun bizə
Üç ayə, qırx iki hərif, on kəlmə
On beşinci nazil, çoxluq bərəkət
Nəhr, Vənhər buyruldu peyğəmbərə.

Qül ya Əyyühəl, sureyi Kafirun
Altı ayə, on səkkizinci nazilun
İyirmi altı kəlmə, doxsan dörd hərfi
Oxu küfrə düşmə olma kafirun.

Yardım, vida həcc Nəsr surəsi
Yetmiş yeddi hərf, on doqquz kəlmədi
Yüz on dördüncü nazil, üç ayədə
Son vəsyətin dedi sonra gəlmədi.

Ləhəb, Məsəd surəsidir beş ayə
Yetmiş yeddi hərif, iyirmi kəlmə

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Rəsula altıncı nazil olandan
Əbu-Ləhəb yad edilir lənətlə.

Dörd ayə, on beş kəlmə, qırx yeddi hərf,
İyirmi ikinci nazildi surə İxlas
Meracda dübarə təkrarlanıbdır
Xalisliyi təsdiq eyləyir İxlas.

Qül-əuzu, oxu, birəbbil-Fələq
İyirmi üç kəlmə, yetmiş dörd hərf, beş aya
İyirminci nazil olan surədir
Sübh çağı çox oxu sığın Xudaya.

Nas surəsin oxu sığın Allaha
İyirmi birinci nazil Rəsulullaha
Yetmiş doqquz hərf, iyirmi kəlmədir
Altı ayə, xətmi yetirir sona.

***

Mədəni surələr iyrim səkkizdir
Yüz iyrim altı min beş yüz otuz doqquz hərf
Min altı yüz iyirmi üç ayədə
Otuz bir min dörd yüz doxsan iki kəlmə.

Məkkə surələri həştad altıdır
Dörd min altı yüz on üç ayədir.
Yüz doxsan üç min beş yüz doxsan bir hərf
Əlli min doqquz yüz doxsan kəlmədir.

Mədəni surənin deyim adların
Oxu tərtib ilə səvabın olar

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İyirmi səkkizdir sorsan sayların
İki surəsində üç də səcdə var.

Bəqər, İmran, Nisa, Maidə, Ənfal,
Töbə, Rəd, Həcc, Nur, Əhzab, Qital,
Fəth, Hücürat, Rəhman, Hədid, Mücadilə,
Həşr, Mümtəhinə, Səff və Cümə.

Münafiqun, Təğabün, Tələq, Təhrim,
Əl-İnsan, Bəyyinət, Zilzal, Nəsr,
Rəddə bir, Həccdə iki səcdədir
Vacib deyil hər üçü müstəhəbbdir.

Səcdə surələrin tərtiblə söylə
Vaciblərə çatdın tez əməl eylə
Əraf, Rəd, Nəhl, Bəni-İsrail
Məryəm, Həcc bir də Həcc, Furqan, Nəml.

Əlif-Lam-Mim-Tənzil, Sad, Füssilət
Vənnəcm, İnşiqaq, İqrə oldu xətm.
Vaciblərin deyim çalış unutma
Səcdə və Füssilət, Vənnəcm, İqra.

***

Fatihədən verim sənə xəbəri
Dörd vəqfi tamm və on vəqfi həsəni
Yeddi dənə yeddiləri birbəbir
Həm hikməti Allah və Müşəmməddir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sifatiyyə, hüdudsuz hikmətlərə
Bir daha əzəmət yetirər İxlas
Hər tərəfdə Vəliyullahı gördü
Məkkidir meracda heyrətdi İxlas.

Xırdalayım yoxsa sənə Rəhmanı
Ər-Rəhman deyibən başla lay-layı
Məryəm surəsində verib hikmətin
Xaliqinə fəda eylədi canı.

Ya Yasindən verim sənə yüz xəbər
Məryəm, Taha, Hud, Əhzab və Qəmər
Bəqiyyətullahi gəl nişan verim
Qalx səlavat söylə, Allahu Əkbər.

Milyardlarla çeşmələr var daşlayır
Səlsəbil saqisi Cəbrayil-Əmin
Nicat yolu Yədullahdan başlayır
Vəliyyullahdır saqisi Kövsərin.

Əsil möcuzədir Qurani münzəl
Hər sayan bir cürə hesab çıxarır
Yetmiş, həştad say deyillər alimlər
Heç yanda heç biri hesaba yatmır.

Hərəsin bir cürə hesab eyləyib
On altı mənbəədə səbirləşirlər
Mən də göstərdiyim bir mənbəədir ki
Quranın özündə göstəriliblər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Altı min iki yüz otuz altı ayə
Həştad iki min dörd yüz həştad iki kəlmə
Üç yüz iyirmi min yüz otuz hərflə
Bu gün bu hesabı vurdum təmamə.

Altı min iki yüz otuz altı ayə
Bunların təkrarən gələnləri var
Altı min altı yüz altımış altı
Ayədir qurani münzəl mənbəə var.

Hanı o ustad ki elmi tutarlı
Mənlə bu meydanda düz bəhs eyləsin
Altı min altı yüz altımış altı
Ayələri tapıb yerini desin.

Hesabını tapsın kəlmələrinin
Sayını söyləsin hərifərinin
Mürtəza Əlinin Zülfiqərinin
Elminə nə çatar onu söyləsin.

Mənəm öndə, arxam Mürtəza Əli
Yetmiş iki Kərbəla şəhidləri
Qırx nəfər Kərbibəla əsirləri
On dörd məsum bir iltimas eyləsin.

Mənimçin Xudadan qəbr əzabımı,
Bilər bilməz olan günahlarımı,
Axirət yerimi, sərəkan halı,
Xudabəndi ələm asan eyləsin.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İlahi ver mənə istedad, hünər,
Sənə sığınıram hər axşam, səhər
Xətalarım olsa bağışla məni
Bi həqqi əhlibeyt, Qurani münzəl.

İnnəl Quranil Kərim fi kitabin məknunin
La yəhəssuhu illəl mutəhhərun
Tənzilun min rəbbil aləmin
İnnəl Quranil Kərim

Məşədi Vahidxan hesaba çatdı
Gizli elmlərdən üzə çıxartdı.
Quranı hamıya höccət eyləyir
Nəhyəz münkərlərin daşını atdı.

Vəsvəsiyə uyma həqqə qulaq as
Quranda Əlidür rəziyullahu
Əssəlamu ələyküm-əyyühənnas
Və rəhmətullahu və bərəkatu.

Daldada bucaqda girib qəsdimə
Ədalətin olsun, yandırma iyman
Halal etməyəcəm qiyamətdə də
Hər kim ünvanıma söyləsə böhtan.

Əgər qüdrətin var çalış olginan
Qareyi, hafizi, hamili Quran.
Allahdan bu bəxşiş verilib mənə
Şair, molla, mömin Məşəd Vahidxan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

MİLLİ QƏHRƏMAN

(Poema)

Xalqımız düşmənə əyilməz heç vaxt
İgid sərkərdədir ali komandan.
Qalxın igid xalqım qalxın ayağa
Haray Azərbaycan, hay Azərbaycan!

***

Yaz günü səhərin gözəl çağıdır
Kainat hökmünü sürür nizamla
Tarlalar elə bil cənnət bağıdır
Allah hökm eləyir: - mələk nizamla!

Allahın hökmiylə gülür dağ-dərə
Üfüqdə qızılı günəş görünür
Gecə öz yerini verib səhərə
Yaşıl yamaclarda duman sürünür.

Səhəri hiss edib hürküşüb yerdən
Topa-topa qalxıb göyə bulutlar
Yer üzün qızılı rəngə boyayan
Üfüqdə günəşə boylanırdılar.

Bənövşə, Yasəmən, Zambaq, Qərənfil,
Lalər bir yanda bəzəyib düzü.
Şırhaşırla axır sərin bulaqlar
Qarışıb bir-birə mal, qoyun-quzu.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əzəldən Vətənim Azərbaycana
Allah bəxş edibdi belə gözəllik.
Dağların döşündə verib səs-səsə
Qaq-qaq qaqqıldaşır xınalı kəklik.

Yer üzündə olan gözəlliklərin
Hamısından vardır Azərbaycanda
Bakı, Naxçıvan, Gəncə, babadağ
Yer üzünə tacdır Azərbaycan da.

Allahın hökmüylə bütün kainat
Səbrlə hərlənir dünyanın özü.
Zəngin sərvətinə Azərbaycana
Həmişə dikilib dünyanın gözü.

Bütün mahallarda, eldə, obada,
Ağsaqqalar gəzir üzləri nurlu.
Ağbirçək, qız, gəlin nicab, yaşmaqda
Cavan, at belində, igid qürurlu.

Uzaqdan oxşayır qəlbləri həzin
Şurilə çalınan tütəyin səsi
Bu yanda çalınan tardı coşaraq
Gah bəmdə, gah zildə yaxır hər kəsi.

İlhamla baxıram bağa-baxçaya
Hər yanda açılıb tər-tər qızıl gül.
Budaq-budaq ötür cəh-cəh vuraraq
Sevdaya çağırır, sevdalı bülbül.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

***

Bu cənnət ölkəmin çörəyin yeyən
Heç yerdə yer tapmıb bizə sığınıb.
Biz qəbul etmişik bir mehman kimi
İndi özümüzə tələlər qurub.

Dünən qonaq gəlib, bu gün deyir ki,
Çıx kənara evdən ev mənimkidir.
Bütün millətlərlə belə davranır
Onların sifəti həştad ikidi.

Onların gələcək məqsədləridir
Bütün yer üzünə hakim olmalı
Bir-bir millətləri qırıb qurtarıb
Tək erməni milləti yaşamalı.

Niyə müsəlmanla əvvəl vuruşur,
Çün kristiana gücləri çatmaz.
Müsəlmanı qırıb genişlənməsə
Bir yerə yığılıb yerləri artmaz.

Onlar Amerikada, Fransada da
Özlərin birbəbir verib qabağa
Gələckdə mütləq ermənilərdən
O ölkələrdə prezident olmağa.

Bütün yer kürəsin öz əllərinə
Alıb hamısına hakim olmalı.
Odur hər ölkəyə yayılıb onlar
Belədir hamsının hər planları.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Onlar xain, terror əməllərilə
İliç Lenin, Stalini vurdular.
Yarımdünya SSRİ dağıdıb
Bütün ölkələrdə baş qaldırdılar.

Millətlər sakit şad öz əməyilə
Çörək qazanırkən alın təriylə
Qarbaçov "yenidən qurma" başladı
Erməni şərməni fitnələriylə.

Silahlar yığıldı əvvəl hamıdan
Evbəev birbəbir siyahı ilə
Sonra arxayınca keçib hücuma
Aldıqları raketlər tanklar ilə.

- "Qarabağ bizimdir, dünya bizimdir
Yer kürəsi bizim dədəmizindir!"
Yalandan xaincə səs-küy saldılar
Rusiya, Amerika anlamadılar.

Anlamadılar ki, bu ermənilər
Quyruğun qısaraq gəzir ahəstə.
Özlərindən silah alıb güclənib
Bir güq şığıyacaq onların üstə.

Amerika, Fransa, İngiltərə də
Rusiya özü də peşiman olacaq.
Artıq gec olacaq o mərhələdə
Yatıb bu ölkələr gec ayılacaq.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Erməni onlardan alıb silahı
Sonra özlərinə atacaq onu.
Elə bir məqamda başlayacaq ki
Az vaxta bitəcək bu işin sonu.

***

Azərbaycanla da dava başladı
Qəflətən o nankor, xain, fitnəkar.
Nə üçün, niyə görə başa düşmədik,
Xalqımız hamısı məəttəl qaldılar.

Nə istəyir onlar, məqsədləri nə
Bizdə ki ayrıseçkilik yox idi.
Yüngül aş yerləri, yüksək məvacib
Yüksək vəzifələr onlarda idi.

Dava başladılar qəddarcasına
Qırdılar milləti çox zillət ilə.
Birsə çalışırdıq ki, özümüzü
Müdafiə edək sülh yolu ilə.

Bizim məqsədimiz olsaydı dava
Biz yeddi milyonduq onlarsa iki.
Xalqım Allah deyib qalxsa ayağa
Elə qırarıq ki, qalmaz bir təki.

***

Nə əlac tapmalı, bəs nə etməli
Səfərbərlik oldu müdafiə üçün

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sülh naminə sülh yoluyla getməli
Millətlər bir-birin qırmamaq üçün.

Qəddar ermənilər qırdılar bizi.
Razı olmadılar sülh bağlamağa.
Qırıla-qırıla bizim xalqımız
Hər yerdə güzəştə getdi onlara.

Şəhərlər dağıldı kəndlər dağıldı
Bağ-bağat, meşələr viranə qaldı.
Onlara yalvardıq gül-çiçək verdik
Onlar bizə "qrad", "alazan" atdı.

Çarəmiz hər yerdən kəsildi bizim
Başladıq özümüzü biz müdafiə.
Heç bir dövlət bizə məhəl qoymadı,
Bu millətdən ərşə çıxan naləyə.

***

Hamı toplaşmışdı komissarlığa
Yola salmaq üçün o gedənləri.
Bir oğul könüllü keçdi qabağa
Anası ağlayıb gəldi irəli.

Dedi – bala səni halal edirəm
Kimə tapşırırsan bəs mən şikəsti?
Ananın boynuna bir qonşu qızı
Sarılıb, öpərək sözünü kəsdi.
- Dedi – ana sənə bala olaram
Dəymə getsin onu Allah saxlasın,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O gəlincə xidmətində qalaram
Nankor düşmən üstümüzə qalxmasın.

Belə mehribanlıq görəndə oğlan
Bu doğmalıq onu arxayın etdi.
Göydə Allah, yerdə qonşu qızına
Şikəst anasını tapşırıb getdi.

***

Neçə yol yazdısa evə məktubu,
Həsrətli, istəkli cavab alırdı.
Sanki, iki ana qoyub gəlmişdi.
Ya iki sevgili ona baxırdı.

Məktübün sözlərin ana desə də,
Qız yazırdı, qız da yola salırdı.
Qızın bu səmimi sadiqliyindən
Oğlan öz qəlbində razı qalırdı.

Elə zənn edirdi özü evdədir,
Ana xidmətində özü dayanıb.
Heç kim inanmaz ki, hər çətinliyə
Dözərək bir qonşu qızı dayanıb.

Mehribanlığa bax, insanlığa bax,
Hamı hamı üçün belə yanmalı.
Arxada birlikdə hamı çalışıb
Cəbhədə oğullar mərd dayanmalı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hər gələn məktubu o oxuyanda
Qəlbində deyirdi xoşbəxt olasan.
Anama xidmətçi, təsəlli olub
Mənim də qəlbimdə yuva salmısan.

***

Xatirələr şirin, səngər dolu qar
Arzular od kimi, soyüq yaş paltar.
Ermənilər xain, çörək tapdayan
Azərbaycan millətisə rəhmdar.

Kimi dirsəklənib xəyala dalmış
Kimisi silahın təmizləyirdi.
Kimi ön cəbhədən məktub yazaraq
Evinə, balasın əzizləyirdi.

Diqqət kəsilmişdi hamı ön səmtə
Saat aram-aram çaqqıldayırdı
Gələn məktubları səngərlər boyu
Ehtiyatla poçtolyon paylayırdı.

Yenicə gəlmişdi ana məktubu
Ürək çırpıntısı nə uzun idi.
İki istəklinin ona məktubu
Sözləri ananın xətt qızın idi.

Məktuba yazanda ananın sözün
Öz ürək sözlərin yazır o hərdən
Elə çılqınlıqla sevir ki məni
Bunu hiss eləmir məhəbbətindən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Necə də diqqətlə yazıb məktubu
Sanki, əllərindən su verir mənə.
Anamın sözlərin yazıb amma ki,
Elə bil məhəbbət oxuyur mənə.

Amma sevməyini saxlayır gizli
Nə etsin utanır cavandı axı
Yerdə məni pənah sayır özünə
Göydə də o böyük gözəl Allahı.

***

Üç ildir burdayam, hərbi xidmətdə
Daha anamın da səbri tükənib.
Yazırsan sübhədək gəzir həyətdə
Küçə qapısında səni gözləyir.

Bəs sən nə gəzirsən onun yanında
Bilirəm sevirsən gəl aç qəlbini.
Anamdan çox sənin səbrin tükənib.
Anamla birlikdə öpürəm səni.

Yazıram utanmaq keçibdir daha
Mən səni sevirəm, sən də ki məni.
Səni alacağam inan Allaha,
Anamı tək qoyma sevindir məni.

Məni gözləyirsən qız vallah məni,
Sənin ümüdünü üzməyəcəm mən
Gəlin gətirəcəm inşəllah səni
Xoş bir yaz günündə tutub əlindən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qoca anamı da sevindirərik
Öpərsən üzündən onun gözəlim.
Anam da basaraq səni bağrına
Deyər ki, ağ olsun üzün ay gəlin.

***

Həyəcan siqnalı verildi birdən
Məktübü yarımçıq qoydu cibinə
Hücuma keçmişdi ermənilərdən
Bir tank batalyonu əsgərləriylə.

Vaxt azdı yubanmaq olmazdı daha,
Bayaqkı söhəti sözü unutdu.
Hazır vəziyyətdə keçid irəli
Birinci cərgədə yerini tutdu.

Əl atıb götürdü qrantamyotu
Allahı çağırıb o nişan aldı
Gördü ki, uzaqdı yerin dəyişib
Özünü dəstədən qabağa saldı.

Od kimi sıçrayıb cumdu irəli
Tanklar harın-harın yaxınlaşırdı.
Nişan alıb atdı öndəki tanka
O yana sürünür, tank alışırdı.

O xeyli sürünüb çatdı bir daşa
Tanklar hücum çəkib nərildəyirdi
İkinci tankı da vurub sepindən –
Qal yanı üstündə gəril! – deyirdi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Fürsəti vermirdi bir an da belə.
Vursun bu döyüşdə üçüncü tankı.
Bir də istədi ki, çevrilsin yana
Qəflətən çiynindən o yaralandı.

Tanklar xırıl-xırıl döndülər geri\
Vurulanlar orda yanıb qalırdı.
Dilində yurdumun zəfər nəğməsi
Ordu hücum çəkib haray salırdı.

***

Hücuma keçənlər getdi irəli
Yıxılıb qalmışdı o yanı üstə
Gördü ki açılıb yaxa düyməsi
Bir damcı qan düşüb məktubun üstə.

Sağ əllə əsə-əsə açdı məktubu
Oxuduqca onun doldu gözləri
Vətən məhəbbəti, ana həsrəti
Bir də o gözəlin şirin sözləri.

Ardın davam edib yazdı: - gözəlim
Məktubu alanda oxu anama
Yaralanmağımı ona bildirmə
Gələn günlərimi daha sanama.

Sıxma ürəyini xoş keçsin günün
Boylanıb ara-bir yollarıma bax.
Alovlu güllələr başmızı biçir
Səngərdə dizəcən yağan qara bax.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sənə qovuşmadım, qismət olmadım
Həsrətin ürəkdə qalsa da pünhan.
Sev Azərbaycanı basıb bağrına
Qoy sevgilin olsun şən Azərbaycan.

Sol çiynimdən dəyib düşmən gülləsi
Ağır vəziyyətdə yaralıyam mən.
Qələbə çalanda Azərbaycanım
Mənimçin ağlama sən də gülərsən.

Nəfəsim təngiyir dözmürəm daha
Bilmirəm öləcəm ya qalacağam
Anama təsəlli bu son nəfəsdə
Sənə də xoşbəxtlik arzulayıram.

***

Evdə ananın da sancdı ürəyi
Narahat, yerində çapalayırdı
Qız da yanındaydı yaş dəsmal ilə
Ananın alnını sığallayırdı.

Ana söyləyirdi bilmirəm nədən
Üç gecə gündüzdür yata bilmirəm.
Qız da deyirdi ki, ana darıxma
Neçə gündür mən də düşmüşəm dildən.

Zəif titrək səslə vəsiyyət edib
Sonra öpdü qızın alnından ana:
Dedi ölər isəm bu ağrı ilə
Mənim ölməyimi yazma balama.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ürəyim beləcə snacmazdı mənim
Balamın başında nə var bilmirəm.
Sağ-salamat gəlsə yaxın ol ona,
Dilim gəlmir başqa bir söz demirəm.

Ana dolaşmışdı son nəfəsiydi
Qızcıbaz bilmirdi axı neyləsin
Bu dərdi nə dillə yazsın oğula
Məhlədə xəbəri yoxdu heç kəsin.

Poçtolyon qapını döyəndə, qızın
Onu görən kimi rəngi ağardı.
Cəbhədən gəlmişdi bala məktubu
Huşunu itirmiş ana baxırdı.

Qız tələm-tələsik açdı məktubu
Oxusun bəlkə də ana sağala
Çevirdi kağızı doldu ürəyi
Gözləri sataşcaq bir damcı qana.

Səngərdən istəkli oğul yazırdı
Məktubu alanda oxu anama
Yaralanmağımı ona bildirmə
Gələn günlərimi daha sanama.

Evdə xəstə ana son nəfəsilə
Dedi yanar oda məni qalama
Əgər ölər isəm bu ağrı ilə
Mənim ölməyimi yazma balama.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bala can üstündə yazıb məktubu,
Ana can üstündə yol gözləyirdi.
İki istəklisin itirən gözəl
Hönkürtü içində gör nə çəkirdi

***

Ana cənazəsi qolları üstə
Bir qız yalqız qalıb qan ağlayırdı
Dilində yurdumun zəfər nəğməsi
Ordu hücum çəkib, haray salırdı.

***

Özün qurban verir aşıb dağları
Şir tək cəbhədədir ali komandan
İrəli səsləyir mərd oğulları
Haray Azərbaycan, hay Azərbaycan!

HİNDİSTANLI DOSTUMA

Mən bir allaha bağlıyam sən Namavali geyin
Tiki saxla, Brəhmən ol, Aryavarta-da deyin.
Toka qoyub, Koylaşa get yaş keçməmiş titul al
Aryavarta Hindistanda ilin altı fəsli var.

Boşöntokal, Borşokal, Qrişokal
Şorotkal, hemontokal bir də Şitkal
İl uzunu dörd fəsildə cəmləşibdi, nə mahal
Fəsilləri xırdalayıb orda salma qalmaqal.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir Allahı dərk eyləyib çox allahlıqdan yığın
Bu təklifi anlamırsan Çitraquptaya sığın.
Nə veribdir söylə sənə Şastra ya Sannasi
İstiqamət verib yoxsa Kandarpa, Praçanati.

Yolunuzu inək kəssə incitmirsiz heyvanı
Maldan sənə allah olmaz, ay Allahın heyvanı.
Ömrü boyu təlim etdi sizi Robindronat
İngilisi qucaqladız sizə söylədi, ol rayt.

Bir ustaddır hind xalqına beynəlmiləl bir ustad
Vətənpərvər maarifpərvər Taqor Rabindranat
Səyahətə çıxıb gəzdi ön yeddi böyük ölkə
Hamısında çıxış edib hamın səslədi sülhə.

O, mindən çox əsər yazdı şeirləri qarışıq
Povest, roman, oçerk hamsı hind xalqına bir işıq
O xalqına ustad yazdı bizim dahilərmizi
Nəsimini, Xaqanini, Şeyx Nizamimizi.

Ram-Mohon-Ray təşkil etmiş Brəhmən cəmiyyəti
Odur adı hind dilində "Brahmo Samac" oldu
Min səkkiz yüz iyirmi səkkizinci ildən təşkili
Bəyənildi, boyu artdı, dini uzun yol oldu.

O cəmiyyətin üzvüydü babası Dvarkanat
Dini cəmiyyətin adın qoymuş "Brahmo Samac"
Əvvəlindən bu cəmiyyət on doqquzuncu əsrin
İndiyədək qüvvədədir istəyi Taqor nəslin.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ənənəvi ayinlərin Debandranat Taqor,
Bir il oğlun Himalaya səyahətə apardı.
Bu səfərdən ilhamlanan Rabindranat Taqor,
Gündən-günə şəfəq saçdı nəslin yolun apardı.

May ayının yeddisindən, avqustun yeddisinə,
Min səkkiz yüz altmış birdən, min doqquz yüz qırx birə
Ömür eylədi bu dünyada o həştad il üç ayı,
Hindistanın milli oğlu, həm günəşi, həm ayı.

Beş il içrə vəfat etdi cavan qızı, atası
On doqquz il ömür etdiyi Dibi – həyat yoldaşı
On üç yaşlı cavan oğlu əziz ciyərparası
Şəxsi dərdin yana atdı, çəkdi vətən harayı.

***

Hindistanın dövlət himni "Canaqanamana"dır
Vətəninin sadiq oğlu Taqorun mahnısıdır
On dördüncü uşağıydı evin Robindranat
Şəxsi dərdin yana atdı xəlqə verdi qol-qanad.

Robindranat olsa da bu yollarda bir əsgər,
Fəqət olmaz bizim bircə Natəvana bərabər.

Çox gözəldir Hindistanın qədim mədəniyyəti
Alimləri, şairləri, iqlimi, təbiəti
O tərəqqi yollarında yubansa da bilmədən
Heç indi də geri qalmır başqa çox-çox ölkədən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Öz istəkli arvadının qəbri üstə Aqrada
Tac-mahalı bina etdi yana-yana Şah-Cahan
Bir yaraşıq verirsə də Aqradan Hindistana
Dövran yetirmişdi ora Hökmdarı Moğoldan.

***

İncəsənət aləmində bir nağıl tək yaxşıdır
İstirahət vaxtlarında "Bradyaqa", Raç Kapur
Fantaziya çox qoşullar, estetkasın danmaram
Nəzmləri, nəsrləri, filmləri, "Ram və Şam".

Sizin də dahilər olub çox savadlı, çox qəvi
Bir qədər də nəzmə çəkib Əmir Xosrov Dəhləvi.
Çox millətlər heyran qalıb sizin xalqın zövqünə
Çoxlarına bir dərs olub "Kəlilə və Diminə".

***

Dostum Rami gah deyirsən bir adım da Padmadır
Benqal körfəzinə axan Qanqın böyük qoludur
Padma kəndi, padma yolu, padma Qanqın bir qolu
Qanq çayı ayaqdan-başa hamsı şeirlə dolu.

Dostum Rami gah deyirsən bir adım da Padmadır
Çox maraqla və heyrətlə üç gün dinlədin məni.
Namaz qıldım həvəsləndin öyrətdim tez-tez çaşdın.
Dedim gərək uzun müddət şilnor-da döyəm səni.

Rus dilində başa saldım qəh-qəhə çəkib güldün
Qardaş deyib iki əlli qucaqladın boynumu
Çox bəyənib Azərbaycan ən-ənələrin bildin
Söylədin ki, ömrüm boyu unutmaram mən bunu.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

***

Dedim sənin adını mən yazacağam kitaba
Eşidən tək sevincindən sən necə oynayırdın.
Diqqət verib gözlərimin içində söz gəzirdin
Gah da dönüb çırtıq çalıb yerində hoppanırdın.

Xahiş etdin ki, adımı Ramanai yazarsan
Uşaqlıqda mənə Padma dedilər dəcəl idim
Doğrudan da Padma təki mən axırdım hər yana
Ramanai olsam da mən anamçın Padma idim.

Müxtəsəri göndərirəm sizlərə salam-duva
Xudadan iltimasımdır Tapınasız Allaha
Azərbaycan vətənimdir, rayonum Hacıqabul
Qubalı Baloğlan kəndində göz açmışam dünyaya

Mən Bağıyev mömin, şair, molla, Məşəd Vahidxan
Ən-ənədən, adətnizdən çox ax eylədim bəyan.

***

Rabindranat olsa da bu yollarda bir əsgər
Fəqət olmaz bizim bircə Natəvana bərabər.
Yetim, xəstə, matəmsəra, "Dürri-Yekta" xan qızı
Bir günəşdir bu sahədə Taqor onun ulduzu.

Çox firavan, çox asudə, çoxlu tapan dadirəs
Gəlsin bizim xəstə yetim Natəvandan alsın dərs.
Çün keçirdi ömrü boyu çox acınacaqlı gün
Ömr eylədi altımış il, bir ay, on səkkizcə gün.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Min səkkiz yüz otuz yeddi, avqustun on birində
Qarabağın son hakimi Mehdiquluxan evində.
Göz açmışdı bu dünyaya "Dürrü-Yekta" xan qızı
Azərbaycan millətinin günəşi, ay, ulduzu.

On üç yaşında olarkən vəfat etdi atası
On üç yaşlı qız uşağın olmadı pasibanı.
Hər tərəfdən təsir ilə hamı qalxdı üstünə
Tapılmadı can yandıran, nə səs verən səsinə.

Arzuları, nəvazişlər həsrət qaldı gözündə
Öz milləti tənə vurub tapdaq etdi özün də.
Çox fərəhsiz keçdi onun uşaqlığı, gəncliyi
Bir rahatlıq görmədi o, nə olmadı dincliyi.

Məcbur ərə verildi həm hədə-qorxu içində,
İçin-için yana-yana dərdi qaldı içində.
İki evlad anasıydı ər onu atıb getdi,
Anası Bədrcahan az sonra vəfat etdi.

Əri ölcək nadanlardan çox tənələr eşitdi,
Söz-söhbəti yıxmaq üçün ikinci ərə getdi.
Allah ondan bəxş eylədi iki qız, üç oğulu
Evladlardan üçü tutdu onun şair yolunu.

Görün bir rüzigar ona bu əsnada neylədi
İkinci əri də ölüb onu giryan eylədi.
Oğlu Mirabbas on altı yaşında vəfat etdi
Xurşid şəxsi qəmin atıb xalqın hayına yetdi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şuşaya çəkdirdiyi türfə suyu içənlər
İçə-içə çoxları ona nəf deyirdilər.
Sığınırdılar hamı onun himayəsinə
Heç onlar da çox zaman səs vermirdi səsinə.

***

Vətənpərvər, maarifpərvər, tərəqqipərvər xanım
Əsirgəmədi heç kimdən nə dövlətin, nə canın.
İnsanpərvər, ədalətli, sülhsevər bir şəxs idi,
Hatəm kimi o hamıya ilahidən bəxş idi.

Orenburq, Həştərxan, Bağdad, Buxara
Kəlkətə, mərv, Tiflis, Bombey, Fransa
Hamısıyla ədəbi əlaqələr yaratdı
Bəslədiyi Qarabağ cinsli köhlənləri

Dünya sərgisində gör yetdi hara
Paris, Əlcəzair, həm Moskvada
Azərbaycan, Azərbaycan adıyla
Layiq görüldülər qızıl medala.

Yeddi dil bilirdi Xurşid Natəvan
Cıqatay, erməni, fars, Azərbaycan
Ərəb, gürcü bir də rus dilləriydi
Dörd dildə sərbəst danışa bilirdi.

Bağdad, Əlcəzair, Bombey, Moskva
Fransız dahisi Aleksandr Duma
Ölkələr bürclərə yazdı Natəvanın adını,
Öz milləti puç eylədi şairin həyatını.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Müsibətlər çəkdi elin əlindən,
Xurşid Banu dönmədi əməlindən.
Vətən dərdin çəkərək bağlandı Allahına,
Hamı üçün çalışdı o Allah rizasına.
O hamını oxudub tanıtdırdı hər yanda,
Əməliylə Vətənin tanıtdırdı hər yanda.

Yol çəkdirdi Bakının Şıx kəndinə Natəvan
Qurtarmaz əmələri yazılsa zaman-zaman
Su çəkdirdi öz puluyla Natəvan Mil düzünə
Vətən üçün o qatmışdı gecəsin, gündüzünə.

***

Gözlərinin nuru getdi, dizi düşdü Taqətdən
Öz milləti məhrum etdi onu maldan, dövlətdən
Bir ilədək xəstə yatdı qapısın açmadılar
Mal dövlətin dağıdıb onu yaddan çıxartdılar.

Bir ilədək xəstə yatdı açmadılar qapısın
Nə yaxşılıq etmiş idi unutdular hamısın
Vətəninin, millətinin içində bir baxın ha
"Dürri-Yekta" o xan qızı qaldı yekkeyi-Tənha.

***

Nə çəkmisən bu millətdən qəmi pünhan bilirəm
Var sənin tək ürəyimdə qəmi-nihan ölürəm
Unudulmaz əmməllərin qəlbimizdə heç zaman
Yazdı Allah rizasına səndən Məşəd Vahidxan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İzahlar

Namavali *– üstündə çoxldu ilahələrin adları yazılan üst paltarı (gəlinlik palтarı da olur).*

Tiki *– brəhmanlərin boynunun ardında bir çəngə saç saxlanılır ki, onunla onun brəhmən olması bilinir. (birəhmənliyin nişanəsi həmin saçdır).*

Aryavarta *– Hindistan*

Toka *– palma yarpaqlarından düzəldilmiş baş örtüyü*

Koylaş *–hind dilində himalayın adıdır, hər bir şəxs brəhmən olmaq istəsə mütləq Himalaya səyahətə getməlidir. Hər kim brəhmən olsa ailənin hüquqlu üzvü olur, ailədə də, eldə də böyüklərin məclislərinə oturmaq ixtiyarına da malik olur.*

Hindistanda ilin altı fəsli var: Boşontokol *– yaz fəsli,* ***Qrişokal*** *– yay,* ***Borşokol*** *– yağışlı mövsüm,* ***Şorotkol*** *– payız,* ***Şitkal*** *– qış,* ***hemontokal*** *– ilin soyuq fəsli, hərəsi 2 ay.*

Çitraqupta *– hind mifologiyasında ölüm allahı*

Şastra *– hindulərin vəzifələri, qədim müqəddəs kitab*

Sannasi *– tərkidünya, dünya nemətlərindən əl çəkmiş, özünü axirətə bağlamış mömin hindu (dərvişlər kimi) olanlara aid kitab (adi müqəddəs sayılır).*

Kandorpa *– hind əsatirində məhəbbət allahı*

Praçapati *– hind əsatirində yaradıcı allahdır həm də izdivac (evilənmə) allahı.*

Rabindranat *– böyük hind yazıçısı və şairi. Taqor.R.*

Ol-rayt *– İngiliscə – yaxşı, çox gözəl.*

Dvarkanat *– Rabindranat Taqorun babası Dvarkanat Taqor*

Ram-Mohon-Ray *– hindistanın maarifçisi və yazıçısı. O "Brahmo Samac" adlı dini cəmiyyət yaratmışdı və Dvarkanat Taqor da həmin cəmiyyətin üzvü oldu.*

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Debondranat Taqor *– Rodindranat Taqorun atası o həm də çox bacarıqlı tərbiyəçi olmuşdur. Oğlu Rabindranatı 12 yaşında olarkən Brəhmən olması üçün dini ayinləri icra etdilər və ilk dəfə olaraq Himalaya səyahətə aparmışdır.*

Rabindranat Taqor *– 1861-ci il may ayının 7-də Banqaliyanın paytaxtı Kəlkətə şəhərində anadan olmuşdur. 1941-ci ilin avqust ayının 7-də vəfat etmişdir. 80 il 3 ay ömür edib. 07.05.1861-07.08.1941*

Dibi *– Rabindranat Taqorun 1883-cü ildə sevib, ürəkdən bağlanıb evləndiyi həyat yoldaşı. Marinaline Dibi adlı arvadı 1902-ci ildə vəfat etmiş, 1903-cü ildə qızı vəfat etmiş, 1905-ci ildə atası vəfat etmiş, 1907-ci ildə səkkiz yaşından anadan yetim qalmış 13 yaşlı oğlu vəfat etmişdir. Bütün bunlara baxmayaraq o, vətəninin, millətinin tərəqqisində sarsılmamışdır.*

Canaqanamona *–Robindranat Taqor yazdığı bir mahnı. Hindistan respublikasının himni.*

Aqra *– Hindistanda şəhər adı.*

Tac-mahal *– Hindistan memarlığının ən gözəl və yaraşıqlı abidəsidir. Bu abidəni Şah Cahan öz istəkli arvadının qəbri üstündə tikdirmişdir, sonradan Şah-Cahanın öz cənazəsi də həmin abidənin içərisində dəfn edilmişdir.*

Şah-Cahan *– 1627-1658-ci illərdə Böyük Moğollar sülaləsinin axırıncı hökmdarlarından biri olmuşdur.*

Romanai *– təsadüfən mənimlə rastlaşıb tanış olan iki hindistanlıdan və dörd nəfər fələstinlidən birinin adı.*

Ramanai-yə *– uşaqlıqda dəcəl olduğuna görə Padma deyəllərmiş, anası da mənim Padma balam deyə çağırarmış.*

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

MERATOS SƏFA

Mənim könlüm müəllimdir, dizim üstü dəbistanı
O şagirdəm ki, öyrəndim sükut ilə əlifbanı
Nə hər dizdən olar məktəb, nə də hər şagird əzbərxan
Nə hər qətrə olar nisan, nə hər dərya sədəf kanı.
Dizi məktəb olan kəsdə, gərək bir hümmət olsun ki,
Önündə it kimi diz çökdürə bilsin o, aslanı.
O insan ki, dözüb dərdə, baş əyməz mərdə, namərdə
Onu diz çökdürə bilməz, tutan dörd əlli dünyanı.

Xaqani Şirvani

Bir ustadsan hikmətullah, kəlamullah – sözün canı
Cavan vaxtunda öz nəzmin tutmuşdu küllü
dünyanı.

Avropanı, Afrikanı, İran, Turan, Ərəbistan,
Kazak, türkmən, özbək, tacik, monqol, çin və
Hindistanı.

Səndən beş yüz, min il sonra hamı səni ustad bildi
Səni ustad biləcəklər yetincə Mehdi divanı.

Bir ustad tək səni, sənsiz qəbul etmiş bütün dünya
Özünə ustad yazmışdır bütün dahilər Xaqani.

Zərrəəcə sezmədi heç kim təkəbbürlük o ustadda
Vətən, millət dərdiylə çox müsibətlər çəkib canı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Böyük hörmətlərə yetdi, bütün ətraf ölkələrdə
Ürək dərdiylə vəsf etdi Şirvanı, Azərbaycanı.

Bircə gün olmadı asudə bir rahət olan vaxtı
Ömrü boyu bixaniman, sərkərdan gəzdi dünyanı.

Öz elində, ölkəsində bilmədilər onun qədrin
Qəriblikdə keçdi ömrü, Təbrizdə tapşırdı canı.

Neçə yol gəzdi Xaqani-Məşhədi, Kərbəla, Kəbə
Özünə titulun yazdı bütün dünyada – Şirvani.

Hərə bir noyilən yazdığını nəzm eyləsə qəbul
Olar Xaqaninin dər babinin xəri həmədanı.

Bu qəsri çox məharətlə qurub Xaqani tikmişdir
Çəpik çalmışdır sonradan neçə tifli dəbistanı.

Şeriyyət mülkünün məskəni, yurdu Şirvan olmuşdur
Nə gəzmə Dehlini, Bağdadı, nə farsı Xorasanı.

Onlarda olduğu kimi, hər yerdə dahilər vardır
Hamısı etiraf etmiş bir ustad kimi Xaqani

Xaqaninin vəfatından əlli üç il keçən vaxtda
Yəminəddin Əmir Xosrov məkan etdi bu dünyanı.

Çingiz hücumundan qaçdı Türküstanın Laçınından
Özünə məskən etdi Dehlini, Laçınını tanı

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xaqaninin vəfatından yüz üç il keçəndən sonra
Tutub Xaqaninin qafiyəsin, yazdı ədəb kanı

Əlli yeddi beyt içində vurub dövrə sözün yazdı
Nəhayət istək ilə, ta yarımçıq oldu meydanı.

Xaqaninin vəfatından iki yüz on beş il keçərkən
Bu dünyaya doğulmuşdur o tacik şairə Cami.

Nədənsə qalmadı öz yurdunun fərşi-zəminində
Özünə məskən etdi sonradan o da Xorasanı.

Xaqaninin vəfatından iki yüz həştad dörd il sonra
Xaqaninin qafiyəsilə açmışdır o meydanı.

Atıb beytləri peydər-pey, mübariz gəzdi meydanda
Nə qədri cəhd edib qovdu atın, olmadı cövlanı.

Xaqaninin vəfatından iki yüz doxsan beş il sonra
Bu dünyaya göz açmışdır Füzuli tək qəzəlxanı

Xaqaninin vəfatından üç yüz qırx doqquz il sonra
Xaqaninin qafiyyəsilə fəxr eylədi nəzmanı

Yüz on səkkiz beyt içində, bir məlumat yazıb keçdi
Özü rəsmən demişdir: - məlumatlandırdım İranı

Verib Xaqaniyə çoxlar böyük dərdlər sağlığında
Həmişə sözlərindən oğramışlar zərlə-boxçanı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ağır zərbədir kəlamın oğurlamaq ustadların
Sözünü payimal eylə, ya eylə qanə-qəltanı.

Gözünə qan damar ustadlara xain baxan şəxsin
Olar aqibəti zay, nə də xoş gün görməyər canı.

Səvab işlərdə hamıyçın dünya Yusif bazarıdır
Öz halal istedadının çalış olginan soltanı.

Xaqaninin vəfatından bir yüz yetmiş il keçmişdi
İmadəddin Nəsimi eylədi məkan bu cahanı.

İmam Hüseyn məktəbinin davamçısı olan şair
Düz məsləkindən dönmədi hər ağrıya dözdü canı.

Diri-diri soydurdular Nəsiminin dərisini
Mərd doğuldu, mərd dayandı tərk etmədi o
meydanı.

Nəsimiylə, Səyyid Əzim millətdən zülmülər çəkdi.
Gənc yaşlarında oldular şiəylə-sünnü qurbanı.

Sizinçün ömrünü sərf eyləmişlər sən də yad eylə
Hələbə çatmasa əlin, ziyarət et Şaxandanı.

Deyil vacib sənə mən dərs deyim ərşdən ya
bürclərdən
Çalış insan kimi ömr et, qovla qəlbindən şeytanı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Rəsulullah yanında Allahın kəlamın yazarkən
Xəyanət eyləyib həqqə, nə yazdı – "Ali İmranı"?

Uzaqlaşmaq bu mətləbdən deyil insaf ki, söz
çoxdur
Nəbilərdən qəbul oldu "kəlamullah" Musanı

Xəqaninin vəfatından yeddi yüz qırx doqquz il
sonra
Şirvanda sübh vaxt doğuldu bir sərrafı süxəndanı.

Xəqaninin vəfatından səkkiz yüz yeddi il sonra
Böyük hörmətlə vəsf etdi Məşhəd Vahidxan,
Xaqani

Vətənpərvər, maarifpərvər, tərəqqi arzularında
Ədalətlə açıb nəzmin bazarında bu sevdanı.

Əyər tikmişlər isə hər biri bir səmtini qəsrin
Və mən də damını vurdum, tacını qurdum şahanı.

Verib o taca zər ilən yaraşıqlar, çəkib nəzmə
O zər tacın üzərində, zər ilə yazdım Xaqani.

Böyük ustaddır Xaqani, yarımdünya öz dövründə
Bu dünyanın üçdən iki hissəsidir su ümmanı.

Böyük ustaddır Xaqani bu dünyada hər bir zaman
Bütün dünyanın şairidir o nəinki şirvanı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ədalətlə danışsa bəndələr, həm olsa insafı
Üzülməz süfrəsindən heç zaman nan nəməkdanı.

Başını örtmək ilə kəm qalarsan azca abrından
Ayağını uzadanda nəzərinə al yorğanı.

Özünü dahilərə tay tutub yazma təkəbbürlə
Kənar ol gəzmə haparda danışma hərzə-hədyanı.

Əzəlindən əzizlənmiş, çıxıb həqqin buyruğundan
Əzazil, iblis, məleykə – adları oldu şeytanı.

Heç şeytan söyləmədi–insanlar dönübdü
meymundan
Nə qəbul etmədi Lamarkı, Darvini o şər kanı.

Kəfənə, Allah –yazmaqla nə tapdın qəbr otağından
Gərək qəlbində həkk olsun cila versin o Sübhanı.

Əgər məkr olmasaydı sadəlövhlük eyləyib həmən
Tövsiyyədən əziz tutub, Adəm yeməzdi buğdanı.

Xətasının cəzasından ki, Adəm sərkərdan qaldı
Deyillər qırx il gözündən tökübdür əşk leysanı.

Səkkizinci ərşidən ki, "Beytül-məmur" gətirildi
Yədullah istiqamət verdi, Adəm tapdı Həvvanı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İmam Cəfəri Sadiqdən rəvayətdur, əya mərdum
"Meracəl-möminin" kitabı nəql edir bu dastanı.

Aparan istiğasə Allaha, dörd yer səhihidür
Çün peyğəmbərlər, imamlar heç vaxt söyləməz
yalanı.

Apardı istiğasə Allaha o "Beytül-məmur"-ki
Deyil insaf ki, qərq etsin onu da Nuh tufanı.

Mələklər Allahın iznilə çəkdi dördüncü ərşə
Ki səkkizdən gəlibsən indi məskən et bu məkanı.

Ki Nuhun tufanında olmayıb qərq qalsın amanda
"Beytül-məmur", "Nəcəf" dağı, "Məşhəd" bir də
"Kərbəlanı"

O dörd yerdən "Nəcəf" Allahın xovhindən nikun oldu
Və sonra aldı ağuşinə o şahi-Mərdanı.

Yeddi min, yeddi yüz, yetmiş həccə bərabər təvafı
Məşhəddir almış ağüşə o da İmam Rzanı.

Yetmiş hacı Əkbərə bərabər olan bir təvafı
O ərzi Kərbəladır saxlayır Şahi Şəhidanı.

"Beytül-məmur" çəkildi bəs bu üç ərzə nə olmuşdur
Şərəfləndirən onları dost tutanlardı Xudanı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nəcəfdə Şahi-Mərdandır, Məşhəddə İmam Rza
Yetmiş bir şəhidlə İmam Hüseyn Kərbəla
mehmanı.

Əyyub peyğəmbər səbrindən istəyirdi ola razı
Dedilər kaş görəydin Kərbaladakı tufanı.

Yetişdi hatifdən səda-azca səbrinlə fəxr etmə
Deyilsən səbridə İmam Hüseynin tifli-dəbistanı.

Dedi İbrahimə Cəbrəil: - ey xəlil nə xoşhalsan
Ki Allah olmadı razı kəsilməkçin bu qurbanı?

Gələr bir gün diyari Kərbəladə qürbi-zillətlə
Hüseynim qurban eylər İsmayıl tək yetmiş cavanı.

Qalar meydanda yalquz ey qərib, məzlum
Hüseynim vay
Şəhid oldu, əsir getdi, amma yaşatdı Quranı.

Nuhun oğlu inanmadı minməyib kəştidən qaçdı
Dağlara pənah apardı, atdı Allah təalanı.

Hüseyn oğlanlarına təklif etdi: - çıxıb getsinlər
Şəhid oldular, əziz tutdular Allahı, Quranı.

Verib hökmü o boyda nəhri ki, Firon dayandırdı
Həmin nəhr qərq etdi Fironu, azad buraxdı
Musanı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ya çəkmək istəyən çarmıxa Məsihi inad ilə
Özün çəkdilər çarmıxa Allah hifz etdi İsanı.

Deyilsən ey bəni-adəm təraz yolda qorx Allahdan
Həya eylə nə tutmusan dörd əlli fani dünyanı.

Elə azğınlıq etdi bəndələr Allah rəva bildi
Öz əməllərinə uyğun alt-üst oldu Lut məkanı.

Çoxları inamsız oldu bəndələr Nuh zamanında
Peyğəmbər nifrin eylədi başlandı Nuh tufanı.

Bütün dillərə alim Xaliqü-Allahu-Əkbərdir
Az əqlinlə mənimçün sən misal çəkmə Süleymanı.

Bütün dünyaya peyğəmbər, bütün dünyaya padşahdı
Öz mülkünün ortasında Rəbb göndərdi can alanı.

Çoxları çalışdı amma qurammadı kommunizmi
Misirdə qurdu kommunizmi, o vaxt Yusif-Kənanı.

Zərrəcə səzmədi Yusif o eşqü pür Xudasindən
Qınadı əqli kəsməzlər Yusifi həm Züleyxanı

İtaət, taəti, təqva-yetirdi ərşi-əlayə
Züleyxaya həm yar oldu, həm oldu Misir soltanı.

Öz evində özünü gör, axtarma kəhkəşanları
Sizə əxlaq tövsiyyəmdir ki, əvvəl özünü tanı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nəzmə bax, qurdu nizamla Allah böyük kainatı
Neçəsini yumşaltmışdı ləhni nəzm Hulaku xanı.

Haşiyyədən yana çıxsam Allah bağışlayar məni
Millətimin hər elmidə var sərrafı, süxəndanı.

Hər sahədə tərəqqim var: - Əbu Mənsur müvəffəqi
İbrahim bin Zeynül Abdin ləqəbi də Naxçıvanı.

Vətənimin dahiləri – Məhəmməd əttar Səlyani
Məhəmməd Yusif Şirvani və Həsən ibni Şirvani.

Səyyid Məhəmməd mömin ki, min səhifəlik kitab
yazdı
Təbabət alimləridir bunlar, həm Azərbaycanı.

O sahədən xəbər alsan Əsli-Kərəm, Tahir-Zöhrə,
Fərhad-Şirin, Leyli-Məcnun, ya Mənsurla-Sitaranı.

Vətən müharibəsində Züleyxa Səyyidməmmədova
Təyyarəylə düşmən vurdu, heyran eylədi dünyanı.

Cəsur ər tək işlər görüb Azərbaycan qadınları
Hansın misal çəkim sizə Nüşabəni, Natəvanı?

Məhəmməd peyğəmbər birlik yaratdı yer üzərində
Bürüdü dini islam dörd qitəni cənub Amerikanı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mən Allaha Əbdillahəm, möminlərə bəradər, yar
Əlinin Qəmbəri timsal, Rəsullahın Salmanı.

Aç qəlbimi bax, Allahdan savay bir şey
tapammazsan
Nə tapsan da qəlb evimdə hamsı Allaha bağlanı.

Elə yol tutmuşam atam, anam məndən razı olsun
Tanrım anam Səyyidbəyim, atam Hüseyin ağanı.

Öpüb dünyada təşnə ləbləri aləmi mat qoydum
Özümdən razı saldım nənəm Fatimə-Zəhranı.

Mömin ol "nəfsi-əmmarə pərdəsin" açmağı bacar
Öz arzunla nə mətləbdir, istək gərəkdir Rəbbanı.

Ol desən Allah deyibdir, oldurar Allahım özü
Necə yaratdı ol deyib Adəm-səfini cismanı.

Bir fəsildə, dörd fəsilin nişanəsi Azərbaycan
Yer üzrə on üç iqlimdən, doqquz iqlimin nişanı.

Xalq yolunda nələr çəkdi Ayna xanım Sultanova
Bir misal da çəkim sözçün Nərimanov Nərimanı.

Böyük dahilərmizdəndir mövqei də pis olmadı
Yazıb qoyub getdi xalqçın "Bahadur ilə Sonanı".

Əzizləyib sevdiyimiz bir əsərə nəzər salaq
Allahverdiylə tapışdı İmamverdi yedi nanı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Allahverdi ermәniydi sәn demә Allah veribmiş
İmamverdi müsәlmandı oldu imam yaradanı?

Millәtimә şah sanıram Qasım Qasımzadәni ki,
Qәdim sәnәdli tarixlә yazıbdır Azәrbaycanı.

Xorasanda doğulsa da molla Cәlaləddin Rumi
Kinya ona mәdfәn oldu tәrk eylәdi Xorasanı.

Sanma orda әsrlәrlә yol göstәrәn Vaşinqtondur
Proqramla gedir onlar ölkәsiyçin yanır canı

Varımdır mәlumatım altı qitәnin hamısından
Çәkim nәzmә gәr istәrsәn dәrinlikdәn okeanı

Ki hansında nәlәr yaşar, ya hansı bitkilәr vardır
Ya hardan sorulur, hardan sәmaya yol karivanı.

Yer üzrә sorulan bermut üç nöqtәdә mövcuddur ki
Xüruc eylәr üçü bircә quyudan ərşә yollanı.

Göz görmәyәn höşәratlar ya okean nәhәngləri
Yüzdә bir qram tәrliklә, üç yüz tonluq balinanı.

Nә lazım at çapım mәn kәhkәşanlardan zәr
qopardım
Öz ölkәm, millәtim qalsın açam xaricdә meydanı.

Daxilәn әyri olan çoxsifәtlәrlә düşmanam
Alnından, göz bәbәyindәn vurmaq lazımdı

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

düşmanı.
Məkrin bazarında geniş yer tutmusan sifarişlə
Vücudundan at maskanı, barı öz-özünü tanı.

Keçər ömrü bu dünyada haram ilə, zina ilə
Kimi görsə hırıldar heç nəyin olmaz peşimanı.

Kimi xoş görcəyin, düşər heyvan kimi dalısınca
Xəmirçəsi zina, yox qedrəti, namusu, vicdanı

Özünün də tutubdur nütfəsi haramdan, zinadan
Ömrü boyu hər tərəfdə hey yortar haram meydanı.

Allahla eylədiyi əhdinə kimlər vəfa qıldı
Bax gör kimdir Nəcəf şahı, ya Soltani-Kərbəlanı.

Allahla etdiyin əhdini unutma sən ey bəşər
Dünyaya bağlanıb olma ənisi-munis şeytanı.

Cəhənnəm əhli on doqquz dilnən eylər mülaqatı
Qalan dillər səninçindir əməl et olma şeytanı.

Deyim həm yeri gəlmişkən, unudulmaz xeyirxahlar
Səvab yollardadır onlar əməl eyləllər Rəbbanı.

Çox zəhmətlə həsr eylədi Əbülfəti Nizamşaha
"Zəxireyi Nizamşahi" – əsərin Rüstəm Kürkanı.

Kəmaləddin kaşaninin oğlu Şəmsəddin doktor tək
"Ərvah-ül-Əcsad" əsərin yazdı açdı tibb meydanı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hippokrat ya Caleinus, Aristoteldən, Loğmandan
Ya Üzeyirdən, Xızrıdan, ya İsgəndəri – daranı.

Əbu-əli-ibni-Sina "Əşşifa" və "Qanun" yazdı
"Mənazilul-ürəfa" –da gördü axirət meydanı.

Qayıdıram haşiyyəyə Allah bağışlasın məni
Vətənimin, millətimin oldum xak ilə yeksanı.

"Ləhni-Davud", "dəmi-İsa", "Yədi-Beyza",
"zərbi-Musa"
Oxu "Əşrətə-əyna, gər əgər bilsən bu mənanı.

"Təthiri-mafiha"dan ver xəbər agahlığın varsa
Ya Məryəm surəsindən öyrən mənasın "Kafiha"-nı

Harda peyğəmbərə "İxlas" nazil olubdur təkrarən
Hansı "Bey" hərfinin nöqtəsidir ziynəti Quranı.

"Əhli-beytlə", on dörd məsum cəmin istəyirsən əgər
Cümə günü Xorasanda ziyarət eylə Rzanı.

Əbu-ubeydi-səqəfi-Muxtar, əştəri İbrahim
Yəqubi kəndidən deyim, ya Museyyibi Qəqanı.

Az əməlnən özünü sanma bərabər İbrahimə
O şeytanı yüz yol qovdu şərəfləndirdi Minanı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xəlil idi həqiqi, İbrahim Xəlil məhəbbətlə
Əziz oğlu İsmayilə qurbangah etdi minanı.

Bütün dünya kəsir hər il, bu gün qurbanı Hər yanda
Hamı qurbanının adın qoyur İsmayıl qurbanı.

Allah, bir nəzrim var, məndən atam, anam razı olsun
Allah yolunda kəssinlər qurban Məşəd Vahidxanı

Kimin şəninə olmuşdur nazil "İxlas"la, "Həl-əta"
Kiminçün laylasında zikr edib anası "Rəhmanı"

İtaət, taət ilə bir ayrılmaz qardaş olmuşdur
Heyrətdə qoymuş çox gecə vizu vaxtı Müstəfanı.
Təama meyl edəndə peyğəmbər gördü Yədullahı
O meracda ki Allahla min kəlmə oldu pünhanı.

Yədullah ol zamanda yerin altında edirdi cəng
Min kəlmənin bir ayəsi xoşhal eylədi Səlmanı.

Kitabətlər, süfuflar göndərib xaliq nübüvvətə
Nəhayət xətmi ənbiya, göndərdi xətmi Quranı.

Peyğəmbərə hamı üzdən deyib – bəli – yaxın oldu
Peyğəmbəri öldürmək üçün cəhd edirdi Süfyanı.

Məsxərəylə deyirdi Məkkənin əhli peyğəmbərə
Ya Məhəmməd bizçün danış göydən gətdiyin

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

nəqlanı.
Allahın, Quranın sözün nağıl hesab edirdilər
Allahdan istəyirdi peyğəmbər, onlarçın amanı.

Xuda düşmənləri əl çəkmədi cövri-cəfasından
Giriftar etdilər məsumları, həm əhli imanı.

Verib məsumların doqquzuna zəhri şəhid etdi
Rəsulu-əkrəmə xeybərdə verdi zəhri-cəfanı.

O nəhsin təkidiylə Fatimə məzlum şəhid oldu
Hüseyni zillət ilə zibh edib yandırdı dünyanı.

Hüseyni inkar etdi Kufeyi-Şamin cəmaəti
Nicat tapdı aşuranın günündə Hind Soltanı.

Qırdılar əhli-beyti soyqırım edib müsibətlə
Soyqırım torpaqlarım andırır ərzi-Kərbəlanı.

Əlini zərbət ilə, məscid içrə həqq qabağında
Vuran Allaha da əl qaldırar almaqçın hər yanı.

İnanmırsan bax tarixə Əlini məğlub etməkçin
Qoşun əhli nizələrə taxdılar yüz min Quranı.

Nə etməyib həya Allah kəlamından, nə Allahdan
Dedi Allaha da nizə vurmağa hazırdı hamı.

Bunun müqabilində onlara xeyli qızıl verdik
Dönük müsəlmanlar pula satar Allahı, imanı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Pul aldı Kərbələdə əhli-beytlə cəng edən leşkər
Bəzinə söz verilmişdi, hərə bir mülkün soltanı.

Nə qədri var idi islamçı verdilər müsibətlər
Tapıb məhv etdilər hər yanda vardı dostu Xudanı.

Ki islama vura bir zərbə də bəlkə ola sakit
Cəfa qəsdilə göndərdi Mədainə o Səlmanı.

Deyirdi: - ya Şəhi Mərdan ölərsəm orda sənsiz mən
Ki Səlman can verəndə gəldi yetdi Şahi-Mərdanı.

Allah kəlamın səf yazdı peyğəmbər eylədi sürgün
Gələn tək iqtidara gətdi yanına o, Mərvanı.

Mərvanın fitnəsilə açdı özünə qəsd yolların
Onun da fitnəsilə qəsd edildi alındı canı.

Namaz vaxtıydı bir səmtdə kalan millət yığışmışdı
Sevindim, birliyə gəlir dedim yəqin müsəlmanı.

Nə gördüm düşməyir yada ibadət amma
peydər-pey
Həvəslə bir-birini məsxərə eylərdilər hamı.

Qurandan ayələr dedim, açıb ağzın, gözün yumdu
Bizi qorxutmaq üçündür – deyib nəhy etdi Quranı.

Dedim: səbrinə qurban bar İlahi rəhmi rəhmansan
Dedi: - heyrətdə qalma sən də nəhy eylə o nadanı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Allahını sevərsənsə verər istəyini hər an
Həqq sevən axirət istər, neylir bu fani dünyanı.

Allahını sevən şəxsə zindandır bu geniş dünya
Allaha qovuşmaq istər mömin, neylir bu zindanı.

Mömin həmişə istər ki, bu zindanxanədən çıxsın
Elə etsin qazanmasın o dünyada da zindanı.

O vaxtadək elə çıxdı yolundan Adəm övladı
Xaliqim həmin vaxtında xəlq etdi Şiri-Yəzdanı.

Yaranmışdan deyib adın Əli çəkdi Zülfüqarı
Əhli-beytdən başqa hamı oldu qılınc-müsəlmanı.

Şəriəti nəhy eyləyir, özün adlandırır "mömin"
Üzünə bir maska tutub" cibdə gəzdirir Quranı.

Sənə nə lazım Allahın işinin hesabın çəkmək
O dəhşətdir sənin̂çin məhv olarsan bil ağam canı.

Rüşvətlə islamdan çıxır, rüşvətlə müsəlman olur
Nəyə lazım bulaşdırmaq qılınca natəmiz qanı.

Yaratmışdır on səkkiz min aləm böyük kainatda
Yüz on dördündə yaşayış qərar vermiş kərəm-kanı.

On səkkiz mindən yüz on dörd, yüz on dörddən biri yerdir
Bu yerdə xəlq edib Allah – bizi, Adəmi, Həvvanı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Biri mənə qulaq asdı, soruşdu: sünnüsən, şiə?
Dedim hər nə olursan ol, çalış Allahını Tanı.

Bu dünyaya aşiq olub, həqqi unutma ey qafil
Yarandın imtəhan üçün, bu dünya fanidir, fani.

Yarım dünyaya ki Rüstəm o vaxtı lərzə salmışdı
Necə öldürdü qardaşı Şəğad, Rüstəmi dastanı.

Tikən Aqra şəhərində "Tac-mahal" tək gözəl xanə
Fələk həmin "Tac-Mahal"da dəfn eylədi "Şah
Cahanı".

"Pir Hüseyn Xanəgahda" "Qoçan" adlı şəhər vardı
Natəmizlik yüzun oldu batırdı şəhri Qoçanı.

Xəzərin sahilində Bəndovan adlı şəhər varmış
Su basdı yer üzündən sildi o şəhri Bəndovanı.

Xudadan göstəriş aldı Nəciyullah hazırlatdı
Bir mismarla bənd eylədi, bir min beş yüz beş
taxtanı.
Altı ay sərkərdan gəzdi, bütün dünyanı çərx vurdu
Nəhayət qismət etdi kəştiyə "Cudi", "Naxçıvanı"

Gəmiyə xidmət edirdi Ovc ibni Nğ çox həvəslə
Hindistanın nəcaşi ərzində olubdu mədfanı.

Allah özü bəxş etmişdi loğmanlıq elmin Loğmana
Və Quranda hamıya xatırlatdırmışdır Loğmanı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ölümün qarşısın almaqlığa dərman hazırladı
Çatışıb loğmana verə bilmədilər o dərmanı.

Səkkizdən Beytül-məmuru göndərtdi yerə
Adəmçün
Dördüncü ərşə qaytardı ya bəlkə vardı nöqsanı.

Məşhədi, Kərbəla, Nəcəf ərzi də iltimas etdi
Qəbul oldu duaları basmadı Nuh tufanı.

İnsanlar iltimas etmir, hansın qəbul edillər ki
Süfufları, Tovrat, Zabur, ya İncili, ya Quranı.

Əmir Xosrov ilə, Cami, Füzuli, Məşəd Vahidxan
Yazdıqları nəzm olsa da açamazlar bu meydanı.

Müəllimdir ki ondan dahilər heyrətə gəlmişdir
Bu gün min fəlsəfə ustadını saymaz da Xaqani.

Peyğəmbərin sağlığında yanında mədhə nə var ki,
On beş əsr sonra misal çəkmə "Sabit Həssanı"

Müqəddəslərdən al nümunəni sınaq dünyasıdır
Nə Şamı eyləmə məskən, nə olma Kufə mehmanı.

Tarı qonağı adıyla özləri çağırıb mehman
Kəsəllər başuvu daldan edəllər qanə-qəltanı.

Bütün dünya baş əymişdi, yetmiş iki şəhid oldu
Bax bir nəzər sal tarixə, tanı dost ilə düşmanı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Diz üstə əyləşib, mənlə, diz-dizə gəlginən cəngə
Özünü yoxla insafla, başından at bu sövdanı.

Nə fərqi söz oğurladın, ya qafiyə başqasından
Adın qaldı söz oğrusu, rüsvay eylədin ünvanı.

Hərə öz əqlinin meydanını bənzətməz nəhəngə
Mənəm, mənəm deyən şəxsə heç kimsə açmaz
dərbanı.

Hamı özün gözəl, göyçək, ağıllı həm böyük sanır
Hərənin vardır yalnız öz istedadının meydanı.

Hərənin xasiyyətincə, əqlincə olar hünəri
Adlandırma özün-özünü dahi, bax gör hər yanı.

Sınaq dünyasıdır keç bəndədən bəs həqqə vəl
həqqün
Nə taparsan özündən razı salmason yaradanı.

Nə qədri ustad olsa möminlər düzlərdən olmuşdur
"Dad ərəstun əlindən!" – söyləmiş onun da rəhbanı.

Düşünmə şübhə ilə baxginan şeytan da ustaddır
Çalış şeytanların sən olma şagirdi, aton canı.

Yazdıqlarında şairlər oynar bülbülnən, gül ilən
Yazallar çoxlu əsərlər vəsf eyləməzlər Sübhanı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Verib başdan-başa rövnəq edəllər bir-birin tərif
Sevib bu fani dünyanı, yada salmazlar üqbanı.

Ziba xanım-ərdəbili, qəmər Bəyim Şeyda-Şuşa
Əli Ağa Vahid bu yanda qəzəl yazdı: - "Ağam canı"

Ya bir-birin verib həcvə, bəyənməzlər edib təhqir
Açıb faş eyləyəllər bir-birindən sirri, nöqsanı.

Həvəslə kəsb edər bəzi ruzi –zinadan
Halal zəhmətlə mömin qalsa da ac inciməz canı.

Öyrənməz oynayan nərdi, uduzar öz rəqibinə
Özün vurmaz, alıb balta durub döyər nərdtaxtanı.

Baçarmaz istifadə öz silahından olar məğlub
Hirsindən vurub sındırar nizəsin, qılınc, qalxanı.

Bu dastanda hikmətləri özüm şahmatnı yığdım ki,
Anlayan feyziyyab olsun, çəkmə məclisə nadanı.

Üç yüz altmış altı beyt yazdım, yeddi yüz otuz iki sətr,
Bir il zikr eyləsin, hər beytimi bir gün dəbistanı.

Hər yerdə, hər mahalda bir-birə olub şər deyənlər
Amma heç olmayıb şirvan şərrindən yazıb, şərvanı.

Nütfəsi şərlən tutulan kəslər hər şeydən şər tapar
Rəbbimiz Allaha da onlar çox tapıllar nöqsanı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dahi Xaqani, ya Nəsimi ya yazıq Səyyid Əzim
Bu xalqa neyləmişdi oldular fitvalar qurbanı.

Bütün imkanlılar öz xeyrinə çalışdı ömründə
Düşünmədilər bir gün tərk edəcəklər bu dünyanı.

Xeyir versin insanlara rəhmət qazansın iz qalsın
Götürsünlər nümunə ondan, həm sevsin hər insanı.

Bacarmadı bir insan ki, bütün dünyada sülh olsun
Hamı Allaha bağlansın yaşatsın dini İslamı.

Ona qadir olan şəxsin zühurun gözləyir aləm
Xudadan iltimasımdır gəlib eyləsin səhmanı.

Hanı Sahib-Zamandan qeyri bir adil olan şəxs ki,
Yığıb millətləri birləşdirə bilsin bu dünyanı.

Odur məzlumlar, möminlər gecə-gündüz duva eylər
Durublar intizarında hamı gözlər gündoğanı.

Mənim də intizarım var vətənim, millətim üçün
Gecə, gündüz haraya səslərəm Sahib-əz-Zəmanı.

Mənim dərdim vətən dərdi, millət dərdi və birlikdir
Bütün dünyada sülh olsun qırmasın insan insanı.

O qədr millətim qırılmış, əldən torpaqlarım getmiş
Otursan ağlamağa min ömür çatmaz o ney sanı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bizə düşmən olan kafir kor olsun, bu əraziylə
Təbriz, Kərkük, Göyçə, Dərbənd tanısın
Azərbaycanı.

Hərə bir bürcə bağlanmış mənə bəxş eyləmiş Allah
Həmişə cəngə hazır əldə ox tutmuş Oxatanı.

Tapılsaydı mənə kamil əzəldən dərs verən ustad
Qoyardım nəzmimin hikmətinə heyran bu dünyanı.

Məni axtarsa hər kim bilsin ünvanım edim bəyan
Hacıqabul rayonunda kənd Qubalı Baloğlanı.

Şirvanlıyam, Şirvaniyəm aləm belə tanımışdır,
Mömin, Kərbəlayi, Şair, Molla, Məşəd Vahidxanı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

QƏZƏLLƏR

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

EDƏR

Bilmənəm mən, bu nə qəmdir ki, məni viran edər.
Əqlimi başdan alıb, o gündən pərişan edər.

Sözüm-söhbətim mənim, həm şəhərim kəndim mənim,
Şəkkərim-qəndim mənim, gündüzümü axşam edər.

Gah küsər, gah dalaşar, gözdən qaçar söz axtarar,
Mübtəlayi qəm idim o yenə pərişan edər.

Gah gülər, gah barışar ilham gələr həddən ziya,
Şirin-şirin danışıb könlüm bir an aram edər.

O deyilsə əmrə talib, demə dön min canə bax,
Cümlə gözəlliklərimiz ol şuxidə cövlan edər.

Uzun müddət mən gəzib hicrində dövlət bulmuşam,
Güman var ki, vüsalın bir gün onu viran edər.

Neçə yol öldürsə də mən arxayınam eşqinə
Qadirdir dirildərək Məşədi Vahidxan edər.

SANMIŞAM

Mən səni "Qalu-Bəla"-dən könlə həmdəm sanmışam,
Hər səni görəndə şair könlümdə qəm sanmışam.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sənincin çox yanmışıq könlüm ilə pünhan-pünhan
Həsrətin çox çəkmişəm, ilhamı neydən sanmışam.

Bu gözəlliyində sən huri misal, məleykə ya?
Yer üzündə yoxdu tay, enibdi göydən sanmışam.

Hər baxanda bil ki, öldürürsən ey şux sən məni
Eşq yolunda bilmirdim ki, ölməyə asanmışam.

Böylə bir halidən sonra eşqə düşsən qəm yemə,
Sən qızıl gül budağı, Vahidxan mən bülbül quşam.

HİLALİNƏ

Könlümü çoxdan vermişəm qaşlarının hilalinə,
Bir belə nazlı dilbərin sürməsi nə, hilali nə.

Xilqətdə təksən ay gözəl, tək-tək gözəl var sən kimi,
Mənim tək sərraf aşiqlər yetişəllər vüsalinə.

Dönmərəm bu düz yolumdan Nəsimi tək də
soysalar,
Sevgi azaddır de məni doğraya nə, soyalı nə.

Bica deyildi ey sənəm onda Nəsimi yazdı ki,
"Kim nə bilər bu könlümün fikri nədir xəyalı nə".

Baxma kimsənin sözünə, açma bir kəsə sirrini,
Yetişməyək gözəl yarım fitnəkarın vəbalinə.

Büsbütün varlığım ilə mən hər gün qonağam sənə,
Eylə qonaq Vahidxanı eşqimizin vüsalinə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

YARİNƏ

Sevgilim qismət olur bir bax vüsalin yarinə,
Açmışam mən sinəmi şövqinən eşqin narinə.

Sirrim gizli saxlardım bu ildən oldu aşikar,
Çıxaydım öz yarımla öz yarımın gülzarinə.

Təkcə eşqin təsirindən gəlmir ilhamım, məni
Ruhdan salma dilbərim bir dön bax nəğməkarinə.

Sən soruşdun sevgilim açdım sirrimin bir qismin,
Sənsə bir söz demədin şeriyyət iftixarinə.

Anamla özün üçün dur gəl sən qurban kəs məni,
Əgər əlin gələrsə kəsməyə növbaharinə.

Çox ölkələr gəzmişəm, amma heç biri tay olmaz
Sevimli Vətənimiz gözəl Azərbaycanımə.

Min yol qurban demişəm canana şirin canımı,
Min yol da qurban olsun Vahidxan öz nigarinə.

AŞİQƏM

Aşiqəm meylim mənim öz nazlı cananımdadır,
Bu gün tələsmə könül canan mənim yanımdadır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Cümlə aşiqlər deyər – əlim çatmaz, ünüm yetməz,
Mən elə bir aşiqəm canan öz imkanımdadır.

Vermişəm canı qurban ismi bəlli sultanimə,
İstəsə etsin çarə, dərmanım sultanımdadır.

Yaxmasın, yandırmasın, dondurmasın da qəlbimi,
Öylə zənn edər birdən, çarəsiz meydanımdadır.

Qızı çox yerdən istərlər, canan çox lovğalanmasın,
Vahidxan, bir hay vursam, qızlar nigahbanımdadır.

NƏ İŞİN VAR

Sən ləblərini ver mənə ey yar, nə işin var.
Onlarla nə cür eylərəm rəftar, nə işin var.

Sən könlünü ver, et özünü eşqin əsiri,
Mən isə nə cür ollam kiriftar, nə işin var.

Şux məmələrin döysə məni, əsla qarışma,
Ləzzət al özün, mən olum xunbar, nə işin var.

Min yol əzəsən, xar edəsən, eylərəm qəbul,
Amma ayıq ol gülməsin əğyar, nə işin var.

Şux məmələri alma kimi dişləyib hər gün,
Xurma tək sorub, ya yeyəcəm nar, nə işin var.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sən aç yaxanı cahi-cəlal hamsı görünsün,
Məcnun olacam ya da ki huşyar, nə işin var.

Vahidxan, edirsən belə əcr ilə səvabı,
Allah mənə inşallah olar yar, nə işin var.

PƏNAHIM VAR

Allah, sənin xaruqələrində tamahım var
Bir yox desən aləmi yıxan odlu ahım var.

Bəs vurğun edibsə məni xaruqələr Allah
Bir eylə bəyan burda mənim nə günahım var.

Xaruqələrin üz gözümü azmı döyüllər
Sən harayçı ol ki, bilələr dadi xahım var.

Rast ilə Humayun, Şüştər-i, Şur-a yetirdi
Şirazla, Segah – canlar alan Çarigahım var.

Hamsın desəm olmaz yazıram şerü, qəzəllər
Dur gəl qulaq as xırdala gör nə mətahım var.
Məşhədlə, Kərbəlanı gedib etdim ziyarət
Burda da gözəl PirHüseyn Xanəgahım var.

Bu ümmid ilə puli-siratdan keçəcəm mən
Allah kimi Vahidxan böyük bir pənahım var.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

NƏ ÜÇÜNDÜR

Könlüm səni istər a gözəl can, nə üçündür?
Zlfün tökülüb üzdə pərişan, nə üçündür?

Qaldım yuxusuz, gəlmədin ta sübhə qədər sən,
Atdım yerə ki, təndə olan can, nə üçündür?

Yüz yol çağırıb ümüdümü qırmadım əsla,
Düz qəlbimə bəs olmamaq mehman, nə üçündür?

Arifsən a gül hiss edirəm işvələrindən,
Olmadın mənlə söylə kama-kan, nə üçündür?

Quş dili bilirsən desəm, sən etmə məzəmmət,
Bəlkə deyərsən, onda Süleyman nə üçündür?

Mərmər sinənə eyləməyə diqqət utandım,
Şux məmələri etmədim səhman, nə üçündür?

Hər dəfə sənin ləblərini busə edəndə,
Çöhrən qızarıb tutmaq üzün yan, nə üçündür?

Bağ-bostanını, ləblərini, gizlədin ey yar,
Neyçün yaranıb, Məşəd Vahidxan nə üçündür?
Neyçün yaranıb onda Vahidxan nə üçündür?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

OXUYUR

Ləblərin indi gözəl, bil mənə meydan oxuyur,
Üstümə hücum çəkir gah da kənardan oxuyur.

Qaş gözün kipriyin ilə hamısın güzüb səfə,
Özü sərkərdə olub sağ məmən fərman oxuyur.

Elə bir bəndə salır ki, məni aciz qalıram,
Elə bil Koroğludur, Rüstəmi-dəstan oxuyur.

Müxtəsər təbi rəvan ilə yazıb çatdım ona,
Hamısı oldu əsir əlimdə, pünhan oxuyur.

Baxıram şəm işığında büsbütün varlığına,
Allahın qüdrətinin həddinə heyran, oxuyur.

Nə gözəl xəlq eyləyibdir oböyük Tanrı səni,
Hüsnünə şer yazıb Məşədi Vahidxan oxuyur.

TAPMARAM

Ay qız mən səndən gözəl bir can axtarsam
tapmaram,
Könlümə külli sadiq mehman axtarsam tapmaram.

Yarım, səni sevəli dostlar hamı düşman olub,
İndi həmin dostlardan səhman axtarsam,
tapmaram.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sanma ki, dostlar getdi yoxdur daha arxam mənim,
Getsin, o dostlardan pis düşman axtarsam tapmaram.

Mən də sadiqəm a gül, var sadiq dostlarım mənim,
Ceyranım gül dostlardan cahan axtarsam tapmaram.

Məşədi Vahidxan sənin eşqində şövqünən yazır
Başqa dilbərçin belə ilham axtarsam tapmaram.

SƏFƏRİNDƏN

Gözüm aydın qayıdıb sevgili yarım səfərindən,
Mənə vəsl müjdə verib nazlı nigarım səfərindən.

Gedibdi qarü-boran, şaxta-dumanım hamı birdən,
Qayıdıb tazə gülüm, bağü-baharım səfərindən.

Nolaydı qoşa gedib, hər yanı biz seyran edib,
Qayıdıb qoşa gələydik a nübarım səfərindən.

Gəlibdir bu gəlişinlə bil həyatım, varlığım
Sənətim, söz-söhbətim, dildə şüarım səfərindən.

Təm-təraqlı, bər-bəzəkli, sazlı-tarlı bir toyun
Olaydıq toy bəyləri, gəlib diyarın səfərindən.

Aylarla Məşədi Vahidxan həsrətin çəkmişəm,
Gəlib həsrət qoymayıb şənim vüqarım səfərindən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

NAZ EDİR MƏNƏ

Bilmirəm nə töhfədir, cananım naz edir mənə,
Azaltmır hey artırıb naz üstə naz edir mənə.

Yenə ilham üstəyəm dəftər qələm əlimdədir,
Amma ki, nədən yazım, ilhamım naz edir mənə.

Hamı birdən dəyişib arxam, qarşım sağım, solum,
Dost-tanış,qohum qardaş,hər yanım naz edir mənə.

Sənsən bəxtiyarlığım, yar külli ixtiyarlığım,
Düzgün ilqarım, əhdim, peymanım naz edir mənə.

Gözələ heç kim qıymaz, görüb insaflı ovçuyam,
Maralım, cühür quzum, ceyranım naz edir mənə.

Vətənin ov yerlərin yar ilə çıxdım gəzməyə,
Dağ kəkliyim, Turacım, tərlanım naz edir mənə.

Heç umub küsmə Məşəd Vahidxan,yadlar bir yana,
Gör iş nə yerdədir ki, öz canım naz edir mənə.

GÖRMÜŞƏM

Yarıma könül verəndən mehribanlıq görmüşəm,
Qəm çəkən biganələrdən canfəşanlıq görmüşəm.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hiss etdim ki, vurğunusan sən də Azərbaycanın,
Mən də el vurğunuyam ki, hər cavanlıq görmüşəm.

Vətənimçün hər zaman mən hazıram hər cəbhədə,
Olmuşam xalqın qulu həmişə xanlıq görmüşəm.

Yarım deyir – iblislər çox gəzir ehtiyatlı ol,
Qorxmuram, qorxum da yoxdur, hər ziyanlıq
görmüşəm.

Hər kəsin qisməti yarım öz ürəyincə olur,
Paxılın gül baxçasın mən boş samanlıq görmüşəm.

Deyillər aşiqləri çoxdur bu mahiparənin,
Yarın kuyində yeri tək Vahidxanlıq görmüşəm.

NECƏ HEYRAN

Bilsən gözəlim mən sənə oldum necə heyran,
Özüm özünə, canım isə canına qurban.

Qurban verərəm canımı mən etsə kifayət,
Tərifləməyə sevgilimi məndəki ilham.

Külli ciyərim, külli canım, külli həyatım,
Ollam sənə qurban, sənə qurban, sənə qurban.

Min dəfə məni öldürəsən gündə əzizim,
Sönməz ürəyimdə sənə sevgi, sənə ilham.

Məşəd Vahidxana aşiq olan gündən ay gözəl,
Taledən tək yarandın şair könlümə sultan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

NECƏ CANAN

Çəkdin sinəmə hicrini üst-üst necə canan,
Oldu baharım qış, gündüzüm sərt gecə canan.

Sanaram dünyada xoşbəxt özümü ki, yar üçün,
Mən dolduram eşq piyaləsini bir-bir içə canan.

Pisləyirlər fitnəkarlar nazənin ceyranımı
Ölərəm, qəbirdə yannam, əkər məndən keçə canan.

Yar xəbər göndərib Vahidxana ki, yanına gəlsin,
Gəlsin, necə gəlsin, necə gəlsin, necə canan?

AXŞAMIN XEYİR

İlhamlanır könül yenə can, axşamın xeyir,
Həsrət çəkdi sənə cümlə-cahan, axşamın xeyir.

Məhv eyləmə gəl kainatı rəhm elə yarım,
Gərdişi cahan, dövri-zaman, axşamın xeyir.

Aləmə car etmədən sevdin sən məni, mən səni,
Hüsnündə heyran olub buldum məkan, axşamın
xeyir.

Məni görcək yenə yarım min şirin dillə dedi:
Xoş gəlmisən sən bizə, Vahidxan axşamın xeyir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

MEHRİBAN-MEHRİBAN

Bal busə verdi mənə yarım mehriban-mehriban.
Başın qoydu sinəmə yarım mehriban-mehriban.

Dedim tələsib getmə söhbət edək sübhə kimi,
Qorxuram dedi mənə yarım mehriban-mehriban.

Dedim ki, ay sevgilim eşqində xürrəm olmuşam,
Dedi yaxın gəl mənə yarım mehriban-mehriban.

Soruşdum gül yasdığın sevdalı başımın, dedi –
Gətir mərmər sinəmə yarım mehriban-mehriban.

Vahidxan tək vallahi aşiq tapmazsan sevgilim,
Vurulmuşam mən sənə yarım mehriban-mehriban.

MƏNƏ DE

Nə sözün var gözəlim, sevgili canan, mənə de,
Saxlayıb etməginən könlümü xəndan, mənə de.

Başqasilə demə göndərmə xəbər, söz yayılar,
Nə də ki gizləmə, gəl sirrini pünhan, mənə de.

Bilirəm xətrinə dəymiş bəzi şerü-qəzəlim,
Hansıdır, şerimlə ollam sənə qurban, mənə de.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Belə mahirliyinin sirri nədir mahi-tuba,
Saçı Leyla, gözü şəhla, a gül əndam, mənə de.

Bu gözəlliklərinin hamısı mövcuddur olub,
Bəs nə cəzb eylədi oldum sənə heyran, mənə de.

Müsafirəm, gedirəm Kərbəla ziyarətinə,
Ürəkdə mətləbuvi eylərəm bəyan, mənə de.

Dəymə dünya malına qoy hərə yığsın payını
Ovçuluğu, şeiri, eşqi Vahidxan mənə de.

MƏLAHƏTDƏN

Bu gözəlliklə nə xoşsan gülüm məlahətdən,
Əsirgəməyib taleh sənə o səadətdən.

Can alır qəmzələrin eyləmə qan insafa gəl,
Demə ümman yaranıb könlümdə sədaqətdən.

Çox cəfa eyləmə yaxdın məni öldürdün axır
Yoxdu bir dərdimə dərman elmi təbabətdən.

Yanıram odlara ay qız vüsal sorağında
Ki sanma nəql edirəm mən sənə rəvayətdən.

Sevməyirsən demisən indi məni nazlı nigar
Soruşuram səbəbin ey üzü gül nə babətdən?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şərəfdir ölmək yolunda sənin tək cananın,
Ki bu da sayılacaq Kərəm tək bir şücaətdən.

Deməyin yarə ki Vahidxana cövr eyləməsin,
Qoy ölüm bəlkə canım rahət ola rahətdən.

NAZLI GÖZƏL

Könlümü aldı əlimdən yenə bir nazlı gözəl,
Yazıram mən o qara gözlərə bir nazlı qəzəl.

Heç adət etməmişəm içməyə mey, amma bunu
Badədir ağam verib iç ey könül bir də söz al.

Mən baxıb öz butama şurilə ilham alıram,
Bilmirəm canan nədən mən tərəfə etmir nəzər.

Məskənim, ana yurdum Qubalı-Baloğlandı mənim,
Xanəgah PirHüseyn versin şəfa sən də düzəl.

Vətənim Azərbaycanıma bel bağlamışam,
Xalqımız qalxsa əgər düşməninin bağrın əzər.

Vətənin torpaqların komandirlər satmasalar,
Əsgərlər şura gəlib düşmənləri biçib tökər.

Vahidxan nə batmısan qəm könlündə sevin ki, sən
Vətənində var belə şairanə nazlı gözəl.

Fevral, 1993, Murovdağ

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

SƏN DİNƏSƏN

Könlüm ol dəm xoş olar ey gözəlim sən dinəsən,
Çoxdandır müştaqiyəm bir busə gəl ver mənə sən.

Bir yaxın gəl dinlə ey yar könlümün arzusunu,
İki növrəstə cavan seyrə çıxaydı mənlə-sən.

Məşuq öz aşiqinə hər cür cəfa çəkdirsə də,
Tapılmaz dünya üzündə öz cananından küsən.

Deyirsən, ey gözəlim, vaxtdır keçir tap bir əlac,
Ey bəxtimin növbarı, şux dilbərim bəs sən nəsən.

Gözəlim anla indi mən deyirəm rəqibinə,
Məşədi Vahidxan olar şad sən ürəkdən güləsən.

ÇƏKİRƏM

Mən verib könlümü bir dilbərə həsrət çəkirəm,
İtirmişəm vüsalı oturmuşam dərd çəkirəm.

Qalmışam, hicridən lap az qalıb canım üzülə,
Hər görən eylə bilir ki, eyşi işrət çəkirəm.

Verərəm canımı qurban yar yolunda hər zaman,
Sanmayın ki, acizəm kimdənsə minnət çəkirəm.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hər dəfə bivəfa yar çıxdı yolum üstə mənim,
Artıq adət etmişəm həmişə zillət çəkirəm.

Demərəm bir kəsə sirrim ürəyim partlasa da,
Dost üçün mən həmişə qüssəni xəlvət çəkirəm.

Bu qədər dərd çəkirəm yarım elə zənn eləyir,
Ki bu qüssəni ona borcluyam əlbət çəkirəm.

Vahidxan öldürəcək biməfalar eşqi səni
Qürrələnmə ki, yar üçün mən dərdi mərd çəkirəm.

SƏNİ GÖRDÜM

Yatdım yuxuda sevgili canan səni gördüm,
Bilməm nə isə hali pərişan səni gördüm.

Sordum ki, - niyə məni viran etmədəsən sən?
Sən söyləmədin var idi noqsan, səni gördüm.

İndi bircə gümanımız var sizə
Mümkün olsa çəkün bir əncam bizə.

"Rəndə" qardaş qıl bizə də bir nəzər
Axırı ki, eylə işi müxtəsər.
İtiləyib dişini bir yol bizə gəl
Rəndələ poçtalyonu baxsın sözə
Alaq hər gün qəzetimizi təp-təzə
Bu səbəbdən şikayətmiz var sizə.

1971

MƏN BAĞLIYAM ƏMƏKLƏ

Axşama az qalıbdır,
İşdən qayıdıram mən.
Keçmiş məktəb yoldaşım,
Mənə rast gəlir bu dəm.
Salam verirəm ona
Görüşmək istəyirəm.
Deyir çəkil o yana

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Səni xoşlamıram mən.
Bu nədir ayə sənin,
Qabarlıdır əllərin.
Üstün başın mazutlu,
Pal paltarın mazutlu
Nə işləməkdir belə
Sən öl mən işləmərəm.
Belə mazut işində
Heç çörək də yemərəm.
Üst başım bax gör necə
Səliqəyə salınıb
Paltarlarım elə bil,
Lap təzəcə alınıb.
Amma səninkinə bax
Gör nə hala düşübdür.
Görən elə bilər ki,
Lap mazuta düşübdür.
Mən dedim – əziz dostum
Var mənim də paltarım.
Tər-təmiz, gözəl-gözəl
Budur iş paltarlarım.
Zəhmətkeş, qabarlı əl.
Nə olsun ki, əllərim
Çəkmələrim mazutlu.
Pal-paltarım mazutlu
Ürəyim ki a dostum
Mazutlu deyil mənim.
Bax mazutludur üstüm

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qəlbim təmizdir mənim.
Sənin isə əzizim
Üst başın çox təmizdir.
Paltarın lap təp-təzə.
Ürəyin mazutludur
Düzü vurmurdum üzə.
Mən təmiz ürəyimlə,
Qabarlı əllərimlə,
Bağlanmışam əməyə.
Sən belə fikirlərlə
Səhv edirsən a dostum.
Bil ki lap gəncliyimdən
Mən bağlıyam əməklə,
Fəxr edirəm əməklə.

1972

ÇƏNƏ SÖHBƏTİ

Ağac dolu, meşə yolu, yamyaşıl meşə...
Çəmənlikdə boynu bükük yalqız bənövşə.
Bu gözəllik məndə yeni ilham oyatmış,
San təbiət öz əliylə rəsm yaratmış.
Sevgilimlə mən yanaşı çiyin-çiyinə
Dayanmışıq bu meşənin dalıb seyrinə.
İlham coşur, könül coşur, göz gülür yenə,
Sevgilimin dodağında söz gülür yenə.
Deyir: - bəsdir, sən yoruldun şeir deməkdən
Mənsə səni yorulmuram heç dinləməkdən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Görən sənin kimi belə yazan olubmu?
Hər yazdığın misran kimi şeir olubmu?
Düzü bunu düşünmürəm heç vəchlə mən
Ki, sənin tək yazan ola istəklə eldən
Axı sənin hər misranda yeni məna var.
Ayrı-ayrı hər şeirində yeni dünya var.
- Bu sıx, uca ağacların arasında biz,
Gəzinirik heç kim yoxdur təkcə ikimiz.
Yenə eşqim arzuları meydana gəlir,
Eşqim ilə şair könlüm ilhama gəlir.
Mən öpürəm sevgilimin al yanağından,
Və sakitcə bu söz çıxır dodaqlarımdan:
Bəli, olub mənim kimi yazan a canan,
O şair ki, ondan aldım ilk dəfə ilham.
Bax şəklinə qəlbimdədir o şeirin kanı,
Səməd Vurğun, xalq şairi, şeir sultanı.
Çoxdur gözəl-gözəl yazan şairlərimiz,
Sözlərində əks olunmuş hər dəqiqəmiz.
Onlar böyük yer tutmuşdur söz zirvəsində,
Bizsə təzə dolaşırıq gül meşəsində.
Ondan əvvəl yazanları demirəm, bizim
Azəri yurdunun şən ölkəmizin.
O qədər yazır ki, şən övladları
Şairlər diyarı çağrılır adı.
Şeiriyyət bir günəşdirsə,
Mən ondan bir qığılcımam.
Şeiriyyət kainatdırsa,
Mən ondan kiçicik bir quşam.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şeiriyyət bir dənizdirsə,
Mən damlayam ləpələrdə.
Şeirim sənə əzizdirsə,
Sevilərəm vaxt gələr də.
Bil ki, məndən artıq yazan
Vardır dilbər, nazlı canan.
Gedək gülüm artıq gecdir
Gəzintinin vaxtı keçir.
Söyləyirəm şeir mən də,
Səni gəlin gətirəndə.

1967

OLDU

O illər İrak və Afrikada Misirin səhraları çölləri SSRİ-nin polkları ilə, yəni hərbi hissələri ilə dolu idi. Hərbi hissələri o ölkələrə ya hərbi gəmilərlə, ya təyyarələrlə aparırdılar. Bizim Kalininqradın (Genisberq) Baltiysk şəhərindəki 06017 №-li polkumuzu hərbi gəmilərə yığıb (SDK və BDK) İraka aparmışdılar. Bizim polk 180 gün yəni ay tamam o torpaqlarda o biri hərbi hissələr kimi səyyari xidmətdə oldu. Hansı dövlətin ərazisində olduqsa, bizə onların pulundan verib şəhərə, kəndə uvalneniyə buraxırdılar. Amma tək yox, azı 10-15 nəfər və yanımızda tərcüməçi olmaq şərtilə. Xatirə kimi əşyalar almağa icazə verirdilər. Amma yemək ya su, ya çay alıb içməyə icazə yox idi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Afrika qitəsində Misirin paytaxtı Qahirə şəhərində Bizim Lenin Komsomolunun 50 illiyi münasibətilə Sovet əsgərləri ilə Misir əsgərlərinin dostluq yığıncağı keçirilirdi. Hər iki ölkənin əsgərləri yığıncağın sonunda bədii saatda hərə bacarığına görə çalmalı, oxumalı idilər. Mən "Katyuşa" mahnısını oxumalı idim. Komandirdən icazə alıb katyuşa musiqisi ilə "Azərbaycan" mahnısını oxudum (özün kimi vüqarlıdır uca dağların) və bəlkə də qara millət olduğuma görə gözlənilməz dərəcədə alqışlarla qarşılandı. Sevincimdən yığıncaqdan sonra orada bu şeiri yazdım. 1968, oktyabr. Amma yığıncaqdan gələndən sonra naçalnik ştab, mayor Marçenko mənə töhmət elan elədi və dedi "Tı toji musalmanin".

Yenə vətən məni aldı qoynuna
Yenə vətən mənim həmdəmim oldu
Bilməm mən sığındım vətən qoynuna
Yoxsa vətən mənim həmdəmim oldu.

O gündən ki, düşdüm aralı səndən
Çox həsrət çəkirəm özüm özümdən
Vətənim, mən səni sevdiyim gündən
Bu yolda sevincim həm qəmim oldu.

Üç qitənin gəzdim xeyli hissəsin
Hamsında vüqarla ucaldı səsim
Bir də ona görə var ki həvəsim
Azərbaycan mənim vətənim oldu.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məşədi Vahidxan sənindi novraq
Fürsət keçsə olmaz günahı yumaq
Qahirədə "Azərbaycan" oxumaq
Həm eşqim, həm zilim, həm bəmim oldu.

Oktyabr 1968, Qahirə (Mər)

AZƏRBAYCANI SEVDİM

Qarşımda tarixi Azərbaycanın
Yanıram oduna, mənə inanın.
Beş yol getdim Qazıməmməd, Əlbayram
Mənə izn olmadı cəbhəyə inan.

Dedilər ki dayı əlli yaşın var
Nə məqsəd güdürsən olub tələbkar
Yəqin bir mənfəət güdürsən ordan
Ya bezmisən ailə-uşaqlarından.

Dedim mən hərbidə rəhbər olmuşam
İran körfəzində üzən maşında
İrak çöllərini mən dolaşmışam
Yerə od püskürən isti aylarda.

Oradan qırmızı dənizə doğru
Üç ölkə keçmişəm gəlib Ciddə-yə.
Qırmızı dənizi üzüb keçmişəm
Misirə, Qahirə adlı şəhərə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Orada iclasda çıxış etmişəm
Öz millətim üçün risqə getmişəm
Orda oxumuşam "Azərbaycan"ı
Qızıl vətənimə deyin tay hanı.

Qırmızı dənizdə üzəndə baxdım
Min doqquz yüz otuz iki uzunu
Eni isə üç yüz beş kilometr
Dərinliyin unutmuşam bir azca.

Deyəsən iki min səkkiz yüz metr
Dörd tərəfi delfinlərlə doludur.
Suveyş onun çox gözəl su yoludur
Suveyş kanalıyla üzdük yuxarı
Uzunluğu yüz yetmiş üç km oldu
Eni yüzdən çoxdu, dəqiq ölçmədim
Bizim Kür qədərdi az fərq olardı
İki tərcüməçi var idi bizdə
Bizə məlumatı onlar verirdi
Hər ikisi rus dili bilirdi onlar
Biri Əkbər birisi Ömər idi
Port-Said şəhrində gəlib dayandıq
Onunla üzbəüz Port Fuad idi
Misirin gəmisi hər gün nizamla
Suveyş kanalını təmizləyirdi.
Bizim polk birinci irəli getdi
Hərbi hissə nol altımış on yeddi.
Rus dilində daha yaxşı anlarsız
Voyennıy çast nol şidisat semnadsat

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Birinci batalyon, birinci rota
Birinci vzvod BTR-dəydim
Həm mexanik idim üzən maşında
Əla atıcıydım, həm sürücüydüm
Oradan qalxaraq dəstəbədəstə
Suveyş, Aralığı, Egeyi keçdik
Dardanel, Mərmərə, Bosfor – yetişdik
İstanbulda iki sutka dayandıq
Min doqquz yüz altımış səkkiz idi
Suyla Çex tərəfə biz düşdük yola
Oradan qayıtdıq Sevostopola
Artıq həll olmuşdu orda məsələ
Mənim millətimin qəhrəman oğlu
İndi burda bizlə verib əl-ələ
Dünya ölkələri, Heydər Əliyev
Bütün yer üzünə Sərvər Əliyev.
Gəlib vətənimə o oldu dayaq
On dörd il dalbadal keçici bayraq
Ünvanı fəxrlə heyrətlə dolu
Mənim millətimin qəhrəman oğlu
Gələn kimi yenə bir ad eylədi
Atəşdən, milləti azad eylədi
Bütün ölkələrində bu dünyanın
Qaldırdı bayrağın Azərbaycanın.
Xalqıyçın sərf edib ömrünü canı
Tanıtdı dünyaya Azərbaycanı.
İgid qəhrəmandır həm böyük dahi
Onun dayağıdır böyük İlahi
Onun da qədrini bilməyir millət

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Vaxtbevaxt çalışır çəkir əziyyət.
Müxtəsər olmadı icazə mənə
Şitabla getməyə cəbhə xəttinə.
Dolay yolla millətini soyanlar
Maddi maraqla rəhbər oldular.
Vətən üçün candan, başdan keçənlər
Arxa dolaylarda giriftar qaldı
Vətənçin, millətçin alışdı yandı
Əzəldən belədir dünya qərarı
Vətənçin, millətçin, yurduyçun yanan
Ömrü boyu çəkər dərdi azarı.

***

Şeyx Nizamiyə nə hörmət oldu
Səyyid Əzim eldən didərgin oldu
Əfsələddin, Nəsimi şəhid kimi
Vətən oğlu oxu artır dərdimi
İgidlərmiz hücum çəkdi baxmadan
Öz millətmiz çoxun vurdu arxadan.
Müxtəsər olmadı icazə mənə
Şitabla getməyə cəbhə xəttinə.

ACI HƏSRƏT

Sərkərdəlik mənə verilsə bir dəm
Məşədi Vahidxan keçərəm sərdən
Düşmən başın dabanımla əzərəm
Vətən, torpaq, millət dədəsiyəm mən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

* * *

Cənnət Qarabağla, Laçın, Kəlbəcər
Göyçə Gölü, Zəngəzuru verdilər
Murov boyu enib gəldi Ağdama
Hara qaldı haraları verdilər.

* * *

Yəhərcədən endim Soyuq bulağa
Kəlləqopardandı beyni dondurur
Xaltan İstisuyu, Qaya altı bulaq
Hikmətdi böyrəkdə daşı yondurur.

* * *

Süleymanlı, Qayalıca, Zəhərdağ,
Zayçik, Əzrayildərə, Ceyranbulaq
Qarğabazar, Keçiqaya, Kaftaran
Qoduqqıran, Deşikli daş, Şəkixan.

* * *

Ceyrankeçməz keçilməz arzular tək
Daşıb gedər aynasinə Xəzərə
Saxlar sinəsində Qobustan qaya
Ulu tariximi gəlməz nəzərə.

* * *

Qarakosa, Qalmas dağı, Kürsəngi,
Bəndovandan, Turağaydağ görünür
Babadağdan Xəzərə çatmaq istər
Azca qalıb Pirsaatçay sürünür.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

* * *

Kür, Arazla qovuşaraq Xəzərə
Türkiyədən salam-duva gətirir
Türk mənidir, mən türkünəm elə bil
İki ürək bir sinədə döyünür.

* * *

Möhkəm yapış vətənini qucaqla
Düşmən görcək peşkəş verrik qucaqla
İstəyənin bir üzü qara isə
Verməyənin iki üzü də qara.

* * *

Soltan Heydər, Gəlinqaya, Dəlidağ,
Kəlbəcər xəzinəm, Tərtər, Xaçınçay
Gəlin sexdə düzəldəyin oyuncaq
Maketləri bəsimizdi bir qaray.

* * *

Məşədi Vahidxan qoç oğlu qoçdu
Erməni hiyləsi mənimçün loşdu
İgidlərmiz çoxdu əmrimiz boşdu
Düşmənin yerin şum çəkəsiyəm mən.

04.04.1993

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

HEYDƏR ƏLİYEVDİR

Türkiyə təyyarələrinin Azərbaycan səmalarında uçuşlarından ilhamlanaraq

Xalqa sevimli rəhbər – O Heydər Əliyevdir.
Dünya miqyaslı sərvər – O Heydər Əliyevdir.
Pəhləvan bir cəngavər – O Heydər Əliyevdir.
Xalqa günəşli günlər – O Heydər Əliyevdir.

Düşməni qoyan möhtac
Xalqına edən əlac
Millətinə qızıl tac
Düşmənə verməyən bac - O Heydər Əliyevdir.

Özünü fəda edən
Xalqını xilas edən
Ən doğru yolla gedən
Allah özü hifz edən - O Heydər Əliyevdir.

Düşmənləri dağlayan
Atəşkəsi saxlayan
Yenilməz dahi insan
Ən möhkəm təməl quran-O Heydər Əliyevdir.

Daim yaşar qəlblərdə
Ali igid sərkərdə
Gecə-gündüz səngərdə
Dincəlməyən illərlə - O Heydər Əliyevdir.
Çıxardan xalqın oddan

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ən ali baş komandan
Yaz Məşədi Vahidxan
Həqqən milli qəhrəman
O Heydər Əliyevdir, O Heydər Əliyevdir.

Bakı, 24.08.2001

HEYDƏR ƏLİYEVİN XATİRƏSİNƏ

Sənlə gəlməmişəm vidalaşmağa
Sənin görüşünə gəlmişəm, Heydər.
Ürək tab eyləməz vidalaşmağa
Sənin gəlişinə gəlmişəm, Heydər.

Sən Azərbaycana, xalqa baş əydin
Bu gün xalq əyilir sənin önündə
Hələ indən belə bizə gərəkdin
Sənlə bir olaydıq zəfər günündə.

Sən Azərbaycanın qızıl tacısan
Yer üzündə qızıl tac tək tanındın
Möhkəm təməl qurdun Azərbaycana
Ölkəmizi hər yanda tanıtdırdın.

Bütün xalqın qalxıb vida günündə
Azərbaycan boyda bir izdiham var
Sən xalqı daşıdın çiyinlərində
Xalq səni aparır gözləri ağlar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bütün Azərbaycan xalqı ağlayır
Axışırlar məzarının önünə
Çox-çox ölkələrin prezidentləri
Gəliblər sənin lə vida gününə.

Çiçəkdən, əklildən yer yoxdur daha
Hər gələn gül-çiçək, əklil gətirir
Məşədi Vahidxan qan-yaş içində
Sənə öz qəlbini hədiyyə edir.

Nə çiçək gətirsəm solub gedəndi
Göz yaşlarım sənə əklillərimdi
Sənin qızıl məzarının önündə
Qəlbimi qoyuram gül əvəzində.

15.12.2003, Bakı

HƏNGAM

Həngama bax, kar dedi ki, - səs gəlir
Kor da dedi – baxın odu gəlirlər.
Çolaq dedi – tələsin durun qaçaq
- Ayılacaq bu millət deyin haçaq?

Hamı baş qaldırıb çıxandan bəri
Ərəbşünas oldu, Farsşünas oldu.
"Şünas" kəlməsini yazıb alnına
Yaponşünas oldu, Çinşünas oldu.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Danışdı ingilis, fransız kimi
Dəm vurdu o tayda Amerikadan
Bilməm kimə deyim vətən dərdimi
Ya rəbb kömək olsun bizə yaradan.

Bilmədi öz tarixinin birində
Dindirdim danışdı urus dilində
Azərbaycan torpağında, elində
Urusşünas oldu, yüzşünas oldu.

Azərbaycanşünas tapa bilmədim
Vətənçin millətçin yanan görmədim
Məşədi Vahidxan çəkir bu dərdi
Məndən savay kimlər çəkir görmədim.

BƏRDƏ

Beşinci əsrə qədər Hərum idi qədim adın
Yüz mindən çox sakininlə uzun müddət paytaxt
oldun.

Sadə sözlə Ulularmız adını qoydu Bərdə
Həm də oldun bizə yaxın, bəridə.

Beşinci əsrə qədər indiki Bərdə-nin adı Hərüm idi.
Beşinci əsrdən bəri nədən irəli gəldisə Hərüm şəhəri
Bərdə adlandırıldı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

LAÇIN

Baxıb keçmişlərin qeyrətlərinə
Abdallar adını Laçın çağırdıq.
Koroğlular yurdun verdin yağıya
Biz də fərsiz-fərsiz durub baxırdıq.

1993

DƏRBƏND

Bab-Əl-Əbvab – deyə dad eyləyirdin
Dəmir qapı Dərbənd qoyduq adını.
Azəri dilində məşhuri cahan
Ahən sayaq yazdıq qədim adını.

DEYİŞMƏ

1960-1970-ci illər arası Şamaxıda Çaparidze küçəsi 16 nömrəli evdə yaşayan cəyirli Aşıq Baratı ətraf kəndlər kimi Hacıqabul rayonunun Qubalı Baloğlan kəndinə də toylara tez-tez gətirirdilər. O vaxtlar illərin birində onu bir toya gətirdilər. Gələndən sonra üç toyda dalbadal qaldı. Həmin üç toyun birində də Cəyirlinin Mirili tayfasından olan İmanqulu oğlu Gülbabanın toyu idi. Cəyirli kəndindən gəlib bizim kənddə yaşayan Aşıq Şamıl deyilən bir şəxslə də həmin toyda Aşıq Barat bir azca deyişdilər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Aşıq Barat eşitmişdi ki, bu Qubalı Baloğlan kəndində bir nəfər şeir yazır, amma tanımırdı. Ona görə də hər yada düşəndə soruşurdu və deyirdi ki, onu mənə tanıtdırın. Aşıq Barat 1966-cı ilin yayında Qubalı Baloğlan kəndinə Tağıyev Sabir Nağı oğlunun toyuna gəlir. Aşıqların istirahəti üçün qonşuda Qaraqız Fatimə adlı qarının evini ayırmışdılar. Yayın isti günləri idi. Hətta nəfəs almaq belə çətinləşirdi. Tez-tez yuyunmaq üçün, umuvalniki doldurmaq, dəsmal, sabun vermək, termosda hazır çay olmağı, iki dənə samovarın qaynar çay ilə hazır olmağı həmin kənd sakini 18 yaşına az qalmış Bağıyev Vahidxan Hüseynağa oğluna tapşırılmışdı ki, aşıqlara xidmət etsin. Aşıqlar üçün toy evindən yemək gətirməyi İmanqulu oğlu Babayev Ağabbaya tapşırmışdılar. Ağabba da Cəyirli kəndinin Mirili tayfasından Albabanın nəvəsidir ki, onlar uşaq vaxtlarında anası Xatun Bəyim arvadla köçüb gəlib bizim kənddə yaşamışlar. İmanqulunun arvadı XatunBəyim və oğlanları Ağabba ilə Gülbaba bir qızı da Xanbacı bizim kənddə yaşayıb. Hal-hazırda da Gülbaba ilə Ağabba sağ-dır, Ağabbanın indi 74 yaşı var. Bir qardaşları Cabbar da Cəyirlidə yaşayırdı.

Aşıq Baratın lap kök vaxtları idi. Tez-tez umivalnikdə yuyunmağına baxmayaraq istidən nəfəs ala bilmirdi. Evdə sazı az-az çalırdı ki, birdən sazın bir simi qırıldı. Çox təəssüfləndi ki, ehtiyat sim yoxdur, olsaydı dəyişərdim. Vahidxan Aşıq Baratdan neçə dəfə xahiş etdi ki, ver simi mən düzəldim çatacaq, özüm də tar çalanam başım çıxır. Aşıq Barat razı olmadı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu əsnada Ağabba yemək dolu qazança əlində otağa daxil oldu. danışığı eşidib–olmaya deyişirsüz –dedi. Aşıq Barat–Ay xalaoğlu bununla nə deyişmək, yenə də sənlə deyişmək olar–deyə cavab verdi.

Ağabba dedi – Xalaoğlu onda sən bu bacıoğlunu tanımırsan? Bu şeir yazandı ha, cavan olmağına baxma, onda da Şirvan havası var. O, Babadağın Ərzurumun, Qarabağın suyunu içir.

Aşıq Barat dedi – ay xalaoğlu, daha məni o qədər də avam sanma, Ərzurumun suyun harda içirsüz. Ağabba dedi ki, xalaoğlu bəs Arazla, Kürün suyun maşınla gətirirlər pulnan alıb içirik. Aşıq Barat, Vahidxan və Ağabba hər üçü gülüşdülər.

Ağabba yeməyi verib toy yerinə qayıtdı. Aşıq Barat Vahidxandan əhvalın, işin, vəziyyətin, təhsilin, təsərrüfatın xəbər alandan sonra soruşdu ki, sən şeir yazırsan? Vahidxan onun üçün bir neçə şeir söylədi. Aşıq baratın şeirlərdən xoşu gəldi və xahiş elədi ki, şeirlərini sat mənə. Aşıq nə qədər xahiş etdisə də Vahidxan şeirlərini satmağa razılıq vermədi.

Axşama xeyli qalırdı aşıq günorta nağılından qayıdıb təzəcə yuyunmuşdu. Vahidxanın könlünü ələ almaq istəyirdi dedi bala, indi ki, şeirlərini mənə satmadın neynək get toy yerindən mənim üçün beçə ətindən lüləkabab bişirtdir gətir. Vahidxan gedib sifarişi Ağabbaya deyəndə Ağabba zarafatı başa düşüb get, dedi

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sən öz işində ol. Aşığa de ki, Ağabba özü bişirtdirib gətirəcək. Vahidxan qayıdıb həmin sözü aşığa dedi. Bir az keçmiş Aşıq Barat dedi – bala, onda get mənim üçün toy yerindən camış qatığı gətir. Yayın o qızmar vaxtında günün istisində Vahidxan toy evinə camış qatığı üçün gedəndə Ağabba da toy evindən aşıq üçün yemək gətirəndə yolda qarşılaşdılar.

Ağabba əhvalatı bilib güldü, dedi – ay bacıoğlu, bunlar hamısı bəhanədir. O sənin şeirlərini almaq istəyir, bilmir nə yolnan səni ələ alsın. Get ona de ki, camışlarımız ağanaqdadır. Vahidxan elə zənn etdi ki, bu söz xarab sözdür dedi yox, mən elə söz deyə bilmərəm. Ağabba özü də gəldi – ay xalaoğlu, bu bacıoğlunu nə girinc eləmisən, o şeirlərini çox istəyir heç kimə satmaz. Özü də bir qız istəyir. Gülüşdülər. Vahidxanın utandığını görüb Ağabba dedi ki, bacıoğlu, utanma, bu Aşıq Barat da evindən gizlin bir dul arvadla dostluq edir. elə aşıqlar belə olur də, ağabba bir azdan çıxıb getdi. Aşıq Barat sazın simin nə açıb atmadı, nə də düzəltmədi. Dairəvi yumurlayıb sapla sazın üstünə bağladı.

Vahidxanın könlün ələ almaq üçün onunla yavaş-yavaş, xırda-xırda deyişməyə başladı. Aşıq Vahidxana tapşırdı ki, deyişməmizi bir dəftərə ayrı-ayrı yaz hazırla. Axşam toyxanədə ikimiz deyişək. Vahidxan utanırdı razılaşmırdı. Aşıq Barat Vahidxanı razılaşdırdı. Vahidxan deyişməni qələmə aldı, rədifləndirdi, qafiyələndirdi, bir nüsxəsin Aşıq Barata

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

verdi, bir nüsxəsində özü götürdü bir iki dəfə məşq etdilər. axşam toyxanədə həvəsli toy gedirdi aşıqlar çalır oynayanlar oynayırdılar.

Aşıq Barat toyxanəyə daxil oldu Vahidxanı da özü ilə gətirdi. Gözündən kənara qoymurdu ki, utandığından qaçar gedər. Çalıb oynamaq vaxtı qurtardı. Aşıq Barat sazın götürüb ortaya çıxdı bir aşıq mahnısı oxuyandan sonra hey gəlib Vahidxanın qarşısında dayanıb ona bir neçə bənd şeir oxudu Vahidxan dinmədi. İşi belə görəndə Aşıq Barat deyişməni bütün təfsilatı ilə danışıb Vahidxanı çoxlu tərifləyib ayağa durğuzub, qavalı alıb ona verib, bir qədər saz çalıb oxumaq istəyəndə Vahidxan qavalı qavalçıya qaytarıb verdi ki, mən qavalsız deyəcəm adi şəkildə. Aşıq Barat işi belə görəndə qəflətən yerindəcə fırlanıb aldı görək nə dedi:

Aşıq Barat:
Eşitmişəm sən də şeir yazırsan
Dillən görüm nədi ay cavan oğlan
Çiçəkdən yazırsan, eldən yazırsan
Dillən görüm nədi ay gözəl oğlan

Vahidxan:
Bir az asta tərpən dövran yığanda
Səhhətini qoru ay Aşıq Barat
Mizrabı vuranda ehtiyatlı ol
Simlərini qoru ay Aşıq Barat.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Aşıq Barat:
On beş ildi mən toylarda aşığam
Şirvan mahalına bir yaraşığam
Elə zənn eyləmə mən dolaşığam
Dillən görüm nədi ay cavan oğlan.

Vahidxan:
Günorta qırmısan sazın bir simin
Büküb kəmənd kimi vurmusan düyün
Zapasun olsaydı dəyişməsiydin
Hey dınqıldad sazı ay Aşıq Barat.

Mən şahlar şahına bel bağlamışam
Nə qədər sözüm var özüm yazmışam
Bu sənət yolunda bir şahmarmışam
Qaç özünü qoru ay Aşıq Barat.

Aşıq Barat:
Cavanlıqdı vurulmusan çəmənə
Sönüb gedər eşqin qalarsan belə
Dayun ollam şeirlərini sat mənə
Dünya pul-pənədir ay cavan oğlan.

Vahidxan:
Söz sərrafı sözü satmaz qızıla
Qızıl nədi söz bənzəyə qızıla
Ömür boyu qul olmamışam pula
Qurma belə toru ay Aşıq Barat.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Aşıq Barat:
Bu söhbəti saxla burda çevir sən
On beş yaşın yoxdur sən nə deyirsən
Eşitdim bir cavan qız da sevirsən
Gəl verim al pulnan ay cavan oğlan.

Vahidxan:
Hayandan olmusan bu sözdən halı
Mən bəyəndim səndə olan kamalı
Mən bir qız sevirəm buta sevdalı
Sən get hərlən dulnan ay Aşıq Barat.

Şeirdə rütbəm var bir çavuş kimi
İstidən durmusan partlamış kimi
Bir üz göstərərəm sənə qış kimi
Gedəmməzsən yolnan ay Aşıq Barat.

Aşıq Barat:
Mən aşığam gözlə bir az özünü
Danışanda yoxlaginan sözünü
Hirsli-hirsli döymə mənə gözünü
Mən səni tullaram ay cavan oğlan.

Vahidxan:
Aşıqsan şairlə girmə ortaya
Get əqlinə yazdır bir böyük duva
Səni – Əlifba alıb qoyub sumkova
Məktəbə yollaram ay Aşıq Barat.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Aşıq Barat:
Məktəb yaşlı nə durmusan qarşımda
Hərbə-zorba gəlmə cavan yaşında
And içirəm turp əkərəm başında
Sonra da nallaram ay cavan oğlan.

Vahidxan:
Bir az pul yığmısan beş-on toyda sən
Sazdan, sözdən axı sən nə bilirsən
İki-üç dastanı əzbərləmisən
Sazını at yürü ay Aşıq Barat.

Nə qədər biz vurram yoxdu əsərin
Çılpaq qovalasam olmaz kəsərin
Nallamışam səni yoxdur xəbərin
İndi də çullaram ay Aşıq Barat.

Aşıq Barat:
Qoşa-qoşa gəlmə mənə bəndləri
Bir aşıq tək mən gəzirəm kəndləri
Dörd çevrənə çəksəm əgər bəndləri
Giriftar qalarsan ay cavan oğlan.

Vahidxan:
Deyişmədə tez tap sözü duruxma
Səni bu kənddə çox istəyirlər qorxma
Şeirlərimi satmayacam üz vurma
Heç inciyib küsmə ay Aşıq Barat.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Aşıq Barat:
Gəl gəz Şamaxını, Göy-göl, Sevanı
Kürlə Araz heyran edir insanı
Mingəçevir nura qərq edib hər yanı
Sən şam yandırırsan ay cavan oğlan.

Vahidxan:
Gəl sənə dərs verim tarixdən, öncə
Qondarma Sevandı, tarixdə Göyçə
Düşür savadının hasili heçə
Hey dınqıldad sazı ay Aşıq Barat.

Ustadlardan havanı azca uddun
Özgəsinin üzəngisini tutdun
Aşıq Ələsgəri nə tez unutdun
Naşı bixəbərsən ay Aşıq Barat.

Aşıq Barat:
Mən Aşıq Baratam adım-sanım var
Yayılmış hər yana bir dastanım var
Fəxrimdi ki, Şirvan tək mahalım var
Sənin sözün nədi ay cavan oğlan.

Vahidxan:
Min mahala tacdır bil Azərbaycan
Pür sərvətmiz edir hər yanda fantan
Şeir meydanında şirdi Vahidxan
Sənin sözün nədir ay Aşıq Barat.

1966 Qubalı kəndi

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

SORUŞDU

Eşitdi cəbhədən təzə gəlmişəm
Bir qız qardaşını məndən soruşdu.
Aşıq Əhliman

Eşitcək cəbhədən təzə gəlmisən
Bir qız qardaşını səndən soruşdu
Ümid dolu gözlə, titrək səs ilən
İtkin qardaşını səndən soruşdu.

Qəm, qəm üstə qalanıbdı vətəndə
Zəlil, şəhid, əlil, itkin düşən də
İtkin düşənlərim çoxdu vətəndə
O qız qardaşını səndən soruşdu.

Cəbhə boyu yaz, yay, payız, həm qışım
Keçib dağ, dərəni, enib yoqquşun
Tapammadıq bəs mən kimdən soruşum
O qız qardaşını səndən soruşdu.

Soraq vermir cəbhə boyu gəzənlər
Çoxdan dəfn olunub şəhid gələnlər
Hələ qardaşımdan yoxdu bir xəbər
Deyə – qardaşını səndən soruşdu.

O toy məclisiydi, şad idi hamı
Bacının sorağı yandırdı canı
Tamam sükut etdi mağar adamı
İtkin qardaşını səndən soruşdu.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu suallar çoxdan mənə tanışdı,
Vətən dərdim dönə-dönə yanmışdı
Dərd içində mən Murovdan gələndə,
Bir ana da balasını soruşdu.

Hamının gözləri qalmışdı məndə,
Danışa bilmədim, dil düşdü bəndə.
Peşiman olmuşdu sual verən də,
Ana balasını məndən soruşdu.

Göründü gözümdə yaşın giləsi,
Onun özünün də titrədi səsi.
Əsirdi vücudu, yoxdu nəfəsi,
Niyə balasını məndən soruşdu.

Məşədi Vahidxan sinə dağladı,
Əldə qələm, dildə sözün saxladı.
Məscid əhli həzin-həzin ağladı,
Ana balasını məndən soruşdu.

05.01.2001

MƏNİ GÖZÜ GÖTÜRMƏYİB HƏCV YAZANA

Bəradərim yol çaşıb, əqlin azıb
Dost yaşasın görüm, düşmən yox olsun
İltimas eylərəm xudadan şəfa
Sənin üçün, pür kamalın çox olsun.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bilirəm ki sənin yox belə təbin
Kimə yazdırmısan bunu afərin
Nə qədər istəsən göndərim bəlim
Qəm çəkmə illərlə qarnın tox olsun.

Danışanda hərdən məni də yada sal
Özündən razı-razı olma gülkamal
Nə qədər lazımdı göndərim qanqal
Həm yeməklərində zülal çox olsun.

Gözləmirdim səndən belə əl-ayaq
Dost kəlamlarına düşmən tək cavab
Çək süpər başına gər eyləsən tab
Dost baxıb sevinsin, düşmən yox olsun.

Məşədi Vahidxan sənə tanışdı
Məni görcək səs-səmirin batmışdı
Böhtan, qeybət, yalan, nə fışhafışdı
Həya et bir utan abrın çox olsun.

***

Sən şöhrətpərəstsən, dövlətpərəstsən
Abrından keçirsən bir manat üçün
Mən insanpərəstəm Allahpərəstəm
Var yoxdan keçirəm insanlar üçün.

Mənim şüarımdı – Allah rizası
Bütün əməllərim göstərir bunu
Sənsə yaranandan zina küpündə
İndi çıxarırsan az-az burnunu.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

AĞA

Mən sadiqəm hər bir zaman əhdimə
Dünya malı gec çatdığıyçın sənə
Nə yaxşı ad tapıb bəxş etdin mənə
Bir ləqəbçin düşmüşdüm düzə-dağa
Molla Vahidxan sənə qurban ağa.

Az qalmışıq vədimizə çatmağa
İnşə-əllah biz də düşək novrağa
Çoxdan həsrətik pendirə qaymağa
Ayran, qatıq, yoxdur boylanaq yağa
Molla Vahidxan sənə qurban ağa.

Bilirəm ki, əziz tutursan məni
Azca da səbr et and verirəm səni
Vurmağa heç imkan yoxdur serçəni
Onda qalmış iştah açaq dovdağa
Molla Vahidxan sənə qurban ağa.

Sən mənimçin qurdun qızıl heykəli
Mərtəbələrlə, özülü əbədi
İyirmi dörd mömin, səkkiz Məşədi
Hifzin üçün yalvarırıq allaha
Molla Vahidxan sənə qurban ağa.

İnansan da yatmadın ipə-sapa
Axtardın karandaş, kağız və ruçka
Yazdırıban aldın məndən zapiska

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İmkan verdin axir mizrab çalmağa
Molla Vahidxan sənə qurban ağa.

İnşə-əllah inamun getməz hədər
Muradınca olar öz arzun qədər
Məşədi Vahidxan sənə həqq bəradər
Zəvvarlarla Kərbəlayə çatmağa
Molla Vahidxan sənə qurban ağa.

***

Həmişə bol-bol vədlər verib
İdarənin işləri çətinə düşəndə
İşdən çıxıb qaçan müdirlərin dilindən
İşdən çıxan rəisin sonuncu çıxışı.

RƏİS

İşi yaxşı gedəcək
Altıncı partiyanın
Bir rəis kimi mənə
İşçilərim inanın.

İşlər ki yaxşı gedir
Hər yana yol açıram
Vəziyyət çətinləşib
Sanmayın ki, qaçıram.

1972

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

MƏNƏVİ DAYAQ

Xudabəndi aləm bəxşiş eylədi
Xey, Dal, Cim-i mənə verdi bir ümid
İmdadimə yetdi qeydimə qaldı
Ona kömək olsun vacibəl-vücud.

Bilin ki, dünyada yaxşı insanlar
Olmasa bu dünya bərqərar olmaz
Möminlər xətrinə böyük yaradan
Aləmləri eyləməyir tar-mar.

QOHUMLARIN TƏRİFİ

Xahiş edirsən, yaz bu qohumları,
Sözü yoxsa, sazı yoxsa, simi var.
Balkonda hərlənir bir qoşun kimi,
Milçəyi var, arısı var, hünü var.

Ünvanları gözəl, yolları haça,
Yarısı cağ-cuğdu, yarı dəluçka.
Çəkdiyim zəhmətlər çıxıbdır puça,
Nə sözünən qanmır, nə də himi var.

Qohumluqları da olur soyuğu
Can bir qələ olmazlar gəzər bayağı.
Dövlətindən iyirmi yeddi toyuğu,
İki damı bir dənə də hini var.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Motosiklet sürür qoca yaşında,
"Tatrayla" "Jiquli" çayın tuşunda.
Çəkib qoyub özün dağın başında
O maşından bu mahalda mini var.

Yetmişində eşqə düşüb, həzarat,
Qərar tutmur gəzir cibdə şokolad.
Məhləsində iyirmi altı dul arvad,
Bir ərriylə dost olubdu cimi var.

Məşədi Vahidxan, vəraqi çevir
Nə qədər yazsan da dərk edən deyil.
Bir məni bəyənmir hamını sevir,
Baxsın görsün mən kamalda kimi var.

2

Şam namazı bir eyvana tuş oldum,
Nəzərlərim gözəl həngama düşdü.
Mən özümü vurdum görməməzliyə
Baxıb-baxıb əvvəl qızlar gülüşdü.

Düşündüm, deyəllər başa düşmədi
Nişan verim deməsinlər görmədi
Mən gülmədim, atası da dinmədi
Bir-birə qarışıb hamı gülüşdü.

Qazanı çəkmişdi biri dəstinə
Yağı-mağı yaxılmışdı üstünə
Nə baxmırdı qohumuna, dostuna
Qazmağından dibin də siyirmişdi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Toyunda yağdırır bəzisi yağış
Sən demə bu söhbət arada varmış
Qazanı siyirdi hamı baxırmış
Ev əhli hamısı ona gülüşdü.

Təkcə mən deyildim o məclis ara
Deyələr düz deyil bu söhbət hara.
Şahidim var təsdiq eylədi Sara
Hacıqabuldan qohumlar da gəlmişdi

Hər gələnə mən yazaram yaxşı söz
Yaxşı qohum, yaxşı qardaş, yaxşı söz
Əyri otur düz danışaq yaxşı söz.
Deməsinlər söhbətində sürüşdü.

Sara nənə, Əkbər baba bir də mən
Bir qələmim, bir dəftərim bir də mən.
Bir ilhamım, bir ürəyim bir də mən
Söhbət Məşədi Vahidxana yetişdi.

08.06.2003

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İLK DƏFƏ HƏRAMİ DAĞINI GƏZƏRKƏN

Keçdim Hərami dağından
Su içdim daş bulağından
Ana vətən torpağından
Sanki öpdüm su içərkən.

Gəzdim Hərami dağını
Seyr etdim Miri bağını
Ceyranların oylağını
Gəzdim mən ordan keçərkən.
1960-cı il, Hərami dağında

Qış dolandı döndü yaza
Könlünü ver sözə, saza
Şair daim yaza, yaza
Dolan dağlarda, dağlarda.

Çox gəzmişəm bu dağları
Qayaları, yamacları
Könlümün ilham çağları
Gələr dağlarda, dağlarda.

Uçub qonur daşdan-daşa
Qaqqıldaşa, qaqqıldaşa
Boz kəkliyə gəl tamaşa
Bizim dağlarda, dağlarda.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ovum heç vaxt getməz boşa
Ova çıxdım dostla qoşa
Kəklik vurdum aşa-aşa
Gözəl dağlarda, dağlarda.

Məşəd Vahidxan gəl coşa
Gəz vətəni başdan-başa
Görən desin sən yüz yaşa
Hər an ellərdə, dağlarda.

1962-ci il,
Qara Qaya və Hərami dağında ovda

TƏMSİLLƏR

Sirkə şərbətə dedi ki;
- Kişirin ol həmişə
Nəyə lazım acılıq
Etdin özünə peşə.

* * *

Car istiot hər yerdə
Balı hey pisləyirdi.
Hamıyla mənim kimi
Rəftar eylə deyirdi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

AŞIQ ŞƏMŞİR

Aşıq Şəmşir Qurban oğlu Qocayev,
Min səkkiz yüz doxsan üçüncü ildə,
Göz açıb bu fani dünyaya gəlib,
Kəlbəcərin Dəmirçidam kəndində.

Həştad altı il bu fani dünyada
Ömr eyləyib, əziyyətlər çəkibdir.
Dədə Ələsgəri, Səməd Vurqunu,
Özünə həmişə ustad bilibdi.

Xaçınçay, Qarqarçay, Göyəzən dağı,
Laçın, Soltanheydər, qiblə bulağı,
O yerlərdi qoç Koroğlu oylağı
Hər dərəni, hər yamacı gəzibdi.

Məşədi Vahidxan sizlərə yardı,
Yetim, yesir dərdi bağrımı yardı.
Dəlidağ, Ərzurum, Murov, Qoşqardı
Özü də dünyaya belə gəlibdi.

1994

GÖRÜŞ HƏSRƏTİ

Dostlarçün darıxıb olmuşdun diltəng,
Bir-bir nömrələrin yığıb etdin zəng.
Evdar-Səfa Şahvələdli dostuma
Dedim ki, bir əziz qonağım gəlib.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İsmini soruşdu bəyan eylədim
Dedi: - əcəb yerdən sorağım gəlib.

Soruşdu - qonağın kim idi -məndən
Dedim qəlb evimə gəlmiş idin sən.
Dolub qəlb evimə dostlar dünəndən
Elə bil həccdən marağım gəlib.

Qəşəm İsabəyli dil-dil ötürdü,
İslam Sadıq sözü göydən tuturdu.
Hörmətli dahilər təşrif gətirdi
Dədə - baba yurdum, ocağım gəlib.

Xaqani, Nizami, Səyyid Əzimi,
Qasım Qasımzadə, Vurğun səsimi,
Qabil məclisə gətirdi Nəsimi
Dedi ki, xalqıma dayağım gəlib.

Hamısı şad idi kefdə -damaxda
Damcılı bulağa getdik Qazaxda
Dahilər cəm idi böyük yığnaqda
Şeiriyyət mülkünə yarağım gəlib.

Mənə irsən olub Səyyidlik nəsib,
Hörmətim saxlayıb çəkillər təəsib.
Mir Nəsir ağanın oğlu Mir Yusif,
Vahidxan, sözümə dayağım gəlib.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İSTƏK

Şəhidin qanından ağır alimin mürəkkəbi,
Mən də yazdım, mən də keçdim şagird tək o məktəbi.
Var mənim də xəttimin mürəkkəbindən, İlahi
Zəbt ola o dəftərə ki, çəkilir haqq hesabı.

Allah, Mühəmməd, Əli, Fatimə, Həsən, Hüseynim
Başımın üstə gələ can verən vaxtında mənim.
İlahi sən özün yetir şəhid məqaminə məni,
Şəhid olum bu sahədə gəlim məqaminə sənin.

SÖHBƏT BELƏ VAQE OLUR

Ələkbər, Əsgər və Nemət otaqda oturublar.Məşədi Vahidxan otağa daxil olub salam verir. Onun hazırcavab olmağını bilirdilər.

Nemət
(2-3 dəfə təkrar)
Kişi gərək əlli-ayaqlı olsun,
Kişi gərək başı papaqlı olsun.

Məşədi Vahidxan
Kişi gərək allaha bağlı olsun!
Sağ ol dedim sənin bu imkanına,
Üç-dörd dəfə mən gəlmişəm yanına.
Molla çıxıb indi də meydanına

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İmzan gərək mərkəzə bağlı olsun.
Kişi gərək Allaha bağlı olsun.

Nemətgil
Kişi gərək əlli-ayaqlı olsun,
Kişi gərək başı papaqlı olsun.

Məşədi Vahidxan
Müqavilə bağlaginan mənimlə
Həmişəlik əlbir olum sənlə
Hər il gəlim pulumla ya dənimlə
Dostluğumuz yavan yox yağlı olsun
Kişi gərək Allaha bağlı olsun.

Nemətgil bir ağızdan
Kişi gərək əlli-ayaqlı olsun
Kişi gərək başı papaqlı olsun.

Məşədi Vahidxan
Düz insanlar axtarıram dost olam
Bazarda yox gedib pulnan dost alam
Dosta sadiq, Allaha sadiq qulam,
İnsan gərək Allaha bağlı olsun.

Nemətgil bir ağızdan
Kişi gərək əlli-ayaqlı olsun
Kişi gərək başı papaqlı olsun.

Məşədi Vahidxan
Papağın da hikmətlərin həll edə

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Adı kimi çox ucadı həlli də
Səksənində başa düşmür hələ də
Bu işlərdə bir az yığnaqlı olsun
Kişi gərək Allaha bağlı olsun.

Nemətgil bir ağızdan
Kişi gərək əlli-ayaqlı olsun
Kişi gərək başı papaqlı olsun.

Məşədi Vahidxan
Kişi gərək düz danışa düz dinə
Bədhesaba əyilməyə yüz minə.
Əməl edə öz sözünə əhdinə
Yüz min əyər əli silahlı olsun
Kişi gərək Allaha bağlı olsun.

Nemətgil bir ağızdan
Kişi gərək əlli-ayaqlı olsun
Kişi gərək başı papaqlı olsun.

Məşədi Vahidxan
İş görəndə qatma ona fitnə-fel
Namərd ilə körpü keçmə bassa sel
Sən Məşədi Vahidxana bağla bel
Sərəncamun dövlətə bağlı olsun
Kişi gərək Allaha bağlı olsun.

Nemətgil bir ağızdan
Kişi gərək əlli-ayaqlı olsun
Kişi gərək başı papaqlı olsun.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məşədi Vahidxan
Kişi gərək Allaha bağlı olsun
Can atmaya heç kimə sirr açmağa
Qadir ola həqq qapısın açmağa
Danışanda sözünə qoy sərhəd, çəpər

Əsgər ilə, Nemət ilə bir təhər
Sxematik plan çəksin Ələkbər
Yol tapmaya bir kimsə baş açmağa
Qadir olaq həqq qapısın açmağa.

Nemətgil bir ağızdan
Can atmaya heç kimə sirr açmağa
Qadir ola həqq qapısın açmağa.

Məşədi Vahidxan
Müşgülümü hiss eləyib mükəmməl
Eyləmisiz bu səvabı əlbəəl
On illiyə, hamı qalıb məəttəl
Bizi görcək üz qoyallar qaçmağa
Biz qadirik həqq qapısın açmağa.

Nemətgil bir ağızdan
Can atmaya heç kimə sirr açmağa
Qadir ola həqq qapısın açmağa.

Məşədi Vahidxan
Yetişginən hamının nəvasına
Daş dəyməsin heç kimin əzasına
Çalışırıq biz Allah rizasına
İş görginən gün tək işıq saçmağa
Biz qadirik həqq qapısın açmağa.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nemətgil bir ağızdan
Can atmaya heç kimə sirr açmağa
Qadir ola həqq qapısın açmağa.

(Səsi eşidib. Bir nəfər daxil olur otağa, baxıb gülür)

Məşədi Vahidxan
Salmaginan heç işi sappa-suppa
Arxı tullan sonra deyərsən hoppa
Bir kəlmə desəm qulağuvı kəsər Ağappa
Üz qoyarsan dörd əl-ayaq qaçmağa
Biz qadirik həqq qapısın açmağa.

Nemətgil bir ağızdan
Can atmaya heç kimə sirr açmağa
Qadir ola həqq qapısın açmağa.

Səsi eşidib Ramazanla Mircəfər otağa daxil olurlar.
Məşədi Vahidxan
Baxın burda hanı mənim tək yazan
Bələdiyyəyə sədr olan tək az zaman
Başladılar Mircəfərnən, İrəmazan,
Kasıbları mollaları soymağa
Biz qadirik həqq qapısın açmağa.

Nemətgil bir ağızdan
Can atmaya heç kimə sirr açmağa
Qadir ola həqq qapısın açmağa.

Məşədi Vahidxan
Məşədi Vahidxanın gəlin yanına
Diqqət edin söhbətinin canına

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şir özü gəlmir onun meydanına
Bağlama, qıfılbəndləri açmağa
Biz qadirik həqq qapısın açmağa.

Ələkbərgil: *biz eşitmişdik sənin bədahətən şeir söyləməyini*

Məşədi Vahidxan: *qardaşlar, bu, şeir deyil ki, bu, adi söhbətdir.*

XATİRƏ

Babam əzizləyib böyütdü məni
Dedi ki vətənə həm çəpər olar
Babamın arzusu gözündə qaldı
Ömrümü tamama yetirdi sular.

Cənazə həyətə gələndə baba
Dözmədi nəvənin faciəsinə.
Ürəyi partladı ömrün bəxş etdi
Belə bir anda da o nəvəsinə.

Bakıya apardılar. 14.04.2006-cü il tarixdə qəbir daşına yazmaq üçün.

VAR İXTİYARIM MƏNİM

Rüşvət hərməşib elmə, şagird niyarım mənim
Rüşvətlə alim oldu, soldu biyarım mənim.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sən nə hesablayırsan tüllab ay alim qaca
Karkulyator almısan barmağuvi saymağa
Şor qalıb rüşvət ilə boylanırsan qaymağa
Bəlkə dada gəlibdir dilin dodağın sənin
Bil hər şeydən yazmağa var ixtiyarım mənim.

Əyri-əyri boylanıb gözlərini bərəltmə
Cəmaət kimi əyləş, oturmusan gəbərtmə
Zənn edillər dünəndən eyləmisən çərələtmə
Qulağuvi kəsəllər o tayqulağım mənim
Bil hər şeydən yazmağa var ixtiyarım mənim.

Qız gəlinlər dilləşib baxmayır lap anaya
Səfehləşib qabarırlar ataya
Diktatura dağıldı olub demokratiya
Mustəqillik olubdu cənnət diyarım mənim
Bil hamıdan yazmağa var ixtiyarım mənim.

Hacıların məzluma yox bir köməkli işi
Məşədilər gəzillər ağzı göydə "dərvişi"
Hər an başlayır sözə kalbagərəksiz kişi
Gör necə tərtib tutub zəvvar qatarım mənim
Bil hər şeydən yazmağa var ixtiyarım mənim.

Mir Kərbəla, Mir Məşəd, bir də Hacı Mir gözəl
Deyillər bilməsən də namazı əyil, düzəl
Hər şey öyrənə bilir, namaza vurmeyir əl
İncimə həmədana dəysə tatarım mənim
Bil hər şeydən yazmağa var ixtiyarım mənim.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kor hoqqaya qoşulub qılma islamın tərkin
Partiyalar yaradıb xəlqi etmə didərgin
Eyləginən allahın peyğəmbərə dedigin
Ay ərəbim, əcəmim, türküm, tatarım mənim
Bil hər şeydən yazmağa var ixtiyarım mənim.

Xalqa seçmə rəhbəri, heç bir yerdə dıbırdan
Qaçar kol-kos dalınca, xalqı gedər abırdan
Boylanacaq geriyə arsız, arsız qabırdan
Yox ordan geriyə yol ixtiyar ağım mənim
Bil hər şeydən yazmağa var ixtiyarım mənim.

Ağlı dəyaz hərlənib söz axtarma sözümdən
Diqqətçiləm yayınmaz heç nə mənim gözümdən
Real olan işlərdir yazmamışam özümdən
Qəlbində kin bağlama,...oğlu parağım mənim
Bil hər şeydən yazmağa var ixtiyarım mənim.

Dən-dişə əkilmədi hamı oldu tufeyli
Tənbəlliklə ömr edib alverə saldı meyli
Məşəd Vahidxan yazmır söhbətini gileyli
Buğda, arpa tükəndi qalmadı darım mənim
Bil hər şeydən yazmağa var ixtiyarım mənim.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

LİRİK ŞEİRLƏR

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

YAZMAZ İDİM

Yazmaz idim bu qədər lirikadan, yox həvəsim.
Mənə lazımdı ki, üqbada ola dadirəsim.

Fanidir neməti dünya və gözəllikləri də,
Çoxları söyləməsin, kor-təbii eşqidü də.

Deməsin hər şapalaq, yoxdu bunun zövqü təmam
Estetik, ecazikar lirikanı edə bəyan.

Bəşər olmalıdı yəqin özünün haqqlığına
Etsə insanlığa riayət yetişər Allahına.

Nə baxıb yazmalısan özgəyə şerü, qəzəli?
Özününkü qala yanda, yadı tutmaq məzəli.

Baxma naməhrəmə ta döyməsin özgə qapını
Can verəndə nə səmər, siftə tanı Allahını.

Qəbr evinə yola düşmək halını yadına sal
Sərəkan halda nə tövbə, oranı etmə xəyal.

Məşədi Molla Vahidxan səni agah elədi,
Olma naməhrəmə aşiq demə hər yan belədi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

YAR DİNMƏDİ

Girdim yarın baxçasına,
Məni gördü, yar dinmədi.
Tarı çıxartdım köynəkdən,
Dilləndirdim, yar dinmədi.

Gözəllər maildi ona,
Giribdi bir tazə dona.
Üzünü çevirdi yana,
Mən dindirdim, yar dinmədi.

Verib əlimə əlini,
Sancıb telinə gülünü,
Məşəd Vahidxan könlünü,
Yaraladı yar, dinmədi.

AY QIZ

Həsrətindən oda yandım,
Atdın getdin məni, ay qız.
Eşqini demədin qandım,
Olum səna fəda, ay qız.

Müşkülə düşdüm, ağladın,
Sinəm çal-çarpaz dağladın,
Mənimlə ilqar bağladın,
Könül vermə yada, ay qız.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bülbül istər gül, çəməni
Gülsüz neylər o çəməni.
Hələ tezkən gəl sev məni,
Ömrü vermə bada, ay qız.

Məşəd Vahidxan sevir səni,
Eşqimdir dillər əzbəri.
Neyləyirəm simu-zəri,
Sən tək yar olmasa, ay qız.

BİLMİRƏM

Yenə tarı aldım ələ,
Vurulmuşam ay qız sənə.
Eşqin qonubdur sinəmə
Getsən dayana bilmərəm.

Tarı dilləndirdim yenə,
Qəlbim teli gəldi dilə,
Eşq badəsi verdin mənə,
Yatsam, oyana bilmərəm.

Mizrabı vurdum simlərə,
Bülbüldür aşiq güllərə,
Eşqim düşübdür dillərə
Sənsiz yaşaya bilmərəm.

Sınamamış sevdim yenə,
Yar vəfasız çıxdı mənə.
Məşədi vahidxan qəlbdə qəm
Gedim ha yana bilmirəm.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

YARLA GÖRÜŞ

Yenə gördüm gözəl yarı,
Dindirmədi məni barı.
Demə yoxmuş etibarı,
Əbəs yerə yanıram mən.

Söylədim ki, gözəl yara,
- Etdin məni bəxti qara.
- Yalan yaraşarmı yara?
- Zarafatla deyirəm mən.

Dedim – nəzər sal yarına.
Dedi – bir bax ilqarıma.
Dedim – gözəl öz yarına
- Etməz cəfa bilirəm mən.

Dedim – könlüm sənə heyran,
Dedi – ollam sənə ceyran.
Məşəd Vahidxan sənə qurban,
Dedi – könül verirəm mən.

AY QIZ

Gülə-gülə baxdın mənə,
Heyran oldum sənə ay qız.
Sevinci yığdım bəxtinə,
Odu vurdum qəmə ay qız.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yenə sən nazilə baxdın,
Könlümü yandırıb yaxdın.
Sən olmusan əzəl baxtım,
Girmisən qəlbimə ay qız.

Şeiri yazdım sən gülümə,
Məzəli söz, şirin kəlmə.
Dedin – çox yüksəkdən gəlmə,
Zildən endim bəmə ay qız.

İstədim gözəl axtarım,
Dilləndi şurilən tarım.
Düzüldü qızlar qatarım,
Tay olmadı sənə ay qız.

Tüfəng alıb sıxdım ova,
Qızlar durdu sözə sova.
Gözəllər düşdü tilova
Könül dedi: - yenə ay qız.

Can qurban verərəm bilsən,
Həmişə üzümə gül sən.
Sevməyirəm sözün gəl sən
Vahidxana demə ay qız.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

SƏNİ

Keçib dərələri, aşıb dağları,
Gözəl gülşənlərdə gəzmişəm səni.
Bir buta verildi gedə bilmədim,
Min çiçək içindən üzmüşəm səni.

Butanı verdilər on beş yaşımda,
Yolum geniş idi eşqin başımda.
Yeddi gün gözlədim bulaq başında,
Həsrət şeirlərə düzmüşəm səni.

Dübarə röyadə verildi badə,
Butadan qalmışdı mənə amadə.
İyirmi dörd yaşımda düzdə-səhradə,
Keçib dağ-dərəni gəz meşəm səni.

Bir yol da yuxuda verdilər isnad,
Qırx yaşım var idi olardı imdad.
Özüm bacarmadım səf gəzdim murad,
Yol tapa bilməyib əzmişəm səni.

Məşədi Vahidxan həqqin yolunda,
Min gözəl hərlənir sağı-solumda.
Allahın hökmüylə tutub qolundan,
Könül dəftərimə yazmışam səni.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

GİZLƏNMƏ MƏNDƏN

Əzəldən hüsnünə heyranam gözəl,
Qəlbimi yandırıb gizlənmə məndən.
Barı bir kərəm et danışaq-gülək,
Eşqini qandırıb gizlənmə məndən.

Asta yeriyirsən, - "Kəsmə şikəstə",
Söhbətlərin olur – "Segah"ı səsdə,
Hərdən yox olursan – "Heyratı" üstə,
Könlümü sındırıb gizlənmə məndən.

Uzaqda dolaşma bərli-bəzəkli,
Dost gərəkdi ola, dosta gərəkli.
Gizlənmək alınmaz iki tərəfli,
Gizlənirəm səndən, gizlənmə məndən.

Məşəd Vahidxanı yaz Kərbəlayi,
Həm şairdi, həm mömindi – sifayi
Uzaqdan boylanma mənə dolayı
Hərdən sevindirib gizlənmə məndən.

POÇTALYON QIZ

Mənə məktub gətirən qız,
Söylə kimdən gətirmisən?
Sən atamdan, ya anamdan
Ya da, kimdən gətirmisən?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sizə məktub! – deyə sakit,
Gülər üzlə dayanmısan.
Bu duruşda körpə maral,
Yoxsa quzu ceyranmısan?

Duruşunda min gözəllik,
Gülüşündə hədsiz sevinc.
Mənə məktub gətirmisən,
Məndən çoxdur səndə sevinc.

Sabah mən də, sənə məktub
Gətirəcəm, sorma kimdən
Özüm sənə yazacağam,
Səni necə sevməyimdən.

SEVGİLİMİN HƏSRƏTİYLƏ

Bağlıyam həyata əzəl yaşımdan,
Bir də təbiətin vurğunuyam mən.
Heç əskik olmayıb sevda başımdan
Demə məhəbbətin yorğunuyam mən.

Bir gözəl sevmişəm xoşdur məlalı,
Özü ağ üzündə var qara xalı.
Şirindir sözləri həm xoş cəmalı,
Bir də o gözəlin vurğunuyam mən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir öz Vətənimin gözəllərinin,
Azərbaycanın şən ellərinin,
Zəhmətkeş insanlar nəsillərinin,
Sülhsevər xalqların vurğunuyam mən.

SƏN TƏK OLAYDI

O qədər ürəyin açıqdır sənin,
O qədər o dilin şirindir ki bil
Bu sadəliyinə səcdəyə bu gün,
Mənim dağlar qədər könlüm əyilir.

Belə sadəliyi kim vermiş sənə,
O şirin dilləri kimdən almısan?
Söylə fərəhsənmi bütün ölkəyə,
Ya mənim könlümdə bir maralmısan?

Gülşən baxçasında şən ölkəmizin
Nə yarpaq saralıb nə gül solaydı.
Arzu edirəm ki, vətənimizin
Bütün gözəlləri sən tək olaydı.

ALA GÖZLÜ

İlk dəfə könlümə salam gətirib,
Yuxuma girmisən sən ala gözlü.
İlhamlı könlümə ilham gətirib,
Yuxuma girmisən sən ala gözlü.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Evinizə gəlmişdik anam da, mən də,
Sanki gül açmışdı yaşıl çəməndə.
Baxıb pəncərədən sən çəkiləndə,
Sandım təzə gülsən sən ala gözlü.

Çəkib pərdəsini pəncərənin sən,
Çıxdın çölə gördüm gül üzünü mən.
Könlümdə gül açdı inan ki səndən,
Eşitcək min şirin dil ala gözlü.

Demə bu könlündə təzə avazdı,
Yuxuma girmisən qışım da yazdı.
Ayılıb yuxudan bu şeiri yazdı,
Məşədi Vahidxan bil ala gözlü.

YANINDA

Bir ala gözlüyə aşiq olmuşam,
Qul da desən ollam onun yanında.
Həsrətindən saralmışam solmuşam,
Öl də desən ölləm onun yanında.

Heyran oldum onun ala gözünə,
Qulaq asdım şirin-şirin sözünə,
Bir şeir də yazdım verdim özünə
Gül də desən gülləm onun yanında.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sorun o qız məni bir yada salı,
Deyin ki, öləcək qalmayıb halı.
Hicridən ağaran saçı-saqqalı,
Yol da desən yollam onun yanında.

Vahidxan eşq içrə bir xan deyirəm
Tez gəl ay qız nazlı canan deyirəm.
Lovğalıq bilməyən sadə şairəm,
Qal da desən qallam onun yanında.

SƏNDƏ HEY

O gözəl qamətin aldı səbrimi,
Səbir Allah var muradım səndə hey.
Mərmər sinən üstə qazdır qəbrimi
Mən yanıram qızınginən sən də hey.

Səcdə edək ol xudaya Sübhi-şam,
Camalına sənin heyran olmuşam.
Eyvanında desən məkan bulmuşam,
Yığışginan gedək bizə, kəndə hey.

Mətləbini istəginən Xudadan,
Payını al ağam müşkülküşadan.
Vahidxandı səni həzin oyadan
Kölgəyə keç, yatmaginan gündə hey.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İSMİ PÜNHAN

Təzəcə üzdüyün o gözəl gülü,
Alaydım əlindən, a ismi pünhan.
Vaxt olaydı mən də səni alaydım
Öpəydim dilindən, a ismi pünhan.

Basaydım bağrıma bir maral kimi,
O qara gözlərin bir cüt xal kimi,
Bu hal görünsə də bir xəyal kimi,
Qucaydım belindən, a ismi pünhan.

Elə bil xilqətdən tək yaranıbdır,
Çiçək tək açılıb pardaxlanıbdır,
Sənə bir hədiyyə hazırlanıbdır,
Vahidxan şeirindən, a ismi pünhan.

ŞİRİN-ŞİRİN

Könül gəl küsdürmə quzu ceyranı
Onun qulluğunda qal şirin-şirin.
Körpədir qəm çəkər hicrana dözməz,
Sən onun könlünü al şirin-şirin.

Dedim gözəllikdə yoxdur sənə tay,
Vaxt keçir sevgilim gəl eyləyək toy.
Dedi oğlan məni gözlə bircə ay
Razıyam gözləyəm il şirin-şirin.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yarın yanındadır xəlvətlik ara,
Aldanma dövlətə, aldanma vara.
Sən də sevgilini çək bir kənara,
Danış şirin-şirin, gül şirin-şirin.

Naz eyləsə yarın hər addım başı,
Oturub hicr ilə tökmə göz yaşı.
Ol həm pasibanı, könül sirdaşı,
Tap danış onunla dil, şirin-şirin.

Bütün varlığımla sevirəm səni,
Uzaq gəzmə gəl mənə ver busəni.
Heç kim mənim qədər istəməz səni
Vahidxanın qədrin bil şirin-şirin.

DÖNƏN DEYİLDİR

Yuxudan hər səhər tezdən oyandım,
Hər zaman yolunun üstə dayandım.
Xoş gündə, pis gündə, oduna yandım,
Aşiq istəyindən dönən deyildir.

Nazlı vəfasından,
Gül dəstəsindən.
Könlüm istəyindən
Dönən deyildir.

Hər yerdə mən gəzib aradım səni,
Tapmamış getmədi könlümün qəmi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Tapmadım yandırdı odum aləmi,
Sevgi-sevgisindən dönən deyildir.

Nazlı vəfasından,
Gül dəstəsindən.
Könlüm istəyindən
Dönən deyildir.

Həmişə mən sənin oduna yandım,
Yana-yana oda bir də qalandım.
Hər yerdə, hər zaman adını andım,
Könlüm istəyindən dönən deyildir.

Nazlı vəfasından,
Gül dəstəsindən.
Könlüm istəyindən
Dönən deyildir.

Sən, şair könlümün ağ göyərçini,
Məşəd Vahidxanın nazlı hakimi.
Heç kim mənim qədər istəməz səni,
Ürəyimdə eşqin sönən deyildir.

Nazlı vəfasından,
Gül dəstəsindən.
Könlüm istəyindən
Dönən deyildir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

CEYRAN SEVGİLİM

Adı gizli, sözü şirin, gözəl yar,
Elə sevirəm ki, səni şux nigar.
İsmini etmərəm heç kimə aşkar,
Hakimsən qəlbimdə pünhan sevgilim,
Ceyran yaraşıqlı, ceyran sevgilim.

Əzəldən almısan əqlimi başdan,
Mən ki, incimərəm bu tər savaşdan.
Qurşayıb hüsnünə aldan, qumaşdan,
Etmisən könlümü heyran sevgilim,
Ceyran yaraşıqlı, ceyran sevgilim.

Şamamalar sinən üstə baş-başa,
Gəl toy məclisində oturaq qoşa.
Qılsın hüsnümüzə hər yan tamaşa.
Xeyir-dua versin dövran sevgilim,
Ceyran yaraşıqlı, ceyran sevgilim.

Məşəd Vahidxanın sevimli yarı,
Gizlətmə qoynunda o qoşa narı,
Aç bir şamamalar görünsün barı,
İlhamım eyləsin tüğyan sevgilim
Ceyran yaraşıqlı, ceyran sevgilim.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ALA GÖZLÜ

Yuxuma giribən ikinci dəfə,
Qəlbimi almısan sən ala gözlü.
Bənzərin var cəvahirə, sədəfə,
Könlümdə qalmısan sən ala gözlü.

Könlümdən kədərlər getdi yad oldu,
Həsrət çəkən könlüm çox azad oldu.
İlham aldı, şeir qoşdu, şad oldu
Yoxsa vüsalmısan sən ala gözlü.

Mehriban-mehriban qarşımda durdun,
Çox mahir ovçusan könlümdən vurdun.
Durna kimi baxdın, ceyran tək durdun,
Mələk misalmısan sən ala gözlü.

Vahidxanam, həqdən gəlir ilhamım
Dolanım başına gözəl cananım.
Nazənin duruşlum, sərvi-rəvanım,
Mənim maralımsan sən ala gözlü.

MƏHƏBBƏT

MƏHƏBBƏT – könlümün ən şirin sözü,
MƏHƏBBƏT – sözümün ilk əzəlidir.
MƏHƏBBƏT – insanın könül neməti,
Sevgi dünyasının ən gözəlidir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

MƏHƏBBƏT – ilahi ilhama gəlib,
Fərəhdən az qala uçuram inan.
MƏHƏBBƏT – həyatım, MƏHƏBBƏT – eşqim,
MƏHƏBBƏT – könlümdə ümmandır, ümman.

MƏHƏBBƏTdir məni sevdaya salan,
MƏHƏBBƏTdir həyata verən ilham.
MƏHƏBBƏTdir könlümdə coşan ümman.
MƏHƏBBƏT – sadiqlik nişanəsidir.

Vahidxan, dillənir sinən üstə saz,
MƏHƏBBƏTdir sənə verən hər avaz.
MƏHƏBBƏTsiz yerdə gözəllik olmaz,
MƏHƏBBƏT – gözəllik nişanəsidir.

İKİ ŞƏKLİN VAR

İki şəklin var, məndə ay gözəl,
Birində qarasan, birində ağsan.
Hər gecə sübhədək gözləyirəm mən,
Nola bir gün sən də arxayın çıxsan.

Dan yeri sökülüb, oyanıb quşlar,
Hərə öz dilində ucaldıb səsin.
Hürkək ceyran kimi boylanırsan ki,
Bax, bizi bir yerdə heç kim görməsin.
Niyə, sevdiciyim öz əllərinlə
Örtürsən çıraqban yollarımızı?
Kimdən biz çəkinib, bu gün gizlicə
Kölgədə danışaq ilk arzumuzu?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Çəkinmə, özünü sərbəst apar, gül
Nə deyim sevgilim, başa düş məni.
Cümlə sevənlərə duvaçıyam mən,
Görüm ki yetməsin başa düşməni.

Yox, qarğış yaraşmaz gül dodaqlara,
Bu gündən unudaq gəl bu sözləri.
Qadınlar çox uyur şöhrətə, vara,
Heç vədə aldanmaz şair gözləri.

İki şəklin var məndə ay gözəl
Birində qarasan, birində ağsan.
Mən gülşəndə cəh-cəh vuran bülbüləm
Sən də başım üstə bir gül budaqsan.

O GÖZƏLƏ

Sənə şeir yazsam inciməzsən ki?
Şeir sənətinin ustadı sənsən.
Sənə şeir yazsam inciməzsən ki?
Şairə könlümün sirdaşı sənsən.
Bir gözəlin məktubundan
Bir nəfərin şeiri

Bu sənət yolunda bil ki, gözəlim,
Sən mənə təsəlli, sən mənə həmdəm.
Gəl çıxaq seyrinə Azərbaycanın,
Amma əsirgəmə bir busə hərdən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Eşqimizi bölək sənlə yarı,
Sinəndən ağdımı dağların qarı?
Dön bax şamamalar görünsün barı,
İntizarın çəkir könül səhərdən.

Məşəd Vahidxan bu hal ayə çatmışam,
Həm vüsala, həm jal-ayə çatmışam.
Gülüstanda Kaf Mim La-yə çatmışam
İzn versə əm bu şirin şəkərdən.

İKİ ŞƏKLİN VAR

İki şəklin var məndə, ay gözəl,
Birində qarasan, birində ağsan.
Alovlu bir sevgi yolundayıq biz,
Könlümə hakimsən, demə qonaqsan.

Sevdim ağ şəklini, çünki oxşayır,
İndiki halını əlamətini.
Oxudum gözlərdən, gülən gözlərdən,
Büsbütün arzunu, hər niyyətini.

Oturub baxıram gülən gözlərə,
Könlümdə min ilham çağlayır yenə.
Ceyran sürüsü tək durub sırayla,
Sədəf dişlərin də boylanır mənə.

İki şəklin var məndə, ay gözəl,
Birində qarasan, birində ağsan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gecədən çox keçir yatmamışam mən,
Sən də oturmusan, hələ oyaqsan.

Yatmayıb mən şeir yazıram sənə,
Sən yat, qalan alım, yorma özünü.
Min yeni ilhamla nəqş etsəm azdır,
Ceyran baxışını, ala gözünü.

Duyuram min yeni şairanəlik,
Sənin şairanə mahirliyində.
Ədabazlıq bilməz, lovğalıq sevməz,
Bir sadə yolu var şairliyin də.

İki şəklin var məndə ay gözəl,
Birində qarasan, birində ağsan.
Səhərə az qalıb hey yazıram mən,
Sən də yanımdasan, hələ oyaqsan.

VURĞUNAM
(İsmi pünhan)

Deyirsən – şeir yaz, nədən yazım mən?
Ha yandan başlasam, sənə vurğunam.
Yetənə yetirsən, yetməyənə də,
Daş atma, bil yol kəsənə vurğunam.

Sevirəm mən səni, azalsın qəmin,
Yayılsın hər yana eşqin, şöhrətin.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Küləşi, kötüyü, yarpağı sənin,
Sünbülün içində, dənə vurğunam.

Gəzib Avropanı, çıxdım dənizə,
Okeanla keçib Afrika üzə.
Asiyanı gəzdim, söz açım sizə
Azərbaycan tək vətənə vurğunam.

Qoşa gedək, qoşa gəzək hər yanı,
Heç yarından əsirgərmi yar canı?
Yaxşı tanı Məşədi Vahidxanı,
Min gülşənəm, bir çəmənə vurğunam.

GƏLDİ

Məndən yeni şeir istəyən ay qız,
Yeni şeir yazdım, al budu gəldi.
Yaşım ötdü tüğyan gənclik çağındanq,
Deyillər, saqqalı çal budu gəldi.

Şair könlüm doymaq bilməz gözəldən,
Sanma məni dəyanətsiz bir həmdəm.
Mən vəfaya vurulmuşam əzəldən,
Hey deyirəm gül camal budu gəldi.

Qoşa gəzdik yayı, qışı qol-qola,
Gündüz ola, gecə ola, sübh ola,
Gül bağçaya, göy çəmənə, ağ yola,
Özü gül, ləbləri bal budu gəldi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məşədi Vahidxan sorağındadı
Zərif şeirlərim dodağındadı
İlhamım könlünün gül bağındadı
Sənə şeir yazdım al budu gəldi.

GETDİ

Gözəlim, dərdimə gəl eylə çara,
Bu şair könlümə sən vurma yara.
Kimə ərz eyləyim mən bəxti qara,
Deyərkən – o məndən küsdü də getdi.

Heç kəsə demərəm ürək sözümü,
Əgər çıxarsa da iki gözümü.
Gəl məndən çevirmə küləş üzünü
Mənə cazibanə baxdı da getdi.

Sataşdı gözümə ala gözləri.
Anladım gözlərdən mən bu sözləri.
Vahidxan sənindəm əzəldən bəri
Fəqət o demədi çıxdı da getdi.

GEDİRƏM ANA

Od, alov içinə cavan yaşımda,
Vətəndən ayrılıb gedirəm, ana.
Necə üzüm gülsün, çox da ki mərdəm
Mən səndən ayrılıb gedirəm, ana.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dinlə əhvalımı söyləyim başdan,
Oldum həm tanışdan, həm də yoldaşdan.
Əmidən, dayıdan, bacı, qardaşdan,
Atamdan ayrılıb gedirəm, ana.

Laləli, nərgizli, uca dağlardan,
Şaq-şaq şaqqıldayan buz bulaqlardan,
Bir şaqraq gülüşlü alagöz yardan,
Sənəmdən ayrılıb gedirəm, ana.

Məşəd Vahidxan sözün söylədi dildən,
Bil ki, düşməyəcək mizrabım teldən.
Azad vətənimdə tər qızıl güldən,
Çəməndən ayrılıb gedirəm, ana.

1968, Port-Said şəhəri,
Afrika qitəsində. Misirdə

GƏL YANIMA

Gəl yanıma nazlı Vəfa,
Hicran sənə üz verərsə.
Gəl yanıma, nazlı Vəfa,
Ayrılıqdan qəm gələrsə.

Gəl yanıma, nazlı Vəfa,
Ay göylərə yüksələndə.
Bilsən necə şad olaram,
Sevinərəm sən gələndə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gəl yanıma, nazlı Vəfa,
O vaxt məni qəm didəndə.
Gəl yanıma onunçun ki,
Çarəm vardır yalnız səndə.

Gəl yanıma, o vaxt mənim
Naləm göyə yüksələndə.
Sənin getdiyin ucundan,
Şad könlümə qəm gələndə.

Gəl yanıma, sən gələndə
Könlümə də ilham gəlir.
Sevinc ilə coşur könlüm,
Çünki nazlı Vəfam gəlir.

Gəl yanıma ey vəfasız,
Qaçıb məndən uzaqlaşma.
Min dil ilə könül verib,
Sonra məni atıb qaçma.

Gəl yanıma mən deyəndə,
Sanma sənə yalvarıram,
Vəfasıza mən heç zaman
Yalvarmamış, yalvarmaram.

Gəl yanıma, o vaxt, eşqim
Ümman tək coşub daşanda.
Bir dəniz tək coşğun könlüm,
Dalğalarla çarpışanda.
Gəl yanıma, könlüm mənim,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Fırtınalar ağuşunda.
Bir şiddətdə ac qurd kimi
Qayalara çırpılanda.

Gəl yanıma, şad könlümdə
Hicran seli yüksələndə.
Hicrin ilə ürəyimi
Bir ox kimi sən dələndə.

Gəl yanıma, ey vəfasız,
Məhəbbətin solmuş gülü.
Vahidxan, səndən başqa heç kim
İstəməzmiş solmuş gülü.

Gəl yanıma, heç utanma
Bildim çatıb sənə xəbər.
Heç kim istəmirmiş səni,
Mən səni istəyən qədər.

Gəl yanıma, utanma ki,
Atdın məni sən bir zaman.
Mən yenə də Vahidxanam,
Bir an səni unutmaram.

Gəl yanıma, min ilham var,
Şirin-şirin sözlərində,
Saf eşqimiz qoşa uçsun,
Yenə eşqin göylərində.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gəl yanıma, nazlı Vəfa,
Hicran sənə üz verərsə.
Məşəd Vahidxan şərik olar,
Ayrılıqdan qəm gələrsə.

1969

DEYİLLƏR

Dünən məni sevən vəfalı bir qız,
Bu gün məni atıb getdi, deyillər.
Bir yazıq aşiqin ahu-zarından,
O qız cəfasına çatdı, deyillər.

Soldurdu qəlbimin baharın, yazın,
İnlətdi könlümün zil telli sazın.
Məni oda salan o vəfasızın,
O gündən dövranı yatdı, deyillər.

Yalan hesab etdi hər həqiqəti,
Böhtan aldandırdı sözü, sənəti.
Əbədi sevgini, saf məhəbbəti
Bir günlük işrətə satdı, deyillər.

Aldadıb, aldadıb şirin sözüylə,
Könlüm məftun edib qara gözüylə.
Sonra o vəfasız xain sözüylə,
Saf eşqimə xələl qatdı, deyillər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mən ona bəslərdim eşqi-məhəbbət,
Var idi qəlbimdə böyük sədaqət.
Bu sözü eşidən külli cəmaət,
İndi o qız mənə yaddı, deyillər.

Məşəd Vahidxan ürək sözün bildirər,
Gah ağlasa eşq əlindən, gah gülər.
Məni Azərbaycana vurğun görənlər,
Vahidxan murada çatdı, deyillər.

NƏ HƏ DEDİ, NƏ DƏ YOX

Bir gözələ tuş oldum,
Xəyalımda quş oldum.
Mən çox uçdum yanınca,
Nə hə dedi, nə də yox.

Hicran dərdi yamandır,
Könlüm alovlanandır.
Dedim getmə, amandır
Nə hə dedi, nə də yox.

Gül bağında bənövşə,
Günəş doğa, gün düşə.
Dedim bir gəl görüşə,
Nə hə dedi, nə də yox.

Onun ala gözləri,
Bal tək şirin sözləri.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dedim durma, gəl bəri,
Nə hə dedi, nə də yox.
O gözələ bənd oldum,
Elə bil kəmənd oldum.
Mən bağladım dilini,
Nə hə dedi, nə də yox.

DÖŞLƏRİN

Saymazyana gəzmə silkələnirlər,
Amandı qırılıb düşər döşlərin.
Yetişib xal vuran şamamalar tək,
Aşiqin ağzında bişər döşlərin.

Kələğay tək nazik görünən paltar,
Məndən uzaqlaşıb dayanma kənar.
Yaz, yay, payız ötdü, düşüb şaxta qar
Tirmə şala bürün üşər döşlərin.

Bir gülşənə düşdüm hüsnünü görcək,
Elə bil sinəndə açıb gül-çiçək.
İtidir gilələr nar məməsi tək,
Qıyma ki, ağzımı kəsər döşlərin.

Sən məni qınama a ismi pünhan,
Estetik zövqümü eyləmə viran.
Et özün-özünə tamaşa bir an,
Meh vurduqca titrər, əsər döşlərin.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məşədi Vahidxan kənar durmasam,
Nigah adlı bir büsatı qurmasam,
Tutub çəngələyib, sıxıb burmasam,
Kövrəkdi qorxuram küsər döşlərin.

BƏSLƏRƏM SƏNİ

Sevgilim sən şəkərsən, yoxsa balmısan?
Mənim şair könlümü çoxdan almısan.
Sən mənim öz gülümsən, mənim olmusan.
Ürəyimin içində gizlərəm səni,
Gözlərimin ustündə bəslərəm səni.

Sözlərim tellərinə gül çələng hörər,
Pardaxlanıb açarsan tər qızıl güllər.
Göz üstündə saxlasam naməhrəm görər,
Gözlərimin içində gizlərəm səni,
Ürəyimin başında bəslərəm səni.

İsmini soruşdular Kaf, Mim, Lam – dedim,
Sən məni bəyənməsən de hara gedim?
Vov, Hey, Dal,Xey,Nun–birkən yüz qurban dedim,
El, oba, mahal bilsin səslərəm səni,
Ürəyimin başında bəslərəm səni.

Məşədi Vahidxanam hüsnünə vurğun,
Fərhadla-Şirin kimi olmuşuq Cinun,
Gah Əsli-Kərəm olduq, gah Leyli-Məcnun
Dağ dərə bulaqlarda gözlərəm səni,
Ürəyimin başında bəslərəm səni.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

SEVİRƏM SƏNİ

Hüsnün eləyibdi heyran könlümü,
De necə gizlədim, sevirəm səni.
Eşqin alıb ələ tərlan könlümü,
De necə gizlədim, sevirəm səni.

Gözəllər içində bəyəndim səni,
Qəlbimi sındırma sevindir məni.
Yüz dil bilən söz anlayan gözəlsən.
De necə gizlədim, sevirəm səni.

İlk baxışda ovlamısan könlümü,
Ovsunlayıb saxlamısan könlümü,
Hər tərəfdən oxlamısan könlümü,
De necə gizlədim, sevirəm səni.

Hər busəni bir qızıla sat mənə,
Məmələri şamama tək at mənə.
Əllərini ver əlimə çat mənə,
De necə gizlədim, sevirəm səni.

Məmələrin dodağıma bal dadır,
Mərmər sinən bal şanında baldadır.
Qaymaq dodaqların əhli-hal dadır,
De necə gizlədim, sevirəm səni.

Fey – Rey – Dal yazmışam ismini pünhan,
Mim – Şin – Dal, Mim – Lam təşdidlə, Əlif – La,
Vov – Hey – Dal – Xey – Nun-du hüsnunə heyran,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

De necə gizlədim, sevirəm səni.
Hər an bizi hifz eləsin ilahi,
Məşədi Vahidxan kəssin nigahı,
Səni özümdən çox sevirəm vallahi,
De necə gizlədim, sevirəm səni.

ŞEİR DOSTLARIMA

Göyçayda oxuyarkən Vaqif və Şükür adlı məktəb yoldaşlarım məndən şeir istədilər. Mən şeir dəftərimin birini onlara oxumaq üçün verdim. Özləri deyən üç şeirimi yazıb götürmüşdülər. Sonra mən "Lənət" rədifli şeirimi texnikumun kitabxana kitablarının ön və arxa cildlərində kitabların boş səhifələrində yazılmış gördüm. Kitabxanaçı qız Ələsgərova Elmiradan soruşub öyrəndim ki, mənim şeirimi kitablara Vaqif yazmış və şeiri özü yazdığını söyləmişdir. Mən də aşağıdakı şeiri yazıb Vaqiflə Şükürə çatdırdım elə həmin yerdə:

Dostum, o gün məndən şeir istədin,
Etiraz etmədim ona görə ki,
Könlümdən könlünə şeirim yol açsın.
Şeiri ona görə verməmişdim ki,
Lazımsız yerlərdə gəzib dolaşsın.

Bivəfa adamsan, qədirbilməzsən,
Sən gündə özünə bir "dost" taparsan.
Bu gün əsərimə belə baxırsan,
Sabah özümü də çölə atarsan,
Sən bircə şöhrətə dostu satarsan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

LƏNƏT

Əvvəl gülər üzlə sevib, sevilib,
Sonra sevgisini atana lənət.
Dediyi sözünə əməl etməyib,
Verdiyi əhdini danana lənət.

Daldada gizlincə düşüb izinə,
Yarın həsrət qoyub gözün, gözünə,
Rastlaşanda tezcə gülüb üzünə,
Araya ixtilat qatana lənət.

Qəlbim anıb səni, könlüm arzular,
Məşəd Vahidxandan gizlənmə ay yar.
Atalardan qalma bir məsəl də var,
Əhdinə bivəfa olana lənət.

AY GÖZƏL

Sənin həsrətini çəkəndən bəri,
Bağrım dönüb qana, qana gözəl.
Mən ki, heç vüsala yetmədim bir an,
Qaldım həsrət sana, sana ay gözəl.

Könlümü vermişdim sən tək bir gülə,
Getdin başqasına mən düşdüm dilə.
Sən gedib kef çəkdin özgələr ilə,
Mənsə qaldım yana-yana, ay gözəl.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Könlüm açılmayır bilmirəm neyçin,
Can qurban verərəm gəlsən sənincin,
Bir nakəs qeydinə qalmağın üçün
Mən qıymıram sən tək cana, ay gözəl.

Məşəd Vahidxan nə çəkirsən bu dərdi,
Eşqü-hicran gərək əyməsin mərdi.
İlk ox atdım, ilk oxum daşa dəydi,
Bağrım döndü qana, qana ay gözəl.

GÖRDÜM

Güzar etdim dost məclisin,
Bəzənmiş bir səfa gördüm.
Müyəssər olmuşdum qaldım,
Söz alıb mərhəba gördüm.

Düşdüm bu sonsuz çöllərə,
Biganə qaldım ellərə.
Bivəfa düşdüm dillərə
Yaman cövrü-cəfa gördüm.

Yaxınlaşdım, oturmuşdu
Biri tənha qəmgin-qəmgin.
O yalqızın bəxtin mənim
Öz bəxtimdən qara gördüm.

Güzar etdim yar küyinə,
Düşdüm hiyləgər felinə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Düz söz gəlmədi dilinə,
Bunu mən aşkara gördüm.

Sorur eşqin nə qədər ki,
Məhəbbətdə olmaz çəki.
Dilim gəlməz mən deyəm ki,
Yar əlindən şəfa gördüm.

O soruşsa Vahidxanı
Qurban verrəm şirin canı.
Könül bu gün Elmiranı
Görmüşdüm, bir daha gördüm.

AY GÖZƏL

Həsrətin çəkməkdən dəli-divanə,
Düşmüşəm dağlara, çölə, ay gözəl.
Baxmıb heç gözələ, heç gülüstana,
Getdim neçə-neçə elə, ay gözəl.

Elə ki sənlə eşq büsat qurdum,
Bir saət görməcək hamıdan sordum.
Sevdim, aşiq oldum, könlümü verdim,
Sən tək tazə açmış gülə, ay gözəl.

Vəfalı-vəfalı durub baxırdın,
Elmiraydı adın, Vəfa çağırdım.
Peymanını pozdun, əhdini qırdın,
Mənsə düşdüm dildən dilə, ay gözəl.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bilmirəm yadlara sən necə uydun,
"Ən əziz sevgindən" bəs nə tez doydun.
O gündən ki, gözüm yollarda qoydun,
Ay dolandı, döndü ilə, ay gözəl.

Məşədi Vahidxan qadanı allam,
Durub gəlsən, qolum boynuna sallam.
Neçə dərdim olsa inan sağallam,
Bircə yol üzümə gülsən, ay gözəl.

KÖNÜL HƏSRƏTİ

A dostlar, can verib mən ölən zaman,
Dünya laləzara bürünsün, görüm.
Əzəl məni sevən o nazlı dilbər,
Gəlib qoy yanımda görünsün, görüm.

Hey dedim ki, o qız insafa gələr,
Yolunda biləsən çəkdim mən nələr.
Xəbər verin gəlsin o nazlı dilbər,
Ölərkən qoy görsün gözlərim mənim.

Deyin gəlsin atsın hicran daşını,
Silsin dəsmal ilə gözüm yaşını.
Dizləri üstünə alsın başımı
Son dəfə dinləsin sözlərim mənim.

Azərbaycanın qeydinə qalın,
Eldən gedən Məşədi Vahidxanın,
Məzara qoymayın, bir az saxlayın
Kecikir alınsın torpağım mənim.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

MAY BAYRAMI

(Qəzetdə dərc olunub)

Qarşıda gəlir Bir May,
Hamının üzü gülür.
Ürəklərdə sevinc var,
Göydən nurlar tökülür.

Sevinir, gülür hamı,
Şadlıq keçiririk biz.
Çatıbdır May bayramı,
Fərəhlənir qəlbimiz.

Alır ələ qələmi,
Hər gənc, yazıçı, şair,
Yazır Vətənimizə,
Yeni məqalə, şeir.

Açır güllər, çiçəklər,
Bağ, meşə, geyir donun.
Hər yanda azadlıqdır,
Tərəfdarıyıq onun.

Göy çəməndə lalələr,
Qızarır bir köz kimi.
Şair də alır ilham,
Yazır gözəl şeirini.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ölkəmiz gündən-günə,
Get-gedə cavanlanır.
Baharla birgə o da,
Genişlənir, canlanır.

Vahidxan, hər bayrama
Şeirlə gələcəyəm.
Mənim may bayramına,
Budur dostlar hədiyyəm.

MƏNİ

Gözlərim intizar, gözlərim yolda,
Boğur kədər məni, boğur qəm məni.
Boranlı bir qışda, çıxılmaz halda,
Ey ilk məhəbbətim aldatdın məni.

Bir söylə nə idi mənim günahım?
Tərk eylədin məni ey novbaharım.
Bu günüm qurtarıb, yoxdur sabahım,
Demə sevməyəcək bir adəm məni.

Qulaq as sözümə, ey nazlı sənəm,
Olanda bir yerdə o gözəllə mən.
Deyirdi – ölsəm də yarım səninəm
Bircə ay keçməmiş o atdı məni.

İndi hər gözələ yox etibarım,
Dolanım başına vəfalı yarım.
Məşəd Vahidxanam budur ilqarım,
Sevməz mənim qədər bir həmdəm səni.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

QALMADIM

Dost tanışlar dağıldılar,
Yalqız qalıb çox aradım.
Nə şeirdən, nə sənətdən,
Nə yardan soraq almadım.

Payızla qış yetdi başa,
Yaz olanda gəlib coşa,
Oturub yar ilə qoşa,
Şirin xəyala dalmadım.

Biri günəş, biri çiçək,
Bir-birindən gözəl-göyçək.
Çağırdılar eşqdən əl çək,
Onlara da aldanmadım.

Dolaşır eşqin bağında,
Məşəd Vahidxan bu çağında.
Cənnət Qarabağ torpağında
Yatıb yuxuya qalmadım.

VƏFASIZ

Ah, ürək ağlayır yenə də zar-zar,
Demə vəfasızmış sevdiyim dildar.
Dildən şirin imiş, könüldən əyri,
Onun yarı varmış, məndən də qeyri.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ürəyim göylərdə azad quş ikən,
Durub süzdüyü vaxt hüsnünü gendən.
Qoparıb daşlara niyə vurdun sən?
Get-get vəfasızsan sən lap əzəldən.

Mənim bu könlümün nəydi günahı,
Bir sənə gəlirdi onun pənahı.
Bu şair könlümün fəryadı-ahı,
Bir gün tutar səni vəfasız dilbər.

Nə idi kağıza o yazdıqların?
Deyirdin –sevirəm səni mən yarım.
Söylə hanı əhdin, hanı ilqarın,
Necoldu dediyin o şirin dillər.

Bir gün lap çoxalıb bu qəm karvanım,
Sənə hücum çəkər gözəl cananım.
Qoparar qəlbini bir də görməzsən,
Hər gündə birinə könül verməzsən.

MƏN

Yenə dalğın-dalğın xəyala daldım,
Bu qəmli ilhamla hey çağladım mən.
Bu orta yaşımda bu günə qədər,
Can qurban edilən dost tapmadım mən.

Yarıyadək çıxıb baxdım yuxarı,
Buludlardan uca məhəbbət dağı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Boylandım oradan dərə aşağı,
Nə ora, nə bura yol tapmadım mən.

Haradır bilmirəm, heç mənim yolum,
Vəfalı bir dosta mən fəda olum.
Qırıldı qanadım, qırıldı qolum,
Axırda hicrini qucaqladım mən.

Məşədi Vahidxan, sadiq ol, sadiq,
Bir məşuqu sevər vəfalı aşiq.
Bu fani dünyaya uymaq nə layiq,
Əzəldən xudaya bel bağladım mən.

MƏNİ

Bilməm niyə aşiq oldum sənə mən,
Cəzb etdi səndəki buxaqlar məni.
Çarə eyləməsən inan öldürər,
Sinəmə çəkdiyin bu dağlar məni.

Bülbül fəğan eylər gül həvəsində,
Xarə qismət eylər gül bəhrəsində.
Yarpaqlar saralar xəzana düşsə,
Yenə də unutmaz budaqlar məni.

Üz döndərib getdin məni ataraq,
Şad könlümü etdi qəm varaq-varaq.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kimsəsiz qalanda bu qara torpaq,
Alıb ağuşuna qucaqlar məni.

Can qurban verərəm sən bizə gəlsən.,
Atma müjgan oxun sinəmə gəl sən.
Aldığım yarayla əgər ölərsəm.
Sən də vəfasızsan kim ağlar məni.

Məşəd Vahidxan halın yaman olubdur,
Əyilib qamətim kaman olubdur.
Könlümün gülləri viran olubdur,
Nə tez tərk eylədi o nigar məni.

ELMİRA

Elmira, nə qədər şirindir bu ad,
Eşqinlə altı il elədim fəryad.
Az qala çıxırkən mən təsirindən,
Qardaş bu gün mənə verdin istinad.

Bəzən axşamadək mən oturmadım,
Bəzən səhərədək gecə yatmadım.
Yayda isti vurdu, qışda boran, qar,
Zəhmətin çox çəkdim ey bivəfa yar.

Niyə nazlı gülüm sən atdın məni,
Başqa birisinə sən satdın məni,
Nələr yazdın mənə, nələr dedim mən,
Heç utanırsanmı dediklərindən?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məni gənc vaxtımda sən oda saldın,
O azad könlümü əlimdən aldın.
Bir söz deməmişdim sənə mən, a gül
Məcburi deyil ki, azaddır könül.

Sən getdin, qəlbimi aparıb getdin.
Sən getdin, könlümü qoparıb getdin.
Sən getdin, dərdimi etdin çox kimi,
Düzdür yaşayıram, amma yox kimi.

Sən getdin, mən qaldım darlara düşdüm,
Oldum sərsəm kimi torlara düşdüm.
Sən heç utanmadın getdin vüqarla,
Mənsə nazlı gülüm çox iztirabla.

Qalırkən tək tənha, tutdum üzümü,
Bir də məni heç kim görməsin deyə.
Daim daldalara atdım özümü,
Yağı məni görüb gülməsin deyə.

Niyə məni saldın çöllərə, niyə?
Məgər sən görmürdün azad bir quşam,
Özün də bilirdin səndən savayı,
Başqa bir gözələ vurulmamışam.

Eşqinlə hər zaman könlüm çağlayar,
Adın çəkiləndə qəlbim ağlayır.
Xəyala dalırkən ay qız yenə də
Surətin canlanır gözüm önündə.
Elmira... Nə qədər şirindir bu ad
Eşqinlə daima edərəm fəryad.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

EŞQİM

O qız ki, könlümü açmışdım ona,
Məhəbbət könlümdə coşan bir dəniz.
Vəfasız çıxanda o dilbər mana,
Necə əzablıdır, duya bilsəniz.
Mənə deyərsiz ki, doğrudan da sən,
Tükənməz cəfaya necə dözürsən.

Mən ona könlümü açdığım andan,
Deyirdi – sənինəm ay oğlan, inan.
Mənim sadiq eşqim vəfalı canan,
Məhəbbət cəfasın bilə-bilsəniz.
Mənə deyərdiniz doğrudan da sən,
Tükənməz cəfaya necə dözürsən.

Vəfasız övladı mənim qəlbimi,
Odur ki, artıbdır qəlbimin qəmi.
İlhamlı könlümün nazlı hakimi,
Cəfaya dözürəm necə bilsəniz.
Mənə deyərsiniz doğrudan da sən,
Tükənməz cəfaya necə dözürsən.

Hər zaman qəlbimi dağıdır bu qəm,
Varmı mənim qədər iztirab çəkən.
Mənim vurğun könlüm çağlar-inlərkən,
Onu bir kənardan dinləsəydin sən.
Mənə deyərdin ki, doğrudan da sən,
Tükənməz cəfaya necə dözürsən.
Məşəd Vahidxan soldu könlünün gülü,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Uçdu gülşəninin şeyda bülbülü.
Ey vəfalı eşqim, saçı-sünbüllü,
Mən səzi sevirəm necə bilsəniz.
Onda deyərsən ki, həqiqətən sən,
Saf bir məhəbbətə layiqmişsən.

CAVAB

Mən hərbi xidmətə yola düşərkən "dünənki uşaq bu gün əsgər gedir?" – deyən şəxsə

Madam uşaq idim bəs niyə ay qız,
Oduma yanırdın cavan çağında?
Dayana bilmirdin bir an da yalqız,
Salam göndərirdin gül dodağında.

Deyirdin – gözümdən getmə o yana,
Sən getsən qalaram mən yana-yana.
Hər gün göndərirdin bir gül nişana,
Cavab gözləyirdin yol qırağında.

Deyirdin əhdimdə yoxdur yalanım,
Dolanım başına qadanı alım.
Niyə bəs gəlirdi hər gün salamın,
Gülün üstündəki gül yarpağında.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məşədi Vahidxan şeir içrə dağdı,
Mən bülbüləm, tər sinən gül budaqdı.
Bu sözündə mənimçün bir soraqdı
İki il həsrətlə döz sorağumda.
1966, Qubalı-Baloğlan kəndi

NECOLDU

Qarlı dağlar sizdən bir söz soruşum,
Mən sevdiyim nazlı yarım necoldu?
İlk dəfə ovçusu oldum mən onun,
Ala gözlü ol nigarım necoldu?

O vəfasız idi, məni qoydu tək,
Elə bil dedi ki, yan, iztirab çək.
Bil ki, gözəllərdən o idi göyçək,
Gülər üzlü növbaharım necoldu?

Dinlədikcə əziz dostum bu şeiri,
Sanma ki, bunların deyildir yeri.
Bu sevgi yolundan çəkilsəm geri,
Söylərsiz əhdin, ilqarın necoldu?

Baxın buralara gəlsəm bir də mən,
Məndən sual edib deyərsiz o dəm.
Məşədi Vahidxan min bir dilinən,
Sənə könül verən yarın necoldu?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İLK OXUM DAŞA DƏYDİ

Könlümün oxunu mindirib yaya,
Var qüvvəmlə atdım getdi sevdaya.
Zəhmət çəkdim, aşiq oldum, Vəfaya
İlk oxum daşa dəydi, ilk oxum daşa dəydi.

Könlümü mən sənə verdiyim gündən,
Qəlbimdə yerini saxlamışam mən.
Çəkdiyim zəhmətlər bir yana desən,
İlk oxum daşa dəydi, ilk oxum daşa dəydi.

Məşədi Vahidxan, oduna yandım,
Yana-yana, oda bir də qalandım.
O nazlı dilbəri hər zaman andım,
İlk oxum daşa dəydi, ilk oxum daşa dəydi.

GƏNCLİK İLLƏRİ

Düşünüb anıram arabir səni,
Uşaqlıq illəri, gənclik illəri.
Hər vaxt xəyalımda canlanırsan sən,
Dağılmaq bilməyir qəlbin kədəri,
Uşaqlıq illəri, gənclik illəri.

Sənin duyğuların düşür yadıma,
Ürəyim döyünür saf məhəbbətlə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ağır günlər hər düşəndə yadıma
Gözlərim yaşarır acı riqqətlə,
Ürəyim döyünür saf məhəbbətlə.

Bilirəm qədrini bilmir çoxları,
Ey gənclik illəri, sən nə gözəlsən.
Fəqət gec gəlirsən, lap tez gedirsən,
Bir daha qalmırsan könllə həmdəm,
Ey gənclik illəri, sən nə gözəlsən.

Axşamdır, oturub fikrə dalıram,
Xəyalım arayır olub keçəni.
Elə bil xəyaldan ilham alıram,
Xəyalım uçaraq gedir irəli,
Bizi salamlayır gənclik illəri.

Bir də görürsən ki, qalmısan yalqız,
Çoxdan uzaqlaşıb gənclik illəri.
Tutub ətəyindən o sərt qocalıq,
Tutaraq səni də saxlayır geri.
Əlvida söyləyir gənclik illəri.

Acı ruzigarın kor olsun gözü,
Axtarıb tapmasın heç bir insanı.
Ancaq sən mənim ol gənclik illəri.
Yüz illər ötsə də bir sən mənim ol.
Ey gənclik illəri, gənclik illəri.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

AYRILIQ

Sevdiyim o qızı düşündükcə mən,
Bu azad qəlbimi çulğalayır qəm.
Mən onu sevmişdim ürəkdən-qəlbən,
İkimiz təklikdə olanda hərdən,
Deyirdi ki, mənə sevirəm səni,
Könlünü aç mənə küsdürmə məni.
Söylədi o qız ki, sevirəm səni,
İnandım mən ona, aldatdı məni
Ona könül verdim bir ilk baharda,
O məni tək qoydu boranda qarda.
Əvvəl arzularım təzə gül oldu,
Sonra təmiz eşqim yanıb kül oldu.
O vaxtdan ürəyim dönüb qan oldu,
Bu qəmlər könlümdə bir ümman oldu.
Açdı qollarını acı ruzigar,
Səslədi məni: gəl, gedənə yer var!
Mənsə dayanmadım irəli getdim,
Kədərdən əl çəkib, qəmi tərk etdim.
Çağırdı azadlıq – durma, gəl bəri
El-oba çağırır gənc nəsilləri.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

CAVAB

Hacıqabul rayonunun Rəncbər kəndində məktəb direktoru Mirbala Ağayev şeirlərimi oxuyandan sonra mənə dedi ki, sevginin əzabın görməmisən ona görə də bu qədər sevgidən yazırsan.

Hörmətli müəllim, dediniz ki, siz,
Sevginin əzabın görməmisiniz.
Düzdür görməmişəm lap sözün düzü,
Səhv hesab etmərəm düz sözünüzü.
Könlümün əzabı sevgidir, qəlbən
Şeirin, sənətin vurğunuyam mən.
Mənə hər bir işdə sevgi olub tən,
Bir də ki, sevdiyim anamız Vətən.
Biri də Qurandır könlümə sultan
Bil onunla gəlir könlümə ilham.
İlahidən aldım bu ilhamı mən,
O hikmətlər ilə olmuşam həmdəm.
Sevgidir sovqatı könlümün yalnız,
Yaşamaq istəməm əsla Quransız.
Məşədi Vahidxan eşq içrə bir şah,
Sevgim, eşqim, yarımdır, yalnız Allah.

1966

SƏMƏD VURĞUN
(heykəli önündə)

Qışda qasırğada qarda, boranda,
Yayda yaylaqlarda, yazda aranda,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Tərlanlar könlümdə yuva quranda
Sən də ürəyimdə olaydın, Səməd.

Şairim gülümsər baxırsan yenə,
Bəlkə də deyirsən – unutma məni.
Ömrün çağlarından ötsə yüz illər,
Unutmaq olarmı ellər sevəni?

1964

XALQ ŞAİRİ SƏMƏD VURĞUNA

Səməd Vurğun Yusif oğlu Vəkilov,
Mənim müəllimim, söz dirəyimdir.
Ağam verib mənə şair ilhamın,
Vurğun şeirləri bil ürəyimdir.

Vurğuna baxıram bir vüqarla mən,
Gözlərim önündə canlanır Vətən.
Bax fikrə dalmışam, yenə xəyalən
Birlikdə çıxırıq Muğan düzünə,

Sirdaşımız qələm, Vurğun, bir də mən.
Sizə bəxş edirəm sevgilim bunu,
Vurğun tək olmuşam ellər vurğunu.
Görmək istəsəniz Səməd Vurğunu,

Könlümün ən uca zirvəsində Siz,
O xalq şairini görə bilərsiz.
Vurğun tək alıram ilhamı mən də,
Gəzərkən çöl-çəmənləri Vətəndə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

KÖNLÜM

Əzəl sevgisindən bir kam almayıb,
Sonra dərdə düçar olalı könlüm.
Sən ona nə dedin, o niyə getdi
Bir gözəl əlindən bəlalı könlüm.

Eşqi duymamışdım bu qədər çətin,
Dözülməz ağrısın ilk məhəbbətin.
Söylə nədir indi sənin niyyətin
Ey ilk sevgisindən yaralı könlüm.

Sən ki, könlüm, aşiq oldun Vəfaya,
Sinəni çox gərdin cövrə-cəfaya.
O gün ki, ayrılıq düşdü araya,
İtirdin bir gözəl maralı könlüm.

Onunla əlinə düşəndə fürsət,
Vaxt ikən özünə eyləmədin bənd.
Elə ki əlindən sürüşdü kəmənd,
Sonra günü-gündən saralı könlüm.

Mənə "Məcnun" dedilər, "Leyli" Vəfaya,
Məşəd Vahidxan uymaz zövqü-səfaya.
Bu dərdə dözməyib gəldim Göyçaya,
İndisə olmusan buralı könlüm.

1966, dekabr, Göyçay

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BOYLANA-BOYLANA

Bəzi şagirdlərimiz, dostlar,
Gəlir boylana-boylana.
Gah o tində, gah bu tində
Durur boylana-boylana.

Sevir dırnaq saxlamağı,
Tellərin yan daramağı.
Xoşlayır gözəl olmağı,
Gəzir boylana-boylana.

Müəllim çağırır lövhəyə
Durur boynun əyə-əyə.
Gözlərini döyə-döyə
Baxır boylana-boylana.

Dərsin bilmir alır iki
Zalımın tərpənmir tükü
Şagird olmaz mənim təki
Deyir boylana-boylana.

Dərslərinə vermir fikir
Nə də bir xəcalət çəkir.
Elə ki müəllim üç verir
Gülür boylana-boylana.

1965

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BAYATILAR

(Əsgər yoldaşlarımın xahişi ilə)

Mən aşiq könül açdım
Söz verdim, könül açdım.
Sirrim kimsə bilmədi
Yarıma könül açdım.

Mən aşiq ala gözlər
Qeydimə qala gözlər.
Az qalıbdı canımı
Lap indi ala gözlər.

Mən aşiqəm sevirəm
Yar səni mən sevirəm.
Madam ki, vurulmuşam,
Öldürsən də sevirəm.

Mən aşiqəm sənə yar,
Sənə həmdəm, sənə yar.
Sən məndən inciyincə,
Ürəyim xəncərlə yar.

Əzizinəm gözəl yar,
Bağlar oldu xəzəl yar.
İkimiz peyman edək,
Gəl sən söz ver əzəl yar.

Gəl gəzək dağlar aşaq,
İkimiz birgə yaşaq.
Gözəl vətənimizə

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Saz çalaq, şer qoşaq.
Əzizinəm, bax mənə,
Baxma yada, bax mənə.
Necə yaraşıqlıdır
Mərmər sinə, ağ məmə.

Əzizim baxma mənə,
Gəl elə baxma mənə.
Sən razı olmasan da,
Qurbanam ağ məmənə.

Əzizim gülmə mənə,
Yarınam, gülmə mənə.
Neçə vaxtdır həsrətəm,
Sənin o gül məmənə.

Əzizim sarı köynək,
Dağların qarı köynək.
Gör necə də yaraşır
Ağ məmə, sarı köynək.

Ağ məmənə çəpərəm,
Yaddan uzaq çəkərəm.
Əgər icazə versən
Gözlərindən öpərəm.

Mehmanam gözlərinə,
Heyranam sözlərinə.
Hər gün qurban olaram
O ala gözlərinə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mən aşiq gül üzünə,
Heyranam gül üzünə.
Qoyma ki, həsrət qalım
Ay gözəl gül üzünə.

Əzizinəm gələr yar,
Hicran çəkməz, gələr yar.
Eşitsə ki, xəstəyəm
Bir an durmaz gələr yar.

Qəlbimi yar sındırdı,
Nazlı nigar sındırdı.
Sanmayın özgə idi,
Sevdiyim yar sındırdı.

Hər ildə gül əkəcəm,
Yanına çəpər çəkəcəm.
Dərdim var, ömrüm boyu
Yar həsrəti çəkəcəm.

Mən aşiq, bağda getdi
Ömrümüz bağda getdi.
Yar getmişdi ölürdüm,
Bağça da, bağ da getdi.

Mən aşiq, dağda yandı
Eşqim bir dağ, dayandı.
Bir ah çəkdim, ahımdan
Od tutdu, dağ da yandı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mən aşiq ilqarından,
Əhdindən, ilqarından.
İki ilə söz verdi
Yar döndü ilqarından.

Nəzakətəm vəfasız,
Dəqiqəm keçməz nazsız.
Gündə on yar sevərəm
Məhəbbətsiz, avazsız.

Mən qaldım yad qəmində,
Öz dərdim, öz qəmim də...
Bu qədər nalə yazdım,
Day yazmır qələmim də.

Vahidxan, gülü üz göndər,
Hər nə desən düz göndər.
Vəfalı yarla qovuş,
Bivəfadan üz döndər.

Əzizinəm tər sinə
Mərmər sinə, tər sinə
Bir kəlmə məmə yazdım.
Oxu onu tərsinə.

Məşədi Vahidxanam mən,
Yar sənə oldum həmdəm.
Əzizim, gözəl canan,
Yalnız səni sevirəm.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

KÖNLÜM

Birdən birə nə tez susdun?
Həmişə ilhamlı könlüm.
Əhdini nə tez unutdun?
Demə bu böhtandı, könlüm.

O gün yarın səni atdı,
Demə mətləbinə çatdı.
Sor ondan bu nə büsatdı,
Məgər yoxdur dilin, könlüm.

Şad könlümü əsir aldı,
Qəlbimə vəlvələ saldı.
Bu yamanlıq kimə qaldı?
Yaxşılıq eyləyən könlüm.

Əzəl söz verdi ilqarsız,
Əhdin dandı o vəfasız.
Sonra güldü arsız-arsız,
Soldu sənin gülün könlüm.

Aldatsa da səni yarın,
Heç əyilmədi vüqarın.
İlk məhəbbətin, nübarın,
Vəfasızdır sənin könlüm.

Məşədi Vahidxan gəl coşa,
Gəz vətəni başdan-başa.
Görən desən sən yüz yaşa,
Yenə də ilhamlı könlüm.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

DE YADINDAMI

Sevgilim o keçən şən günlərimiz,
O gözəl çağlarmız de yadındamı?
Ağaclar saralıb tökəndə xəzəl,
Gizli görüşlərmiz de yadındamı?

O gənc çağlarımız o keçən zaman
Hüsnünün oduna eşqiylə yanan
Verdiyi əhdinə vəfalı olan,
Məşədi Vahidxan de yadındamı?

O gündən ki, vurğun oldum mən sənə,
Hey qaçıb gələrdik gizlin çəmənə.
Başımı yavaşca qoyub sinənə,
Xəyala daldığım de yadındamı?

Qəlbə ilham gəlir hər sən gələndə,
Səndən ilham alıb könlüm güləndə,
Dodaqlarmız bir-birinə dəyəndə,
Qəlbin döyüntüsü de yadındamı?

Yazdığım bir şeir zərif dilində,
Sən anandan gizlin qaçıb gələndə,
Çeçələr bağçada, çöldə, çəmәndə,
Ləbindən əmdiyim de yadındamı?

Rəqib sözü qəlbimizi əyəndə,
Hicran mehi saçlarmıza dəyəndə,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kursa getdiyimi sənə deyəndə,
Gözlərin dolduğu de yadındamı?

Məşəd Vahidxanı sanma uşaqdır,
Mənim dağlar qədər ilhamım vardır.
Bir də ki, sevdiyim sən tək nigardır,
Dediyim sözlərim de yadındamı?
1964

KÖNLÜMÜN HARAYI

Mənim həyatımın gözəl anları,
Hər gələn dəqiqəm sənlə bağlıdır.
Gülləri saralmış o güldanları,
Qaytar barı, könlüm çox qübarlıdır.

Qəmləndirmə məni, qurbanın olum,
Atdın məni, qırdın qanadım, qolum.
İndi səndən sonra bil mənim yolum,
Yayda da, qışda da, boran qarlıdır.

Nə qədər ki sağam mən ömrüm boyu,
Səsləyəcəm səni dayanmasan da.
Sadiq sevgilinəm mehriban gözəl,
Mənim bu halıma sən yanmasan da.

1967

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İNDİ

Mənim ümidimi üzdüyün üçün,
Qəflətən bir daşa dönəsən ay qız.
Məni gözü yolda qoyduğun üçün
Axırda sən nakam ölәsən ay qız.
(Bir nəfərin şeir dəftərindən.)

Aman dost qarğıma alagöz yara,
Qəlbim tab eləməz ağlaram indi.
Dönüb qəm selinə mən bircə anda,
Coşub ümman kimi çağlaram indi.

Vəfasız olsa da nazənin dildar,
Sabitqədəmlikdən olmaram kənar.
Allahdan dilərəm şirin arzular,
Xoşbəxtlik, səadət saxlaram indi.

Məşədi Vahidxan olmaz vəfasız,
Ağalar kərəmsiz, qullar xətasız.
Bir yol səhv edəni niyə qınarsız
Bütün bəndərgahı bağlaram indi.

1966

AVTOBİOQRAFİYA

Ey könül sultanım, güldür qamətin,
Ləngitmə məktubun hicran ağırdır.
Mənin səndən sənə var şikayətim,
İndi hicri könlüm evin dağıdır

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Rəhm diləmirəm eşq önündə mən,
Alıram ilhamı həm də hicridən.

Vahidxan, sevgilin səni arzular,
Al sorağın gəzmə sən ondan uzaq.
Həyatda hər şeyin öz qanunu var,
İnsan qoy olmasın insana dustaq.

Demirəm dünyada əl qır hər şeydən,
Xəstəyəm, dərdindən, düşünsən bir dəm.
Allah göstərməsin olsa vəfasız,
Neyləmək taleyin hökmüdür ay qız.

Adımızı bilməyi eyləsən soraq,
Yanılma başdakı hərflərə bax.
Məşədi Vahidxan sözün sərrafı
Bizə kömək olsun çağır, Allahı.

XATİRƏ

Gəlir xəyalıma gənclikdən bir gün,
Gözəl yaz fəsliydi bir bağda o gün.

Oturub sevdiyim qızla biz qoşa,
Söhbət eləyirdik, verib baş-başa.

Mən şeir deyirdim, o dinləyirdi,
Sanki bülbül gülə nəğmə deyirdi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Başımı almışdı dizi üstünə,
Sonrasa əyilib özü üstümə.

Deyirdi – ölsəm də getmərəm inan,
Mən sənin olacam boyuna qurban.

O gün çox söz verdik biz əhd eylədik,
Nə qədər gələcək arzu söylədik.

İndi nazlı gülüm atsan da məni,
Barı bir unutma o xatirəni.

1968 İrak Bəsrə şəhəri

LƏLƏNİN HARAYINDAN

Lələnin harayından,
El qopdu, harayından.
Gündə bir kərpic düşür
Ömrümün sarayından.
Bayatı

Ürəyim qanlı doldu,
Eşqin piyaləsinə.
Xəbərsizdim, ayıldım,
Yarımın naləsinə.

Can düşər cazan yerdə,
Ürəyim süzan yerdə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mən yanında olaydım,
Sən onu yazan yerdə.

Lələdən haray düşər,
Dayanmaz hər ay düşər.
Səndən gündə bir kərpic,
Məndən bir saray düşər.

1969

HƏRBİ XİDMƏTƏ GEDƏNDƏ ƏSGƏR YOLDAŞLARIN SÖHBƏTLƏRİNƏ UYĞUN YOL DÜŞÜNCƏLƏRİ

Hərdən saatlarla fikrə dalıram,
Bəzən lap özümü unuduram mən.
İlahi, hüdudsuz qüdrətlərini,
Vaxt olur aylarla düşünürəm mən.

Zaparojye

***

Bu dünya nə qədər dərindir, dərin,
Onu öyrənməyə cəhd edənlərin,
Əlbət ki, qüvvəsi çatmaz bu işə,
Mən də arzulardım bunu həmişə.

Sinferepol

***

Səadət! – gözəl nemət.
Məhəbbət! – nazlı afət.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şeiriyyət! – alagöz yar.
Şairlik! – eşqü sənət.

Rəssamlıq! – böyük hünər.
Musiqi! – ağlar, gülər.
Tarzən – çalar nələr...
Könüllər vəcdə gələr...
Türyançayın üstündə

DİLBƏRİM

Səni, taleh mənə eyləsə halal,
Mən də öz könlümü sənə verərdim.
Ləblərin qönçədir, qaşların hilal,
Sən olsaydın yarım, dəxi nə dərdim.

Dil bilənsən, söz anlayansan özün,
Hal bilən gözələ can qurban olsun.
Gözəllik zahirdə olmaqla deyil,
Rəftar gözəl olsun, qəlb gözəl olsun.

Adın Güldəstədir, özün qızıl gül,
Nə gərəkdir mənə gümüş, qızıl, gül.
Aç sinəni qızıl dillən, qızıl gül,
Şamamalar başım yastığı olsun.

Məşədi Vahidxanam hüsnünə heyran,
Görcək səni gəldi könlümə ilham.
Kənar gəzib etmə məni pərişan,
Bir busə ver, yazmağa meydan olsun.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

GÜLƏ-GÜLƏ

Müddətdir yatıram, ağır xəstəyəm.
Əcəl gəlir bəri, ay gülə-gülə.
Sevgilim, yanımda boş oturma sən,
Yatdığım günləri say, gülə-gülə.

Mənə eşqin məhəbbətin çoxsa da
Gözün, könlün təbiətdən toxsa da
Haqqını verməyə imkan yoxsa da,
Öpginən üzümdən pay, gülə-gülə.

Nə qədər kəm ovraq olsa da yarın,
Daşqınlıq etsə də bu eşqi-zarın.
Məşədi Vahidxan o şux nigarın,
Əlindən alıb iç çay, gülə-gülə.

***

Mən ilhamı öz elimdən, gözəllikdən alıram,
Vətənimin hər yerindən, təbiətdən alıram.
Elə şeir yazmıram ki, getsinlər hədər,
Yaxşı şeirim qoy oxunsun bu həyat qədər.

Mahaçqala

***

Vahidxanın qəlbin dinlə, ay gözəl
Bütün ömrüm boyu razı deyiləm,
Sənsizkeçirməyə bir dəqiqəmi,
Sevirəm sevgilim, sevirəm səni.

Xarkov

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

***

O gün ki, ay gözəl ayrıldım səndən,
Yandırdı qəlbimi sənin həsrətin.
Sən mənim oduma yanmadın ay qız,
Mən sənin oduna yanmışam, yəqin.

Xəncər kirpiklərin töküb qanımı,
Şaqraq gülüşlərin alıb canımı,
Tez ol gecikdirmə, ver fərmanını,
Tutulsun əmrinlə divanım mənim.

Qomel.

VƏFA

Yatmışdım yuxuda gördüm mən səni,
Durub ixtiyarsız ayıldım Vəfa.
Bir rəhmin gəlmədi mənə a zalım,
Sanaydın qapında sayıldım Vəfa.

Aldatdın məni ki, sevirəm səni
Könül verdin mənə, incitdin məni.
Vəfasız çağırır bütün el səni
Mənə də vəfasız ad qoydun Vəfa.

İndi mən dərdimi söyləyim kimə
Kim şərik olacaq bu eşq dərdimə
Sənə vurğun olan yazıq könlümə
Amansız dilinlə od qoydun Vəfa.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bizim bu diyarı gəz, ara, axtar,
Mənim səndən qeyri söylə kimim var.
Niyə ağlayırdım bilsən o vaxtlar
O qara gözlərə mayıldım Vəfa.

Görüşə vaxt verdin sən saat birə,
Dedin ki, gələrsən o tanış yerə.
Məşədi Vahidxanı sən birdən-birə,
Günahsız aldatdın, ayıldım Vəfa.

Qorlovka

***

Aparıb ağlımı, alır canımı,
Hər yada düşəndə xəyalın, ay qız.
Lap yıxıb dağıdır xanimanımı,
Bəstə boy o gözəl camalın, ay qız.

Minsk

***

Necə yatım mən bu gecə,
Sevdiyim yar yatağımda.
Candan artıq istədiyim,
Oturub can otağımda.

Vilnüs

***

Getmib qulağımdan əks-sədası,
Şaqraq gülüşlərin hələ də, ay qız.
Hələ sevməmişəm mən heç gözəli,
İki uşağın var, yanasan ay qız.

Kaunas

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

MƏNƏ VƏTƏN TAPŞIRIRSAN

Hər an xəyalınla ana,
Dolaşıram sorağında.
Vətənə keşik çəkirəm,
Mən Baltikin sularında.

Gələndə hərbi xidmətə,
Mənə – fikir çəkmə – dedin.
İşin çətin, ağırından,
Heç qorxub çəkinmə – dedin.

Bizi də unutma bala –
Deyə öpdün gözlərimdən.
Gözlərim yaşardı ana,
Sənin odlu sözlərindən.

Sanma o vaxt mən ağladım,
Ağlamırdım, ana inan
Sevinirdim çünki bu gün
Mənə vətən tapşırırsan.

Kalininqrad, Baltiysk şəhəri.
1969, may, Polşa sərhədi

KEŞİKDƏ

Gecədən xeyli keçmişdir,
Dayanmışam mən keşikdə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Külək əsir, şaxta kəsir,
Lap dizdəndir qar eşikdə.

Külək aram olan təki,
Lopa-lopa tökülür qar.
Boylanıram sağa-sola,
Yaxında qəşəng bir ev var.

O evdə güldükcə körpə,
Sevindirir bu səs məni.
Bu gün, onu qoruyuram,
Qoruyacaq o da məni.

Fevral, 1969

***

Bir tanışım deyir – mənə yazmağı öyrət,
Yaxşı olar biz yazarsaq ikimiz əlbət.
Şeir dostum, şeir yazmaq deyildir asan,
Daş içindən cəvahir, ləl gərək tapasan.

Sevestopol, 1968 avqust

VƏTƏN MƏHƏBBƏTİ

Könül, gəl bir daha gələk ilhama,
Deyirlər sevgidən, yardan çox yazma.
Heç nə mane ola bilməz ilhama,
Hər kəsə aldanıb könül yol azma.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Atma məhəbbəti, atma sevgini,
Sevgi-məhəbbətsiz ürək olarmı?
Dolan gülşənləri, ara qəlbini,
Sevgiylə bəslənən çiçək solarmı?

Məhəbbətlə qurşan başla hər işi,
Məhəbbətlə gedən zirvəyə çatar.
Vaxtından tez görə bilsən işini,
Demək onun səndə məhəbbəti var.

Sevimli Vətənim Azərbaycan tək,
Dünya miqyasında bir ölkə varmı?
Dolan gülşənləri, ara qəlbini
Sevgiylə bəslənən çiçək solarmı?

Sevostopol, 01.09.1968

***

Mən könüllər aləmini gəzdim, etdim səyahət,
Şair qəlbi kimi gözəl, sadiq bir qəlb görmədim.
Yazılan əsərləri çevirdim varaq-varaq,
Onlarda bir damla da eşqə xilqət görmədim.

1968, may, Türkiyə Bosfor boğazı

***

Mən, könlümdə Vətənimə məhəbbətə can dedim,
Hansı yerdə ağız açdı, xəyanətə, yan, dedim
Vətənimi sevdim özüm, sevgili tək saxladım,
Min ilhama könül verib ona könül bağladım.

Türkiyə, İstanbul,1968

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

AZƏRBAYCAN

Qırxı keçsə də yaşım,
Saçıma düşsə də dən.
Doymadım gözəllikdən,
Şeirdən, təbiətdən.

Eldən aldım ilhamı,
Sevdim Azərbaycanı.
Özüm alım qadanı,
Ana Vətənim sənsən.

Türkiyə, Mərmərə dənizi, 1968

***

Heç gözəl mənim tək sənincin yanmaz
Səkkiz ildir nə edirsən fəğanı.
Vahidxan Vəfadan sənə yar olmaz
Bir bəri bax, özüm alım qadanı.

Türkiyə, Dardanel boğazı, 04.09.1968

TAR İLƏ QAVAL

Hərəsin ayrıca çalsaq bunların,
Yəqin çox oxşamaz könlünü qaval.
İlhamlı könlümün həmdəmi tardır,
Telində səslənir bütün mahnılar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sevdiyim dilbərin incə səsi tək,
Tarın da səsini anıram hər vaxt,
Tarı nə vaxt desən dilləndirərəm,
Sevgilim dinməyir istədiyim vaxt.

Gözəllik hər kəsdə bir təhər olur,
O gözəlliklərdən tarda da vardır.
Azəribaycanın hikmətləri tək,
Könül məftun edən gözəl mahnılar.

Egey dənizi, 05.09.1968

DOST SÖZÜNÜN YADİGARI

Desəm bəlkə inanmazsan;
Mərdin olmasa da varı,
El içrə hörməti olar,
Heç vaxt görməz ahi-zarı.

Namərd o gün bir söz dedi,
Ürəkləri böldü yarı.
Dosta dedim heç qəm yemə,
O da görər ahi-zarı.

Məşədi Vahidxan, ataram,
Dostdan ötrü ixtiyarı.
Şirin olur, ey insanlar,
Dost sözünün yadigarı.

Aralıq dənizi, 1968, may

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

QUTTİERE

Sevgilim, insanın ömrü gödəkdir,
Gəl eşit sözümü sev həqiqəti.
Könül sevən hər gözəldən göyçəkdir,
Sevgidir gəncliyin sözü-söhbəti.

Sən mənim istəkli Quttierimsən,
İxtiandr kimi bir sevgilin var.
İxtiandr mənəm, Quttierem sən,
Əlvida söyləmə mənə, gözəl yar.

Biz heç ayrılmarıq bir-birimizdən,
Çün azad dövranda yaşayırıq biz.
Onları ayıran o sərt dənizdən,
Bil ki, görməmişik biz heç birimiz.

Aralıq dənizi, 1968 oktyabr

ANA

Yatmışdım, yuxumda gördüm mən səni
Durub ixtiyarsız ayıldım ana.
Duranda yanımda görmədim səni,
Həqiqət deyilmiş xəyaldım, ana.

Nə qədər acıdır həsrətin sənin,
Səni düşünəndə dağılır qəmim.
Minlərlə olsa da könül həmdəmim,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hamıdan çox səni anıram, ana.
Hərdən oxuyurdun sən həzin-həzin,
Bütün kainatda yoxdur əvəzin.
Hey qulaq asıram gəlməyir səsin
Sənə qurban Məşədi Vahidxan, ana.

Kərbəla şəhərində, İrakda. 1968

KOMSOMOLUM

(50 illik yubileyinə)

Döyüşlərə sinə gərdin,
Hər bir işdə oldu adın.
Vətənin al bayrağı tək,
Günəş təki sən parladın.

Komsomolam, bu gün mən də,
Vətənimin keşiyində.
Azadlıqdır mənim yolum,
Komsomoldur sağım, solum.

Ey ordenli Komsomolum,
Beş ordenli Komsomolum.

Kərbəla, 1968 okytabr

ZEYNƏB XANLAROVAYA

Sən nə həzin, nə sevdalı oxudun,
Titrədi qəlbimin telləri, Zeynəb.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Köklənmiş tar kimi, sanki könlümün
Sənlə dilə gəldi zilləri, Zeynəb.

Füsünkar səsinə vurğunam sənin,
Dinləyəndə səni dağılır qəmim.
El sənə heyrandı gözəl müğənnim,
Gəl oxu, sevindir elləri, Zeynəb.

Azəri yurdumun şairiyəm mən,
Ölümə hazıram əmr etsə vətən.
Könlümdə gül açdı inan ki, səndən,
Eşitcək min şirin dilləri, Zeynəb.

Kərbəla şəhrində dinlərkən səni,
Sanki seyr eylədi m doğma vətəni.
Oxu bu şeiri sevindir məni,
Məşədi Vahidxan saysın illəri, Zeynəb.

İrak. Kərbəla şəhəri, 1968

ANA ŞƏFASI

Ana, nə incədir rübabın sənin,
Qış ikən könlümdə güllər açıldı.
Könlümün buz tutmuş qarının üstə,
Yaz günəşi doğdu, şəfəq saçıldı.

Xəstəydim, yatırdım xəstəxanada,
Məktubun gələndə qalxdım yataqdan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yeriyə bilmirdim bir addım belə,
Məktubunu alıb çıxdım otaqdan.

Düşdüm asta-asta pilləkənləri,
Çıxıb astanada bir az dayandım.
Yazdığın ünvanı mən dönə-dönə
Oxuyub, sətirlər üstə dayandım.

Açıb məktubunu oxudum, sanki
Vətəni seyr etdim mən bu zamanda.
Dost tanışdan uzaq nə pis olarmış,
Görüş həsrətiylə ürək yananda.

Xəstəlik beş on gün çəkərdi hələ
Məktubunu alcaq kamımı aldım.
Vətən ətrin alıb qürbət ölkədə
Vahidxan, həmin gün orda sağaldım.

Ərəbistan, Mədinə yaxınlığı, 1968

QƏRİBLİK

Əsən külək, bizə sarı əsirsən,
Sən məndən anama, salamlar söylə.
O əziz anamın gözü yoldadır,
Atama, anama salamlar söylə.

Mehriban qardaşım düşür yadıma,
Bacılarım and içirlər adıma.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qərib ölsəm, de kim çatar dadıma?
Bu ərzi halımı, anama söylə.

Gəlir xəyalıma o nazlı Vəfa,
Arzumdur, həmişə xoş sürsün səfa.
Bunu aşkar deyil gizli, ey səba,
Halıma ürəkdən yanana söylə.

Bu xəstəlik deyil, dərmanı ola,
Ötəri deyil ki, dövranı ola.
Məşədi Vahidxan sənə qurban ay ana
Halımı özüm tək qanana söylə.

Xəil şəhəri yaxınlığı, 1968 Səudiyyə

QƏRİB ELDƏ

(Ana və ata məhəbbəti)

Yeddi aydır ayrılmışam,
Ana səndən, ana səndən.
On doqquz ildə heç doymadım,
Ana səndən, ana səndən.

Ata, on respublika keçdim,
On birincidə gəldim düşdüm.
Bu vaxtımda uzaq düşdüm,
Ata səndən, ata səndən.

Vurub kəssən mənim əlim,
Doğrasan da dilim-dilim,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İncisəm mən, bu gün ölüm,
Ata səndən, ata səndən.

Yer üzündə ana çoxdur,
Bil ki, gözüm, könlüm toxdur
Məşədi Vahidxan deyir – yoxdur
Ana səndən, ana səndən.

Məkkə şəhəri yaxınlığı, 1968

VƏTƏN HƏSRƏTİ

Bu gecə röyada gördüm, bir də mən,
O azad Vətəndə, doğma eldəyəm.

Geniş bir küçədə, cavan bir oğlan,
Nəsə eşitmirəm, deyir ucadan.

Yelləyir əlini, sağa gah sola,
Bütün xalq axışıb tökülüb yola.

Biri sevinc dolu gözlərlə baxır,
Biri təəəccüblə bir bax boylanır.

Birisi kədərli, digəri hirsli,
Mən başa düşmürəm, yaxşıdı, pisdi.

Gülür hamı gülsün, yoxsa ki, hərə,
Yığışıb, dayanıb burda bir cürə.

Bu nədir, nədir bu, bilmirəm nədən,
Bu gecə röyada belə görmüşəm.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BİLƏYDİM

Əziz və bircə qardaşım Əlibağı Əzimova

O ana vətənin mən bir də qardaş,
Nazlı gözəllərin süzə biləydim.
Yamyaşıl çöllərin dalıb seyrinə,
O tər qönçələrin üzə biləydim.

Gözəl çəmənlərin, gözəl bağların,
Ceyranlı, cüyürlü şən oylaqların,
Keçib dərələrin, aşıb dağların,
Azərbaycanımı gəzə biləydim.

Qardaş, indi gəlir könlümə avaz,
Mən əzbərdən deyim şeiri, sən də yaz.
Çiynimdə tüfəng, sinəm üstə saz,
O ana Vətəni gəzə biləydim.

Qardaş, Məşədi Vahidxan qurban boyuna,
Bu şeiri mən yazmışam toyuna.
Ana vətənimin bir gün boynuna
Şeirdən mirvari düzə biləydim.

Afrika, Qahirə şəhəri, Misir. 1968

***

Əngin fəzalara xoş təranələr,
Alıcı quş kimi qoy yaysın sazım.
Bütün ürəklərə süzülsün, mənim
Qəlbləri oxşayan, şirin avazım.

Qırmızı dəniz, 1968 sentyabr

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

***

Yenə ilham gəldi şair könlümə,
Qalxdı asimana şeirin şöhrəti.
Yazsın səhifəsinə bu hikmətləri
Şeirin, sənətin əbədiyyəti.

Afrika, Qırmızı dəniz, 1968 sentyabr

FƏXRİYYƏ

Bizim bu sadəcə rus dili ilə
Danışır millətlər bir-biri ilə.

Rus dili dünyada bütün bəllidir,
O, dahi Leninin ana dilidir.

Dil öyrənmək heç də aparmır vüqar,
40 dil bilən qırx adamdır yeri var.

Bir ilə öyrəndim fars, ərəb, türkü,
Lakin ona görə sevinirəm ki,

Leninin dilini öyrəndiyim gün,
Dilin öyrənmişəm Yer kürəsinin.
1968-69, Misir-Türkiyə-Polşa.

***

Sən, öz həyatından səhifələr yazdın,
Mən, millət eşqilə yazıb ağladım.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sən, yalnız özünçün hər vaxt çalışdın,
Mən, vətən eşqiylə coşub çağladım.

***

Mən hər gün gəlirəm, sənsə ay gözəl,
Deyirsən – get bu gün, gəl sabahları.
Axı yığıb-yığıb neyləyəcəyik,
Sən vədə verdiyin bu sabahları?

1974

***

İlhamlı idim, şur ilə eşqində yazardım,
Ol şux gətirib könlümü min şövqə deyillər.
Tünd içməyirəm, rəngini az eylə nigarım,
Pürrəngli çayın təsiri var zövqə deyillər.

1964

***

Səni elə sevirəm,
könlümün aynası, nar.
Əgər getsən gözümdən,
bir yolluq ayna sınar.
O dəhşətdən qorxuram,
a ilkim, a ilk nübar.

1965

***

Yaxın gəl sevgilim, öpüm səni mən,
Gəl öpüm o ala, şən gözlərindən.
Anla ki sevgilim bu axşam da sən,
Könlünü açmasan xar olaram mən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

1964

***

Dəcəl uşaqlığın, şıltaq gəncliyin,
Məhəbbətlə dolu vüsalısan sən.
Sevdalı başımın gül yastığının,
Anamla birlikdə laylasısan sən.
Atlantik okeanı 1968

***

Kimdir səni asıb-kəsən,
Kimdir məni dara çəkən.
Bu ixtiyar səndə ikən,
Qəlbimi sındırma lələ.

Qədəminə qurban olum,
Cəddim böyük, özüm hünər.
Hiss etməsən yar qəlbimi,
Gör Vahidxan çəkir nələr.

***

Yapışmışam ətəyindən, göydə Allah, yerdə sən
Bu qızıldan heykəllərin qədrini sən bilirsən.
Öz qapını İmam Hüseyn qapısına bənzədib,
Məyus etmə Vahidxanın qəlbini sındırma sən.

1979

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

SƏN ALLAH ODLARA QALAMA MƏNİ

Sən gedən yollara əkdiyim çinar
Böyüyüb ucaldı, gəlib çıxmadın.
Əydi qamətini yaşıl budaqlar
Min xəyala daldı gəlib çıxmadın.

Ay mənim ruhumu yandırıb yaxan
Bu necə gedişdi, söylə hardasan
Gecəli gündüzlü yollara baxan
Mir Yusif qocaldı gəlib çıxmadın.

Mir Yusif Mir Nəsiroğlu

Nə qədər istəsən yandır əzizim
Sən allah odlara qalama məni.
Belə ayrılığa tapılmaz dözüm
Sən allah odlara qalama məni.

Yollarında qızıl güllər əkərəm
Hönkür-hönkür göz yaşlarım tökərəm
Səni qucub ürəyimə bükərəm
Sən allah odlara qalama məni.

Bu necə səfərdi, bu nə gedişdi
Səni də gözləyir vaxtı sərkeşdi
Heç kimə fərq qoymaz, tanış-bilişdi
Sən allah odlara qalama məni.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dostlar qurban sənin həsrət qəlbinə
Yanmayanın özü nədir, qəlbi nə.
Həyat boyu mən şərikəm dərdinə
Sən allah odlara qalama məni.
Bu şeirini ürəyimə tikmişəm
Saatlarla göz yaşlarım tökmüşəm
Mən şərikəm, deməyinən təkmişəm
Sən allah odlara qalama məni.

Fələk gərdişidir dözüb səbr elə
Kimi yüz yaşayır, kim gedir elə
Məşədi Vahidxan da gedəcək belə
Sən allah odlara qalama məni.

SÖZLƏRİN

Bu boy-buxun verib sənə ilahi
Hər səni görəndə itir qəmlərim
Bülbül təki cəh-cəh vurub ötürsən
Sanıram pay umur məndən ləblərin.

Mən səni özümə bir sahib sannam
Fəqət gecikmişəm ögey tək yannan.
Ömrüm boyu dözüb eşqinlə yannam
Gər toxunmasa da mənə əllərin.

Bütün varlığımla vurğunam sənə
And verirəm səni hərdən bax mənə
Təmiz ürək, mərmər sinə, ağ məmə
Ətrin verrəm sənə bütün güllərin.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məşədi Vahidxan həqq yolda şahdı
Mən bülbüləm könlüm bir gül budaqdı
Allah rizasinə həqq yolda həqqdi
Dinlədim bal kimi şirin sözlərin.

İLK MƏHƏBBƏT

Sevib sevilənlər çox gözəl bilir
Olmayıb vəfası ilk məhəbbətin.
İzləyir aşiqi ta qəbrə kimi
Şirin macərası ilk məhəbbətin.
Süleyman Rüstəm

Düşdüm Süleymanın gününə mən də
Dolaşdım bağçada, eldə, çəməndə
Az qalmış ki, lap vüsalə yetəndə
Başladı cəfası ilk məhəbbətin.

Nə qədər çalışdım qəmdən çıxmağa
Hicri məni vurub atdı uzağa
Alışıb başladı odda yanmağa
Mən tək binəvası ilk məhəbbətin.

Qəm içində giryan qaldım kimsəsiz
Dağı-düz görürdüm, dərəni-dəniz
Nə qədər cəfalar çəkdim bilsəniz
Başımda havası ilk məhəbbətin.

İstərəm azaldam qəm arasında
Az qalmış unudam eşq yarasında

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gözümlə, könlümlə, qəlb arasında
Başlayır davası ilk məhəbbətin.

Məşədi Vahidxan sən yetiş yara
Leyli, Şirin Əsli, Zöhrə, Sitara
Məcnun, Fərhad, Kərəm, Tahir, Mənsur da
Hamısı cəmləşib məlhəm qoysa da
Sağalmaz yarası ilk məhəbbətin.

1966

MƏNİ SEVƏNƏ

Mənim ucbatımdan çəkdiyin əzab
Həsrət-həsrət ürəyimi dindirir.
Sadə qəmzələrin alır canımı
Dilbilməzə qismət olub bildirir.

Tənələrə məruzsan sübhi-məsa
Ruzi-şəb yanıram inan Allaha
Dilin vermir əmib yetəm vusala
Aşiqin yandırıb eli güldürür.

Özü bilir duyuq düşüb el hamı
Evində də keçmir heç güzəranı
Versə fərman gözəllərin soltanı
Bil ki, Məşədi Vahidxanı öldürür.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ALA GÖZLÜ YAR

Mən səni sevmişəm ala gözlü yar
Aşiqsənsə bu meydana gəl indi.
Səni sevməyimlə eylə iftixar
Eşq oduna yana-yana gəl indi.

Şamamalar gül açıbdı sinəndə
Bərq vurduqca bihuş oluram mən də
Vüsal dəmi dil dodağın əməndə
Sakit durmaz gör neyləyər əl indi.

Səni mənə qismət edən tarıdı
Mərmər sinən Savalanın qarıdı
Desələr bu gözəl kimin yarıdı
Deyin Məşədi Vahidxana gəlindi.

SƏNİ YAZMIŞAM

Həsrətin ürəkdə qalmasın pünhan
Bütün sözlərimdə səni yazmışam.
Gizli-gizli nə baxırsan uzaqdan
Bütün sözlərimdə səni yazmışam.

Könlündə hər zaman gəzirsən məni
Həsrət baxışlarla üzürsən məni
Şirin sözlərinlə əzirsən məni
Şirin sözlərimdə səni yazmışam.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Arizində olan xalların sənin
Bənatünnəşdi, ya Xuşeyi-pərvin
Ardımca boylanan şux gözəllərin
Həsrət gözlərində səni yazmışam.

Xudabəndi-aləm mənə tərəfdi
Yüz iyirmi dörd min peyğəmbər həqqdi
On dörd məsum, on iki imam həqqdi
Quran, gözlərimdə səni yazmışam.

Məşədi Vahidxan yola gələndi
Sadəlövhdi, həm də sabitqədəmdi
Gözəllər içində bilməm nədəndi
Bütün sözlərimdə səni yazmışam.

MƏN DƏ YAZANAM

Məni görcək dedin: - "Mən də yazanam".
Yaz şair, yaz qızım, yaz, bacım, anam.
Şairlik Xudadan bəxşişdi bizə
Mənə mümkün deyil bekar dayanam.

"Lam" yazsam "Tey" mənə ilham aşılar
"Fey" yazsam anlaya bilməz naşılar
Hər yanda mötəbər olur yaxşılar
Vəfalı dostlara mən də heyranam.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sərraflar axtara tapmağa məni
Görər həqq yolunda sadağa məni
Vəfasızlar verir tapdağa məni
Can qurban edilən cana qurbanam.

Rəhmət aşkarlaşar, pis üzə çıxmaz
Həqqi batil edən xoş günə çıxmaz
Batində hikmətim aləmə sığmaz
Zahirdə ağam tək mən də xəndanam.

Zikrimdi ruzi-şəb, Allahu Əkbər!
Ömür çox olsa da üqbayə çəkər
Nə ehtiyac verim soykökdən xəbər
Mən də sənin kimi ismi pünhanam.

Həqqi xəbər verim sənə dərindən
Əl çək bu dünyanın dərdi-sərindən
Nişanə ağamın Zülfiqərindən
Şair Molla Məşədi Vahidxanam.

SÖZƏ YAR

Ala gözlüm, nə gizlərsən gözlərin,
Məhəbbəti gözdən alır gözə, yar.
Aşiq sadiq olsa giley eyləməz,
Aşiq odur yar hicrinə dözə, yar.

Heyran baxışların gör nə haldadır,
Dodaqların sanki mənə bal dadır,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Müddətdir qəlbimiz qilü-qaldadır,
İnsaf deyil yar ürəyin üzə yar.

Məşədi Vahidxan həqqə bağlıdır,
Sevgimiz hər yanda Kərəm nağlıdır,
Mən bülbüləm, sinən gül budaqlıdır,
Cəh-cəh vursam, heyran qalar sözə yar.

BƏNZƏR

Ürəyin o qədər genişdir sənin,
Məqribli, məşriqli cahana bənzər.
Mənə ilham verən şirin sözlərin,
Xəstəyə, bimara dərmana bənzər.

Səndən öyrənmişəm saf məhəbbəti,
Hüsnündən almışam gücü, qüvvəti.
Allah bağışlasın bu qəbahəti,
Hər kəlmən ayeyi Qurana bənzər.

Mənə həyat verib hər alqışların,
Çatılıb hikmətli, sözlü qaşların
Haqqın dərgahına çağırışların
Mənimçin dəyişməz fərmana bənzər.

Sən mənim canımsan, sən sabahımsan,
Eşqimsən, ruhumsan, qibləgahımsan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sən inam yerimsən, səcdəgahımsan,
Sənin geniş qəlbin ümmana bənzər.

Ayağın altında durur cənnətim,
Sənin varlığına vardır minnətim.
Hamı sənin kimi olsa nə dərdim,
Analar ən böyük loğmana bənzər.

ŞEİR DOSTUMA

İki gənc şairik əlimizdə qələm
Mənim sevgilimlə, sənin Kimayən
Əvvəl özlərinə cəzb edib bizi,
Sonra sındırdılar gənc qəlbimizi.

Gözləyə bilmərəm hər bir gözəldən
Vəfalı olmağı, eşit, bil nədən
Çünki vəfasızı gördüm əzəldən
O elə getdi ki, qalmadı izi.

Sevdiyim dilbərə ürək sözümü
Dedim bir də görüşəndə söylərəm
Vəfasız çızdı o bir söz demədən ....lakin....
Mən görə bilmədim belə söylə sən
Nə üçün vəfasız çıxdın ay "sevən".

Yar ilə ilk dəfə tanış olanda
O tez yağlı dilini saldı işə

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir neçə dəfə sən kağız yazsan da
Səninki isə sakit durdu həmişə.

Belə bir rəhmsiz zalım gözəldən
Gec-tez soyuyacaq könlüm də əlbət
Səninkisə yəqin deməyib qəlbən: -
Heç baş tutmayacaq belə məhəbbət.

Onu təqib et tək getdiyi zaman
Öz könül dostunu saxlayıb bir an
Heç utanma ona belə söylə sən
Bəs nə üçün dilbər məni sevmirsən.

XAHİŞLƏ YAZILIB

Alagöz eşqini gizli saxladı
Raya aqibətdən küsü bağladı
Şərəf çox həssasdı hər şey anladı
Qalanları nə ət idi, nə balıq.

Adın eşit özün görmə iyidin
Heç bilmirsən, nə danışdın, nə dedin
Sizə mən həyatın yolların dedim
Etmə dərviş kimi tərki dünyalıq.

Həyat yollarında görüb nigəran
Hamıya yanıram baxıb kənardan
İltimas edirəm pərvərdigardan
Hamının qismətin yetir ya xalıq.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dərbənd, Bakı, Lerik – Qazaxa yollan
Damcılı bulaqda bir yol daldalan
Yağış, qar yağanda olur dalda dam
Dostla davranmağa gərək ystalıq.

Məşədi Vahidxan qardaşınızdı
Həm əmi, həm dayı, həm atanızdı
İltimas eylədüz bu şeiri yazdı
Həm də xatirədir əziz saxlarıq.

NƏ YANDIRIRSAN MƏNİ

Mən ki sənə heyranam
Nə yandırırsan məni.
Gözlərinə qurbanam
Nə yandırırsan məni.

Sinəm sənin meydanın
Əsirgəmə al canım
Olum sənin qurbanın
Nə yandırırsan məni.

Məşədi Vahidxan sənin
Hər gün olsun həmdəmin
Bir ver əmim ləblərin
Nə yandırırsan məni.

***

Əzizinəm tər sinə
Mərmər sinə, tər sinə
Bir kəlmə məmə yazdım
Oxu onu tərsinə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

XURAMAN

Könlümü aldı ələ, aldı ələ könlümü,
Xuraman ala gözlü, ala gözlü Xuraman.
Məni məftun eylədi, eylədi məni məftun
Xuraman ala gözlü, ala gözlü Xuraman.

Azərbaycan vətənin, vətənin Azərbaycan
Səni tanıdan odur, odur səni tanıdan.
Təmiz insan saf qəlbli, saf qəlbli təmiz insan
Xuraman ala gözlü, ala gözlü Xuraman.

İsmi pünhan yazardım, yazardım ismi pünhan
Hər an səni anıram, anıram səni hər an.
Məşəd Vahidxan yazdı, yazdı Məşəd Vahidxan
Xuraman ala gözlü, ala gözlü Xuraman.

YAZMAZ İDİM

Yazmaz idim bu qədər lirikadan yox həvəsim
Mənə lazımdı ki, üqbadə ola dadirəsim.

Fanidir neməti dünya və gözəllikləri də
Çoxları söyləməsin, kortəbii eşqüdi də.

Deməsin hər şapalaq – yoxdu bunun zövqü təmam
Estetik ecazikar lirikanı edə bəyan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bəşər olmalıdı yəqin özünün haqqlığına
Etsə insanlığa riayət yetişər Allahına.

Nə baxıb yazmalısan özgəyə şerü, qəzəli
Özününkü qala yanda yadı tutmaq məzəli.

Döymə xəlqin qapısın, döyməsin özgə qapını
Can verəndə nə səmər, siftə tanı allahını.

Qəbr evinə yola düşmək halını yadına sal
Sərəkan halda nə tövbə, oranı etmə xəyal.

Məşədi Molla Vahidxan səni agah elədi
Olma naməhrəmə aşiq demə hər yan belədi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional



Bir pərdəli, beş şəkilli səhnəcik.

İştirak edənlər

Allahverdi baba–müdrik el ağsaqqalı, kənd sakini

Tarıverdi

Xudaverdi

Şxverdi

Axundverdi

Mollaverdi

Sofuverdi

İmamverdi – kəndin ziyalı və seçilmiş adamları

Zinaverdi

Mirxənnasverdi

Mirhədyan

Mirmamilə–kəndin ziyalı və seçilmiş adamlarının həmişə çox istədikləri və irəli sürdükləri adamlar

Çobanverdi – kəndin çobanı

Saqqallı ağ kişilər – kənd sakinləri

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Birinci şəkil

Bir guşədə Tarıverdi, Xudaverdi, Şxverdi oturub söhbət edirlər. İmamverdi tələsik otağa daxil olub həyəcanlı səslə:

İmamverdi – Aya, xəbəriniz varmı ki, kəndimizin adı səhv düşüb?

Tarıverdi – Necə yəni səf düşüb.

İmamverdi – Səhv düşüb də.

Xudaverdi ilə Şxverdi *(ikisi də bir ağızdan)* – Axı necə səhv düşə bilər?

İmamverdi – Qardaş, o siyahı kağızlarını hazırlayanın, ya da çap eləyən katibənin ağlı, fikri haralarda olubsa, diqqətsizliyindən, ya da mexaniki səhvindən Qubalı Baloğlan əvəzinə Baloğlan kəlməsində bir dənə "a" hərfi artıq olub Balaoğlan gedib çapda və əlaqədar işçilər tərəfindən də yazılar yoxlanılmadan dərkənar qoyulub göndərilib mərkəzə. Mərkəzdə də yazılar yoxlanılmadan diqqət yetirilmədən eləcə də yığılıb verilib kompüterə. İndi kəndimizin qədimdən Qubalı Baloğlan adı itib bu aydan olub Qubalı Balaoğlan.

Xudaverdi – Qardaş, tariximizi bilməyənlər, savadı olmayanlar iş başında olanda belə olar də.

Şxverdi – Ay İmamverdi, ona nə var ki, xahiş edərik o bir hərfi pozallar.

İmamverdi – Əyə, mümkün deyil, deyillər kompüterdən keçib qurtardı. Yenə də kompüterdən keçməsəydi hörmət edərdiniz düzələrdi. İndi çox bahadır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şxverdi – Əyə, sən nə danışırsan? İndi atom bombasını, nüvə silahını, lazer şüasını zərərsizləşdirə bilirlər, kompüterdə bir dənə hərfə nə var ki, poza bilməyələr.

İmamverdi – Yox sən öl! Nə qədər xahiş etsəniz də mümkün deyil. Deyillər kompüterdən keçib qurtardı.

(Tarıverdi işi belə görüb telefonun nömrəsini yığır)

Tarıverdi – Allo, allo... kimdir? Sofuverdidir? Aya, haradasınız? Qalxın gəlin bura... işimiz dolaşıb..!

İkinci şəkil

Az keçir ki, Axunverdi, Mollaverdi, Sofuverdi otağa daxil olurlar.

Tarıverdi – Aya, Sofuverdi, xəbəriniz varmı kəndimizin adı yazıda səhv düşüb?

Sofuverdi – bəli, çoxdan eşitmişik.

Tarıverdi – Bəs niyə dayanmısınız?

Mollaverdi – Neyləyək?

Tarıverdi – Ayə, o biri partiyaların da adamlarını çağırın görək hansı məsləhətlə bunu həll edək.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Üçüncü şəkil

Sofuverdi çıxır. Çox çəkmir ki, Mirzinaverdi, Mirxənnasverdi, Mirhədyan və Mirmamilə ilə birlikdə otağa daxil olurlar.

Yoldan keçən Çobanverdi də səs-küyü görüb, eşidib otağa daxil olur.

Tarıverdi – Sizin də xəbəriniz varmı bu məsələdən?

Zinaverdi – bilirik, o sənədləri elə biz yazıb toplayıb rayona təqdim etmişik o mexaniki səhvdir, tələsik yazmışıq.

Tarıverdi – Axı niyə vaxtında düzəliş verməmisiz, xəbər də verməmisiniz.

Zinaverdi – Neyləyək, əlimizdən nə gəlir.

Tarıverdi – Necə yəni əlimizdən nə gəlir, başınızı vurun divara, özünüzü biryolluq öldürün. Ayə, bu işdə siz işləyirdiniz də. Niyə vaxtında xəbər etməmisiniz.

Yeddi nəfərin hamısı mızıldandı:

Dinərdik bizi işdən çıxarardılar.

Tarıverdi – Birdən dədənizin adını səhv yazsaydılar, dinməyəcəkdiniz.

Zinaverdi – Dinərdim məndən xoşları gəlməzdi nə olar atamın, dədəmin adı səhv olanda mənim üçün vəzifə olsun.

Mirmamilə – Bir dənə hərfdi də nə olub axı?

Tarıverdi – Ay bala, elə bir hərfə görə tariximiz itir də.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mirhədyan – Burada çətin nə var ki, gəlin bir yaxşı xoşagələn ad fikirləşib tapaq və gedib tələb edək ki, bizim kəndimizin adın belə yazın.

Tarıverdi hərəyə bir vərəq kağız və bir qələm verir. hamı fikirləşib yazmağa başlayır otaqda ani sakitlik hökm sürür, hamı yazır.

Tarıverdi – Hə, nə oldu?!

(Yazdıq - deyə hamı cavab verir və bir-bir ayağa qalxıb hərə özü yazdığı adları ucadan oxumağa başlayırlar).

Şxverdi –Doşaboğlan, kampotoğlan, konfetoğlan.

Mollaverdi–Halvaoğlan, bozbaşoğlan, dolmaoğlan.

Sofuverdi –Uşaqoğlan, körpəoğlan, qundaqoğlan.

Mirxənnas–Cavanoğlan,kişioğlan,kişkişoğlan.

Mirzinaverdi–Qızoğlan,gəlinoğlan,arvadoğlan.

Mirhədyan – Dovşanoğlan, ördəkoğlan, hoppanoğlan.

Axundverdi–Orucoğlan, namazoğlan,lütoğlan.

Çobanverdi –Keçioğlan, danaoğlan, qoyunoğlan, inəkoğlan, ləvərəoğlan, ulaqoğlan, bozdaroğlan.

Mirmamilənin sədri tükəndi

Mirmamilə – Əşşi, siz nə danışırsınız, hər şey pulla düzəlir. Gəlin kəndimizin adın puloğlan, Qızıloğlan qoyaq.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Lap yaxşı olar ki, elə mənim adıma uyğun Mirmamiləoğlan qoyaq.

Zinaverdi yerində dəbərişib dedi:

Zinaverdi – Elə mənim adıma uyğun Mirzinaverdioğlan qoyaq də, özüm də Miriyəm.

Mirxənnas – Ayə Mamilə, ayə Zinaverdi, siz nə vaxtdan Mirmamilə, Mirzinaverdi oldunuz?

Mirmamilə – Bəs bunlar nə vaxtdan miri oldular elə lap sən özün də, nə vaxtdan Mirxənnas olmusan?

Zinaverdi – mənim bostanıma daş atmayın. Mən də dədmin yolu ilə gedirəm. Dədəm zinanı on-on edirdi, mən əlli-əlli edirəm zinabazlıqda dədəmi də ötmüşəm.

Dördüncü şəkil

Saqqallı ağ kişilər yol ilə güclə yeriyə-yeriyə keçərkən qapıdan içəri boylanıb, dedilər:

Saqqallı ağ kişilər:

Ay balalar, bizim artıq həştad-doxsan yaşımız var, öz vicdanım haqqı bu gündən belə mənə nə qədər gözəl, yaraşıqlı arvad verələr heç birini, bəlkə də istəmərəm. Amma hələ də gözüm doymayıb, ona görə tövbə etmirik.

Çobanverdi – Ha... ha... ha... ha... ay saqqalı ağ babalar, hələ də o yollardan doymamısan, artıq qulaqların eşitmir, gözlərin görmür, danışığını itirmisən,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yeriyə bilmirsən, ağzının, burnunun, gözlərinin, aşağılarının suyu-qoxu bir-birinə qarışıb. Hələ də tövbə etmirsən ki, gözün doymayıb. İndi lap o sən dediklərini gətirib versələr sənə neyləyə bilərsən. İnsanlıq, qeyrət, əxlaq, namus cavan yaşlardan olmalıdır, 120 yaşından sonra zinaya tövbə etmək nəyə gərəkdir.Ha...ha...ha... ha...

Mirmamilənin səbri tükənmişdi, hamı özünü atasının yolunu davam etdirməyiylə öyündü, odur ki, səbirsizliklə Çobanverdinin sözünü gözləyirdi.

Mirmamilə – Guya mən hansı yolla gedirəm, mən də dədəmin ələlxüsus öz nəslimin yolu ilə gedirəm də. Hansı ki, dədəm belə işləri yalın əllə edirdi. Mən isə əlimə əlcək də geyirəm ki, araq satanda, nəşə satanda əlimə dəyməsin. Həm dədəmin yolun davam elətdirirəm, həm də əlcək geyərək özümü təmiz saxlayıram.

O gün birisi üçün mamiləpulu sayırdım ki, iki-üç nəfər girdi içəri ki, tez ol bizə araq ver tələsirik. Dedim a bala, məni çaşdırarsuz, görmürsüz əlimdə mamiləpulu sayıram. Dayanın əlimə əlcək geyim, mən əlcəksiz əlimi araq şüşələrinə, nəşəyə vurmaram. Mənim araq, nəşə satmağıma baxma, mənim möhürüm də təsbehim də, hamısı var, başımda da axundpapağını görürsən, hələ Quranımı da gətirib qoymuşam maqazinə ki, hamı görsün. Alıcı olmayanda Quran oxuyuram, amma gördüm araq istəyənlər tələsir çıxıb getmək istəyirlər, ayrı mağazalardan

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

almağa, odur ki, özümü əlcəksiz-zadsız atdım araq şüşələrinin üstünə, daşıdım verdim alıcılara, pulları aldım. Alıcılardan biri dedi – əmi, birdən bu araqlar təmiz olmaz ha. Dedim a bala, biz özümüz də bunlardan içirik, çəkirik tər-təmizdi.

Çobanverdi – Ha... ha... ha... ha...

Mirxənnasverdi – Mən də gözümü açandan dədəmin yolu ilə getmək istəyirdim. Baxdım gördüm ki, dədəm şeytanın yollarının hamısını sizin kimilər tutub daha mənə bir yol qalmayıb. Mən də adımı Mirxənnasverdi yazdırdım ki, bəlkə belə yolla başımı dolandıram. Bir də xəbər tutdum ki, siz hamınız məndən qabaq adınızı miri yazdırmısuz.

Mənim yazıq dədəm bircə dəfə Adəm peyğəmbərə səcdə etməkdən boyun qaçırtdı. Allah dərgahındakı məqamından qovuldu, hələ də lənətlənir, qiyamətə qədər də lənətlənəcək. Amma siz hamınız Allahın özünə səcdə etməyi və Allah göstərişlərinə əməl etməyin hamısını ömrünüz boyu rədd edirsiniz. Allah göstərişlərinin hamısının əksinə gedirsiniz. Heç sizə nə lənətlər oxuyan yoxdur, nə də qovulmursunuz. Bizim yollarımızın da hamısını əlimizdən almısınız. Hələ üstəlik, bizi də aldadırsuz. Özümüzə də lənət oxuyursunuz.

Çobanverdi – Ha... ha... ha... ha...

Tarıverdi yazılan adları nəzərdən keçirir.

Tarıverdi – Ayə, Çobanverdi bu nə adlardı yazmısan, Ulaqoğlan, Bozdaroğlan...?

Çobanverdi – Tarıverdi dayı, and olsun bunların

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

vicdanına ki, bunlar belə işlərdə bizim kəndin həlledici "mərtəbələridirlər", mənim o ulağımın, mənim o bozdarımın qiryəti var, qeyrəti var. Deyillər eşşək batdığı yerdən bir də keçməz, amma mənim ulağım heç batmamış da xətalı yerdən keçmir. Mənim o bozdarım nəinki məhəlləmə, sürüyə, hətta otlaq sahəsinin də ətrafına yadları buraxmır qovur. Hələ keçilərim, qoyunlarım da. Bir dəfə soyuq gecələrin birində üç-dörd ac canavar sürüyə soxulmaq istəyəndə bozdar canavarların hamısını qovub uzaqlaşdırdı. Sən demə canavarın biri gizlənibmiş. Bozdar xeyli uzaqlaşan kimi o bir canavar özünü sürüyə vuranda keçim onun üstünə atılıb şəngülüm, məngülüm nağılında danışılan yerindən buynuzu ilə vurub canavarı öldürdü.

Elə o şəngülüm, məngülüm, süpürgəgülüm nağılını, dastanını mənim keçimdən yazıbdılar.Onlar öz davranış yollarına düzgün və vaxtında əməl edillər.

Tarıverdi dayı, "namusu itə atıblar, it yeməyib". Bəs o itlər bozdarlardı də, amma bunlar namus-zad bilmir hamısını yeyir.

Otaqda hamı Çobanverdinin ulağının, bozdarının namusuna, qeyrətinə həsəd aparmaq istəyirdi. Çobanverdi köks ötürüb bir ah çəkib dedi

Çobanverdi – Tarıverdi dayı, amma bunlar mənim ulağımın da bozdarımın da namusunu tapdalayırlar.

Otaqda səs-küy bir-birinə qarışmışdı. Tarıverdi ilə İmamverdi ağlayırdı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Tarıverdi – Ayə, bir-birinizi qırmayın. Mən baxıram bizim əlimizdən bir iş gəlməyəcək. Durun gedək Allahverdi babanın yanına, bəlkə o bu məsələyə bir yol tapa bildi.

Hamısı qalxıb deyişə-deyişə Allahverdi babanın yanına yollanırlar.

Beşinci şəkil

Allahverdi babanın evi. Evə daxil olurlar salamlaşandan sonra məsələni bildirirlər.

Allahverdi baba – Balalarım, sizi çox yaxşı başa düşdüm. Mənim yüz qırxa yaxın yaşım var. Mənim babam da altmış il bundan qabaq 153 yaşında vəfat edib. O belə hadisələrin çox şahidi olmuşdu və mənim üçün belə hadisələrdən çox danışardı. Narahat olmayın, dözün. Ay Tarıverdi, ay İmamverdi, siz allahınıza şükür edin ki, bir hərf səhv düşüb Qubalı Balaoğlan yazıblar. Birdən allah eləməmiş, allah eləməmiş iki hərif səhv düşsəydi, Qubalı Balayanoğlan yazsaydılar nə edəcəkdüz.

Çobanverdi–Ha... ha... ha... ha... Baba, elə Balayanoğlana yaxınlaşdırıblar də. Bax, elə həmin adamlardı iş başında bu dəfə də iki hərif artırallar olar Qubalı Balayanoğlan, Ha... ha... ha... ha...

Allahverdi baba – Balalarım, narahat olmayın.
Göyçəgölü-Sevan, İrəvan-Yerevan, Gümrü-Lenina
kan,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qarakeçə-Kirovakan olanda, torpaqlarımızın əvvəl 20%-i, sonra 15%-i, sonra 30%-i nəhayət, indi yenə də 20%-i gedəndə, millətimiz vəhşicəsinə kütləvi soyqırım ediləndə heç dinmədilər.

Məndən sizə əmanət, lap dədənizin adını dəyişsələr dinməyin, daha da əl çalın. Sizi işdən çıxardarlar, lap dədənizin adını dəyişmək üçün sizə vəzifə versələr, pul versələr alın, pulu, vəzifəni dinməyin. Nə olar atovuzun adını dəyişəndə, sizin üçün pul olsun, vəzifə olsun. Gedin döngə-dalanlarda başınızı girləyin. Dağıdın, yetim-yesirin, məzlumların, şəhid ailələrinin, əlillərin, kimsəsizlərin mallarını. Lap namusunuzu aparmaq üçün sizə vəzifə təklif etsələr, pul versələr razılaşın. Nə olar namusunuzu aparanda, vəzifəniz ki, bir müddət əlinizdə qalacaq, cibinizdə ki, bir müddət pul olacaq.

Allahverdi babanın nəsihətləri hamının xoşuna gəlmişdi. Hamının ürəyindən xəbər verirdi. Hamısı Allahverdi babadan razı qaldılar. Hətta "el ağsaqqalı belə olar də" – deyirdilər. Tarıverdi ilə İmamverdi ürəkləri yana-yana, acı-acı ağlayırdı. Allahverdi babanın da yanaqlarından gözlərinin yaşı axırdı köks ötürdü, ah çəkdi, acı-acı gülümsəmək istədi alınmadı. Çobanverdi də ağlayırdı.

Allahverdi baba – Amma yadınızdan çıxartmayın ki, belə işlərdə dinməmək qeyrətsizlik, nakişilik, namussuzluq xasiyyətləri, sifətləridir.

Gedin! Çıxın gedin!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

KUFEYÜ ŞAMIN CƏMAƏTİ

Repressiya illərində Azərbaycanın hər yerində olduğu kimi, Qubalı Baloğlan kəndində də bir-birindən şikayətbazlıq bütün kəndi bürümüşdü.

Əhali nahaqdan bir-birinin üzünə durub tut-dururdular.

Bir gün də bir bölük adam Tağıyev Bağı Məşədi Əzim oğlundan heç bir təqsiri olmadan şikayət edirlər.

Həmin şikayətlə əlaqədar kəndə göndərilən hökumət nümayəndələri camaatı toplayıb yığıncaq keçirirlər. yIğıncaqda da hamı Tağıyev Bağı Məşədi Əzim oğlunun nahaqdan üzünə durub şahidlik edirlər.

Dövlət nümayəndələri Bağı kişini həbs etmək üçün rayona aparırlar. Rayonda iki günlük araşdırma zamanı məlum olur ki, Bağı kişinin heç bir təqsiri yoxdur. Onu sorğu-sualdan azad edib evə buraxırlar. Axşamüstü kəndə çatan Bağı kişi evə getməmiş birbaşa camaatın hər gün toplaşıb oturduğu tinə gəlir və o ikiüzlü, satqın, böhtançı adamlara:

"Əssəlamun Əleykə ey Kufeyi Şamin cəmaəti!!! – deyə səlam verir.

Qeyd: *Kufə şəhəri ilə Şam şəhərinin və o ətrafın adamları vaxtilə Məhəmməd peyğəmbər sələvatullaha və onun əhli-beytinə də dönük çıxdılar.*

Cəmaət Bağı kişiyə bir cavab tapa bilməyib vəziyyətdən çıxmaq üçün qəh-qəhə çəkib gülüşürlər və deyirlər ki, - Bağı dayı, vallah düz deyirsən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

DE, SƏN ÖL

- Səlamun ələykum!
- Ələykəs - Səlam.
- Necəsən!?
- Allaha şükr olsun ki, yaxşıyam.
- O gün yığıncaqda görünmədin?!
- Gəlmişdim orada idim.
- Yox, gəlməmişdin!
- Allah haqqı gəlmişdim.
- İnanmıram.
- Qurana and içirəm ki, gəlmişdim.
- Gəlsəydin mən səni görərdim!
- Peyğəmbərə and içirəm ki, gəlmişdim.
- De sən öl!
- Yox qardaş, sən öl deyə bilmərəm.

V. R. DASTANI

Bir məmləkətdə bir-birinə "sadiq" iki dost yaşayırdı. Onlardan birinin adı V. o birinin adı R. idi. Bu iki dostun özləri deyən bir-birilərinə o qədər bağlılıqları var idi ki, hər biri öz növbəsində istəyirdi dostuna daha çox hörmət etsin, daha çox ehtiramlı olsun.

Bu iki dost gecə-gündüz bir-birilərinə dua edər və bir-birilərinə daha çox hörmət etmək üçün yeni-yeni yollar

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

axtarardılar. Allaha həmişə dua edərdilər ki, - ilahi, dostum məndən razı qalsın.

Axırı ki, ali təhsilli "sadiq" dost R., "sadiq" dostu V.-ya dedi: - Dostum, mən nə qədər çalışıram ki, sən mənə etdiyin hörmətdən çox mən sənə hörmət edəm, yaxşılıq edəm. Hər sahədə sən mənə üstün gəlirsən. Keçən aylarda sənin üçün bir sumka alma gətirmək istəyirdim ki, birdən qapı döyüldü. Gördüm sən bir kisə alma göndərmisən. Sənin üçün ağacda iki ədəd nar saxlamışdım axşam dərdim ağacdan gətirdim qoydum evə ki, sabah gələrəm sizə gəzməyə əlimdə də "sadiq" dost sovqatı iki dənə nar. Səhər açılan kimi qapı döyüldü çıxdım gördüm sən iki yeşik nar göndərmisən mənim üçün. Hamısı da o ayaqdan.

Ona görə də bu qərara gəldim ki, bu azad dünyada sən nə bilirsən mən sənin xatirini nə qədər istəyirəm. Gəl fikirləşib sənin üstünə bir şərdən, böhtandan ataq səni aparıb salsınlar həbsxanaya, mən də vaxtım olandan-olana həbsxanaya sənin üçün yeməkdən-zaddan gətirim. Onda görərsən ki, hamıdan, hətta öz qohumlarından da çox mən sənin xatirini istəyirəm. Onda bilərsən ki, mən dostluğa necə "sadiq"əm.

V. bu xahişə razılıq vermədi. Dedi: - elə bu azad həyatda mənə nə yaxşılıq edirsənsə et, daha üstümə nahaqdan böhtan atıb həbsxanaya düşməyə nə ehtiyac.

R. deyirdi: - ay sadiq dostum həbsxanədəki

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yaxşılığın ləzzəti ayrı olur. Sən həbsxanəyə düşməmisən ona görə bilmirsən, sənin savadın azdı axı sən texnikum qurtarmısan, amma mən ali savadlıyam. Gəl sən razılıq ver, sənin üstünə bir böhtan atım, səni həbs eləsinlər. Bir zindan havası da gör, çətinliyə öyrəş.

V. dedi: - ay "sadiq" dost, onda gəl elə hər ikimiz özümüzə böhtan atıb girək həbsxanəyə orada sənin üçün evdən gətirilən yeməkdən çoxlu verərsən mənə bilərəm ki, "sadiq" dostsan. Bir də ki, həbsxanədə mən sənsiz darıxaram. Sən də burada mənsiz qalanda darıxarsan.

R. Razılaşmadı dedi – sən mənsiz həbsxanədə tək yatmasan mənim nə qədər "sadiq" dost olmağımı bilməzsən.

Nə isə aylar keçdi, illər keçirdi bu söhbət dəfələrlə iki "sadiq" dost arasında tez-tez təkrarlanırdı. Amma bir həbsxanə razılığına gələ bilmirdilər. Dostlar hər ikisi özünün dostluğa daha çox vəfalı və "sadiq" olduğunu tərif edirdilər. Bu iki "sadiq dostun" güzəranları tam yaxşı keçmirdi. V. bir qədər kasıblamışdı. Bir gün bir yaxşı xoş xəbər hər yana yayıldı ki, R.-nı vəzifəyə təyin ediblər. Özü də hara-hara rayonun mərkəzi taxıl anbarına müdir vəzifəsinə.

Bu xəbəri eşidən kimi V. o qədər sevindi ki, R. üçün bir kisə un, mal-qarası üçün iki kisə yem götürüb bir-iki günə onlara getmək istəyirdi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu xəbəri eşidəndən sonra aparmadı ki, R.-nın daha belə hədiyyələrdən paylardan ehtiyacı yoxdur. Həm də V. o qədər sevindi ki, dostum daha mənim üçün dustaqxanaya zəhmət çəkib, yol pulu verib, vaxt itirib getməyəcək. Elə nə lazım olsa özüm gedib gətirəcəm. Bu yolla da "sadiq dostumun" işini bir az da yüngülləşdirəcəm. Bəli aşıq dili yüyürək olar. Bir gün iki "sadiq dost" rastlaşdılar, görüşdülər, bir-birinin boynun qucaqlayıb üz-gözlərindən öpdülər, sevinclərindən bir az da ağladılar. Bir-birilərindən əhval-pürsan oldular.

V. dedi: - qardaş, şükürlər olsun allaha ki, "sadiq dost" olmağımızı dar ayaqda, çətinliklərdə, həbsxanada sınamağa ehtiyac qalmadı. Sən də nə qədər əziyyətlər çəkəcəkdin, vaxt itirəcəkdin, həbsxanaya gəlib gedəcəkdin, yol pulu verəcəkdin, hava şəraiti yayda istidə, qışda soyuqda. Daha sənin də işin asanlaşdı. Elə hər ildə özüm gələrəm mənə bir az buğda verərsən. Özün zəhmət çəkib göndərmə, sənə əziyyətdir.

R. dedi: ay "sadiq dostum" başa düşmürəm nə deyirsən. V. neçə dəfə bu sözü təkrar elədisə də, R.başa düşmədi.

V. dedi: ay sadiq dostum deyirəm sən mənə anbardan buğda verərsən, mən də haqqını verərəm. Yəni ki, mənə bir az buğda satarsan.

R. dedi ki, vallah bu dolaşıq sözləri mən bir az gec başa düşürəm, anlamıram sən məndən nə istəyirsən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

V. öz-özlüyündə çox təəssüfləndi ki, yəqin kitablar oxumaqdan, savadının çoxluğundan R.-nın başı xarab olub. Çünki həmişə qürurla deyirdi V. qardaş sən texnikum qurtarmısan, amma mən baş sındırıb ali təhsil almışam, insititut bitirmişəm o qədər kitablar oxuyuram dəli olmaq dərəcəsinə gəlirəm az qala oxumaqdan başım şişə bilirsən bu başda nə qədər elmlər var.

V. çox heyifsilənib qəmgin oldu və onun üçün Allaha dua eləməyə başladı ki, ilahi dostuma şəfa ver cavandı, vəfalıdı, "sadiqdi". Oxumaqdan başı xarab olub allaha dua edəndən sonra dedi ay sadiq R. dostum Allah kərimdi. Allah var rəhmi də var inşaallah sağalarsan, şəfa taparsan axı sənə həmişə deyirdim çox oxuma. Səhhətini gözlə allah eləməsin dəli olanda hər yerdə dəlixanalar var aparıb səni verərik dəlixanaya ancaq allah eləməsin birdən oxumaqdan savadının çoxluğundan başın şişsə ona müalicə yoxdur, başın şişin almaq mümkün deyil. Bir dəqə qədimdən o şişmənin türkəçarəsi var ki, savadının çoxluğundan kimin başı şişirsə, özünün xəbəri olmadan beqəfil qaynanası onun başına gərək bir ağac vura onda sağalar, onun da düşər-düşməzi var, ola bilər sağalsın, ola bilər o dünyalıq olsun, ölsün. Çünki yekə ağır ağac zərbnən vurulmalıdı axı. Allah sənə şəfa versin, o qaynana vuran müalicəvi ağac zərbəsinə ehtiyacın olmasın. Mən bir-iki adamı görmüşəm qaynanası vuranda çox çətindi

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ona görə də qorxudan neçə ildir daha az-az kitab ox-uyuram ki, birdən allah eləməsin mənim də başım şişər dəli olmaq ondan yaxşıdır.

Bir də ki, ay sadiq dostum burada başa düşməməli nə var ki, kimya deyil, fizika-riyaziyyat deyil, həndəsə, astronomiya deyil. Sən özün bilirsən ki, mən çox ehtiyac içində yaşayıram, sən mənə buğda sat camaat irəhmət mən də köç-külfəti bu qışdan bir təhər çıxardım. Sənə də olmazın dua eləyim.

R. dedi ay pir olmuş, belə sənin nə istədiyini başa düşə bilmirəm ey, gah buğda deyirsən, gah camaat irəhmət deyirsən, gah sat deyirsən.

V.məsələnin alınmayacağından qorxuya düşüb dedi ay "sadiq" dost ruzim yoxdur qış da qapını alıb. Sənin kimi sadiq dostum ola-ola mən gedib bazardan buğda almayacam ki, gəlmişəm səndən buğda alam pulum ilə.

R. dedi hə, indi bir az başıma batdı. Deməli, sən istəyirsən ki, mən sənə buğda satam pulun ilə.

V. sevinə-sevinə elədir ki, var – dedi. Ay "sadiq" dost axırı ki, başa düşdün şükürlər olsun. O bir olan Allaha dua edirdim sağalacaqsan, gördün sağaldın.

R.Ciddi bir görkəm alıb – bu, ola bilməz – dedi – sən nə danışırsan, el məni qınayar ki, mən "sadiq dost" ola-ola öz "sadiq dostuma" buğda satam.

V.sevincindən yerə-görə sığmırdı, deməli, dostu ona buğdanı pulsuz verəcəkdi. V. dedi axırı ki,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

"sadiq dost" olmağını sübuta yetirdin. V. ilə R. hər iki "sadiq dost" bir-birindən razı halda öpüşüb, görüşüb vidalaşanda V. soruşdu ki, nə vaxt kisələri gətirim ? R. dedi kisələri hara gətirirsən? Yenə də başa düşmədim. V. dedi ki, səndən buğda almağa. R. dedi – qardaş mən sənə nə buğda sata bilmərəm, el məni qınayar ki, "sadiq dost"una buğdanı satır, nə də artıq buğdam yoxdur ki, sənə pulsuz verəm. Bir az imkan olur, onu da ayrı adamlara baha qiymətə satıram.

V. dedi – ay sadiq dost ayrı adamlara satdığın qiymətə mən də alıram, axı bizim sadiq dostluğumuz...

R. dedi – dostum, yəni sənin o qədər nəqd pulun var?

V. cavab verdi ki, ay sadiq dostum nə qədər pulum var o qədər götürərəm.

R. dedi yaxşı özüm nə vaxt xəbər göndərsəm, onda gələrsən nə badə mən xəbər göndərməmiş gəlmə.

V. evə gəlib başladı sadiq dostunu gözləməyə. Az gözlədi, çox gözlədi qış yarıdan keçirdi. Olan qalan pulunu da gündəlik çörəyinə verirdi, daha buğda pulu da qurtarırdı. Hər dəfə qapı döyüləndə deyirdi, yəqin sadiq dostum gəlir. Bu gözləmələr yavaş-yavaş şeirləşirdi. Hər qapı döyüləndə, hər qapı açılanda könlü qübar edib oxuyurdu?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qapımızı külək açdı
Dedim ki, bəlkə sənsən
Ay sadiq dost bu gələn
Acından yuxum qaçdı

Gəlmədin sən, gəlmədin sən
Gecəli-gündüzlü axtarır gözüm səni
Əlimdə boş kisələr gözlərəm özüm səni.

V. bir gün xəbər göndərib R.-dan cavab məktubu aldı. R. yazırdı:

Sadiqəm dostluğa mən indi də sabitqədəməm
Sadiqəm, vəfalıyam mən necə əvvəl vardım.
Amma mən xəbər göndərməşim gəlmə.

V. arxayın olub gözləyirdi bu müddət ərzində R. tez gedib dəllallara, lotulara xəbər elədi alıcı tapdılar buğdanın hamısını silib süpürüb satıb yerinə də arpa anbarından bir azacıq arpa gətirib boşaltdırdı. V. daha acından dözə bilmirdi qəmgin-qəmgin sadiq dostundan xəbər gözləyirdi. Qış yarıdan çox keçmişdi. Bir gün V. idarədə öz iş otağında oturub sadiq dostundan xəbər gözləyirdi ki, qəflətən qapı açıldı. R. otağa daxil olub buğda unu yeyən harin adam əlüstü çevik hərəkətlə dabanı üstə iki dəfə fırlanıb aldı görək nə dedi:

Sən gəlməsən özüm gəlləm
Dur gəl buğdanı almağa
Dostluğa sadiq olmağa

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

V.-nın elə bil çiçəyi cırtladı sevincindən yerindən nə vaxt durdu axsaya-axsaya sazı nə vaxt köynəkdən çıxartdı, nə vaxt köklədi bilmirəm, heç özü də bilmədi aldı görək R.-ya necə cavab verdi:

Mən sadiqəm zirəsən
Zəfəransan zirəsən
O günə qurban olum
Sən mənə buğda verəsən

Qoy buğdam gəlsin ay dostum
Keyfim kökəlsin ay dostum
Acından ölən dostuna
Rəhmin gəlsin ay dostum.

R. otaqda əlüstü pəncələri üstə iki dəfə dövrə vurub aldı görək nə dedi:

Sadiq dostam sözüm incə
De kim istər səni məncə
Götür kisələri keç küncə
Başla buğda qalamağa
Əhdinə sadiq olmağa.

V. az qala aclığını unutmuşdu, sevinə-sevinə bir addım da irəli atıb aldı görək nə dedi:

Harda olsam gələrəm,
Təki sən səslə məni.
Həbsdə də olsam gələrəm,
Təki sən səslə məni.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Buğda var isə səndə,
Acından ölürəm mən də.
Gəncləşərəm yeyəndə,
Təki sən səslə məni.

Nəhayət, sadiq dostlar belə bir razılığa gəldilər ki, ya çərşənbə günü, ya da duz günü V. gəlib R.-dan buğda alıb aparsın. Qeyri günlər ola bilməz. V. həmin günü kisələrini götürüb qonşunun ulağın da bir günlüyə kirayəyə götürüb yol aldı R. işləyən yerə getməyə. Hələ aralıdan kənardan R. gördü ki, sadiq dostu V. gəlir sazı çiynindən aşırıb aldı görək nə dedi.

Buğdanı yığdım xarala
Getdi sarala-sarala
Arpa da dönüb marala
Ay sadiq dostum, gözəl dostum,
niyə gec gəlmisən
nə çox yubanıb belə gec gəlmisən
amma bilmirəm niyə boş gəlmisən.

R. sazla dediyi kimi sözlə də dedi ki, sadiq dostum gec gəlmisən.

V. dedi ay sadiq dostum sən özün xəbər elədiyin gün gəlmişəm.

R. dedi sən gecikmisən buğda qurtarıb bir azca arpa qalıb onun da məsələsi çətindir. Aldı V. görək nə dedi:

Mən gəlmişəm sənə qonaq
Dostum mənə bax-bax

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sadiqsən buğda ver yığaq
Qardaş mənə bax-bax.

R. imkan verməyib qaytağı üstündə 3-4 dəfə fırlanıb aldı görək nə dedi:

Buğda tayı aşdı-daşdı,
Arpa ondan gözəl aşdı
Hamı aldı uzaqlaşdı

Kisələrin kimi cibin boşdu
Sən tək dostu gözü yaşdı
Boş yola salım neyləyim
Xoş yola salım neyləyim.

V. aldı görək nə cavab verdi

Gəlmişəm anbarına sınayam səni
Sadiq dost sınayam səni
Nə sadiq xəlq eyləmiş yaradan səni
Sadiq dost yaradan səni

R. gördü ki, sadiq dostu V. ondan əl götürən deyil, həm də molladı axı özü də sən deyən çox da fərsiz mollalardan deyil, əsil al mollasıdı. Odur ki, ali savadını və bütün elmini işə salıb başladı ayrı yollar axtarmağa. Dedi qardaş, vallah bu avamlıq məndə hələ də gedir. Çox-çox işlərə düşürəm.

V. təəccüblə soruşdu ki, nə baş verib olmuya səni aldadıblar?

R. dedi dostum aldadıblar yox ey, başıma müsibət gətiriblər, zülm çəkmişəm aldatsaydılar ondan yaxşı olardı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

V. dedi ay sadiq dostum olmuya səni müharibəyə göndəriblərmiş. R. ay sadiq dostum müharibəyə nə var ki, ya şəhid olarsan, ya səlamət qayıdıb gələrsən mənim başıma müharibədən də faciəli iş gətiriblər.

V. dedi dostum incimə vallah indi də mən başa düşmədim. Birdən allah eləməmiş indi də mənim başım şişər ha. Qayınanamda yoxdur ki, başıma beqafil dəyənək vursun. Bəs axı sən hansı çətinlikdəsən.

R. dedi – qardaş, sən özün bilirsən ki, mən gül kimi institutda oxuyurdum öz sevdiyim sənət üzrə, sənətimin vurğunu idim. İnstitutun axırıncı kursuna keçəndə məni evdən məcbur elədilər ki, bəs o fakültədən çıxıb. Vaxtilə qayınatam oxuyan fakültəyə keçim. Məcbur idim ayrı bir yol yox idi. Göstəriş qəti idi. Nə edə bilərdim. Mən yazıq özüm bəyəndiyim, sevə-sevə oxuduğum fakültədən çıxıb keçdim vaxtilə qayınatam oxuyan fakültəyə. Bir az evdə işim yaxşı getdi. Bu rahatlıq çox çəkmədi. Elə oldu ki, bir gün qayınatam yaşıl rəngli bir "Jiquli" markalı maşın aldı. Bir neçə gündən sonra mənim rahatlığım pozuldu. Evdən mənə əmr verdilər ki, evləri, aynabəndi yaşıl boyamalısan! Nə isə bir təhər evləri, aynabəndi sonra bir-bir damları, hasarları, təndiri, küçə qapısını bir-birinin dalınca yaşıl rənglə boyatdırdım. Bir gün qəti tapşırıq aldım ki, evə nə alınsa, yaşıl rəngdə olmalıdır. Bütün ərzaqlar da yaşıl rəngdə olmalıdır. Çarəm yox idi o gündən başladım

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yaşıl rəngli qənd, çay, ət, yağ, düyü, süd, qatıq, pendir axtarmağa.

Bütün qəsəbələri, şəhərləri, mağazaları gəzirdim yaşıl rəngli qənd, yağ, süd, düyü qatıq, pendir, ət gördüm deyən olmadı. Daha göy soğan, kişniş, vəzəri, tərə yeməkdən zara gəlmişdim. Fikirlər içində qərq olmuşdum ki, bir gün qəflətən təzə bir hökm verdilər ki, sən bu evdə-eşikdə bu həyət-bacada belə paltarlarda çox eybəcər görünürsən. Bu gündən başdan-ayağa yaşıl rəngli paltar geyinməlisən. Başladım özüm üçün yaşıl rəngli paltarlar axtarmağa. Bütün ölkəmizdə olan mağazaları ələk-fələk elədim, Dubaya, İrana, Türkiyəyə, Moskvaya gedib-gələn alverçilərdən xahiş elədim tapa bilmədilər. Qohum-əqraba mənim üçün bu yollarda hamısı çalışırdı. Məni apardılar bir dərzinin yanına orda da cəmisi bir metr yaşıl parça tapıldı. Dərzi mənim üçün bir kostyum tikdi yaşıl parça sol tərəfə düşdü. Kostyum hazır oldu. mən kostyumu sevinə-sevinə geyindim, amma evə girəndə sol tərəf üstündə içəri girməliydim. Sadiq dostum da məni əvvəldən sağ tərəfə öyrətmişdi. Sol tərəf üstündə qapıdan girməyi bacarmırdım. Qohumlar hamısı dərzi özü hər gün axşama qədər mənə məşq elətdirirdilər. Mən tez-tez çaşırdım.Axırı ki, bir-iki aya sol tərəf üstə evə girməyi öyrəndim və sevinə-sevinə evə tərəf yollandım. Qohumlar məni küçə qapısına qədər gətirib orada da bir neçə dəfə məşq elətdirib evə tərəf

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yönəltdilər. Mən həyətə daxil olub iri addımlarla gəlib pilləkənləri çıxdım əlimi qapıya uzatdım, sol əllə qapını açsam sağ tərəf irəli düşəcək. Deməli, sağ əllə qapını açmalıyam ki, sol tərəf kostyumun yaşıl tərəfi irəli düşsün tərəddüd içərisində qalmışdım, çaşa bilərdim. Birdən çoxlu fit səsinə dönüb baxdım gördüm qohumlar hamısı hasara, çəpərə sarmaşıb əl-qolla mənə istiqamət verirlər, bəzisi ağlayırdı. Mən işarələrdən sağ əllə qapını açıb sol tərəf üstə içəri girməyi başa düşən kimi sevincimdən bərk-dən qışqırdım: - anladım, anladım, başa düşdüm, ağlamayın – onlar da öz növbəsində sevinə-sevinə atılıb düşürdülər. Sən demə bizim səsimizə, hay-küyə yoldaşım balkona çıxıb nə vaxtdansa mənə və hasarın, çəpərin yanında atılıb düşən, ağlayan qohumlara baxırmış. Bir də xəbər tutdum ki, o mənim sağ tərəfimdədir. Mən yerimdə fırlanıb sol tərəfimi ona tərəf çevirdim. O, təəccüblə mənə baxa-baxa mənim sağ tərəfimə keçirdi, mən də öz növ-bəmdə yerimdə fırlanırdım ki, kostyumun yaşıl tərəfi ona tərəf düşsün biz bir neçə dəfə fırlanandan sonra, qəflətən üstümə qışqırdı. Mən bu dəhşətli səsdən bərk diksindim elə bildim göy şaqqıldadı, ildırım çaxdı, ya bütün dağlar üstümə uçdu – sən özünü nə hala salmısan! Sən özünü aldadırsan, ya məni! Bir gör nəyə oxşayırsan! Çəkil gözümün qabağından! – deyən kimi bir də gördüm həyətin ortasındayam. Tez-tez qapıya tərəf gedib küçəyə çıxdım. Qohumların yanından keçib uzaqlaşdım,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

arxadan onların ağlamaq səslərini eşidirdim, amma geriyə yol yox idi. Mən hara gedəcəyimi bilmirdim. Qalmağa da heç yerdə yerim yox idi. Yolun kənarında dayanmışdım, birdən Bakıya gedirsən deyən səsə diksindim. Haçandansa maşını əyləyib məni çağıran sürücüyə tələsik hə deyərək yüyürüb maşina əyləşdim. Tez ol, sür, - dedim dalımca gələ bilərlər. Sürücü nə olub deyə soruşdu. Heç dedim. Bakıya çatdıq hamı düşdü, mən də əlacsız sürücünün pulun verib düşdüm. Hara gedəcəyimi bilmirdim. Deməli, Bakı bu şəhər imiş. Yerim yox idi. Birdən yadıma düşdü ki, deyirdilər vağzalda qaldım odur ki, yoldan keçənlərdən soruşub axşama yaxın vağzalı tapdım. Savadım var idi. İnstitut oxumuşdum. Necə tapmazdım tapdım vağzalı. Başım çox bəlalar çəkdi skamyaların üstündə yatırdım hərdən zalı süpürən xadimələr məni qovurdular. Bir gün vağzal alverçilərindən birinin əlində yaşıl rəngli idman paltarına oxşayan alt paltarı gördüm. Özümü atdım onun üstünə ki, qardaş, ölmüşəm məni yerdən götür. Alverçi soruşdu axı nə olub, nə istəyirsən, başa düşdü ki, mənə yaşıl rəngli paltar lazımdı özü də məcburam neçəyə olsa alacam. Odur ki, ikiqat qiymətə paltarı satdı mənə. Daha pulum da qurtarmışdı. Özümü tez evə yetirməli idim. Kostyumu çıxarıb vurdum qoltuğuma yaşıl rəngli alt paltarını geyib küçə ilə iri addımlarla irəliləyirdim. Sevincimdən mənə elə gəlirdi ki, küçələr də, adamlar da, yer də, göy də, hamısı yaşıl rəngdədir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yollarda hamı təəccüblə mənə baxırdı, kimi deyirdi yəqin getdi oxudu boksiyordu, kimi deyirdi güləşçidi, kimi deyirdi çoxdan getmişdi, görmürsən yolu əməlli tanımır, yəqin futbolistdir. Yəqin yarışdan gəlir ola bilsin birinci yeri tutub ona görə dönüb bu qədər camaata baxmır, məhəl qoymur. Mən evə yaxınlaşırdım. Haradasa uzaqda radioda mahnı oxunurdu, bərk xod vermişdilər.

Bu gün heç bilmirəm nə üçün nədən
Səma da mavidir, yer də mavidir.
Bəlkə də sən mavi geyindiyindən
Çəmən də mavidir, çöl də mavidir.

Mən yaşıl alt paltarında həyətə girdim. Uşaqlar məni görən kimi sevincək atılıb düşüb yaşıl papam gəldi, yaşıl papam gəldi deyə oynamağa başladılar. Təndirə çörək bişirirdilər. Uşaqların anası əlində küsöv mənə yaxınlaşırdı, boğazım qurumuşdu. Danışmaq, salam vermək istədim alınmadı. Geri çəkilmək istədim bacarmadım, qaçıb küçəyə çıxmaq istədim dönüb baxdım küçə qapısı uzaq idi cürət etmədim. Artıq uşaqların anası əlində odlu kösöv iki addımlıqda dayanıb mənə baxırdı. Cürətimi toplayıb udqunmaq istədim alınmadı. Yoldaşım mənim vəziyyətimi başa düşüb gülümsündü. Elə bildim paltarımı bəyənib odur ki, paltarımın ətəyindən tutub–necədir rəngi–deyə sevinclə qışqırdım. O mənə baxıb-baxıb harada itib batmışdın, keç evə

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

mən də çörəyi bişirib gəlirəm, danışarıq dedi, vurmadı. Mən könülsüz-könülsüz evə keçdim işim bir az da artmışdı, deməli, mən evə gələndə küçədə dayanıb kostyumu çıxarıb yaşıl rəngli alt paltarın geyinib evə gəlməli gedəndə də kostyumu qoltuğuma vurub çıxıb küçədə geyinməli idim. Uşaqlar yavaş-yavaş yanıma yığılışdılar, mən onları qucağıma aldım, sinəmə sıxdım başların tumarladım, neçənci sinifdə oxumaqlarını soruşdum, kiçik yaşlılar məni əvvəl tanımadı. Mənim gəlməyimi eşidən qohumlar yanıma gəldilər. Yaşıl rəngli paltarda məni görən kimi dedilər, evin tikilsin bu nə rəng paltardı geymisən. Dedim bəs bilmirsiz, başıma gələnləri dedilər ay pir olmuş, sənin qayınatan xeyli vaxt olar ki, yaşıl rəngli maşını satıb ağ rəngli maşın alıb. Bəs görmürsən o qədər pul sərf edib yaşıl rənglətdirdiyin evlərin, damın-daşın, hasarların rənglərin soyub töküblər yerə səni gözləyirdilər ki, gəlib hamısını ağ rənglə rənglətdirəsən. İndi ay sadiq dostum məni çox uzağa getməyə qoymullar. Arvad öz qohumlarından mənim iş yerimdə işə düzəltdirib ki, məni izləsinlər. Kənddə də evdə qardaşlarının nəzarətindəyəm və bütün evləri, dam-daşı ağ rənglə boyatdırmalıyam. Özüm də bu gündən ağ parçadan paltar geyməliyəm. Odur ki, buğdanı, arpanı, satıb kraskaya, rəngə, ustaya xərc edirəm. Hamısı da baha. Hər iki sadiq dost bir qədər fikrə getdilər, ağladılar. V. sadiq dostu R.-ya çoxlu təsəllilər verdi. Sənin

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

üçün səbr duası da yazacam, dedi, özü də pulsuz. Bir-birilə xudahafizləşib qəmli-qəmli ayrılıb getmək istərkən R. çağırıb sadiq dostuna bir-iki kisə arpa nisyə satmalı oldu. Köməkləşib ulağa yüklədilər.

V. bir az uzaqlaşmışdı ki, gördü acından kəməri belində saxlaya bilmir. İkiəlli kəmərini tutub ulağı çəkə-çəkə gedirdi. Eşitdi ki, dostu R.-nın arxadan nəsə səsi gəlir. Elə bildi ağlayır. Dayanıb qulaq asdı, gördü oxuyur.

Onsuz da ulağa çata bilməyən V. bir daşın üstündə oturub dostuna qulaq asmaq, həm də dincini almaq istədi. R. pəsdən oxuyurdu.

Asta yeri kəmər düşər belindən
Ayrı düşmə ulağından, yükündən.
Sən razı qal mənim sadiqliyimdən,
Sadiq dostum tez gəl gözlərəm səni,
Çalış bir az tez gəl gözlərəm pulu.

V. istədi oxuyub dostuna cavab versin, acından səsi çatmadı. Bir qədər orada dincini alıb, daşa təkan verib, çətinliklə ayağa qalxıb, evlərinə tərəf yol başladı. Yüklü ulaq çoxdan uzaqlaşmışdı. Axşama yaxın özünü yıxıla-dura evə çatdırdı. Xəbər aldı, gördü ki, ulaq hələ gəlib çıxmayıb. Gecəni yata bilmədi. Səhər açılan kimi hər tərəfdən xəbərləşdi. Ulağı gördüm deyən olmadı. Ulağın sahibi də sübh tezdən kəsmişdi qapının ağzını, ulağını tələb edirdi. Həmin gündən bir tərəfdən V. düşür çöllərə,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bir tərəfdən R. düşür çöllərə. Bu dağ sənin, o dağ mənim, bu dərə sənin, o dərə mənim, yüklü ulağı axtarırlar. R. puluna görə, V. çörəyinə görə neçə illərdir.

Deyirlər ki, gecə yarıdan keçəndən sonra havanın sakit vaxtlarında hər kim çölə çıxıb diqqətlə qulaq assa, həmin iki sadiq dostun səsini eşidərlər. Həm də, onlardan sadiqlik öyrənərlər. O iki sadiq dost fasiləsiz olaraq bir-birlərini belə səsləyirlər:

V. Tapdın? R.Yox.

R. Tapdın? V. Yox

V. Tapdın? R.Yox.

R. Tapdın? V. Yox

Göydən üç alma düşdü.Biri mənim,biri V.-nın, biri də bu olmuş dastanı qələmə alanın. Hərgah göydən üç min dənə alma düşsəydi, mini mənim olacaqdı, mini V-nın, mini də bu dastanı qələmə alanın. Çünki molla belə olar. Molla çox qorxulu şeydi.

V. sağ , R. səlamət,

R.sağ, V. səlamət,

Siz sağ, mən səlamət.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

SARIMSAQ, SAPAQİ, SIRINMA ƏHVALATI

Hər gecə nişanlımla görüşə gedirdim. Bir gün təsadüfən sarımsaq yemişdim. Nişanlımla söhbət zamanı hiss etdim ki, sarımsaq iyi onu narahat edir. Odur ki, təvazökarlıq göstərib dedim:

-Dişim ağrıyırdı sarımsaq yemişəm.Ona görə də ağzımdan sarımsaq iyi gəlir,səni narahat eləmir ki?

Nişanlım dedi: - Nə danışırsan, narahatlıq nədir, mənim sarımsaq iyindən çox xoşum gəlir. Sarımsaq insana çox xeyirlidir.

Odur ki, həmin gündən başlayaraq hər axşam görüşə yola düşəndə bir sarımsaq yeyirdim. Hərdən evdə axşama elə yeməklər olurdu ki, sarımsaq yemək alınmırdı. Amma nə etmək olardı, axı nişanlımın sarımsaq iyindən xoşu gəlirdi. Ona görə də mütləq sarımsaq yeməli idim. Bir gün axşam yeməyinə halva bişirmişdilər. Ayrı bir yemək yox idi. Halvanı yedim. Görüşə getməyin vaxtı yaxınlaşdı. Nə qədər çalışdım sarımsaq yeyə bilmədim. Axırı ki, sarımsağı cibimə qoyub getdim. Nişanlımgilə çatmışdım sarımsağı yeyə bilmirdim, ağzıma atmaq istəyəndə ürəyim bulanırdı. Nə etməli məcbur idim, odur ki, gözümü yumub sarımsağı ağzıma atdım. Tez-tez çeynəyib uddum. Sevinə-sevinə həyətə daxil oldum. Nişanlımın yanında ağzımdan sarımsaq iyi gəldiyinə görə sevinirdim. Hərdən nəfəsimi onu tərəfə çox verirdim ki, hiss eləsin ki, ağzımdan sarımsaq iyi gəlir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Axı özü deyirdi ki, sarımsaq iyindən xoşum gəlir. Bir gün də axşam görüşə yola düşmək istəyəndə evdə sarımsaq tapılmadı. Evi ələk-fələk elədim. Sarımsaq qurtarmışdı. Gecikirdim, hay-küy saldım. Evdə hamı mənimlə maraqlanmağa başladı. Axı gecə vaxtı sən sarımsağı neynirsən? – dedilər. Nə söz tapmalı – dişim ağrıyır – dedim.

Dedilər: - Kəndimizdə iki diş çəkən həkim var, müalicə elətdir, çəkdir. Belə məsləhətlərə ehtiyacım yox idi. Mən gecikirdim.

Hamısı, hamısı sarımsaqdır deyə əsəbiləşirdim. Gecikirdim. Qonşulara sarımsaq borcuna getdilər. Bir neçə qonşuya dəydilər. Heç kimdə sarımsaq tapılmadı. Axırı ki, qonşuların birindən bir kiçik sarımsaq dənəsi tapdılar. Mən tez sarımsaq dənəsini çeynəyib udub yola düşdüm.

Səhərisi gün özüm gedib bazardan iki kiloqram sarımsaq aldım. Gətirib evdə dənləyib bir qədər də ciblərimə doldurdum. Görüşlər beləcə də davam edirdi.

Artıq qış düşmüşdü. Gecələr çox soyuq, şaxtalı keçirdi. Görüşdə soyuqdan titrəyirdim. Paltonum yox idi. Axırı ki, bir köhnə sırınma tapdım geyindim.Çox yerindən pambıqları çıxmışdı, kif iyi gəlirdi. Geyinməyə bilməzdim, gecələr şaxta ciyərlərimə keçirdi. Nişanlımla görüşəndə utandığımdan köhnə sırınmadır–dedim. Elə belə götürmüşəm, qıcqırmış iy gəlməyinə baxma, oturanda altımıza atarıq.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nişanlım sırınmanın çiyinlərin, qolun tumarladı. Nə danışırsan dedi – sırınma gözəl şeydir. Səliqəli tikirlər, içərisinə ağappaq pambıq qoyurlar, yumşaq olur. Mənim sırınmadan çox xoşum gəlir. Sevindim. Bildim xoşuna gələcək, ona görə geyinib gəlmişəm dedim.

Görüşlər beləcə davam edirdi. Sırınma, sarımsaq... Necə də oxşar adlardı. Deməli, mən nişanlımın zövqünü oxşaya bilirəm. Bir gün bərk yağış yağmışdı. Yollar hamısı palçıq idi. Tuflilərim köhnəlmişdi, altı qopmuşdu. Tufli geyib getmək mümkün deyildi. Quru havada ayağımda güclə dözürdü. Həyəti ələk-fələk elədim. Köhnə ayaqqabıların içindən, zibillikdən bir cüt köhnə uzunboğaz əkinçi çəkməsi (sapaqi) tapdım. Ayağıma olmurdu, bir təhər çəkiclə döyüb, əzib, büküb qaynar su ilə isladıb geyindim. Ayağımı əzirdi. Bir təhər ayağa qalxdım, gecikə bilərdim. Axsaya-axsaya yola düşdüm. Nişanlımgilə çatanda yadıma düşdü ki, sarımsaq yeməmişəm. Tez cibimdən bir dənə sarımsaq götürüb atdım ağzıma, çeynəyirdim ki, nişanlım gəlib yetişdi, xırpa-xırpı eşidib soruşdu ki, nə yeyirsən?

Sevinə-sevinə – sarımsaq yeyirəm – dedim. Gülümsünən kimi oldu. Başını aşağı saldı.

Birdən yadıma düşdü ki, nişanlımın bu qədər sarımsaq iyindən xoşu gəlir. Mən də yarım ildən artıqdır hər axşam özüm sarımsaq yeyib gəlirəm. Amma bir dəfə də olsun ona sarımsaq təklif etməmişəm. Nə də ki, sarımsaq hədiyyə alıb gətirməmişəm.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Odur ki, tez əl atıb ciblərimdən bir sıxma sarımsaq dənəsi çıxarıb boşaltdım nişanlımın ovcuna. Məni bağışla dedim. Sevincimdən bu qədər vaxtda bir dəfə də olsun sənin üçün sarımsaq alıb gətirməmişəm. Bir addım da irəli atıb yenə sarımsaq vermək istəyəndə axsadım. Sapaqi ayağımı əzirdi. O, əyilib ayağıma baxdı. Mən tez köhnə sapaqidir dedim. Yollar yağış suyuyla dolub. Ona görə də bu gün bunları geyindim. Yoxsa bir az pis görünürəm?

Nişanlım nə danışırsan dedi, belə havada sapaqi gözəldir. Mən sapaqini çox xoşlayıram.

Sevindim, deməli, xoşuna gəlirdim. Sevincimin həddi-hüdudu yox idi. Bir dən onun astadan sapaqi, sırınma, sarımsaq sözlərini təkrar eləməyini eşitdim. Elə bildim oxuyur. Könlümə sevinc gəldi. Deməli, nişanlımın zövqünü oxşaya bilirdim. Sevincimdən quş kimi uçmaq istəyirdim. Özümdən asılı olmayaraq ucadan sapaqi! Sırınma! Sarımsaq! deyə oxumağa başladım və həvəslə – sənin üçün də bunlardan alacağam dedim.

Bir azdan xudahafizləşib ayrıldıq. Səhərisi axşam bir az da tez getdim sırınma, sapaqi, sarımsaq... hamısı, hamısı var idi. Özü də hamısından nişanlımın xoşu gəlirdi. Mən xoşbəxt idim. Dünyada tək-tək adamlar nişanlısının zövqünü oxşaya bilirdi. Əsli-Kərəmi, Leyli-Məcnunu, Fərhad-Şirini, Tahir-Zöhrəni, Mənsur və Sitarəni bir anlıq fikrimdən keçirtdim. Eh dedim: Əsl, əsl sevgi-məhəbbət bizimkidir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Özü də qarşılıqlı hansı paltarı geyirəm, ya da bir hərəkəti edirəm elə bil ki, nişanlımın ürəyindən xəbər verirəm.

Hava çoxdan qaralmışdı, xeyli gözlədim, vaxta hələ bir qədər qalmışdı, darıxırdım. Görüş yerində var-gəl etməyə başladım. Yerdə nə isə ağ-ağ dənələr görünürdü. Çoxlu idi, diqqətlə baxdım, dolu yağmamışdı, qar ola bilməzdi. Birini götürüb baxdım. Sarımsaq dənələri idi. Elə zənn etdim ki, yəqin ciblərimdən dağılıb. Tez ciblərimi yoxladım. Ciblərim dolu idi. Deməli, keçən axşamkı hədiyyələri əlindən dağıdıb.Təəssüfləndim tez-tez sarımsaqları yığmağa başladım. Başım qarışmışdı fikirlər içərisində idim, ayda-ildə istəklinə bir dəfə pay gətirəsən, o da yerə dağıla. Yazıq, bu axşam sarımsaq yeməmiş yatıb.

Nişanlım vaxtında gəldi. Nə yığırsan dedi.

Sarımsaqdır, dünənki hədiyyələrə oxşayır – dedim. – Yəqin əlindən dağılıb hiss etməmisən.

Bəli – dedi.

Mən yerdən yığdığım sarımsaqların üstünə bir xeyli də cibimdən boşaldıb bir balaca kulokda ona təqdim etdim. Yenə də alacağam – dedim.

Yəqin keçən gecə sarımsaq yeməmiş yatmısan, tə-əssüflər olsun.

Görüşlərimiz beləcə şirin-şirin davam edirdi. Yaz fəsli sovuşmuşdu. Yayın isti bürkülü gecələri idi. Axşam yaxınlaşanda əhvalım pozulurdu. Bürkülü yay gecələri, sapaqi, sırınma, bir yanda da sarımsaq iyi zəhləmi aparmışdı. Sırınmanın istisindən

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ürəyim sıxılırdı. Nə etmək olardı. Nişanlımın zövqünü oxşamalı idim. Bu səhnəni pozmaq olmazdı. Dözməli idim. Toy vaxtı gəlib yetişdi. Toy zamanı mənim üçün təzə kostyum, təzə perlamont tufli, başdan-ayağa hamısı yaraşıqlı paltarlar aldılar. Nə qədər xahiş edirdilər geyinmək istəmirdim. Öz paltarlarımı hazırlamışdım. Sırınmanı odekolonla sürtüb, sapaqiləri sabunla yuyub bir qədər səliqəyə salmışdım. Ciblərimə kifayət qədər sarımsaq dənələri təmizləyib yığmışdım. Mən öz toyumda nişanlımın zövqünü oxşayan paltarda (formada) oturmaq istəyirdim. Heç olmasa, həmin formada şəkil çəkdirmək istəyirdim.

Toy axşamı dedilər ki, unutma gəlin otağına girəndə cibində hədiyyən olmalıdır. Mən dərhal varımdır dedim. Ciblərim doludur.

Toyun axırında bəy tərifinin sonunda aşıq bəydən də xələt istədi.Mən bir neçə sarımsaq dənəsi xələt olaraq aşığın yan cibinə atdım. Aşıq yəqin çox pul olduğunu zənn edərək üstün vurmadı. Razı qaldı.

Axşam otağa girəndə ciblərimdən sarımsağın hamısını stolun üstünə boşaltdım.

Nişanlım o nədir – deyə soruşanda sevinə-sevinə sarımsaqdır – dedim. Hələ ertədən servantdakı qablara da sənin üçün kifayət qədər sarımsaq yığmışam dedim. Mən toydan bir neçə gün sonra paltar asmaq üçün bir böyük taxta asqı sifariş verdim.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Alıb evə gətirdim. Sırınmanı həmin paltarasandan asdım, ciblərini sarımsaqla doldurdum. Sapaqilərin içərisin sarımsaqla doldurub paltarasanın yanına qoydum. Sağ və sol tərəflərdə iki dibçək qoyub sarımsaqla doldurdum.

Bir böyük kağıza qırmızı rənglə iri hərflərlə "İlk eşqin ilk nəğməsi" sözlərini yazdırıb sırınmanın üstünə yapışdırdım. Hərdən uşaqların əlindən tutub sırınmanın ətrafında yallı oynayırdıq. İllər beləcə şirin-şirin keçirdi. Yeddinci övladımız dünyaya gəlmişdi. Axşam evdə oturub uşaqlarla söhbət edirdik yeddinci övladımıza hərfləri yazmaq öyrədirdik. S hərfini görən kimi elə bil yatmışdım yuxudan oyandım, sırınma, sarımsaq, sapaqi! Nişanlımdan soruşdum ki, hər gün uşaqlara sarımsaq yedirdirsənmi? Birdən yadından çıxar ha! Nişanlım elə bil bu sözü gözləyirmiş. O ürək ağrısı ilə: - Sən nə vaxt bu sarımsağı mənim başımdan rədd edəcəksən. Sapaqi, sırınma, sarımsaq. Ay kişi, bir bu camaata bax, gör də səndən başqa sırınma, sapaqi geyən, sarımsaq yeyən var. Sən mənim ürəyimi əzdin ki, daha mən dözə bilmirəm. Mən çaşıb qaldım. Mən – bəs sənin ən çox sevdiyin... Ən çox xoşuna gələn... Mən sənin zövqünü oxşamaq istəyirəm. Birdən qapı döyüldü, qapını açdıq. Maqazinçi idi, uşaqların hərəsi üçün bir cüt sapaqi, hərəsi üçün bir sırınma və iki kisə sarımsağı qapıdan içəri çəkdi.

Nişanlımın bunlar kimindir sualına ərin sifariş vermişdi gətirdim dedi. Pullarını verin! Gözlərim

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qaraldı, başım gicəlləndi, arzularım alt-üst oldu. Gözlərim sırınmanın üstündəki lövhəyə sataşdı. Küləkli, şaxtalı soyuq qış gecələri, istili, bürkülü yay gecələri gözümün qabağına gəldi. Mənə elə gəldi ki, külək lövhəni yelləyir. "İlk eşqin, ilk nəğməsi" – səliqəli yazılmışdı.

İstədim qışqıram ki, külək lövhəni yelləyir, birdən qopub düşər yerə, özümü güclə saxladım, qışqırmadım. Ətrafa baxdım külək yox idi. Lövhə də möhkəm yapışdırılmışdı. Sən demə, özümdən asılı olmayaraq, mən özüm yellənirəmmiş.

SƏNİ BİLİRƏM

Ağsaqqallar cavanları görməsin deyə toyxanənin ortasından pərdə çəkilmişdi. Cavanlar əyləşən tərəfdə toyun bəyi ilə bir nəfərin arasında narazılıq yarandı. Get-gedə deyişmə qızışdı. Biri-birilərini kobud sözlərlə təhqir etməyə başladılar. Toybəyi də öz növbəsində həmin şəxsə dedi: Heyvan oğlu heyvan!

Oğlunun toy məclisində dava düşməyini görən bəyin atası sakitləşdirmək istədi. Bəylə deyişən şəxs sakitləşmir, heç nəylə razılaşmaq istəmirdi. Bəyin atasının axı dava nədən yaranıb sualına həmin şəxs cavab verdi ki, ay kişi, mən sakitləşərəm amma sənin oğlun mənə dedi ki: Heyvan oğlu heyvan!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Davanı sakitləşdirməyin xatirinə bəyin atası dedi ki: - Bala, neynək heyvan oğlu heyvan – lap mənəm daha sakit olun.

Həmin şəxs dedi: Ay kişi, səni bilirəm ey, bəs oğlun mənə niyə elə deyir.

Bəyin atası soruşdu: axı, oğlum sənə nə deyib?

Həmin şəxs dedi: - Sənin bu oğlun mənə dedi ki, Heyvan oğlu heyvan! Bəyin atası bir az da əsəbiləşib ucadan qışqırdı: - Sənə dedim ki, heyvan oğlu heyvan mənəm də daha nə istəyirsən?

Həmin şəxs də əsəbi halda dedi: Ay kişi mən də dedim ki, səni bilirəm ey, səni bilirəm! Bəs oğlun mənə niyə elə deyir.

GECƏ DÖYÜLƏN QAPI
(1997-ci ildə vaqe olub)

Bakı şəhərində Nəsimi rayonunun Mirqasımov küçəsi №-li mənzilində Məcidi Mehribani adlı bir şəxs yaşayırdı.

Ona həyat yoldaşı həmişə tapşırırdı ki, işdən çıxan kimi evə tez gəl. O evə hər dəfə gec gələndə evdə narazılıq və dava-dalaş olurdu. Ona görə də həmişə çalışırdı ki, evə tez və vaxtında gəlsin, həyat yoldaşı ilə aralarında narazılıq alınmasın. Amma nə qədər səy göstərirdisə, həftədə azı bir-iki gün evə gecikirdi. Daha özü də dava-dalaşdan cana doymuşdu. Bir gün yenə də iş yerində işlə əlaqədar çox yubanmalı oldu. Evə gələndə qorxu onu götürmüşdü ki, yenə dava-dalaş, yenə narazılıq, yenə söz-sov… Axır ki, gəlib qapıya yetişdi. Qapının

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

zəngini basdı... evdən – kimdir gələn?! – deyə soruşdular. O, qorxa-qorxa mehriban səslə:

- Mənəm, gözəlim, tanımadın? İş yerində bir az gecikmişəm, yük gəlmişdi onu boşaldırdıq, yorğunam. Bir az sənin üçün hədiyyə də almışam.

Evdən: –Get, harada yubanmısan, kiminlə yubanmısan orada sənin üçün qapını açsınlar. Burada bir də sabah axşam qapı açılacaq. Özü də vaxtında.

Məcid nə qədər yalvardısa da, qapını açmadılar. O əlacsız qalıb xeyli fikirləşəndən sonra qayınanasıgilə getməli oldu ki, bu gecəni onlarda qalsın, başqa çarə yox idi.

Məcid küçəyə çıxıb gecə vaxtı açıq maqazin axtarmağa başladı. Qayınanası kişmiş xoşlayırdı. Məcid yeznə 1 kiloqram kişmiş, bir kiloqram xurma, bir kiloqram konfet alıb gəldi qayınanasıgilə qapının zənginin düyməsini basdı. Bir addım geri çəkilib mədəni və mehriban görkəm alıb bir qədər gözlədi, qapını açan olmadı. Zəngin düyməsini ikinci dəfə vurdu gözlədi qapı açılmadı. Səbirsizləşib üçüncü, dördüncü, beşinci dəfə dalbadal qapının zənginin düyməsini basdı açan olmadı.

Sən demə bir neçə gün imiş ki, həmin binada kiçik yaşlı qonşu uşaqları gecələr bütün qapıların zənglərini basib qaçırlarmış, bu iş uşaqlara xoş gələr, amma bütün qonşular zara gəliblərmiş.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Binanın bütün sakinləri polis şöbəsinə şikayət vermişdilər ki, yaxın on gündə kimlərsə bizi narahat edir. Polis şöbəsi izləyirdi. Məcid qapının düyməsini vuranda ev sahibi yaxında olan polis şöbəsinə zəng vurur ki, bəs hərifl ər gəliblər özü də deyəsən tək deyillər. Qapının zəngini fasiləsiz olaraq vururlar tez gəlin yaxalayın ki, aradan çıxa bilməsinlər. Pilləkanlar qaranlıq olduğundan polis nəfəri özünə bir köməkçi də çığırıb hərəsi əlinə bir taxta parçası alıb hərəsi bir tərəfdən qapıya yaxınlaşır.

Qayınanasıgildə qapını açmadığını görən yeznə Məcid bir az da əsəbiləşib cumur zəng düyməsinin üstünə dalbadal düyməni vurmağında davam edir.

İki polis işçisi arxadan onun üstünə atılıb hər iki tərəfdən taxta parçaları ilə onu yaxşıca çırpıb sonra yerə dağılan toza-torpağa bulaşan hədiyyələrini özünə yığdırıb qollarını burub aparırlar polis şöbəsinə.

Sorğu zamanı aşkar olur ki, yeznə qayınanası üçün hədiyyə alıb onlara qonaq gəlirmiş.

Polis şöbəsi qayınanaya zəng vurub deyir ki, ana, sizin qapının zəngini vuran heç bilirsən kim imiş?

Qayınana çox sevindi ki, deməli, zəngi basan yaxalanıb?

Polis nəfəri də sevinmək istəyəndə qayınana telefonla bərkdən qışqırdı: kim olur-olsun basın KPZ-yə, yaxşı-yaxşı dərsini verin.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Polis işçisi deyir ki, ay ana, bir gör kim imiş zəngi basan onsuz da dərsini yaxşı-yaxşı vermişik. Amma indi xəbər tutmuşuq ki, sənin yeznəndi. Sizə qonaq gəlib sənin üçün də çoxlu hədiyyə gətirirmiş. Qayınana qızıgilə zəng vurub soruşur. Qız deyir ki, ay ana başı batmış yenə də harada itib-batmışdısa gec gəlib qapını açmıram neçə saatdır ki, qapının dalındadır. Qayınana yenə polis şöbəsinə zəng vurub bildirir ki, onu buraxmayın o hər kimdirsə sizi aldadır mənim yeznəm bu saat öz evində qapının dalındadır, onun dərsini yaxşı-yaxşı verin bir də belə etməsin. Yeznə nə qədər yalvarırsa da, mümkün olmur. Axırı ki, polis işçiləri telefonu yeznə Məcidə verirlər o özü qayınanasına deyir ki, ana bəs sənin bir qızına neçə yeznən var?

Qayınana, qız, polis işçiləri bir-biri ilə zəngləşib kələfin ucunu tapırlar. Amma yeznəni azad edə bilmirlər. Çünki qayınananın tələbi ilə xırda xuliqanlıq kimi qeydiyyatdan keçmişdi. Cərimə ödənməli idi. Səhərisi gün cəriməni ödəyib azadlığa buraxılandan sonra yaman gündə həbsdən buraxılan yeznə qoltuğunda toza-torpağa bulaşmış hədiyyələr qalmışdı üç yolun ayrıcında. Bilmirdi qayınanasıgilə getsin, iş yerinə getsin, ya evinə qayıtsın. Axşam yaxınlaşdıqca canına vəlvələ düşürdü. Qorxurdu ki, bu gün də evə gecikər. Odur ki, qoltuğunda hədiyyələr allahı çağırıb yavaş-yavaş öz evlərinə tərəf yola düşdü.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

QONAQ
(1981-ci ildə vağe olub)

Məşədi Vahidxan Sanqaçal daş karxanasında işləyən zaman idarənin müdiri onunla yola getmirdi. Bir gün kiçik yığıncaq zamanı idarənin müdiri Məşədi Vahidxanı pərt etmək üçün sözarası dedi ki, Vahidxan mən yaşlı adamlardan soruşub öyrənmişəm, deyillər ki, bizim babalarımız bir-biri ilə qonaq olub, hətta sənin babon mənim irəhmətlik babama bir ulağ da bağışlayıbmış.

Məşədi Vahidxan dərhal cavab verir ki, biz elə qonaqlarımızın hərəsinə özünə layiq şey bağışlayırıq.

Məclis iştirakçıları özlərini saxlaya bilməyib gülüşürlər.

Belə gözlənilməz cavabdan müdir çox pərt olur.

Gülüşən iştirakçılara Vahidxan acıqlanır ki, nəyə gülürsünüz, kişiylə köhnə dostluğumuzdan danışırıq, burada gülməli nə var ki?

1981

O TƏRƏFDƏN BAX
(1971-cı ildə vaqe olub)

Məşədi Vahidxan bir gün ova çıxır maşınını ov yerindən bir qədər aralıda saxlayıb qapıların da bağlayıb maşından xeyli uzaqlaşır. Maşın tərəfə baxanda görür ki,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bir nəfər maşının başına dövrə vura-vura maşının qapılarını açmağa çalışır. Vahidxan nə qədər çağırırsa, məhəl qoymur.

İşi belə görəndə Vahidxan göyə bir güllə atır. Həmin şəxs qayıdıb baxanda Vahidxan işarə edir ki, əl vurma, çıx get, həmin şəxs qapını açmaq istəməsində davam edir, bu iş bir neçə dəfə təkrar olur. Nəhayət, Vahidxan gəlib çatır tanıyır ki, bu adam rayonda ən satqın elin, camaatın ziyanına hamıya şər atan bir şəxsdir. Odur ki, qorxmayır. Camaat onun əlindən zara gəlib. Məşədi Vahidxan ondan nə qədər xahiş edir ki, çıx get maşınla işin olmasın, amma o razılaşmır, deyir bu maşını mən sürməliyəm. Vahidxan ona acıqlanır. O isə başlayır şər əmələ. Vahidxandan soruşur ki, hələ sən mənə de görüm bu tüfəngin sənədi var?

Vahidxan onun cavabında: - bəli, var – deyir o isə varsa ver, baxım – deyə sənəd tələb edir. Məşədi Vahidxan patrondaşdan iki patron çəkib sənədi budur deyir.

O şəxs əlin uzadır ki, ver baxım və yaxınlaşmaq istəyir. Vahidxan patronları tüfəngə qoyub bir-iki addım geri çəkilib tüfəngi ayağa çəkib o tərəfdən bax deyir.

Həmin şəxs başlayır kəkələməyə. Vahidxan soruşur ki, necədir, tüfəngin sənədinə baxmaq istəyirsənsə, alışdırım alnuvi bax.

O şəxs yalvarır ki, yox, başına dönüm baxmı-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ram, tüfəngi sal aşağı çıxım gedim. Məşədi Vahidxan ondan soruşur ki, nə vaxta qədər sən bu elə camaata ziyan vuracaqsan?

O yalvarır ki, heç vaxt başına dönüm mən bu vaxta qədər başa düşməmişəm indi bildim, indi bildim.

Vahidxan – axı nəyi başa düşməmisən.

- Yaxşılığı, başına dönüm yaxşılığı. Sən yaxşı kişisən bu yiyəsizlikdə məni öldürmə qurban olum sənə. Yaxşılıq yaxşı şeydi.

Vahidxan: bir də camaata əziyyət verəcəksən?

- Yox, başına dönüm başa düşdüm bu gün başa düşdüm bir də eşitsən qanım sənə halaldı, amma bu gün...

Vahidxan: - Nə?... Nə amma bu gün?

- Bu gün mənə dəymə yazığın gəlsin tüfəngi sal aşağı çıxım gedim.

- Get! Amma!

- Başına dönüm qurtarlı yox, yox qurtardı daha başa düşdüm bu gün başa düşdüm.

Vahidxan ona deyir ki, çıx get, o qorxudan dalı-dalı getməyə başlayır. Vahidxan əmr edir ki, dön düz get, o dönür, amma başını döndərmir eləcə də yavaş-yavaş uşaqlaşıb gedir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ATAM HÜSEYNAĞA HAQQINDA (1915-1988)

Atam Əzimov Hüseynağa Bağı oğlu 1915-ci ildə Hacıqabul rayonunun Qubalı Baloğlan kəndində anadan olmuşdur.

O kənd məktəbini bitirdikdən sonra həkimlik məktəbinə qəbul olmuş və həkimlik məktəbini bitirdikdən sonra 1938-ci ildə hərbi xidmətə getmişdir.

O 1938-ci ildən 1945-ci ilin oktyabr ayına kimi üç müharibədə iştirak etmiş, üç müharibə veteranıdır. O 12-ci armiya 131-ci kavalerni polk 4-cü eskadronda xidmət etmişdir (əsas hərbi komissarlıqdakı kitabın 51-ci səhifəsində). O rota komandiri olmuş, 1942-43-cü illərdə müvəqqəti komandir batalyon olmuşdur. həmişə irəlidə vuruşan cəsur döyüşçülərdən olmuşdur. hərbi tribunal yanında azərbaycanlılar üçün tərcüməçi olmuşdur.

Müharibə illərində göstərdiyi igidliklərə görə təltif olunduğu orden və medallar bir geyimdə kostyumun sinəsinə sığmır. O müharibədən gələndən sonra da rəhbər vəzifələrdə işləmişdir. Rayon xalq nəzarəti komitəsində işləmişdir.

Qardaşları Əzimov Həsənağa Bağı oğlu və Əzimov Əliağa Bağı oğlu 1941-1945-ci il müharibəsində vətən yolunda şəhid olmuşlar.

Əzimov Hüseynağa Bağı oğlu 1988-ci ilin may

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ayının on beşində (15 may) vəfat etmişdir. Onun yas məclisini əhli Quran olan oğlu 40 yaşlı Məşədi Vahidxan, əhli Quran olan nəvələri 12 yaşlı Məşədi Həsənağa, 11 yaşlı Məşədi Mehdixan, 10 yaşlı Məşədi Mehrab və 8 yaşlı Məşədi İlham apardılar.

Allah rəhmət eləsin.

Atam haqqında, şair Miryusif Mirnəsiroğlunun 1999-cu ildə çapdan çıxan "Hacıqabuldan çıxan yollar" kitabından sətirlər;

İnam və iman

Birinə səxavət göstərəndə sən,
Onu borclu bilsən savabı olmaz.
Bağlar meyvəsini alır Günəşdən,
Günəş bir kimsədən təşəkkür almaz.

Bu həqiqətəndə belədir. Verdiyin verib "ata ehsanına" deməkdən, verdiyini üzə vurub təkəbbür hissi keçirməkdənsə verməmək, başqasını utandırmamaqdan daha yaxşıdır.

Edilən xeyirxahlığın, verilən köməkliyin böyüyükiçiyi yoxdur. Əfsanəyə görə Qarışqa Süleyman peyğəmbərə çəyirtkə budu gətirdi, peyğəmbər onu çox böyük hədiyyə kimi qəbul etdi.

Bağı Məşəd Əzim oğlunun ömür payı, ömür qisməti elə bir vaxta, elə bir zəmanəyə nəsib oldu ki, ətraf Rəncbər, Navahı, Pirsaat, Atbulaq, Xıdırlı, Qızılburun, Ağacanlı kəndləri ehtiyac içində yaşayırdılar. Bağı kişi xeyirxah insan kimi ad çıxarmış atası

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məşəd Əzim ilə çiyin-çiyinə beş hektarlıq meyvə bağını körpə uşaq bəslənən kimi bəsləyir, yazqabağı şumlayır, vaxtında suyunu verir və Xaliqi-aləm də onların çəkdiyi zəhmətin müqabilində artıqlaması ilə yetirirdi. Şübhəsiz ki, bu böyüklükdə bağda yetişmiş armud, innab, göyəm, ərik, üzüm alma, nar, gavalı, əncir, heyva, albalı, gilas, şaftalı, əzgil, iydə ağaclarının barını-bəhrəsini tək yeməz, qapısına gələnlərə pay-püş edərdi. Kəndin kənarında əkin sahəsində yetişdirilən kəhrəba buğdadan, sarıqılçıq arpadan öz illik ruzusunu ayırdıqdan sonra, qalanlarını ehtiyacı olanlara, yetimlərə, başsız ailələrə paylayırdı. Bir sözlə, Məşəd Əzim ocağına üz tutub gəlmiş insan, bu qapıdan heç vaxt əliboş, naümid geri qayıtmazmış.

Atası Məşəd Əzim haqq dünyasına qovuşduqdan sonra Bağı ata ənənəsini, ata səxavətini, ata hidayətini bir az da böyütdü. Bu ənənəyə sədaqət Bağının hər şeydən qabaq atası Məşəd Əzimin ruhuna, əqidəsinə dərun hörmətin bariz təzahürü idi. Elə ona görə də o, hər dəfə atasının qəbrini ziyarət edəndə dərin fikrə dalır, sanki onun məzarı qarşısında oğul hesabatı verirdi:

Nə qədər bu cahanda ömrüm var, canım sağdır,
Ata, sənin pak ruhun məndə yaşayacaqdır.
Qəlbinin döyüntüsü qəlbimdə vurur hər gün,
Bütün vəsiyyətlərin qanundur mənim üçün.
Sən məni gətirmisən bu işıqlı həyata,
Arzuların, amalın qəlbimdədir, ay ata.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kimisə yaşatmaqçın yaşadın bu dünyada,
Xeyirxah tək yazıldı pak adın bu dünyada.
Tənimdə cismim-canım sənin cismin-canındır,
Mənim hər səxavətim ruhuna ehsanımdır.

Allah Bağı kişiyə özünə bəs edəcək, atasının vəsiyyətinə əməl edib başqalarına əl tuta biləcək var-dövlətdən başqa beş oğul və bir qız bəxş etdi. o da atası Məşəd Əzimin yolu ilə gedərək övladlarını zəhmətə, halal çörəyə alışdırdı, böyüdüb boya-başa çatdırdı.

Böyük Vətən Müharibəsi Bağı kişinin sinəsinə çalın-çarpaz dağlar çəkdi. 1941-1945-ci illər arası Məşəd Əzim kişinin 2 oğul və 10 nəvəsindən yalnız üç nəfəri sağ-salamat vətənə dönə bildi.

Bu qanlı-qadalı, ölümlü-müsibətli müharibədən geri dönənlərin biri də Bağının oğlu Hüseynağa oldu.

Əgər tanrı yazına sonluq yazılmayıbsa,
Oddan-alovdan keçib, yenə yaşayacaqsan.
Son məkanın, son evin hələ qazılmayıbsa,
Bu dünyada həm sevinc, həm qəm daşıyacaqsan.

1915-ci ildə Hacıqabul rayonunun Qubalı-Baloğlan kəndində dünyaya gəlmiş Əzimov Hüseynağa Bağı oğlu kənd yeddiillik məktəbini başa vurduqdan sonra tibb məktəbini oxuyub orta ixtisaslı vetenar sənətinə yiyələnmişdir.

1938-ci ildə 23 yaşlı Hüseynağa hərbi xidmətə göndərilir. O, ilk hərbi xidmətini Rusiyanın Yaponiya və Mancuriya sərhədi sayılan Uzaq Vladivostokdan

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

başlayır. 45-50 dərəcə şaxtası olan, SSRİ-nin son nöqtəsi sayılan bu hərbi hissədə Hüseynağa şəfqət qardaşı kursu üzrə öz ixtisasçnı təkmilləşdirir.

Cənubun Azərbaycan adlı məmləkətinə əbədi bəxş edilmiş günəş şüasının ilıq, isti şəfəqlərində "yuyunaraq" boy atmış bir insan üçün bir vətən oğlu üçün Vladivostokun ilikləri donduran şaxtasının, qışının, soyuğunun nə demək olduğunu həyəcansız düşünmək olmur. Nə etmək olardı, bu da bir tale, bu da bir yazı idi.

Bu da bir taledi, bu da bir yazı,
Yazıya bir pozu varmıdır, dədə?
Niyə susduruldu bülbül avazı,
Qızıl qana batan sarmıdır, dədə?

Sən ki, düz olmusan, gəl, düzün söylə?
Niyə insan edir kor gözün – söylə?
Özün fikir eylə, bir özün söylə,
Bu böyükdə dünya darmıdır, dədə?

Min od var dünyanın hər bucağında,
Elə qazan qaynar hərb ocağında,
Hərkəsin qisməti öz torpağında,
Sakitcə yaşamaq armıdır, dədə?

Zülmət eyləyənlər nur sabahları,
Necə daşıyırlar bu günahları?
Bir Allah var ikən, yer allahları,
İnsana, yağımı, yarmıdır, dədə?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Düyünlü suallar qarşısında aciz qalmış insanlar kimi, elə mən də, Hüseynağa da bu sualların qarşısında aciz qaldıq. Aciz qalmasaydıq bilərdik ki, Adolf Hitler nə istəyirdi bu dünyadan. O böyüklükdə Almaniya ona bəslik etmirdimi? Lap tutaq ki, bütün dünyanı fəth etdi, sonra? sonra nə olsun? Bu müəmmalı, cavabı düyünə düşmüş sualların qarşısında qalarkən, rəhmətlik Ağamın tez-tez təkrar etdiyi bir neçə beyt yadıma düşdü:

"Ey cahan dövlətinə səy qılan sahibi-mal,
Dövlətə səy eləmə axirəti yadına sal".

...Neçə şahən-şahi-şahzadə gəlib dünyaya,
Neçə mərdanə igid-hər biri bir Rüstəmi-Zal.

Birbə-bir gəldi, özünü cahanə göstərdi,
Yenə tez getdi ədəm guşəsinə sayə-misal.

Tüf bu dünyayə, bu dünya nə yaman dünyadır,
Gör nə viranə, nə viranə qoyub əhli-məlal?

Yığacaqsan, ta nə qədər dövləti-mal istəyəsən,
De görüm, axırın aya nədir, ey sahibi-mal?"...

1941-ci ilin iyunun 21-də hökmü Hitler tərəfindən verilmiş Böyük Vətən Müharibəsinə, bu ölüm-olum savaşına Hüseynağa böyük bir dəstənin komandiri kimi cəlb olundu.

...Axşamdan başlayan atışma səngimək bilmədən səhərə kimi davam etdi. Düşmənlər qarşıdakı çay üzərində qurulmuş körpünü ələ keçirmişdilər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hüseynağanın dəstəsi necə olur-olsun bu körpünü ələ almalı, çayın o biri sahilinə keçməli idilər. O, öz döyüşçülərini üç yerə bölüb, bu dəstənin birin sağ, birini sol tərəfə – düşmənin fikrini yayındırmaq üçün göndərdi. Özü 10-15 nəfərlə mərkəz hücum nöqtəsində dayandı. Səhər alatoranlığında atışma daha da şiddətləndi. Sağ və sol tərəf atır, mərkəz isə susurdu. Guya mərkəzdə heç nə, heç kim yoxdur. Düşmən tankı körpünü keçib gah sağa, gah sola hərəkət edir, fil xortumundan atəş yağdırırdı. Hüseynağa hər iki tərəfin çoxlu itki verdiyini anladı. Yoldaşlarına "siz mövqeyi möhkəm saxlayın, mən getdim" deyərək irəli sürüşdü. Az keçmədi ki, Hüseynağanın Uzaq Ukrayna cəbhəsində heç kimin başa düşmədiyi bir dildə "Ağam ya Həzrəti Abbas!" deməsi ilə, atdığı qumbaradan tankın alovunun göyə qalxması bir oldu. körpü xilas olundu.

Hüseynağa gözlərini açanda başının üstündə ağ xalatlı hərbi həkimləri gördü, hərbi xəstəxanaya düşdüyünü anladı. Yerindən sıçramaq istədi. İlk sualı "Mənə nə olub?" oldu. Həkimlər ona dedilər ki, "sən böyük rəşadət göstərmisən, 240 nəfərlik bir dəstəni ölümün əlindən almısan. Xeyli vaxtdır ki, özünə gələ bilmirsən. Bu kantuziyanın yüngül əlamətləri idi. Beş-altı günə tamam sağalacaqsan".

Xəstəxanadan çıxıb yenidən döyüşə gedərkən ona dördüncü fəxri döş nişanı təqdim edilir.

Əzimov Hüseynağa Bağı oğlu müharibənin sonuna kimi uzun-uzadı canlı şahidinə çevrilir. Neçə

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

müsəlman şəhidlərini məzara qoyur, neçə yara sarıyır, neçə insan həyatını xilas edir.

Milyon insan ölümü hesabına başa gəlmiş bu müharibə qələbə ilə qurtarır və Hüseynağa doğma torpağa dönür.

Hüseynağanın müharibə cəbhələrində etdiklərini unutmayan bir qrup müharibə veteranları çox-çox sonralar qəzet vasitəsilə "Sən hardasan yoldaş H.B.Əzimov" adlı sorğu məktubu ilə çıxış edirlər. Hüseynağa onlarla görüşür və ömrünün sonuna kimi məktublaşırlar.

Hüseynağa Qubalı-Baloğlana – öz doğma kəndinə dönür, kolxozda veteran həkim kimi işə başlayır. İlin sonunda inventar aktı bağlanarkən kolxoz rəhbərliyi tərəfindən ona təklif olunur ki, 20 inəyin, 100 baş qoyunun ölüm aktını yazsın. Nəslən düz əməlləri özünə bayraq etmiş Hüseynağa üçün bu gözlənilməz, əqlə gəlməz bir təklif olur. Sənədlərini götürüb "cinayət yuvası" adlandırdığı bu kolxozdan uzaqlaşır və elə həmin andan Hacıqabula gəlib dəmiryol stansiyasında qatar bələdçisi işinə düzəlir.

Hüseynağanın yaxşı işini, düz adam olduğunu nəzərdən qaçırmayan şəhər sovetinin sədri ona ictimai iş kimi Hacıqabulun Çkalov ərazisini evlər müdirliyi vəzifəsini tapşırır. Burada da özünü doğruldan, camaat arasında böyük hörmət və nüfuz qazanan Hüseynağa növbəti sessiya zamanı şəhər sovetinə deputat seçilir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

H.Əzimov artıq hər kəsin doğmasına çevrildiyindən xalqın əsil mənasında elçisinə, müdafiəçisinə çevrilir. Evsizlərin evli olmasında, haqqın nahaqqa verilməməsində, şəhərin səliqə-sahmana salınmasında bir ağsaqqal kimi fəaliyyət göstərir.

Artıq bütün rəhbər idarələr, ziyalılar, ağsaqqallar arasında tanınmış Hüseynağaya ictimai iş kimi rayon nəzarət komitəsinin Hacıqabul üzrə müavinliyi tapşırılır. Bu sahədə işlədiyi illərdə neçə-neçə ticarətçini düzlüyə, haqqa yönəltmiş, neçə-neçə idarə və müəssisə rəhbərliyinə ağsaqqal məsləhətləri vermiş, xalqın qeydinə qalmalarını tövsiyə etmişdir.

Ümumiyyətlə, müharibədən sonrakı 42 illik əmək fəaliyyəti dövründə bircə əqidəyə, bircə məsləkə qulluq etmişdir – düzlük, inam!

O, başqa cür yaşaya bilməzdi. Çünki onun damarlarında halallıq rəmzi kimi tanınmış Bağı kişinin qanı axırdı.

O, başqa cür yaşaya bilməzdi. Çünki onun ocağının başında MəşədiseyidHüseyn qızı Seyidbəyim bacı otururdu.

O, başqa cür yaşaya bilməzdi. Çünki onun ocağının başında MəşədiseyidHüseyn qızı Seyidbəyim bacı otururdu.

O, başqa cür yaşaya bilməzdi. Çünki onun Vahidxanı, Sədəfi, Xırdası, Bəstisi, Pərisi, Əlibağısı, Vəfası halal ata çörəyi yeməli idi.

O, başqa cür yaşaya bilməzdi. O, başqa cür ya-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

şasaydı 1998-ci ilin may ayının 14-də bütün ailəsini ətrafına yığıb, kəlmeyi-şəhadətini oxuyub bu dünyaya vida deməzdi.

Onun son vidası iman və inamla tamamlandı. Məzarı nurlu, ruhu şərəfli olsun Hüseynağa adlı el ağsaqqalımızın! Amin!

İnsana məhəbbət qəlbinə doldu,
Bir islami iman yaşatdı səni.
Həqiqət, doğruluq haqq yolun oldu,
Yetmiş üç il inam yaşatdı səni.

BACIM BƏSTİXANIM HAQQINDA

Əzimov Hüseynağa Bağı oğlunun övladlarından şeir yazmaq istedadı olanlar yenə də vardır. Əzimova Bəstixanım Hüseynağa qızı 12 dekabr 1956-cı ildə Hacıqabul rayonunun Qubalı-Baloğlan kəndində anadan olmuşdur. Həmin kəndin orta məktəbini bitirdikdən sonra Azərbaycan Dövlət Universitetini bitirmiş, ali təhsilli müəllimədir. 1984-89-cu illərdə Az.Xarici dillər institutunda işləmişdir. 1989-1998-ci illər Qrikotaj səhmdar cəmiyyətində kitabxana müdiri işləmişdir. Onun da şeir yazmaq istedadı vardır. Əzimova Bəstixanım Hüseynağa qızının yüzdən artıq yazdığı şeirdən atasının vəfatına yazdığı bir şeiri nümunə üçün bu kitabda çap edirik.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sənsizliyim məni yaman əyibdir
Kaş görəydin bu günümü, ay ata.
Görəydin mən necə yalqız qalmışam,
Ümidim yox bu günümdən sabaha.

Min əzabla keçirirəm gecəni
Yuxularım tamam ərşə çəkilir
Gecə, gündüz düşünürəm tək səni
Göz yaşlarım yanağıma süzülür.

Bahar gəlib sənsiz elə, obaya
Hamı deyir, hamı gülür, şənlənir
Bir mən yalqız oturmuşam otaqda
Göz yaşlarım yanağımda göllənir.

Sənli günlərimi salıram yada
Necə də xoşbəxtdim, mərd idim onda
Ağlıma gəlməzdi bir vaxt gələcək
Beləcə qalacam əli qoynunda.

Çox istərdim evimizə gələndə
Sən də əvvəlki tək evdə olaydın
Mənlə əvvəlki tək danışıb, gülüb
Qarşılayıb həm də yola salaydın.

Əfsus ki, bunları görməyəcəm mən
Sənsə daha bir də gəlməyəcəksən
Telimi oxşayıb, üzümdən öpüb
Mənlə dərdlərimi bölməyəcəksən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İnana bilmirəm mən yoxluğuna
Mənim atam ölməz ataydı axı
İlahi mən necə çəkib aparım
Qəlbimdə yurd salmış, bu boyda dağı.

Bəstixanım Hüseynağa qızıyam
Ata camalının bir ulduzuyam
Ata fərağından, ata qəmindən
Qəbirdə də çətin rahət uyuyam.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

MƏŞƏDİ VAHİDXAN HÜSEYNAĞA OĞLU BAĞIYEVİN HAQQINDA

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

RUHANİLİYƏ DOĞRU

Bir ruhani şəxsiyyət haqqında fikir söyləməkdən qabaq ruhani sözünün əsasını təşkil edən ruhun nə olduğunu bilməliyik. Bu, açıqlanması tamamilə mümkün olmayan çox müşkül məsələdir. Çünki Allah-təala özü Cəbrayıl vasitəsi ilə Məhəmməd peyğəmbər salavatullaha xəbər göndərmişdir ki, "Əgər sən ruhun nə olduğunu insanlara açıqlasan, onda get, özünə başqa bir "allah" tap". Deməli ruhun nə olduğunu açıqlamaq həm günah, həm də çox müşküldür.

Lakin ruh materialist fəlsəfədə və psixologiyada ən yüksək dərəcədə mütəşəkkil materiyanın xüsusi bir xassəsi kimi təzahür edən şüur və təfəkkür şəklində qəbul edilir.

Dinə görə ruh insanı Allaha qovuşduran ölməz bir qeyri-maddi varlıq kimi, qeyri-müəyyən can kimi, fövqəltəbii bir varlıq kimi təsəvvür edilir.

Daha da sadələşdirsək dindarların dediyi kimi, insan cismani faniliyin qisməti olduğu halda, onun ruhu həmişə yaşardır, ölməzdir.

Dərvişlər, şamanlar, kahinlər, keşişlər... ümumiyyətlə Allahın varlığına inanan və mənsub olduğu dinin ehkamlarına ciddi surətdə əməl edən dindarlar bütünlüklə ruhanidirlər.

...Ömrünün bütün əmək fəaliyyəti dəmiryolçuluqla keçən Hüseynağanın 01 yanvar 1949-cu ildə Qubalı-Baloğlan kəndində dünyaya gəlmiş körpəsi

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Vahidxan adlandırıldı. Ana tərəfdən irsən seyidlik "qazanmış" Vahidxan əqli söz kəsib, məkətəbə gedəndən el ağsaqqallarının şirin, maraqlı söhbətlərinə diqqət kəsilmiş, dindarların hikmətamiz rəvayətlərinə, hədislərinə qeyri-ixtiyari heyrətlənmişdir. Hər dəfə Peyğəmbər və İmamların keçdiyi şərəfli həyat yolundan bəhs edilən epizodları beyninə həkk etdikcə onun körpə vücudu lərzəyə gəlmiş, köksü qabarmış, dodaqlarında hələ şeir gülüstanında cilvələnməmiş pıçıltılı misralar əmələ gəlmişdir. 7-8 yaşından ibadətlə məşğul olmuş, oruc tutmuş, anasından namaz qılmağı öyrənmişdir.

Vahidxan da öz kəndlərində orta təhsil almış, sonra Göyçay kənd təsərrüfatı texnikumuna girib mexanik ixtisasına yiyələnmişdir.

Çörəyini "daşdan çıxaran" Vahidxan uzun müddət daş karxanasında işləmiş, halallığı, allahsevərliyi, dindarlığı ilə kollektivin hüsnü-rəğbətini qazanmışdır.

Vahidxan ərəb əlifbası öyrənmiş və beləliklə Qurani-Kərim oxumağa nail ola bilmişdir. Bu onun ən böyük arzusu, ən ülvi amalı idi. O, yaşa dolduqca, kamilləşdikcə, ailəsi böyüdükcə, dünyagörüşü genişləndikcə onun da arzuları böyüdü, müqəddəsləşdi, ilahiləşdi. Və bu müqəddəs eşq, ilahi vurğunluq onu iki oğlu Həsənağa və Mehdixanla ilk dəfə 1992-ci ildə İranın Məşhəd şəhərinə – İmam Rzanın ziyarətinə gətirib çıxartdı. Onlar bu ziyarət

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ərəfəsində Qum vilayətində İmam Rzanın bacısı Məsumə xanım cənnətini, Tehran şəhərinin Behişti-Zəhra xiyabanında Xomeyni Ağanı, Darvazeyi-Əşrəfiyyə qəsəbəsində seyid Cəlaləddin Əşrəfini ziyarət etmək şərəfinə nail ola bilmişlər.

Allaha, peyğəmbərlərə, imamlara, islam dininə, islam dünyasına, islam fenomeninə uşaqlıqdan sonsuz məhəbbət bəsləyən Məşəd Vahidxan hərbi xidmətini Afrika qitəsində – İordaniya, İraq, Səudiyyə Ərəbistanında və Türkiyədə keçirərkən Allah ilə "əhd etmişdir": "Mən bütün həyatımı-ailəmi, özümü, varlığımı, idrakımı Sənin göstərdiyin işıqlı yola çıxmağa sərf edəcəyəm, İlahi!"

Bu müqəddəs əhd-peymanın nəticəsidir ki, Məşəd Vahidxan 1993-cü ildə ikinci dəfə digər oğlu Mehrab və İlhamla Məşhəd şəhərinə – İmam Rza ziyarətinə getdi və belilklə, 9 nəfərdən ibarət olan, mayası halallıqla yoğrulmuş, bir dindar ailədən 5 nəfəri Məşədi titulunu qazana bildi: Məşəd Vahidxan, Məşəd Həsənağa, Məşəd Mehdixan, Məşəd Mehrab və Məşəd İlham.

Məşəd Vahidxan ikinci ziyarət zamanı qızlarını apara bilmədiyi üçün özünü bağışlaya bilmir, günahkar adamlar kimi qızları Səadət, Laləzar və Qəmər xanımın nisgilli baxışlarına dözmürdü.

Müqəddəs əməllər icrası üçün,
İstəyə, eşqə dol – Allah sənlədir!
Mütləq gəlməlidir səadətli gün,
Sən Allahınla ol, - Allah sənlədir!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nəhayət günlərin bir günü Məşəd Vahidxan üçüncü Məşhəd ziyarətinə gedərkən qız balalarını da özü ilə apardı və onların hər üçü bu müqəddəs arzuya, bu müqəddəs amala yetişərək Məşəd Səadət, Məşəd Laləzar və Məşəd Qəmər xanım adını qazandılar.

Məşəd Vahidxan şairdir, heç bir ədəbiyyat institutunu qurtarmamış, ədəbiyyat nəzəriyyəsini oxumamış, Allahın bəxş etdiyi istedaddan bəhrələnmiş təbii-rəvan şairdir.

Nə sözün var, gözəlim, sevgili canan, mənə de,
Saxlayıb, etmə məni könlü nigaran, mənə de.

Başqasıyla mənə göndərmə xəbər, söz yayılar,
Nə də, gəl gizləmə öz sirrini pünhan, mənə de.

Bəlkə də könlünə dəymiş şeirim, ya qəzəlim,
Söylə, bu səhvi düzəldim, sənə qurban, mənə de.

Belə arifliyinin sirri nədir mahi-təban,
Hər kəlamın mən üçün ayeyi-Quran, mənə de.

Bu gözəllikləri ki, bəxş eləyib Tanrı sənə,
De, necə olmamalı hüsnünə heyran, mənə de.

Hələ çoxmu dözəcək ayrılığa Vahidxan,
Nə zaman olmalıyam vəslinə mehman, mənə de.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Klassik şairlərimizdən bəhrələnən, mütaliəni gündəlik ehtiyacı hesab edən Vahidxanın müxtəlif səpkili şeirləri "Ədəbiyyat və İncəsənət", "Azərbaycan gəncləri", "İşıq", "Qələbə", "Yeni həyat", "Hacıqabul", "Şəhriyar" və başqa qəzetlərə yol alır. Bu şeirlərin əsas mövzusu ilahiyyat ilə bağlı olmasına baxmayaraq, vətənpərvərlik, torpağa bağlılıq, humanist hisslərin aşılanması və sair insani keyfiyyətlərin ali çalarlarını özündə cəmləşdirməyə müvəffəq olan şeirlər də az deyildir. Vahidxan bəzən çıxılmaz suallar qarşısında qalır və bu cavabsız suallar onu heyrətə gətirir:

İlahi, sağalmır torpaq yarası,
İnsanlar həddin aşıb, qəzəbləşibdir.
İblis bir şeytansa, dünyanın yarsı,
Necə olubdur ki, iblisləşibdir?

Hacıqabul rayonunun mərkəzindəki iki və kəndlərdəki hər bir məscidə Vahidxan üst-üstə 160 ədəd Qurani-Kərim, 200 ədəd digər dini ədəbiyyat, 600 ədəd möhür, 40 ədəd canamaz və 20 ədəd qiblənamə (kompas) bəxş etmişdir.

Bir dəfə ondan soruşdum:

- Bu qədər kitabları və hər il dəfələrlə verdiyin ehsanları hansı vəsait ilə edirsən?

O cavab verdi:

- Ay seyid, heç olarmı ki, Allahın mənə verdiyindən onun bəndələrinə qismət olmasın? Bəs,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

müsəlmançılıq, bəs insanlıq, bəs başqalarına qarşı qayğı?

- Düz deyirsən qardaş, - deyə onun fikirlərinə qol-qanad verməyə çalışdım. – Şairə Natəvan xanımı elə Natəvan edən də onun şairliyindən öncə gələn xeyirxahlıqları olmuşdur. uzaq dağ aşırımlarını keçdirib Şuşaya çəkdiyi bulaq, Qasım bəy Zakirə bütünlüklə bağışladığı Xındırıstan kəndi, etdiyi saysız-hesabsız xeyirxahlıqlar onu tarixləşdirmiş, əbədiləşdirmişdir.

Məşədi Vahidxan dərindən köks ötürdü. Sözlü olduğunu hiss etdim, nəsə demək istəyirdi, bəs niyə demirdi görəsən? Mən ondan söz qopartmaq məqsədi ilə – Niyə susdun, Məşədi? – deyə soruşdum. Məşədi ürəyini "boşaltmağa" elə mənim kimisini axtarırmış:

–Ay Ağa, vallah-billah, bu indiki "əldəqayırma" mollalara mat-məəttəl qalmışam. Srağa gün biri məni tutub deyir ki, sən hüzür yerlərində 40 gün oturursan, dəfn mərasimindən başlayaraq son günə kimi yola verirsən, bir manat da almırsan. Axı, belə olmaz. Sənin bu hərəkətinə görə heç kim bizi bu kəndə gətirmir. Mən də dedim: a qardaş, elə bilin ki, heç ölüm-itim yoxdur, əlinizə tüfəng götürüb bu camaatı qıracaqsınız ki, hüzür yeri olsun? A balam, gedin bir ağıllı işnən-gücnən məşğul olun da. Mənim kimi heyvan saxlayın, torpaq becərin, alnınızın tərindən, əlinizin qabarından həzz alın.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

"Yağmadı yağış, bitmədi qamış". Elə mütləq ölü yiyəsi boynuna torba salıb sizə pul tapsın? Axı ölünün sahibini maddi cəhətdən yenidən "öldürmək" günahdır. Allahdan qorxun, peyğəmbərdən çəkinin bir şərmi-həya edin, axı ayıbdır.

Məşədi Vahidxan bunları mənə söyləyəndə hirsindən rəngi ağarmışdı. Mən söhbətin istiqamətini dəyişməyə çalışdım:

- Ay Məşədi, yaxşı de görüm təzə nəyin var?

Onun sifəti açıldı, tez əlini qoltuq cibinə saldı və mənə iki vərəq verib dedi:

- Təzə yazmışam.

Mən şeiri qiraətlə oxumağa başladım

Könül, fəda olalı ol Xudaya hər ikimiz,
Əcəb yetişmişik artıq səfaya hər ikimiz.

Yetək vüsalına biz odlanan huma quşu tək,
Verək bu eşqidə can Mustafaya hər ikimiz.

Bulaq kimi süzülən qanlı göz yaşı axıdaq,
İmamımız Həsəni – Müctəbaya hər ikimiz.

Vüsalına yetişib xaki-payini öpərək
Baxaq məhəbbət ilə Kərbəlaya hər ikimiz.

Bu qədri cövrü-cəfalar çəkir bu millətimiz,
Şikayət eyləyirik Əmbiyaya hər ikimiz.
Bu həsrətin sonu var, sən də bil ki, Vahidxan,
Fəda olanlarıyıq La-Fətaya hər ikimiz.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yanaqlarımda göz yaşım gilələnmişdi, ürəyim yaman çırpındı. Bir anlıq quş olub Kərbəlaya – şəhid olmuş və bu şəhidliyi ilə islam dünyasının fövqündə dayanmış ulu babam İmam Hüseynin məqbərəsini qucaqlamaq, üzümü o torpağa sürtmək, başı bəlalı xalqıma nicat diləmək istədim.

Yaman kövrəltdin məni Məşəd Vahidxan, nə gözəl demisən, necə doğru demisən:

Bu qədri cövrü-cəfalar çəkir bu millətimiz,
Şikayət etməliyik Əmbiyaya hər ikimiz.

Düz deyirsən, qardaş, Əmbiyaya şikayət etməliyik, soruşmalıyıq ki, nədir bu müsəlmanların suçu, günahı? Nə vaxta qədər Əfqanıstanda, Pakistanda, İranda, Bolqarıstanda, Çeçenistanda nahaq qanlar töküləcək? Soruşmalıyıq ki, süfrəsi hamı üçün açıq olmuş, öz torpaqlarında başqalarına yer vermiş xalqımızın günahı nədir? Qara mərmərləri oddan-alovdan yanmış, qurumuş ağac kötüklərini xatırladan Şəhidlər xiyabanı bizim göz dağımız oldu, minlərlə şikəst balalarımız ürək yaramıza çevrildi, gözü yaşlı analarımızın ağıları nəğmələrimizə hopdu, qız-gəlinlərimizin geyimi qara rəngə boyandı... İlahi, bəs deyilmi bu qədər cövrü-cəfa? Bəs deyilmi bu qədər ölüm-fəlakət? Heç kim bizə sahib durmursa, barı Özün bizə xilaskar ol!

Məşəd Vahidxan "mənim yaralı yerimə toxunduğu üçün" əlini boynuma saldı, məni bağrına basdı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O da kövrəlmişdi. Şübhəsiz ki, o, bu şeiri yazanda hər beyt üzərində göz yaşları axıtmış, ürəyini boşaltmışdı.

Məşəd Vahidxanın şeirlərini sadəcə oxumaq, dərindən düşünməmək, böyük bir ürəyin haqq adlı, haqq ünvanlı səsini eşitməmək onun deyil, Allah qarşısında günahdır.

Çünki fikirlər, qayələr o qədər təmiz, o qədər mənalı, o qədər axıcıdır ki, sanki bu misralar vəhy vasitəsilə gəlmişdir.

Kərbəla şəhərində olarkən İmam Əli Əleyhüssalamın oğlu Həzrəti Abbasın məqbərəsini ziyarət etmiş və göz yaşları içərisində mənə təqdim etdiyi bu ikinci şeiri yazmışdır:

Həsrətlə keçən günləri divanəyə döndüm,
Gəldim Səni gördüm, Ağa, mərdanəyə döndüm.

Öpdüm bu qızıldan tikilən barigahından,
Ruhum uçaraq göylərə, məstanəyə döndüm.

Gül məqbərənin mən dolanıb başına hər gün,
Bu vəsli şəmi-nuridə pərvanəyə döndüm.

Sən haqqı bulan, haqq yolunun sərvəri idin,
Oldum bu yolun zəvvarı, dürdanəyə döndüm.

Sevdalı olan qəlbimə atəş çilədin sən,
Coşduqca bu eşqim, yeni ümmanəyə döndüm.

Düşdü yadıma millətimin cövrü-cəfası,
Abadi-vətənkən niyə viranəyə döndüm?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Başsız bədən olduq, bizə bir çarə yetir Sən,
Nalə çəkibən hər günü əfqanəyə döndüm.

Tapdım bu ziyarətdə ümid, səbr, təsəlli,
Vahidxan ikən burdaca şahanəyə döndüm.

Göründüyü kimi, Məşəd Vahidxan şeirlərinin hər misrası sanki poladdan tökülmüş, Zəmzəm bulağının suyu ilə cilalanan qığılcımdır, iti qığılcım. Daş ürəkləri belə parçalayıb muma döndərən hikmət dolu bu şeirləri oxuduqca insan təmizləşir, bakirələşir, Allaha yaxınlaşır və Vətən adlı ulu taleyimizə daha dərindən yaxınlaşmalı oluruq.

Düşdü yadıma millətimin cövrü-cəfası,
Abadi-vətənkən niyə viranəyə döndüm?

Konkret sualdır, məşədi, ancaq sən bu sualları VII əsrdə Ərəbistan torpaqlarında İslamın qələbəsi uğrundakı müharibələrdə misilsiz rəşadət göstərmiş, qolları "qələmləndikdən" sonra da meydandan çəkilməmiş və mərdanə şəhadəti ilə əbədiyyətə qovuşmuş Əli oğlu Abbasa verincə, bu gün Azərbaycan adlı cənnət məmləkətimizin böyük bir hissəsini satanlardan, xalqın sərvətini hərraca qoyanlardan, milləti yaman günə salanlardan, kreslolar üstündə yandırılmağa belə layiq olmayan kötüklərdən soruş. Soruş, Cəbrayılı, Zəngilanı kimə peşkəş etdiniz? Soruş, Füzulini verərkən Kərbalada-İmam Hüseynlə çiyin-çiyinə yatan babam Füzulinin ahı niyə

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

tutmadı sizi? Soruş, nəydi Qubadlının günahı? Soruş, qədim bir yurdu – Ağdamı verərkən vicdanınız ağrımadımı? Soruş, Şuşanı düşmənə təslim edərkən Vaqifin, Natəvanın məqbərəsini də verdinizmi kafirlərə? Seyidin, Xanın səsini-naləsini niyə eşitmədiniz? Niyə çaldırmadınız Üzeyir bəyin uverturasını? Niyə batırdınız Bülbülün səsini? Soruş, hanı Laçının laçın oğulları, Həcər qızları?..

...Eh, nə bilim, qardaşım Məşəd Vahidxan, bəlkə də gündə yüz dəfə, min dəfə soruşmusan, bəlkə də... Onu bilirəm ki, bu binamuslar, bu vətən xainləri sənin haqlı suallarından nə utanacaqlar, nə də sənə cavab verəcəklər. Axı, nə cavab versinlər?... Bildiyim odur ki, sən bu torpağın namuslu, qeyrətli oğlusan, sən Allahın hökmü, Peyğəmbərin şəriətinə sadiq qalan əməli-saleh adamsan. Onu da bilirəm ki, sən quran əhli kimi bütün bu sirli-müəmmalı oyunlara baxmayaraq oğullarımızı başı bəlalı Azərbaycan torpaqlarının müdafiəsinə səsləyirsən, onlarda vətənpər-vərlik hissi aşılayırsan.

Bilirəm ki, narahatsan
Ana, oğul sorağında.
Vətənə keşik çəkirəm
Mən Qarabağ torpağında.

Gələndə hərbi xidmətə
Mənə-fikir çəkmə-dedin
-İşin çətin-ağırından
İnciyib çəkinmə,-dedin.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bizi də unutma bala
Deyə öpdün gözlərimdən
Qəlbimə yüz nur çiləndi
Sənin dürlü sözlərindən.

Sənin nəsihətinlə mən
Xidmətdəyəm ana inan
Mən xoşbəxtəm, çünki bu gün
Mənə vətən tapşırırsan.

Bax beləcə sənlə bu günkü görüşümüzü başa vurduq, Məşədi Vahidxan.

Bu görüşdən ikimiz də, məmnun olduq, ikimiz də, kövrəldik, ikimiz də gələcəyə inamla baxdıq. Çünki hər ikimiz bütün aydınlığı ilə dərk edirik ki, "haqq incələr üzülməz".

Biz haqqın tərəfindəyik, biz haqqın yolundayıq. Deməli haqq da bizimlə olacaq, qələbə də! Allah arzumuzu çin etsin!

Haqqı əzəl gündən haqq bilən qardaş,
Sən haqqın yolunda bir yanar şamsan.
Gözlərim önündə adi vətəndaş,
Ruhani aləmdə bir ehtişamsan

Azərbaycan Respublikası Yazıçılar İttifaqı, Jurnalistlər Birliyi və Teatr Xadimlər İttifaqının üzvü, şair-dramaturq Miryusif Mirnəsiroğlunun "Hacıqabuldan çıxan yollar" (1999) kitabından səhifələr:

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

MƏŞƏDİ VAHİDXAN HÜSEYNAĞA OĞLU BAĞIYEV

Quran oxuduğu zaman onu dinləyin və susun. Bəlkə Allahın rəhmətinə şamil olasınız. Əraf surəsi, 204-cü ayə.

Ata şəcərəsi:

Dövrünün tanınmış şairi, el mollası, el aşığı Kərbəlayi Tağı, oğlu Məşədi Əzim, oğlu Bağı kişi, oğlu Hüseynağa, oğlu şair, el mollası Məşədi Vahidxan Hüseynağa oğlu Bağıyev.

Ana şəcərəsi:

Anası Əzimova Səyyid Bəkim Məşədi Səyyid Hüseyn qızıdır. Məşədi Səyyid Hüseyn 1926-30-cu illər arasında vəfat etmişdir. Kərbəlayi Mir Mehdinin nəvəsidir. Mirhüseynin bacısıdır. Məşədi Mirhüseyn Kür qırağı Xilamirzəli kəndində yaşamış, 1958-cı ildə vəfat etmişdir. Hacıqabulun Pirallahı qəbiristanlığında dəfn olunmuşdur. Şair, molla Vahidxanın babası şair Kərbəlayi Tağı oğlu Məşədi Əzimin əkib becərdiyi 5 hektardan artıq bağı, 80 hektardan artıq əkin sahəsi olmuşdur. Ehtiyacı olanlar Qubalı-Baloğlan kəndi və ətraf ərazilərdən bura gələr Kərbəlayi Tağının bağında yetişən meyvələrdən, əkin sahəsindəki məhsulundan aparıb istifadə edərdilər. Tanınmış şair-dramaturq-publisist Miryusif Mirnəsiroğlunun 1999-cu ildə çapdan çıxan "Hacıqabuldan çıxan yollar" kitabında Məşədi Vahidxanın ömür yolundan bəhs edən "Ruhaniliyə

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

doğru" oçerk dərc olunmuşdur. Həmin yazıdan sətirlər:

"Ömrünün bütün əmək fəaliyyəti dəmiryolçuluqla keçən Hüseynağanın 01 yanvar 1949-cu ildə Qubalı-Baloğlan kəndində yaşayan ailəsində dünyaya gəlmiş körpə Vahidxan adlandırıldı. Ana tərəfdən irsən seyidlik "qazanmış" Vahidxan əqli söz kəsib, məkətəbə gedəndən el ağsaqqallarının şirin, maraqlı söhbətlərinə diqqət kəsilmiş, dindarların hikmətamiz rəvayətlərinə, hədislərinə qeyri-ixtiyari heyrətlənmişdir. Hər dəfə Peyğəmbər və İmamların keçdiyi şərəfli həyat yolundan bəhs edilən epizodları beyninə həkk etdikcə onun körpə vücudu lərzəyə gəlmiş, köksü qabarmış, dodaqlarında hələ şeir gülüstanında cilvələnməmiş pıçıltılı misralar əmələ gəlmişdir. 7-8 yaşından ibadətlə məşğul olmuş, oruc tutmuş, anasından namaz qılmağı öyrənmişdir. Vahidxan öz kəndlərində orta təhsil almış, sonra Göyçay kənd təsərrüfatı texnikumuna girib mexanik ixtisasına yiyələnmişdir. Çörəyini "daşdan çıxaran" Vahidxan uzun müddət daş karxanasında işləmiş, halallığı, allahsevərliyi, dindarlığı ilə kollektivin hüsnü-rəğbətini qazanmışdır. Vahidxan ərəb əlifbası öyrənmiş və beləliklə Qurani-Kərim oxumağa nail ola bilmişdir. Bu onun ən böyük arzusu, ən ülvi amalı idi. O, yaşa dolduqca, kamilləşdikcə, ailəsi böyüdükcə, dünyagörüşü genişləndikcə onun da arzuları böyüdü, müqəddəsləşdi, ilahiləşdi. Və bu

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

müqəddəs eşq, ilahi vurğunluq onu iki oğlu Həsənağa və Mehdixanla ilk dəfə 1992-ci ildə İranın Məşhəd şəhərinə – İmam Rzanın ziyarətinə gətirib çıxartdı. Onlar bu ziyarət ərəfəsində Qum vilayətində İmam Rzanın bacısı Məsumə xanım cənnətini, Tehran şəhərinin Behişti-Zəhra xiyabanında Xomeyni Ağanı, Darvazeyi-Əşərfiyyə qəsəbəsində seyid Cəlaləddin Əşrəfini, Rey vilayətində İmam Rzanın qardaşı Əbdül Əzimi ziyarət etmək şərəfinə nail ola bilmişlər. Məşədi Vahidxan ikinci dəfə digər oğlanları Mehrab və İlhamla Məşhəd şəhərinə İmam Rza ziyarətinə getdi və beləliklə doqquz nəfərdən ibarət olan, mayası halallıqla yoğrulmuş bir dindar ailədən beş nəfəri Məşədi titulunu qazana bildi: Məşəd Vahidxan, Məşəd Həsənağa, Məşəd Mehdixan, Məşəd Mehrab və Məşəd İlham. Məşədi Vahidxan üçüncü dəfə Məşhəd ziyarətinə gedərkən qız balalarını da özü ilə apardı və onların hər üçü bu müqəddəs arzuya bu müqəddəs amala yetişərək Məşəd Səadət, Məşəd Laləzar, Məşəd Qəmər adını qazandılar. Məşəd Vahidxan savadlı el mollası olmaqla, həm də şairdir. Onun şeirləri "Ədəbiyyat və incəsənət", "Azərbaycan gəncləri", "İşıq", "Qələbə","Yeni həyat", "Hacıqabul", "Şəhriyar" qəzetlərində çap olunmuşdur. Hacıqabul rayonunun mərkəzindəki və kəndlərindəki hər məscidə Vahidxan üst-üstə 160 ədəd Qurani-Kərim, 200 ədəd digər dini ədəbiyyat, 600 ədəd möhür, 40 ədəd cana-maz, 20 ədəd qiblənamə (kompas) bəxş etmişdir".

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Miryusif Mirnəsiroğlu. Hacıqabuldan çıxan yollar. Bakı. 1999, səh 161.

Şair-Molla Məşədi Vahidxan 1967-1968-ci ildə hərbi xidmət dövründə İrak, Səudiyyə Ərəbistanı, Misir, Türkiyə və Polşada olmuşdur. o, Baltik dənizindən keçərək B.D.K. hərbi gəmisində Atlantik okeanı, Cəbəllütariq boğazı, Aralıq dənizi, Süveyş kanalı, Qırmızı dəniz, Ərəb dənizi, Fars körfəzində olmuş, geri qayıdanda Süveyş kanalından keçib Aralıq dənizi, Egey dənizi, Dardanel boğazı, Mərmərə dənizi, Bosfor boğazı, Qara dənizlə vətənə qayıtmışdır. Səyahət zamanı Məşədi Vahidxan Misirin paytaxtı Qahirədə, İraqınKərbəla, Kufə, Bəsrə ətrafında, Türkiyənin İstanbul şəhərində olmuş və bu səyahət onun dünyagörüşünün formalaşmasında mühüm rol oynamışdır. Özünün dediyinə görə, 1992-1993-cü illərdə üç dəfə Məşhəd ziyarəti zamanı imkandan istifadə edərək Məşhəd şəhərindən, başqa Qoçan, Qurqan, Rəşt, Tehran, Qum, Ərdəbil, Astara şəhərində də olmuş, dini-tarixi abidələrlə tanış olmuşdur. Məşədi Vahidxanın ailə üzvlərini hamısı ibadət edir, dörd oğlu isə Qurani-Kərimi sərbəst mütaliə edirlər. El arasında bu ailəni "Məşədilər" ailəsi də adlandırırlar. On yeddi ildir Məşədi Vahidxan oğlanları ilə Qubalı-Baloğlan kəndində əza məclislərini, dini mərasimlərdə "el mollası" qismində təmənnasız olaraq iştirak edirlər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məşədi Vahidxanın dediyinə görə, Qubalı-Baloğlan kəndindəki Quran oxumaq istəyən həvəskarlara 140 ədəd Quran, 300-dən artıq möhür, 300-dən artıq namaz kitabı, 300-dən artıq təsbeh, 100-dən çox canamaz, 100-dən çox dini və bədii kitabları öz pulu ilə alıb hədiyyə etmişdir.

O, həmçinin, Qaraçala məscidinə, Hacıqabul Xilə məscidinə, Udulu məscidinə, Rəncbər kənd məscidinə, Navahı kənd məscidinin hər birinə 80, Qubalı-Baloğlan kənd məscidinə 120, Əli Bayramlı DRES-nin ibadətotağına 40 ədəd müxtəlif dini və bədii kitabları öz pulu ilə alıb Allah rizasına hədiyyə etmişdir.

Məşədi Vahidxanı Hacıqabul rayonu ərazisində və ətraf yerlərdə yalnız din bilicisi, el mollası kimi yox, həm də bədii yaradıcılıqla məşğul olan bir şəxs kimi tanıyırlar.

Yenə xəyalınla, ana,
Dolaşıram sorağında.
Vətənə keşik çəkirəm
Mən Qarabağ torpağında.

Gələndə hərbi xidmətə,
Mənə – fikir çəkmə – dedin,
- İşin çətin, ağırından
Heç qorxub çəkinmə, - dedin.

Bizi də unutma, hala,
Deyə, öpdüm gözlərimdən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gözlərim yaşardı, ana,
Sənin odlu sözlərindən.

Sanma o vaxt mən ağladım,
Ağlamırdım, ana, inan!
Sevinirdim, çünki bu gün
Mənə vətən tapşırırsan.

Məşədi Vahidxan bu şeirində gənclərimizi Azərbaycan torpaqlarının müdafiəsinə səsləməklə onlarda vətənpərvərlik hissi aşılamağa çalışır.

Məşədi Vahidxan 1968-ci ildə sovet qoşunlarının tərkibində İraqda, Kərbəla şəhərində olarkən İmam Əli Əleyhüssəlamın oğlu Həzrəti Abbasın məqbərəsini ziyarət edir. Məşədi Vahidxanın dediyinə görə, indiyə kimi 60-dan çox şagirdi olub.

İnsan dünyada malı ilə, axirətdə isə əməli ilə tanınar.

Azərbaycan Respublikası Jurnalistlər Birliyinin üzvü Alik Ağəli oğlu Rzayevin 2007-ci ildə çapdan çıxan "Müqəddəs yolun yolçuları" kitabından səhifələr

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

MƏŞƏDİ VAHİDXAN HÜSEYNAĞA OĞLU BAĞIYEV

1-Yanvar 1949-cu ildə Hacıqabul rayonunun Qubalı Baloğlan kəndində kolxozçu ailəsində anadan olub. Orta məktəbi bitirdikdən sonra texnikoma daxil oldu. "Texnik-avtomexanik" sənətinə yiyələnib.

1981-ci ilə qədər 16 il sürücü işləyib.1981-ci ildən 1991-ci ilə qədər 10 il mexanik, baş mexanik işləyib. 1991-ci ildən 2002-ci ilə qədər 10 il avtoqaraj rəsi vəzifəsində çalışıb. 14 il dalbadal həmkarlar təşkilatının sədri seçilib. 1964-cü ildən mətbuatda çıxış edir. "Dünya Yusif bazarıdır" adlı kitabı çapdan çıxıb. "Neynəva" şairin ikinci kitabıdı.

Evlidi yeddi övladı var-(dörd oğlu, üç qızı) on altı nəvəsi var.

Məmiyev Gülbala Şirinalı oğlu 1929-cu ildə Şamaxı rayonunun Dağkolanı kəndində anadan olub. Özü halhazırda Hacıqabul rayonunun Pirsaat stansiyasında yaşayır. O, 4 oktyabr 2007- ci ildə Aşıq Tağı haqqında söhbəti və Aşıq Tağının iki şerini öz əlyazması ilə bizə təqdim etdi həmin söhbəti bu kitabda veririk. Gülbaba söhbət edir ki, :

- Mən çox yerlər gəzmişəm, çox yerin adamlarıyla rastlaşmışam, adətlərin görmüşəm.Bir gün də 1970-ci ildə Xaltan istisuyuna getmişdim. Ora hər il yay aylarında müalicə üçün istisuya gələnlərlə dolu olur. Orada çox qoca bir kişi gördüm. Yaxınlaşdım salam verdim, yanında əyləşdim. Soruşdum ki, baba neçə yaşın

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

var? Dedi ki, 110 yaşım var. Dedim Allah canıvı sağ elə-sin. Eşitdiklərindən, bildiklərindən bir az söhbət elə biz də yeri gələndə özümüzdən kiçiklərə danışaq.

Dedi mən söhbət bilmirəm. Biz onu danışdırmaq üçün birimiz dedi ki, baba mən Zərdabın kəndindən gəlmişəm.

Qoca soruşdu Zərdab nədir? Dedim ki rayondur. Dedi mən eşitməmişəm. Mən dedim ki, baba mən Hacıqabul rayonundan gəlmişəm. Qoca dedi: - Mən heç bilmirəm Hacıqabul hayandadır, eşitməmişəm.

Dedim: - Baba bəs sən bu yaşa qədər hansı rayonlarda olmusan?

Qoca dedi mən elə öz evimdə olmuşam, bax bu me-şələrdə olmuşam, cavan olanda yaylağa getmişəm.

Dedim: - baba yaylaq harada idi?

Dedi: - elə bizim evdən üç saatlıq yol idi.

Biz məəttəl qaldıq gəlib mağazanın yanında dayandıq. Gördük o qoca nəynənsə məşğuldu. Ya barmaqların sayırdı, ya da elə ayağını qurdalayırdı.

Bizim o qocaya təəccüblə baxdığımızı görən bir kişi mağazinin yanında oturub taxtadan çömçə, qaşıq, oxloy və digər əşyalar satırdı, ona təxminən 60-70 yaş verməк olardı, çox böyük gövdəli kök bir şəxs idi. 130-140 kiloqram çəkisi olardı təxminən. O, kişi bizimlə maraqlandı. Əhvalatı ona danışdıq. Bir qədər söhbət zamanı mən soruşdum ki, -əmi neçə yaşın var?

Dedi 90 yaşım var. Dedim allah canıvı sağ eləsin bəs nə cavan qalmısan maşallah.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dedi: - Mən bu dağ ellərinin hamısının abu- havasından udmuşam. Özüm də sizin Hacıqabul rayonunun Qubalı Baloğlan kəndində yaşayan Şair Aşıq Tağının şagirdi olmuşam.

Özüm də Xaltanda yaşayıram. Özüm də gör nə boyda at minib gəlmişəm. Dedim əmi bir az keçmişlərdən söhbət elə biz də yeri gələndə özümüzdən cavanlar üçün danışaq.

O, dedi ki, sizin üçün Aşıq Tağıdan danışacağam.

Mən Aşıq Tağının oğlu Məşəd Əzimi də tanıyırdım, Məşəd Əzimin oğlu Bağı kişini də tanıyırdım. Mən Aşıq Tağının nəvəsi Bağı kişidən 17 yaş böyük idim. Mən 1880-cı ildə anadan olmuşdum. Bağı kişi 1897-ci ildə anadan olmuşdu. Mən 1934-cü ildə Bağı kişiyə dedim ki, köç gəl bizim kəndə, gəlmədi, gəlsə idi çox yaşayardı. Eşitdim ki, 1959 -cu ildə dekabr ayının 29-da 63 yaşı tamam olandan 8 gün sonra vəfat edib. Sonra başladı bu sözləri deməyə.

Aşıq Tağı bir gün sazın götürdü getdik bir dövlətli bəyin qapısına başladı bəyi tərif etməyə. Dedi: -Ədalətli bəy səni deyib gəlmişəm. Deyirlər aləmə şəfaətin var. Bu gün didarundan salma aşıqi. Naümid etmə xumsun, zəkatun, sədaqətin var.

Dadə çatan bu dünyada var olsun,
Sevinc tapan könüllər xəbərdar olsun,
Ağalar ağası sənə yar olsun.
Bəndə duvasından nə minnətin var.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Aşıq Tağı, kimə qılım mən haray
Ala gözlü bəyim yoxdur sənə tay
Yüz manat pul istərəm səndən pay
Elə bil məkkədə ziyarətin var.

Bəy bizə baxıb-baxıb çəkilib içəri qapını da bağladı. Dedim ustad bunun heç yaraşığı da yoxdur elə əməli də elə olar. Ustadım mənim bikef olduğumu görüb (çünki məni o pulla evimizə yola salacaqdı 20 gündən artıq idi onlarda idim) dedi bala tələsmə buna iki kəlmə də deyim sonra gedərik. Bəy balaca pəncərədən bizə baxırdı bizim çıxıb getməyimizi gözləyirdi.

Aşıq Tağı dedi:
İki mədət söz gəlib bu dünyaya,
Biri mərd olsa, biri namərd bir birinə yek olmaz.

Çox uzanar namərdin ipi
Saili görəndə bağlanar qanı
Dirəyə yaramaz gicitkan çöpü
Anduz yarpağından bürüncək olmaz.

Qarğadan qaz olmaz, quzğundan ördək
Əyər bəsləsələr köhlən yerində eşşək
Tükü təmiz olsa da olmaz yüyürək
Hər dana dolluqdan igidə at olmaz.

Arif gərək bu qəflətdən ayıla
Sözlərim cümlə cahana yayıla

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sultan gərək nəcabətli sayıla
Hər bəy deyiləndə cəsarət olmaz.

Gülaba qarışmaz ördücək kolu,
Quranda yazılan arducun gülü
Qəbirdən qayıtmaz imansız ölü
Cinsə görə həyatda kişi olmaz.

Tökdün gövhəri, qoydun gülabı boş
Qubalı Tağı aç gözünü gör kimə gələrsən xoş
Bu qədər dövlətli bəy qapısından səni qaytardı boş
Bundan artıq belə görəcək olmaz.

Sonra danışdı ki, bir gün Ağsu ilə Kürdəmir arasındakı bir kənddə toydan çıxıb Qubalı Baloğlan kəndinə gedirdik. Yolumuz kəsə olsun deyə Hərami dağından aşdıq. Dağın günçıxan tərəfində yamacda dağın altı ilə süzülüb gəlib çıxan bir azacıq sızıntı su gördük. Orada dincimizi almaq üçün əyləşdik. Ustadım Aşıq Tağı belindəki balaca xəncərlə (həmişə belində əbanın altında xəncər bağlayardı. Xəncərin uzunluğu təxminən iki qarış olardı.) su çıxan yeri bir az dərinləşdirdi sonra əlini yudu. Sudan dilinə vurub tamına baxdı, çox şordur dedi. Bir qədərdən sonra əlavə etdi ki, bu suya axıb getməyə azca yol olsa axıb- axıb şorluğu azalar. Cəmaat çarəsizlikdə istifadə edə bilər. Həmin ilin payızında Aşıq Tağı öküz arabaları ilə yaxındakı dağdan daş gətirdib dağdan aşağıda kəndin yaxınlığında Qırmızı darı deyilən yerdə bir daş suat tikdirdi və dağın yamacından ora qədər bir kilometr

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

məsafəni qazdırdı, özü də qazırdı. Uzun illər həmin daşdan tikilən suata Aşıq Tağı bulağı deyərdilər. İndi də həmin Aşıq Tağı bulağında həmin su çıxır yaşlı adamlar, bilənlər Aşıq Tağı bulağı, bilməyənlər daş suat deyirlər.

Sonra həmin Xaltanlı kişi nəql etdi ki, Aşıq Tağı həm də Şamaxıda vəzifədə işləyirdi çox mötəbər və ötkəm işləyirdi. O zamanlar o ərazi Şamaxıya tabe idi. Aşıq Tağı öz Qubalı Baloğlan kəndindən vergi alınmağa qoymurdu. Mənim kəndim kasıbdır deyə kəndin vergisin güzəşt elətdirmişdi. İstər-istəməz Tağı ilə razılaşsalar da, bir gün Şamaxıdakı böyük hökümət Aşıq Tağını Ağsu tərəflərə göndərib özü Qubalı Baloğlan kəndinə gəlməli olur ki, vergilərin yazılmasını tapşırsın.

Aşıq Tağının bundan xəbəri olmur. Ağsu tərəfdən keçib atla Udulu kəndinə gəlib çıxır. Udulu kəndində Aşıq Tağıya deyillər ki, sən burada nə gəzirsən Şamaxıdan böyük gəlib, sizin kənddə bu gün iclas olacaq. Aşıq Tağı atın sürüb enir öz kəndinə gəlib görür ki, hamı iclasdadır. İclasa daxil olub hamıya salam verir və üzün tutur o rayondan gələnə deyir ki, sənə deməmişəm mənim kəndimlə işin olmasın. Həmin şəxs baxıb- baxıb deyir ki, - Ay Tağı ya allah məni öldürüb sənin başından eləsin, ya da səni öldürüb mənim başımdan eləsin. Eləcə də iclası qurtarıb Şamaxıya qayıdır. Bax Aşıq Tağının rayonda da elə hörməti var idi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gülbaba naql edir ki, 1941-1945-ci illərdə Bağı kişinin oğlanları vətən müharbəsinə gedəndən sonra Aşıq Tağının yazdıqları iki bağlama şeirləri kənd cavanları, uşaqları oğurladılar. Hərəsi öz xoşu gələnləri əllərində, ciblərində gəzdirib oxuyurdular. Kəndə bir nəfər gəlmişdi. Cavan uşaqlar Aşıq Tağının o şerlərinin qalanın həmin şəxsə satıb özləri üçün mağazindən o vaxt saçaqlı konfet alıb yeyirdilər. O şəxs boyaqçı idi. İki qadınla gəlmişdi. Kənddə qalıb xalça, palaz ipi boyamağa gəlmişdilər.

Məmiyev Gülbaba

MƏŞƏDİ VAHİDXAN

Bağıyev Məşədi Vahidxan Hüseynağa oğlu 1 yanvar 1949-cu ildə Hacıqabul rayonunun Qubalı Baloğlan kəndində mömin kolxozçü ailəsində dünyaya gəlmişdir.

O körpəlikdən ibadət və itaətlə bəslənib tərbiyə olunmuşdur. Kiçik yaşlarından poeziyaya həvəskar olmuşdur. Özündən şeirlər söyləyərdi. Dördüncü, beşinci siniflərdə oxuyan vaxtından şairlərin şeirlərindən çoxlu şeir əzbər bilməklə xalq dastanlarını, Koroğlu dastanını bütünlüklə sözlərin də şeirlərinin də hamısını əzbər bilirdi.

1955-ci ildən namaz qılır. 1956-cı ildən az-az oruc da tuturdu. Həmin illəri özü xatirələrində belə

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yazır: "1955-1956-cı illər ot çalımı vaxtı orucluq idi. Havalar isti keçirdi. Atam kolxozun ot çalımından evə gəlirdi, anamla günün uzunluğunu hesablayırdılar, o başdandan axşam iftara qədər 17-18 saat olurdu. Mənim oruc tutmağımdan narahat olurdular. Bala sən dözməzsən – deyirdilər. Mən onlara yalvarırdım ki, məni o başdan yuxudan durğuzun oruc tutum saat 4-də dururdular. Anam mənim oruc tutmağımla fəxr edirdi. 1959-cu ilin aprel ayının 6-da Pirsaatçay su bəndini su uçurdu. Kəndimizi sel bürüdü, evləri su uçurdu. Orucluq idi. O gün mən də oruc idim. O illər orucluqda hər gün məktəbdə müəllimlər sinifə bir stəkan su gətirib qoyurdular stolun üstünə bizi bir-bir çağırıb su içirirdilər ki, oruc tutmayaq. Oruc tutmağa icazə vermirdilər.

Məni namaz qılmağa həvəsləndirən atamın çox istəklə şitabilən namaz qılması olmuşdu. Çox səliqəli namaz qılırdı. Ona görə də mənə böyük təsiri olmuşdu. Amma namaz qılmağı və qaydalarını, sözlərini mənə anam öyrətmişdi".

Mən 1963-cü ildəki məhərrəmlikdə Məşədi Vahidxanın çox məharətlə mərsiyə deməyini görüb, məclisdən sonra onunla maraqlandım. O dedi ki, Səlim əmi, mərsiyə nədir ki, mən Quranı oxumaq istəyirəm. Elm şərq ölkələrində və bizim ölkəmizdə olub. Hamısı da ərəb hərfləriylə. Mən ərəb dilini öyrənmək istəyirəm.

Mən ona təklif etdim ki, həvəsin olsa mən öy-

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

rədərəm. O çox sevindi mənə minnətdarlığını bildirdi. Həmin gün mənimlə evə gəldi 28 ərəb hərfini bir saat yarım vaxta öyrəndi. İki gündən sonra gəlib cəmisi 2 saat vaxta hərfüstü və hərfaltı işarələri öyrəndi. Mən çox narahat oldum. Mane olmaq istəyirdim birdən-birə ağır olar, həvəsdən düşə bilərdi, yorulardı. Üç həftənin içərisində ərəb hərfləri ilə yazı yazmağa başladı. Çox yorulurdu, mən onun belə hərəkətindən qorxurdum. Sözü sanki göydə əlimdən, ağzımdan alırdı. Ərəb çaplarının bir neçə cürünü öyrəndi. Ensiklopediyadan mixi xəttini, qədim kufi xətlərini öyrənirdi. Mən bir müəllim kimi ona mane oldum. Gösətriş verdim ki, belə hərəkət sənin üçün hələ tezdir. O mənimlə bir şagird kimi, bir ata-oğul kimi, bir qardaş kimi, bir tay-tuş kimi, həmişə razılaşırdı. Mənə ustadım deməyə həya edirdi, əmi deyirdi. Məşədi Vahidxan kiçik yaşlarından şeirlər yazmağa başlamışdı. Orta məktəbin on birinci sinfini bitirdikdən sonra (1964-cü ildə) Göyçayda avtomexanik texnikumunu bitirmiş texniki-avtomexanik və sürücü sənətlərinə yiyələnmişdir. Göyçay şəhərində RTS və sonra MTS-də işləmiş oradan da hərbi xidmətə getmişdir. Hərbi xidmət illərində sovet qoşunlarının şərq ölkələrindəki sülhməramlı məxfi hissələrində olmuş 7 ay (yəni, 214 gün) İrakın – Bəsrə, Kufə, Nəcəf, Kərbəla şəhərləri ərazisində, Qırmızı dənizin hər iki sahilində, Afrika qitəsində, Misirin – Qahirə, Suveyş, Port-Fuad, Port-Said, İskəndəriyyə şəhərlərində, Türkiyənin

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İstanbul şəhərində, sonradan bir aya yaxın (20 gün) (Varşavski doqovarla) əlaqədar Polşanın Qdansk. Şetsin,Odra, Poznan şəhərləri ərazisində olmuşdur.

Hərbi xidmətdən qayıdandan sonra Əli-Bayramlıda 2710 №-li avtobazada, sonra SU-16 idarəsində, Ceyranbatanda SMU-26, sonra TTK-1 idarələrində Qaradağ daş karxanasında sürücü işləmiş Sanqaçal daş karxanasında baş mexanik, və qaraj müdiri vəzifələrində işləmişdir.Uzun illər həmkarlar təşkilatının sədri seçilmişdir.1970-ci ildən 2000-ci ilə qədər 31 illik əmək fəaliyyəti illərində səkkiz dəfə "Kommunist əməyi zərbəçisi", dörd dəfə "Fəxri fərman", bir dəfə "Keçici bayraq", iki dəfə pul mükafatı və "Başkolxozsovxoztikintidə uzun illər xidmətinə görə" asqılı döş nişanı ilə təltif edilmişdir. 1967-ci ildə komsomol konfransının, 1986-88-ci illərdə həmkarlar plenumunun iştirakçısı nümayəndəsi olmuşdur. Ailədə yeddi övlad olmuşlar – iki qardaş, beş bacı. Məşədi Vahidxan özü də yeddi övlad atasıdır. Üç qızı və dörd oğlan. Hamısı ibadət əhlidirlər. Əhli Qurandırlar. Məşədi Vahidxan övladlarının da hamısını Məşhəd ziyarətinə aparmışdır. Mənimlə birlikdə getmişdik. Onlar məşhədilər və möminlər ailəsidirlər.

Səlimov Məşədi Səlim
Kərbəlayi Yaqub oğlu
aprel 1994

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ATA ŞƏCƏRƏ



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ANA ŞƏCƏRƏ



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

SƏLİMOV MƏŞƏDİ SƏLİM KƏRBƏLAYİ YAQUB OĞLU

Bağıyev Məşədi Vahidxan Hüseynağa oğlu 01 yanvar 1949-cu ildə Hacıqabul rayonunun Qubalı Baloğlan kəndində mömin kolxozçü ailəsində dünyaya gəlmişdir.

O körpəlikdən ibadət və itaətlə bəslənib tərbiyə olunmuşdur. Kiçik yaşlarından poeziyaya həvəskar olmuşdur. Özündən şeirlər söyləyərdi. Dördüncü, beşinci siniflərdə oxuyan vaxtından şairlərin şeirlərindən çoxlu şeir əzbər bilməklə xalq dastanlarını, Koroğlu dastanını bütünlüklə sözlərin də şeirlərinin də hamısını əzbər bilirdi.

1955-ci ildən namaz qılır. 1956-cı ildən az-az oruc da tuturdu. Həmin illəri özü xatirələrində belə yazır: "1955-1956-cı illər ot çalımı vaxtı orucluq idi. Havalar isti keçirdi. Atam kolxozun ot çalımından evə gəlirdi, anamla günün uzunluğunu hesablayırdılar, o başdandan axşam iftara qədər 17-18 saat olurdu. Mənim oruc tutmağımdan narahat olurdular. Bala sən dözməzsən – deyirdilər. Mən onlara yalvarırdım ki, məni o başdan yuxudan durğuzun oruc tutum saat 4-də dururdular. Anam mənim oruc tutmağımla fəxr edirdi. 1959-cu ilin aprel ayının 6-da Pirsaatçay su bəndini su uçurdu. Kəndimizi sel bürüdü, evləri su uçurdu. Orucluq idi. O gün mən də oruc idim. O illər orucluqda hər gün məktəbdə müəllimlər sinifə bir stəkan su gətirib qoyurdular

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

stolun üstünə bizi bir-bir çağırıb su içirirdilər ki, oruc tutmayaq. Oruc tutmağa icazə vermirdilər.

Məni namaz qılmağa həvəsləndirən atamın çox istəklə şitabilən namaz qılması olmuşdu. Çox səliqəli namaz qılırdı. Ona görə də mənə böyük təsiri olmuşdu. Amma namaz qılmağı və qaydalarını, sözlərini mənə anam öyrətmişdi".

Mən 1963-cü ildəki məhərrəmlikdə Məşədi Vahid-xanın çox məharətlə mərsiyə deməyini görüb, məclisdən sonra onunla maraqlandım. O dedi ki, Səlim əmi, mərsiyə nədir ki, mən Quranı oxumaq istəyirəm. Elm şərq ölkələrində və bizim ölkəmizdə olub. Hamısı da ərəb hərfləriylə. Mən ərəb dilini öyrənmək istəyirəm.

Mən ona təklif etdim ki, həvəsin olsa mən öyrə-dərəm. O çox sevindi mənə minnətdarlığını bildirdi. Həmin gün mənimlə evə gəldi 28 ərəb hərfini bir saat yarım vaxta öyrəndi. İki gündən sonra gəlib cəmisi 2 saat vaxta hərfüstü və hərfaltı işarələri öyrəndi. Mən çox narahat oldum. Mane olmaq istəyirdim birdən-birə ağır olar, həvəsdən düşə bilərdi, yorulardı. Üç həftənin içərisində ərəb hərfləri ilə yazı yazmağa başladı. Çox yorulurdu, mən onun belə hərəkətindən qorxurdum. Sözü sanki göydə əlimdən, ağzımdan alırdı. Ərəb çaplarının bir neçə cürünü öyrəndi. Ensiklopediyadan mixi xəttini, qə-dim kufi xətlərini öyrənirdi. Mən bir müəllim kimi ona mane oldum. Gösətriş verdim ki, belə hərəkət

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sənin üçün hələ tezdir. O mənimlə bir şagird kimi, bir ata-oğul kimi, bir qardaş kimi, bir tay-tuş kimi, həmişə razılaşırdı. Mənə ustadım deməyə həya edirdi, əmi deyirdi. Məşədi Vahidxan kiçik yaşlarından şeirlər yazmağa başlamışdı. Orta məktəbin on birinci sinfini bitirdikdən sonra (1964-cü ildə) Göyçayda avtomexanik texnikumunu bitirmiş texniki-avtomexanik və sürücü sənətlərinə yiyələnmişdir. Göyçay şəhərində RTS və sonra MTS-də işləmiş oradan da hərbi xidmətə getmişdir. Hərbi xidmət illərində sovet qoşunlarının şərq ölkələrindəki sülhməramlı məxfi hissələrində olmuş 7 ay (yəni, 214 gün) İrakın – Bəsrə, Kufə, Nəcəf, Kərbəla şəhərləri ərazisində, Qırmızı dənizin hər iki sahilində, Afrika qitəsində, Misirin – Qahirə, Suveyş, Port-Fuad, Port-Said, İskəndəriyyə şəhərlərində, Türkiyənin İstanbul şəhərində, sonradan bir aya yaxın (20 gün) (Varşavski doqovarla) əlaqədar Polşanın Qdansk. Şetsin, Odra,Poznan şəhərləri ərazisində olmuşdur.

Hərbi xidmətdən qayıdandan sonra Əli-Bayramlıda 2710 №-li avtobazada, sonra SU-16 idarəsində, Ceyranbatanda SMU-26, sonra TTK-1 idarələrində Qaradağ daş karxanasında sürücü işləmiş Sanqaçal daş karxanasında baş mexanik, və qaraj müdiri vəzifələrində işləmişdir. Uzun illər həmkarlar təşkilatının sədri seçilmişdir. 1970-ci ildən 2000-ci ilə qədər 31 illik əmək fəaliyyəti illərində səkkiz dəfə "Kommunist əməyi zərbəçisi", dörd dəfə "Fəxri fərman", bir dəfə "Keçici bayraq", iki dəfə pul

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

mükafatı və "Başkolxozsovxoztikintidə uzun illər xidmətinə görə" asqılı döş nişanı ilə təltif edilmişdir. 1967-ci ildə komsomol konfransının, 1986-88-ci illərdə həmkarlar plenumunun iştirakçısı nümayəndəsi olmuşdur. Ailədə yeddi övlad olmuşlar – iki qardaş, beş bacı. Məşədi Vahidxan özü də yeddi övlad atasıdır. Üç qızı və dörd oğlan. Hamısı ibadət əhlidirlər. Əhli Qurandırlar. Məşədi Vahidxan övladlarının da hamısını Məşhəd ziyarətinə aparmışdır. Mənimlə birlikdə getmişdik. Onlar məşhədilər və möminlər ailəsidirlər.

Səlimov Məşədi Səlim Kərbəlayi Yaqub oğlu,
aprel 1994.

MİRHƏŞİMOV HACI MİRƏFSƏR MİR SƏFTƏR OĞLU

Bağıyev Məşhədi Vahidxan Hüseynağa oğlu mənim mömin bəradərim və dostumdur. Mənim onunla belə yaxından dost olmağıma onun sadəliyi, hamıyla mehriban olması, el qədri, millət qədri bilməsi və xeyirxahlığı səbəb olmuşdur.

Məşhədi Vahidxan dörd nəfər əhli Quran övladlarıyla birlikdə 1984-cü ildən bu günə qədər kəndin bütün yas məclislərini, Quran məclislərini və hər il məhərrəmlik mərasimini əvvəldən axıra kimi Allah rizasına təmənnasız olaraq aparırlar. Onlar

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ömürlərini, günlərini həmişə belə yollara sərf edirlər.

Məşhədi Vahidxanın övladları da özü kimi körpə yaşlarından ibadət və itaətlə bəslənib tərbiyə olunmuşlar. Məşhədi Vahidxanın övladlarının hamısı birinci sinifə gedən vaxtlarından namaz qılırlar. 8-10 yaşlarından Quran oxuyurlar, onlara Quran oxumağı Məşhədi Vahidxan özü öyrətmişdir. Uşaqlar namazın niyyətini belə deyirdilər: "İlahi, mənim özümə namaz qılmaq vacib olana qədər qıldığım namazlarımı babam və nənəm üçün qılıram".

Məşhədi Vahidxan övladlarını da Məşhəd ziyarətinə aparmışdır. Məşhəd ziyarəti zamanı Məşhədi Həsənağanın 15 yaşı, Məşhədi Mehdixanın 14 yaşı, Məşhədi Mehrabın 12 yaşı, Məşhədi İlhamın 10 yaşı olmuşdur.

Məşhəd ziyarəti zamanı Məşhədi Vahidxan Azərbaycan dilində risalə almaq üçün Qum şəhərindəki dini instituta getmiş orada müəllim işləyən və o şəhərdə yaşayan Mirzə Mahmud axundla tanış olmuşdur. söhbət zamanı Mirzə Mahmud bizim Biləsuvar rayonunun Yuxarı Cürəli kəndində yaşayan Mirxas ağanın bibisi oğlu olduğunu, axund Mirxas ağa onun dayısı oğlu olduğunu bildirmişdir.

Mirzə Mahmud Məşhədi Vahidxanın övladlarının Quran oxumağını bəyənmiş və onları institutun müəllimlər otağının birinə aparmış müəllimlərin yanında Quran oxutdurmuşdur. İnstitutun müəllimləri şimali Azərbaycanda belə körpə uşaqların

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

namaz qılmalarına, Quran oxumalarına çox sevinmiş və hərəsinə institut tərəfindən üstünü yazıb möhür vurub bir Quran və həmin institutun padvalında yerləşən tipoqrafiyasında ərəb hərfi ilə Azərbaycan dilində çap olunmuş hərəsinə bir dənə 3310 məsələdən ibarət bir risalə bağışlamışlar.

Mirzə Mahmud bizim Beləsuvar rayonunun Yuxarı Cürəli kəndində yaşayan dayısı oğlu Mirxas ağa üçün də hmin "Həzrəti ayətullahül üzma Hacı Səyyid Mühəmməd Hüseyn Şirazi"-nin 3310 məsələsi olan türki, azəri dilincə çap olunan risaləsindən Məşhədi Vahidxanla göndərmişdir. Məşədi Vahidxan deyir ki, mən Risaləni aparanda Mirxas ağanın APİ-də müəllim işləyən oğlu Mir Nazim müəllim də onlarda idi. Mirxas ağa bizi qonaq saxladı. Çoxlu söhbətlər etdik.

Məşhədi Vahidxan heç vaxt ustadlarını yadından çıxarmamışdır. Orada da ustadı Məşhədi Səlim və Hacı Mirəfsər ağa üçün də hərəsi üçün həmin risalədən alıb gətirmişdir. Məşhədi Vahidxanın atası Əzimov Hüseynağa Bacı oğlu və anası Əzimova Səyyidbəyim Maşad Səyyid Hüseyn qızının da yeddi övladı (iki oğlu, beş qızı) olmuşdur. Övladlarının hamısının, bütün nəvə və nəticələrinin tərbiyəsində onların böyük rolu olmuşdur. onlar əsil rəhbər, əsil tərbiyəci, əsil valideyn,əsil ustad, əsil müəllim idilər.

Yeddi nəfər övladlarının bütün nəvə və nəticələrinin hamısının tərbiyəsilə möhkəm və diqqətli və

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

tələbkar olmuşlar. Hamısına hərtərəfli qanunları, ədəb-ərkan, abır-həya və əxlaq normalarını öyrətmişlər. Onlardan qonşuları da, qohumları da nümunə götürmüşlər və onların da çoxunun tərbiyəsinə bu ailənin böyük, müsbət təsiri olmuşdur.

